FƏRZALI RÜSTƏMLİ

# SEYİD NƏSİMİDƏN DƏDƏ ƏLƏSGƏRƏ

*(dini-fəlsəfi düşüncələr)*

Bakı - 2019

**Elmi redaktor:** **Yaqub BABAYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

**Redaktor:** **Vüsal ABİYEV**

**Korrektor:** **Validə BƏDƏLOVA**

# NƏSİMİNİN HƏYATI: YANLIŞLIQLAR VƏ GERÇƏKLİKLƏR

Bismilləhir Rahmənir Rahim

Seyid İmadəddin Nəsimi ədəbiyyatımız, bədii dilimiz və fəlsəfi fikir tariximizdə müstəsna rol oynamış, Yaxın Şərq şeirinin inkişafına güclü təsir göstərmiş dahi sənətkardır. Adı mərdlik, yenilməzlik, fədakarlıq rəmzi kimi bu gün də dünyanı heyrətləndirməkdədir: "Cordano Bruno Qərb dünyasının Nəsimisi sayılmaqla fəxr edə bilər" (Cozef Hort – ABŞ jurnalisti və publisisti).

Kimdir Nəsimi? Onun Hələbdəki qəbri üzərində ərəbcə yazılıb: "Bu, şəhid bəndə, böyük sufi, arif, Allah dostu Şeyx Əli İmadəddin Nəsiminin məzarıdır. Allah ona rəhmət eləsin. Qəbri müqəddəs olsun". Məsciddə dəfn olunan, üstündə məqbərə tikilən, türbəsi ziyarətə çevrilən, adına Hələbdə küçə verilən qüdrətli şairi sovet dövründə bizə kafir kimi tanıtdılar. Əlbəttə, elə sağlığında da onu anlamayanlar var idi:

***Ey aşiqə kafir deyən, imanə gəl, uslan,***
***Kafir demə aşiqlərə, niçün ki yalandır.***

Nəsiminin həyatında hələ də açılmamış düyünlər çoxdur. Doğum yeri haqqında fikirlər haçalandıqca haçalanmaqdadır: Şamaxı, Bakı, Təbriz, İraq, Şiraz, Diyarbəkir... Nəsiminin çağdaşı İbn Həcər Əsqəlani (1372-1449) onu təbrizli hesab edir. Eləcə də Şəmsəddin Səxavi (1427-1497), İbn Əl İmad əl Hənbəli (XVII əsr) bu fikirdədirlər. Əlbəttə, sonuncuların Əsqəlaniyə istinad etmələri də mümkün idi. Eyni zamanda, Nəsiminin Təbrizə başqa yerdən

gəlməsi imkanı da nəzərdən qaçırıla bilməz. Nəsiminin təbrizli yox, şirvanlı olduğunu müasir Təbriz alimləri təsdiq edirlər. Firidun Qurbansoy qeyd edir ki, təbrizli alim Nade Əli Pəyyam "Səkkiz yüz il Azərbaycan türkcəsi qəzəli" (1999-cu ildə Təbrizdə nəşr etdirdiyi) kitabında Nəsiminin Şamaxı şəhərində dünyaya göz açdığını göstərmişdir. Böyük alim Qulami Hüseyn Beqdelinin 1984-cü ildə Tehranda nəşr etdirdiyi kitab isə belə adlanır: "Divani-Emad əd-Din Seyyid Əli Nəsimi Şirvani" (F.Qurbansoy. Ümumtürk poeziyasında yeni məzmun və formaların banisi Nəsimi Şirvani").

Müəllif adı çəkilən məqaləsində diqqətəlayiq bir fikir irəli sürür: "Nəsimi ona görə bağdadlı deyil ki, bu coğrafiyaya xüsusi missiya ilə gəldiyini aşağıdakı beytlərdə qeyd edir:

***Nil irmağı daşdı, tutdu Misrin çöhrəsin,***
***Üş Hələb Bağdadı buldum, gör necə şad olmuşam.***

***İraqistanı gəzdim, bir müvəhhid bulmadım,***
***Aşiqi-Misrəm, yenə müştaqi-Bağdad olmuşam.***

Şair burada iraqistanlı olduğunu yox, orada gəzdiyini, təriqətini yaymaq üçün hal əhli axtardığını söyləyir. Hələb, Bağdadı tapmaq sözləri qətiyyən oralı olmaq anlamına gəlmir. Beytlərdən belə məna çıxır ki, Nil çayıboyu Misrin əsas məntəqələrində çoxsaylı, su kimi saf öz həmfikirlərimi tapdım. Başqa sözlə, Nil çayı sanki daşıb bütün Misri tutdu. Oradan da Hələbə və Bağdada şadlıqla keçdim. Bütün İraq məmləkətində bir nəfər də olsun Allahın tək olduğuna inanan tapmadım. Onlara baxanda Misrə aşiq, Bağda-

da vurğun olmuşam”. Nəsiminin aşağıdakı misraları onun haradan hərəkətə başladığını aydın göstərir (farsca deyib):

***Ey Nəsimi, çünki Allah deyib: “Ərzim genişdir”,***
***Bakı ərazisindən çıx get ki, bura sənin yerin deyil.***

Bizcə, onun Bakını tərk etməsinə səbəb mürşidi F.Nəiminin edamından (1394) sonra onun ardıcılları üçün yaranan böyük təhlükə idi. Əlbəttə, öz əqidəsini yaymaq missiyasını da həyata keçirirdi. F.Qurbansoya görə, şairin təhkiyə dili, şeirindəki dialekt xüsusiyyətləri, irfan qaynağı onun şirvanlı olduğuna dəlildir. Yeri gəlmişkən, tədqiqatçı Qüdsiyyə Məmmədova “Nəsiminin dili və Azərbaycan şivələri” (Bakı: Nurlan, 2004) adlı əsərində gəldiyi əsas nəticələrdən biri budur ki, Nəsimi şeirlərində daha çox şərq qrupu şivələrinə xas olan xüsusiyyətlər özünü göstərir. Bu qrupa isə Quba, Bakı, Şamaxı, Muğan, Lənkəran daxildir. Ömrünün neçə ilini İraqda yaşamış prof. Qəzənfər Paşayevə görə isə, Nəsimi şeirlərində yalnız Kərkükdə işlənən sözlər də az deyil. Tütün (tüstü), kəpənək (yapıncı) kimi sözlər yalnız türkman dialektinə aiddir. Bu cəhətə görə Q.Paşayev Nəsiminin doğum yerini Bağdadın yaxınlığındakı Nəsim kəndi ilə bağlayır (əslində, ordakı türkmanlar azərbaycanlılardır – F.R.).

Nəsiminin aşağıdakı misrası bizi ləqəbi ilə bağlı tələsik nəticə çıxarmamağa səsləyir:

***Adımı Həqdən Nəsimi yazərəm.***

Göründüyü kimi, ilahi-batini bir yozum lazımdır.

Q.Paşayev diqqəti Əbülqazi Bahadır xanın “Şəcəreyi-Tərakimə” (Bakı: 2002) kitabına yönəldir (rus dilindən

tərcümə olunub – F.R.). Burada göstərilir ki, Salur Qazan xanın hakimiyyəti dövründə paytaxtı Təbriz olan Elxanilər dövləti güclənmişdi. Lakin Şahməliyin darmadağın edildiyi vaxt Dinli bəyin başçılığı ilə Salur eli İraqa yollandı, onlar orada çox illər yaşayandan sonra onların arasından çıxan Oğurcik adlı bir igidin köçəri xalq olan Bayandur elinin başçısı ilə konflikt baş verdi. Oğurcik Bayandurdan ehtiyat edərək min evlik eli ilə İraqdan Şamaxıya gəldi. Tarixi mənbələr göstərir ki, gələnlərin əksəriyyəti başqa yerlərə köçdülər. Q.Paşayevə görə, Şamaxıda qalanlar arasında Nəsimi və qohum-əqrəbasının olması ehtimalı böyükdür. Əlbəttə, bu da ehtimal olaraq qalır. Hər halda, buradan belə nəticə çıxarmaq olar ki, Nəsiminin ailəsi əvvəl Təbrizdə, sonra İraqda yaşayıb... daha sonra isə Şamaxıya gəlib. Nəsiminin şeir dilində həm şirvan, həm türkman dialektinin çulğalaşması bu qənaəti möhkəmləndirir. Bir məsələ dəqiqdir ki, Nəsimigil köklü şamaxılı deyil. Çünki o, seyiddir, Həzrət Məhəmməd (ə.) nəslindəndir. Buraya İraqdan da, Təbrizdən də gələ bilərdilər.

Şairin dərsliklərdə göstərilən doğum tarixi (1369-1370) də gerçəklikdən uzaqdır. Prof. Yaqub Babayev ali məktəblər üçün yazdığı "Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər)" (Bakı: Elm və təhsil, 2014) adlı dərslikdə haqlı olaraq mütəfəkkirin doğum tarixini göstərməyib. Müəllif yazır ki, Nəsiminin farsca divanında böyük şair H.Şiraziyə ünvanlanmış mənzum məktubları vardır (qəzəl, qitə və tərcibənd janrlarında). Bunlarda Nəsimi Hafizi hürufiliyə çağırır və ona bu təlimi qəbul etməyi məsləhət görür. Hafizin 1389-cu ildə vəfat etdiyini nəzərə alanda heç 19-20 yaşı da tamam olmamış bir gəncin artıq

ömrünün ixtiyar çağını yaşayan məşhur bir şairə məsləhət verməyi (özü də kamil şeir dili ilə) ağla sığmır. Hafiz də bir şeirində Şirazdan gedən Nəsiminin geri qayıtmasını arzulayır. Nəsiminin təvəllüd tarixini XIV əsrin 40-cı illərinə də, 50-ci illərinə də aid edənlər vardır. Şairin həyatındakı faktlarla uzlaşmayan 1369-1370-ci il təvəllüd tarixi çaşqınlıq yaratdığına görə, dərsliklərdə qeyd edilməməlidir.

Nəsiminin həyatı ilə bağlı mübahisəli bir məqam da onun qətli ilə bağlıdır. İctimai fikirdə şairin diri-diri dərisinin soyulması düşüncəsi hakimdir. Ancaq Nəsimi dövründə yaşamış alimlərin əksəriyyətinə görə, şairin dərisi qətlindən sonra soyulmuşdur (Bax: Bünyadov Z. Nəsiminin məhkəməsi və qətli. "Ədəbiyyat və incəsənət" qəzeti, 1980, 19 sentyabr).

Dərsliklərdə vurğulanan bir yanlışlıq da Nəsiminin qətlində din xadimlərinin rolu ilə bağlıdır. Nəsimi heç də din xadimlərinin fətvası ilə öldürülməyib. Məhkəmədə hənəfilərin qazılar qazısı ona qarşı zındıqlıq (dindənçıxma) ittihamı ilə çıxış etsə də, iddiasını geri götürüb. Yalnız hənbəli şeyxi şairə ölüm fətvası verib. Digərləri onunla razılaşmadığına görə məhkəmədə qətllə bağlı qərar verilməyib. Nəsimi Misir sultanı Əl-Müəyyədin* əmrinə əsasən öldürülüb: "Nəsimi öldürülüb dərisi soyulsun və yeddi gün Hələbdə car çəkilib əyan edilsin, sonra da cəsədi parça-parça edilib, bir qismi Əlibəy Zülqədərə və onun qardaşı Nəsirəddinə, Qarayürük Osman bəyə göndərilsin; belə ki,

* Sultanın da cəzası ləngimədi. Türk tədqiqatçısı Kazım Yaşar Kopraman öz əsərində qeyd edir ki, sultan düz dörd il ağır yataq xəstəsi olmuşdur (Nəsimişünas Səadət Şıxıyevanın müsahibəsindən)

Nəsimi onların da inamını pozmuşdur”. Adları çəkilən bu şəxslər Şeyx Nəsimi ilə çox yaxın idilər. Sultan onları ciddi təhlükə hesab edirdi. Hürufi şeyxi kimi xalq arasında böyük nüfuza malik olan Nəsimini də Sultan Əl-Müəyyəd özünə siyasi təhlükə kimi görürdü. Sultan qorxurdu ki, Nəsimi türkmanları onun əleyhinə qaldıra bilər (Şamla Hələb arasında Qara Türkman xanlığı var idi). Sultan Türkiyədə dərviş şeyxi Bədrəddin Simavinin rəhbərliyi ilə sultanlığı lərzəyə salan xalq hərəkatının bənzərinin təkrar olacağından çəkinirdi. Beləliklə, Nəsiminin qətlində əsas amil siyasi amil olmuşdur.

Nəsimiyə bəraəti zaman özü verdi. Əslində, edamından on il sonra Hələb məhkəməsi ona bəraət vermişdi. 2008-ci il noyabrın 10-17-də Hələb şəhərində Nəsiminin anadan olmasının 640 illiyinə həsr edilmiş elmi konfransda Hələb müftisi doktor Mahmud Əkkam demişdir: “...Tarixi, elmi mənbələrdə öz əksini tapmış məlumata görə, bu edamdan on il sonra Hələb məhkəməsi işə yenidən baxıb əvvəlki ədalətsiz hökmü ləğv etmiş, artıq tarixə qovuşan şairə gec də olsa, bəraət verilmişdir. Bununla belə bu gün sizdən (Azərbaycan nümayəndə heyətindən) üzr istəməyə ehtiyac duydum və acizanə təvəqqe edirəm ki, mənim üzrxahlığımı qəbul edib Azərbaycan xalqına çatdırasınız. Bu, tək mənim yox, cəmi Hələb müsəlmanlarının xahişidir” (Bəkir Nəbiyev. Nəsimi kəlamının işığında. Bakı: Qarabağ, 2009, s. 70-71).

Nəsiminin həyat və yaradıcılığının yeni baxış bucağı altında öyrənilməsi hələ də aktual olaraq qalır.

## NƏSİMİ “ƏNƏL-HƏQQ”İNİN HƏQİQƏTİ

Bismilləhir Rahmənir Rahim

“Ərənlər dünyanı ağılla bulmuşlar” – deyib müdrik ozanımız. Bəs ağlı yaradanı necə, onu da ağılla bulmaq olarmı? Əlbəttə, ağla, duyğuya sığışmayanı bu yolla tanımaq olmaz. Bu məqamda eşq köməyə gəlir. Bu baxımdan ağıl eşqə məğlubdur. Eşq ərənlərindən olub, öz amalı uğrunda dara gedən Seyid İmadəddin Nəsimi əvvəlcədən eşqə sadiqlik andı içmişdi:

***Ey sənəm, eşqin yolunda qamətin tək doğruyam,***
***Çəksəm Mənsurləyin bər-dar, səndən dönməzəm.***

(Ey sənəm, eşqin yolunda Mənsur tək (Həllac – F.R.) dardan asılsam da səndən dönmərəm).

Nəsimi dara çəkiləcəyini əvvəlcədən bilirdi. Ustadı F.Nəimi onu xəbərdar etmişdi: “Şəhərlər içərisində Hələbə getmə, əgər getsən, qəndilə (asılmağa) hazır ol”. Hədisdə deyilir ki, möminlər Allah nuru ilə görərlər. “Nəsimini soyarlar Şam içində”, “Dabanımdan yardılar, başdan-ayağa soydular” kimi misraların necə meydana çıxması ilə bağlı müxtəlif fikirlər səsləndirilir. Bəzi tədqiqatçılar bu misraların onun qətlindən sonra yazıldığını bildirir, bəziləri də belə hesab edirlər ki, o, həbsxanada olanda hansı şəkildə öldürüləcəyi barədə məlumata malik idi. Sual olunur: övliya (Allah dostu), yüksək bəsirətə malik məqam sahibi məgər öz sonunu görə bilməzdi? Dədə Ələsgərin qardaşı oğlu Növrəs İmanın “Deyərsiz” (“Batin göstərişi” şeiri) az qala yarım əsrlik hadisələrə güzgü tutmurmu? Həqiqi arif,

Dədə Ələsgər demişkən: “Hər yanı istəsə, baxanda görər”. Nəsimini hürufi şair kimi qələmə verirlər. Ancaq Nəsimi hürufilik çərçivəsinə sığmır, mərifət məqamı baxımından ondan çox-çox dərindir, genişdir. Nəsimi yaradıcılığının şah damarı İlahi eşqdir, irfandır. İslamın mahiyyəti, ruhu da bu deyilmi? Aşiqlərin halını yalnız aşiqlər duyar. XX əsr aşiqlərindən olan Şeyx Rəcəbəli deyir ki, mənə gerçək aşiqin necə olmasını məna aləmində belə başa saldılar: gördüm ki, pərvanə işığın başına dolanır. Dolandı-dolandı və özünü işığa çırparaq düşdü. Böyük zəhmətlə yenidən uçmağa başladı və bədəninin o biri tərəfini də çırağa vurub özünü həlak etdi. Bu zaman mənə ilham olundu ki, eşqi bu həşəratdan öyrən. Daha öz vücudunda heç bir iddiaya yer qalmasın. Qəlbini elə təmizlə ki, heç kəsin, heç nəyin sevgisini Yaradana sevgiyə şərik qoşmayasan. Eşqdə xalis olsan, Mütləq Gözəl də könlündə özünü sənə göstərəcək.

Eşq məktəbində ikilik yoxdur:

***Dilbərin eşqində, ey salik, ikilik pərdədir,***
***Mənligin rəf olmayınca aradan getməz hicab.***

Nəsimi salikə – Allaha doğru səfər edənə bildirir ki, öz mənliyindən qurtulmasan, Onunla aradakı hicab aradan getməz. Hədisdə buyrulur ki, Allah-Təalanın nurdan və zülmətdən yetmiş min hicabı (pərdəsi) vardır”. Nəfsin istəkləri – dünya məhəbbəti, eləcə də insanın öz ağlını, mənəviyyatını mütləqləşdirməsi, kamalı, mənəviyyatı Allaha yaxınlaşmaq vasitəsi kimi yox, əsas məqsəd kimi görməsi qəlbdə pərdələrə səbəb olur. Həzrət Məhəmməd (ə.) buyurmuşdur: **“Özünü tanıyan Rəbbini tanıyar”**. Bu cür tanıma heç də bioloji, anatomik tanıma deyil. İnsan yaradılış

sirrini özündə daşıyan, varlığı özündə əks etdirən bir varlıqdır. İnsanın ruhu İlahinin nurundandır. Qüdsi hədisdə Yaradan buyurub: **“İnsan, sən mənim sirrim, mən də sənin sirrinəm”**. Deməli, öz zatını, öz “mən”ini, öz həqiqətini tanıyan Rəbbini tanıyar. Bu isə batini nurlanma yolu ilə – şəriət, təriqət, mərifət məqamlarından keçməklə həqiqətə yetişməklə əldə olunar. Arif Haqqın sayəsində könül aynasını elə arındıra bilir ki Haqqın ad və sifətləri orada təcəlli edir, o könülə nur saçılır. Bu, müşahidə məqamıdır – mərifət məqamıdır. Arif, nəhayət, bu mərtəbədən də keçib elə bir ucalığa yetişir ki, öz vücudunu (əqlini də) Haqqın vücudunda (Haqqın nurunda) yox sanır. Bu, Haqqa qovuşma, həqiqətə çatmaq məqamıdır – fəna halıdır:

***Yox etməyincə varlığımı bulmadım səni,***
***Yoxluq kibi qapında sənin mötəbərmi var?***

Bəndənin öz varlığını Haqqın müqabilində yox sanmasından dəyərli Haqq qatında nə ola bilər? “Mən”də mənlik əriyib yox olmayınca Haqqa yetişə bilməzsən:

***Çün doldu vücudum evi sənlik,***
***Məhv oldu, ey dost, məndə mənlik.***

Aşiqin istəyi, son arzusu nəinki bu aləmdir, heç Ədn cənnəti də deyil, O yalnız Məhbubunun vüsal həsrətindədir:

***Ey Nəsimi, dü cahan əndişəsindən fariğ ol,***
***Sidq ilə bel bağla daim, Həzrəti-Sübhanə sən.***

Nəsimi bəşərə həqiqi azadlıq dərsi keçir. Bu gün Avropanın insan haqlarından dəm vurmağı azadlığın yalnız

siyasi tərəfidir. Yalnız Mütləq Kamala, Mütləq Gözələ qul olmaqla gerçək azad ola bilərsən. Yoxsa öz nəfsinin, özün kimisinin qulu olacaqsan.

Aşiqin varlığı yox olanda, onun qəlbinə İlahi məhəbbətin üstün gəldiyi bir halda ondan şəthiyyat deyilən nidalar (məsələn, "ənəl-həqq" (həqq mənəm)) qopur ki, zahiri mənasını yox, batini mənasını götürməliyik. Nəsimidən əvvəl "ənəl-həqq" söyləyən Mənsur Həllac olub. Onu edam ediblər. Nəsimi yazır:

***Ey könül, Mənsur "ənəl-həqq" söylədi,***
***Həqq idi, Həqq dedi, Həqq söylədi.***

Atəşə atılanda qıpqırmızı olan dəmir "mən atəşəm" – deyir, soyuyandan sonra elə həmin dəmirdir. "Ənəl-həqq" kimi nidalar aşiqlərin xüsusi İlahiyə yaxınlıq məqamıdır ki, adi vaxtlarda onlarda belə sözlər eşidilməz. Böyük filosofumuz, ensiklopedik biliyə malik N.Tusi həm də irfan əhli arasında bir övliya kimi tanınıb. O, irfan yolunu açıqlamış və M.Həllacın bu duasına toxunmuşdur: "Mənimlə sənin aranda mənim varlığım mənimlə döyüşə qalxmışdır. Ey Allah, öz lütfünlə mənim bu varlığımı aradan götür". Duası qəbul olur, varlığı aradan qalxır ki, nəhayət, deyə bilsin: "Bu mənəm ki, istəyirəm və istədiyim şey elə mənəm". Bu məqamda məlum olur ki, o kəs ki dedi: "Ənəl-həqq" və o kəs ki dedi: "Pakam mən, mənim şənim necə də yüksəkdir" – **heç də Allahlıq iddiası etməmişdir, əslində öz varlığının inkarını və özündən qeyrisinin varlığının isbatını iddia etmişdir"** (Xacə Nəsirəddin Tusi. Övsafül-Əşraf, "Darul-huda", 200 s., s. 71).

Göründüyü kimi, N.Tusi bu arifanə əsərdə vurğulayır ki, "Ənəl-həqq" heç də bəndə ilə Allahın bir olması deyil. "Ənəl-həqq" heç də çoxlarının düşündüyü kimi, insanın Allah məqamına qaldırılması, insanın Allahla eyniləşdirilməsi deyil, əksinə, Onun əzəmətli varlığı qarşısında öz varlığını yox bilməsidir. Böyük alim Əbu Həmid əl-Qəzali də "Ənəl-həqq"ə N.Tusi kimi yanaşmış, ariflərin halını belə təsvir etmişdir: **"Onlar üçün Allahdan başqa heç nə olmur. Onlar sanki sərxoşa bənzəyirlər. Onların əqli də sərxoşluq sehrində öz gücünü itirir"**. XIV əsr böyük Azərbaycan ariflərindən Şeyx Mahmud Şəbüstəri "Gülşəni-raz" kimi möhtəşəm irfani-fəlsəfi əsərində "Ənəl-həqq"i belə incələyir:

***Haqdan qeyri varlıq yoxdur, əl-Həqq,***
***O Haqqdır – de, gər istərsən Ənəl-həqq.***

Şəbüstəriyə görə, Mütləq Varlıqdan başqa bir şey mövcud deyil; nə varsa, Onun təcəllisi, nişanəsidir. Digər böyük arif şairimizin – Şəms Təbrizinin "Ənəl-həqq"ə münasibəti fərqlidir: "Həqqə çatmış" olsan da, Onun həqiqətinə, iç üzünə yetişə bilməzsən. Əgər Həqqin həqiqətindən xəbərin olsaydı, "Ənəl-həqq" deməzdin" (Şəms Təbrizi. Məqalət/Söhbətlər. Bakı: Qanun, s.336).

Şəms C.Rumi ilə ilk görüşündə ona belə bir sual verib: "Tez de görüm, Həzrət Məhəmməd (ə.) böyükdür, yoxsa Bəyazid Bistami? Cavab belə olub: "Həzrət Məhəmməd (ə.) cahandakı bütün insanların ən ulusudur. Bəyazid kimdir? Bəyazidin susuzluğu bir qurtum suyla keçər; onda susuzluğundan danışar. Ancaq Həzrət Məhəmməd Mustafanın (ə.) susuzluğu o qədər dərindir ki, hər zaman susuz-

luğundan dəm vurur və hər gün o, susuzluğu daha da artsın – deyə dua edərdi. Bəyazid: "Məni alqışlayın, məndən ulusu yoxdur" – deyib fəxr edərdi. Amma Peyğəmbərimiz həmişə: Ya Rəbb, biz səni layiq olduğun qədər tanımadıq" – deyərdi" (yenə orada). Bəli, dəryadan hər kəs öz qabı tutumunda götürər. Kimisinə bir dolça su böyük görünər, dolçası okean qədər olan üçün isə bir dolça su nədir ki? Ariflərin çatdığı məqamla Həzrət Peyğəmbərimizin və Əhli-Beytinin çatdığı məqam müqayisə oluna bilərmi? Onlarda mərifət ən yüksək səviyyədə olsa belə, "Ənəl-həqq" kimi kəlmələri heç vaxt deməyiblər. Ariflərin də heç də hamısından bu kimi kəlmələr eşidilməyib. Yuxarıda qeyd etdiyimiz kimi, Şəms Təbrizi bu kimi kəlmələri ariflərə qüsur bilib. Əlbəttə, hər kəs eyni hala, eyni tutuma malik deyil. Buna görə aşiqləri başa düşmək olar.

Bütün aşiqlərə bizdən salam olsun!

## NOVRUZ FƏLSƏFƏSİ

### Bahar nə xoş gəlir...

***Ay nə gözəl qaydadı şal sallamaq,***
***Bəy şalına bayramlığın bağlamaq.***

Ustad Şəhriyar məni də Novruzlu günlərimizə, göyçəli günlərimizə qaytarır və itkin düşən o şirin çağlarla bağlı qəlbimdən bu misralar qopur:

***Xınayaxdı, paltarbiçdi necoldu?***
***Qapıpusma, eh, sulaşma necoldu?***
***Hayıf, bizim ayılmamız gec oldu...***

Novruz “Yeni gün” mənasını verir. Yeni il, yeni gün, yeni duyğu, yeni nəfəs, yeni həvəs, yeni arzu...

Hər şeydə yenilik, ətraf aləmdə, təbiətdə yenilik, oyanış, dirilik, hər şeydə təravət, gözəllik! Bahar təravətli Səməd Vurğun misraları bu büsatın, növrağın gözəl lövhəsidir:

***Bahar nə xoş gəlir, ruha dad verir,***
***Xəyala, duyğuya qol-qanad verir.***

Əziz oxucular, burada Novruzda dünyaya göz açan Dədə Ələsgəri yada salmamaq olarmı?!

***Bahar fəsli, yaz ayları gələndə,***
***Süsənli, sünbüllü, lalalı dağlar.***

Hikmət çeşmələrində mənəviyyat yanğımızı söndürdüyümüz azman sənətkarlarımıza Allahdan rəhmət diləyək və Novruzla bağlı söhbətimizi davam etdirək.

## Novruz elmin gözüylə

Milli mədəniyyətimizin çox mühüm tərkib hissəsi, milli özünüdərkin dayaq nöqtələrindəndir Novruz! Onu bəziləri zərdüştiliklə bağlayır, amma mənbələr göstərir ki, Novruzun tarixi çox qədimlərə – 12 min il bundan əvvələ gedib çıxır. Şumerlərin “Bilqamıs” dastanında da Novruz adət-ənənələri haqqında söhbət açılır.

Zərdüştilər bu bayramı böyük ehtiramla keçirirdilər. Onlar təbiətlə həmahəng yaşayır, həyatlarında təbii ritmlərə ciddi əməl edirdilər. Geniş astronomik biliklərə malık olan zərdüştilər Novruzun – Yeni ilin başlanğıcını da dəqiq təyin etmişdilər. Astronomik biliklərlə yanaşı, xalqın çox-

əsrlik müşahidələri də ilin başlanğıcını – gecə-gündüz bərabərləşməsini (ilin təhvilini) müəyyənləşdirməyə imkan verirdi. Məsələn, xırda gölməçələrdəki balıqların ilin təhvili anında qeyri-adi şəkildə atılıb-düşmələri ilin başlanğıcı kimi qəbul edilirdi (balıqlar tez duyurlar). Martın 21-22-də Günəşin Balıqlar bürcündən çıxıb Qoç bürcünə daxil olması, gecə-gündüzün tənləşməsi ilə Şimal yarımkürəsində astronomik yazın başlanması gününü qədim şumerlər, türk xalqları, farslar, slavyanlar və s. yeni il kimi keçirirdilər. Babillər bu günü dövlətçilik baxımından da çox mühüm hesab edirdilər.

Novruzun astronomik-elmi izahı heç də onun mahiyyətini tam aşkara çıxarmır. Novruz özündə elə bir məna daşıyır ki, ona elmi, fəlsəfi, dini biliklərin qovşağından baxılmalıdır. Çox təəssüf ki, Novruzla bağlı həmişə müzakirələr olsa da, bütov, tam baxış ortaya qoyulmamışdır.

## Çərşənbələrə fəlsəfi nəzər

Novruzdan qabaq keçirilən çərşənbələr insanların varlığa, dünyaya münasibətinin ifadəsidir. Dörd müqəddəs çərşənbə – su, od, hava, torpaq ünsürləri ilə bağlıdır. Bütün mövcudatın əsasında bu ünsürlər durur. Varlıq bu ünsürlərin birləşməsindən meydana çıxır, parçalanmasından məhv olur, daha doğrusu, başqa formaya keçir. Məlumdur ki, zərdüştilər də bu ünsürləri müqəddəs hesab edir, onlarla bağlı qurbanlar kəsirdilər. Dörd ünsürlə əlaqədar digər Şərq xalqlarında da təlimlər mövcuddur. Məsələn, hind çarvak təlimi (çarvak – qədim hind dilində "dörd söz" mənasını verir) bu ünsürlərlə bağlıdır. Çərşənbə axşamı tonqal qalamaq isə od, atəş, günəşlə bağlı baxışların ifadəsidir. Odla, şamla bağlı ayinlər Avropa xalqlarında da (fransız-

larda, ispanlarda və s.) vardır.

İnsanlar yazın tez, uğurlu gəlməsini təmin etmək üçün odu, istini yardıma çağırırlar. Görkəmli alimimiz Mirəli Seyidova görə, ispanların yazda od yandırması iki məqsəd güdürdü:

a) onlar inanırdılar ki, od yandırmaqla torpağı əkinə hazırlayıb, onu qızdırırlar;

b) odda yandırdıqları gəlincik keçən ilin pisliyini, yamanını özündə cəmləşdirir. (Mirəli Seyidov. "Yaz bayramı", Bakı: Gənclik, 1990, səh.13)

Bəziləri çərşənbə tonqalı qalayıb onun üstündən tullanmağı oda sitayiş elementi hesab edir. Bu fikir tamamilə əsassızdır. Oda sitayiş edən heç vaxt deməzdi ki:

***Ağrım, uğrum[1] tökülsün,***
***Oda düşüb kül olsun.***

İnsanlar od üstündən tullanmaqla təkcə xəstəliklərdən, qara enerjidən yox, həm də günahlardan təmizlənmək, durulanmaq istəyirlər. M.Seyidov yazır: "Bizcə, belə düşünmə, belə görüş insanı ucaldırdı, onda qarşılıqlı inam, sevgi yaradırdı, ola bilsin bu haradasa insanpərvərliyin – humanizmin özəyinə də çevrilirdi" (yenə orada, səh.42).

Çərşənbələrlə bağlı xalq deyimləri böyük bir tərbiyə məktəbidir. Odla, ocaqla bağlı aşağıdakı deyim bir kitablıq məna daşıyır: **"Ocağa yaxınlaşanda salam verərlər".** Ocağı Yaradanın adı ilə salamlamaq, onu canlı bilmək, ehtiram göstərmək – təbiətlə həmahəng yaşamaq, ümumiyyətlə, varlığa məhəbbətlə yaşamaq deməkdir.

---

[1] Uğrum – prof. Bəşir Əhmədova görə, yorğunluğum sözünün təhrif olunmuş formasıdır.

## Təbiət eşqi tərənnüm edir

İndi isə gəlin bu suala cavab verək: "Novruzun dinimizlə bağlılığı varmı?" (Novruz islamın yaranmasından çox-çox qabaq keçirilib – deməklə tələsməyək). Hər şeydən əvvəl qeyd edək ki, Novruzun mahiyyəti dinimizin buyruqları ilə səsləşir. Novruzda məhəbbət, mehribanlıq, dostluq artır, küsülülər barışır, ədavət aradan qalxır, xəstələrə, qocalara, şikəstlərə, qohum-əqrəbaya, dost-tanışa baş çəkilir, hal-əhval tutulur.

Bəs din nədir? İmam Məhəmməd Baqir (ə.) buyurmuşdur: **"Din məhəbbətdir, məhəbbət dindir".** Novruz da məhəbbət, dostluq, gözəllik bayramıdır. İnsan-insan, insan-cəmiyyət, insan-dövlət, insan-təbiət, insan-kosmos, insan-Yaradan münasibətlərindəki harmoniyanın, ahəngin, gözəlliyin təzahürüdür. Mütləq Gözəl öz gözəlliyini təbiətdə, insanda təzahür etdirir, hər şey baharın təravəti ilə gözəlləşir. Günəş daha səxavətlə nurunu paylayır – Allah eşqinə! Baxçalarda güllər açır – Allah eşqinə! Güllərdə bülbüllər oxuyur – Allah eşqinə! Təbiət öz xalısını min bir rənglə toxuyur – Allah eşqinə! İnsan qəlbində min arzu, min bir dilək baş qaldırır – Allah eşqinə! Hər şeyə ibrətlə, əqlin, qəlbin gözü ilə baxanlar Mütləq Gözəlin gözəllik sərgisindən dərs alır, ruhən, mənən daha da gözəlləşirlər. Bəli, təbiətin bu gözəlliyi, bu nizam özbaşına yaradılmayıb. Hər şey onu yaradandan xəbər verir. Hər şey Onun eşqilə cilvələnir. Şeyx Nizami yazmışdır:

***Eşqdir mehrabı uca göylərin,***
***Eşqsiz, ey dünya, nədir dəyərin?!***

Yerdə, göydə nə varsa Allah eşqinin ətrafında fırla-

nır, onu zikr edir. Baharın mübarək gəlişi ilə təbiət də bu eşqi tərənnüm edir. Əslində təbiət gözəlliyini vəsfimiz, cilvəsi qarşısında heyrətimiz onun Xaliqinin qarşısında heyrətimizdir.

## Yaradan bizlə təbiətin dili ilə danışır

Təbiətdə nə varsa, M.V.Lomonosovun dediyi kimi, riyazi dəqiqliyə malikdir. Yaz gecə-gündüz bərabərliyi, tənləşməsi, bizi bu riyazi dəqiqliyin haradan qaynaqlandığı haqqında düşünməyə dəvət etmirmi? Bu, Mütləq Kamilin nişanəsi, dəlili deyilmi? Lomonosov demişdir: **"Düşüncə bu möcüzəli işlərin səbəblərinə daha dərindən nüfuz etdikcə, varlığın qurucusu, Onun qüdrəti, əzəməti və müdrikliyi bizim üçün daha aydın şəkildə canlanır".**

Beləliklə, Novruza təbiət bayramı deyərək onu təbiətin Yaradıcısından ayırmayaq. Yaradan bizimlə təbiətin dili ilə, dəlillərlə, nişanələrlə danışır və özünü bizə bu yolla tanıdır. Novruz mahiyyətcə İlahinin müqəddəs nişanəsi, dəlilidir, daha doğrusu, dəlillər toplusudur. Elə kainat özü də ayələr, dəlillər toplusudur. Astronom Vilyam Herşel demişdir: **"Kainat oxumaq üçün yaradılmışdır"**. İnsan kainat kitabını oxuyub anlamaqla onun Yaradıcısını da yaxından tanıya bilər.

Novruz gələndə təbiət qış yuxusundan oyanır (dirilir desək, daha yerinə düşər). Burada bir hikmət var: **"Ölü torpaq onlar üçün (Qiyamət günü ölüləri dirildəcəyimizə) bir dəlildir. Biz onu (yağışla) dirildir, oradan (arpa, buğda, düyü və s. kimi) dənələr çıxardırıq, onlar da ondan yeyirlər"** ("Yasin" surəsi, 33-cü ayə).

Eh, nə çoxdur Yaradanın belə qüdrət dəlilləri, nə az-

dır ibrət alanlar! Təbiətdəki bu möhtəşəm nizamı, düzümü təbiətin öz ayağına yazırlar. Təbiəti insanın da yaradanı hesab edirlər. Fərqinə də varmırlar kı, şüursuz təbiət insan kimi kamil varlığın necə yaradıcısı ola bilər.

Materialist düşüncələrilə yenidən dirilməyə xurafat kimi yanaşır, ölü torpağın dirildilməsindən ibrət almırlar. Nəsirəddin Tusi kimi zəka sahibi belələrinə yaxşı cavab vermişdir: **"Qiyamət günü yoxdan yaranma deyil, çürümüşlərin birləşdirilməsi günüdür"**. Fizik Edqintonun fikri N.Tusinin fikri ilə səsləşir: **"Zaman tərsinə axacaq, ölülər qəbirlərdən qalxacaqlar"**.

Bəli, yoxdan yaratmaq qüdrətinə malik olan Xaliq, təbii ki, çürümüşləri də birləşdirmək qüdrətindədir. Materialistlər maddənin itməməsi qanununu əldə bayraq edərək maddə yoxdan yarana bilməz - deyirlər. Onlar maddəni hər şeyin başlanğıcı qəbul edir, Yaradıcını inkar edirlər. Halbuki, adı çəkilən qanunu ifadə edən Lomonosovun dediyi kimi **"...Elə bir təbii başlanğıc yoxdu ki, o, Qadir Allahın – Hərəkətvericinin mövcudluğunu böyük israrla tələb etməsin"**[*].

## İmam Cəfər Sadiq (ə.) Novruz haqqında

Novruz günü bir-birinin üstünə su çiləməyin, qüsl almağın səbəbini suyun aydınlıq, duruluq, paklıq rəmzi olması ilə izah edirlər. Bu, həm də ibrətamiz bir əhvalatla bağlıdır. İmam Cəfər Sadiq Novruzun fəzilətləri haqqında yaxın səhabəsi Müəlla ibn Xüneysə danışanda bu məsələyə də toxunmuşdur. Ağanın dediyinə görə, Xirgil adlı pey-

---

[*] M.V.Lomonosov. İzbrannıe filosofskie proizvedeniya. Qospolitizdat, 1950, s.93

ğəmbər insan sümüklərinin yanından keçəndə Allahdan sual etdi ki, bu çürümüş sümükləri necə dirildəcəksən? Allah ona vəhy etdi: "Dəstəmaz al, suyunu sümüklərin üstünə tök". Sümük sahibləri Allahın qüdrəti ilə dirildilər. Elə ona görə də Novruzda qüsl almaq, üstə su çiləmək müstəhəb (bəyənilən) əməl hesab olunur. İmamın Müəllaya digər dedikləri də oxucularımız üçün maraqlı olardı: **"Novruz bir gündür ki, Allah-Təala bu gündə ruhlarla əhd-peyman bağladı ki, onun birliyinə pərəstiş eləsinlər, Onun peyğəmbərlərinə və imamlarına iman gətirsinlər. Bu gün günəş hərəkətə başladı. Küləklər ağacları tozlandırdı. Yerdə güllər və çiçəklər yarandı. Bu gün Nuh peyğəmbərin gəmisi tufandan sonra Cudi dağında dayandı... Novruz günündə Cəbrayıl Peyğəmbərə (ə.) vəhy gətirdi. Yəni məbəs günü (rəcəbin 27-si) həmin gün idi. Bu gündə Peyğəmbərimiz Qüreyşlilərin Məkkədə bütlərini sındırdı. Həzrət İbrahim də həmin gün kafirlərin bütlərini sındırmışdı... Novruz günü Peyğəmbər səhabələrə əmr etdi ki, Həzrət Əliyə beyət edin və deyin ki, ya Əli, sən bizim əmirimiz, rəhbərimiz və mövlamızsan. Yəni Qədiri Xum günü də Novruz gününə təsadüf etmişdi... Novruz günündə on ikinci imamımız Həzrət Qaim (ə.) zühur edəcək və zülmə qalib gələcəkdir. Biz Novruzun fərəc (qurtuluş – F.R.) intizarını çəkirik... Bu günə əcəmlər (qeyri-ərəblər - F.R.) hörmət və ehtiram edirlər. Amma siz ərəblər onu zay edirsiniz"** (Axund Hacı Soltan Hüseynqulu oğlu Əlizadə, "Duayi-Heydəri və ya Həzrət Əli zirvəsinə bir baxış", Bakı: Tural-Ə, NPM, 2002, səh. 107-109).

## Yunis İmrə öyüdü

Novruzda təbiətin oyanışı ilə İlahi bizi də mənəvi, ruhi oyanışa səsləyir. Gərək qəlbimiz dirilsin. Gərək qəlbi qaraldan, bizi ali insan məqamından aşağılara dartan yaman sifətlərdən uzaqlaşaq. Qəlblərə məhəbbət, xeyirxahlıq toxumu səpək. Qəlblərin buzunu sındıraq, qəlblərin qapısını bir-birimizin üzünə açaq. Ev-eşiyə, həyət-bacaya əl gəzdirdiyimiz kimi, içimizə də əl gəzdirək. Orada da səhman yaradaq, saflaşaq, durulaşaq.

Odur, əsrlərin çiynindən Yunis İmrə də bizə əl eləyir və öyüd verir:

***Sevəlim, sevilələim,***
***Dünya kimsəyə qalmaz...***

## NOVRUZ DƏYƏRLƏRİ VƏ İSLAM

Novruz – təzə gün, təzə il, təzə duyğu, təzə həvəs, təzə arzu! Hər şeydə oyanış, dirilik, gözəllik, təravət! Ülvilik, müqəddəslik axtarışında olan insanın ruhuna dad, xəyalına, duyğusuna qol-qanad verir bu büsat. Novruza “Avesta”da belə qiymət verilir: “Novruz – xalqın qüdsiyyət, bolluğa, əməyə və əmək vərdişlərinə sitayiş bayramıdır. O, ən böyük əkinçilik bayramı olub, sağlamlığın, firavanlığın başlanğıcıdır”.

Bu bayram xalqın varlığa münasibətinin, ali etik-estetik dəyərlərinin ifadəsidir. Novruzun mahiyyətində insan-insan, insan-cəmiyyət, insan-dövlət, insan-təbiət, insan-kosmos, ən başlıcası, insan-Yaradan münasibətlərində ahəngdarlığa, tarazlığa, gözəlliyə çağırış var. Novruz mə-

həbbət, humanizm, gözəllik, xeyirxahlıq kimi dəyərləri yaşadan və nəsillərdən-nəsillərə çatdıran xalq tərbiyə məktəbidir. Gəlin, bu məktəbin ibrətli dərslərinə birgə nəzər salaq.

Bu bayramda təzə paltar geyərlər – bayrama gözəllik yaraşar – deyə; Allah gözəldir və gözəlliyi sevər – deyə. Novruzda imkansızlara, kimsəsizlərə əl tutarlar – əl tutmaq Əlidən qalıb deyə. Novruzda valideynlərə, ağsaqqallara baş çəkərlər –böyüyə ehtiram Allaha ehtiramdır – deyə. Novruzda qohum-qardaşı, dost-tanışı yad edərlər, pay aparарlar – hər xeyirxah iş ehsandır, savabdır – deyə. Novruzda küsülülər barışarlar – könüllər 7 il ayrı düşməsin – deyə. Novruzda dalaşmaz, qarğış etməz, qeybət etməz, pis söz danışmaz, könül qırmazlar – günahdır, Novruza hörmətsizlikdir – deyə. Novruzda atı, iti də vurmazlar – at muraddır, it sədaqətlidir – deyə. Novruzda heç ilanı da vurmazlar, çünki düşmənə də Novruzun "üzü" suyu hörmətinə toxunmaq olmaz – deyə. Novruzda adaxlı axtarışına çıxarlar – uğurlu günün uğurlu gəlini olar – deyə. Novruzda imkansız gənclərə kömək edib, onları evləndirərlər – mürvət Allaha xoş gedər – deyə. Gördüyünüz kimi, əziz oxucular, Novruz insanda insanlığı oyadır, sevgiyə, nəvazişə tamarzı kəslərə həyan olmağa, qəlblərdə biganəlik buzunu sındırmağa səsləyir.

Qeyd edək ki, Novruzun etik-estetik dəyərləri müqəddəs dinimizin buyruqları ilə səsləşir. İmam Məhəmməd Baqir (ə.s.) buyurmuşdur: **"Din məhəbbətdir, məhəbbət də din"**. Harada məhəbbət, xeyirxahlıq təzahür edir, orada din təzahür edir.

Bu bir həqiqətdir ki, Novruz bayramının yaşı islam dinindən xeyli qədimdir. İslam dini bu bayramı müsbət qarşılamış və hətta Novruz bayramı müsəlman tarixinin əlamətdar hadisələri ilə əlaqələndirilmişdir. Noman İbn Məhəmməd Təmimi "Dəaimul-İslam" kitabında rəvayət edir: "Həzrət Əli (ə.) üçün gülab və şərbət hədiyyə gətirdilər. O soruşdu: "Bu nədir?". Dedilər: "Bu gün Novruzdur!". Həzrət Əli (ə.) söylədi: **"Əgər edə bilsəniz, hər günü Novruz edin"** (yəni Allah xatirinə bir-birinizin görüşünə gedin və bir-birinizə hədiyyə verin).

Mühəddis Nuri "Müstədrəkul-vəsait" əsərində Hüseyn ibn Həmdana istinadən yazır: "Müzəffər ibn Əmr İmam Sadiqdən (ə.) nəql edir: **"Allah vəhy göndərdi ki, bu gün bizim üçün əzəmətli və ehtiramlı gündür. Əgər hər bir mömin bu gündə bizdən bir hacət istəsə, onu yerinə yetirərik. Çünki, bu gün Novruz günüdür"**. İmam buyurmuşdur: **"Nə vaxt Novruz oldu, qüsl edin, ən pak geyimlərinizi geyinin və ən gözəl ətirlərlə özünüzü ətirləyin. O günü oruc tutun"**.

İslam inancına görə, 12-ci İmam Həzrət Mehdi (ə.) Novruz günündə zühur edəcək və zülmə birdəfəlik qalib gələcəkdir. Ən böyük bayram o zaman olacaqdır.

Heç də təsadüfi deyil ki, xalq arasında bu bayrama Əli bayramı da deyirlər. (Hz. Əlinin (ə.) Qədir-xumda xəlifə təyin edildiyi gün qəməri təqvimlə zilhiccənin 18-ci gününə, Günəş təqvimi ilə Novruza təsadüf etmişdir). Qurani-Kərimin "Maidə" surəsinin 3-cü ayəsində Allah belə buyurur: **"Bu gün dininizi kamilləşdirdim və nemətimi sizin üçün tamamladım və islamı sizin üçün yeganə din kimi seçərək bəyəndim"**.

Deməli, biz Novruz gününü həm də dinimizin kamilləşdiyi gün kimi də əziz tutmalıyıq.

Bütün bunlar bir daha göstərir ki, islam dünyagörüşü də Novruzu əziz bir bayram kimi qeyd edir və onu yüksək qiymətləndirir.

## Y.A.KOMENSKİNİN DİNİ-ƏXLAQİ GÖRÜŞLƏRİNƏ DAİR*

İllər, əsrlər keçsə də böyük mütəfəkkir-humanist, ictimai xadim, filosof, elmi pedaqogikanın banisi Y.A.Komenskinin ölməz irsinə maraq nəinki zəifləmir, əksinə daha da güclənir. "Pedaqogikanın patriarxı"nın bəşəriyyət qarşısında xidmətləri elə misilsizdir ki, elm və mədəniyyət yaşadıqca, onun da adı və təlimi yaşayacaqdır. Hər şeydən əvvəl, din xadimi olan Y.A.Komenskinin elm sahəsinə verdiyi əvəzsiz töhfə ateizm tərbiyəsindən keçən bizləri düşündürməyə bilməz. Bəşəriyyət tarixini izlədikcə aydınca görürük ki, elm və din çox vaxt qoşa addımlamış, ayrı-ayrı dövrlərdə onlar arasında süni ziddiyyətlər yaradılsa da, hər ikisi cəmiyyətin tərəqqisinə birgə xidmət etmişlər. İlk astronomlar və təqvim yaradıcıları kahinlər olmuşdur. Bir çox namuslu din xadimləri görkəmli elmi kəşflər etmişlər. Ruhani katolik N.Kopernik, rahib C.Bruno, katolik T.Mor, rahib Q.Mendel (genetika elminin banisi), yezuit Sekki (astrofizikanın banisi), Kamponella, monax Bekon (elmdə induktiv metodun banisi), protestantlığın banisi M.Lüter

* Həmmüəllif: Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü Fərrux Rüstəmov

(müasir alman nəsrinin də banisi) və b. düşüncə və əqidə azadlığı uğrunda mübarizə aparmış, bəşər fikrini zənginləşdirmişlər.

Keçmiş sovetlər ölkəsində Y.A.Komenski irsinə geniş yer verilsə də, dünyagörüşünün əsas mənbəyi olan dini ideyalarının üstündən sükutla keçilmiş və belə bir fikir irəli sürülmüşdür ki, onun pedaqoji baxışlarını ilahiyyat pərdəsi altında şərh etməsi o dövrdə ilahiyyatın zehinlərinə hakim kəsilməsi ilə əlaqədar olmuşdur. Y.A.Komenski təliminin həqiqi mahiyyətini dərk etmək üçün biz onun dini ideyalarına, baxışlarına həqiqət işığı altında baxmalıyıq. Məlumdur ki, o, "Bogem (çex) qardaşları" adlanan icmanın üzvü ailəsində anadan olmuşdur. Bu icmanın ideyaları onun dünyagörüşünün formalaşmasına öz mühüm təsirini göstərmişdir. O, həmin dini icmanın hesabına həm latın məktəbini, həm də 21 yaşında Herborn Universitetinin ilahiyyat fakültəsini bitirmişdir. 24 yaşında keşiş, az sonra isə yepiskop seçilmişdir. Qəlbinin hökmü ilə ilahiyyatla məşğul olan Y.A.Komenski antik yunan fəlsəfəsinin, qədim Roma filosof və yazıçılarının, Avropa intibah dövrü humanistlərinin fikirlərindən əsərlərində istifadə etsə də, xristian dininin müqəddəs kitablarına, xristian ilahiyyatçılarına istinad o qədər güclüdür ki, digər mənbələr kölgədə qalır. A.V.Yelçaninov "Yan Amos Komenski" məqaləsində Y.A.Komenski dünyagörüşünün üç qatdan ibarət olduğunu göstərmişdir: xristianlıq, Bibliya və antiklik[2].

O təkcə "İncil"ə yox, həm də "Bibliya" həqiqətlərinə istinad etmişdir. Ona kamil insan ideyasını din verib.

---

[2] Bax: Ocerki po istorii pedaqoqiçeskix uçenii. Moskva: 1911, s.75

Y.A.Komenski ilahiyyatçıdır, ilahiyyat mövqeyindən öz pedaqoji təlimini yaradandır. Onun əsərlərinin ruhuna Allaha etiqad, məhəbbət elə hopub ki, İlahi həqiqətə əsaslanan fikirlərini kənara qoysaq, əsərləri ətirsiz çiçək kimi öz təravətini itirər. Təəssüf ki, əvvəllər olduğu kimi indi də bəzi pedaqoq alimlər onun dünyagörüşündə dini-idealist və realist-materialist xətlərini ayıraraq, bunu qeyri-ardıcıllıq, ziddiyyətlik kimi qələmə verirlər. V.P.İvanovun fikrincə, Komenski Allaha müraciət etməklə realist xətdən uzaqlaşıb[3]. Müəllif, Komenskinin dini baxışlarının səbəbini köhnə qüvvələrlə, hakim kilsə ilə kompromisdə görür. Halbuki, Böyük Yaradanın qüdrətini inam işığında dərk edən Komenski kimi mütəfəkkirlər onun hökmlərinin bəşər yoluna saçılan nur olduğunu insanlara çatdırmağa çalışmış, mənəvi iflasdan qurtuluşu bunda görmüşlər. Acı həqiqətdir ki, ateizm ideyaları hələ də insanların böyük əksəriyyətinə güclü təsir göstərir, idrakımızı cilovlayır, şeylərə İlahi həqiqətin parlaq işığında yox, ümumi fikirlər eynəyi altından baxmağa məcbur edir. Komenski İlahi nurdan uzaq düşməyin səbəblərini axtarırdı. O, "Dünyanın labirinti və qəlbin cənnəti" əsərində göstərirdi ki, dünyada qəlbi sakitləşdirmək üçün kimisi var-dövlət, kimisi şan-şöhrət, kimisi gözəl dost-tanış, gəzinti, kimisi isə özü üçün bilik axtarır. Bunlar isə Süleyman peyğəmbərin (ə.s.) dediyi kimi, vurnuxma və ruhun üzülməsidir[4]. Bəs ruhi sakitliyi necə tapmaq olar? İnsan özü üçün Allahı axtarmalı, mütləqə, kamilə can atmalı, Onun qanunlarını gözləməlidir. Onda dünya-

---

[3] Bax: Y.A.Komenski. Sovremennaya şkola. Çeboksarı:1992, c. 201-2013

[4] Bax. Y.A.Komenski. İzbrannıe pedaqoçeskie soçineniya. M.Uçpedqiz.1955, s.73-74.

da vurnuxmaları, zahiri parıltı altında gizlənən ehtirasları başa düşə bilərik. Komenskinin bu fikirləri müasir sivilizasiyanın gözqamaşdırıcı torunda çapalayan, dünya labirintində yolunu azıb, sadəcə günlərini keçirən insanları düşündürməlidir. Komenski o zamanlar bu həqiqəti sadəcə demir, bütün qəlbi ilə, varlığı ilə haray çəkirdi: **“Səma müdrikliyi əvəzinə... bizi yaşadan, hərəkət etdirən, mövcud edən Allahımızı biabırcasına yaddan çıxardırıq... Düşüncələrdə, işlərdə və danışıqda riyakarlıq vardır. Ədalətsizlik vardır, hiyləgərlik vardır...”**[5].

Bütün bunlar bu günümüzün də acı həqiqəti, reallıqları deyilmi? Neçə əsrdən sonra böyük mütəfəkkirin xələfi professor A.Rəhimov İblisin torunda çapalayan, ucalıq taxtından düşən insanı haraylayır, bu faciənin səbəbini açıb göstərir: “İnsan Uca Yaradandan, onun aləmi ziyalandıran nurundan ayrı düşüb”[6]. Bəşəriyyət bu gün ən çox qəlb rahatlığına, ruhi sakitliyə möhtacdır.Ona gedən yol isə birdir – Allaha doğru qayıdış! Bu gün bəşər oğlunun ruh düşkünlüyünün, gələcəyə inamsızlığının, həkimlərin təbirincə desək, xroniki yorğunluq sindromunun da müalicəsi bu qayıdış yolundan keçir.

Komenski xalqın gələcəyini, dövlətin möhkəmlənməsini yeniyetmələrin düzgün tərbiyəsində görürdü. O, Plutarxdan misal çəkərək yazır ki, valideynlər uşaqlara gözəllik, var-dövlət, rütbə arzulayır və uşaqları xarici rifaha doğru istiqamətləndirir, onların qəlblərinin fəzilətlərlə bəzədilməsi, gözəlləşdirilməsi qayğısına qalmırlar. Onlar

---

[5] Yenə orada

[6] A.H.Rəhimov. Qüdrətdən doğan nur. B.Çaşıoğlu, 1999, s.76

çəkməni daha yüksək hörmətə mindirirlər, nəinki ayağı[7]. Yenə də bu günlə müqayisə aparmaq məcburiyyətindəyik. İndi məktəbin qarşısında duran ən əsas problem bu deyilmi? Biz həm məktəbdə, həm də ailədə ən çox ona can atırıq ki, yeniyetmə yüksək mövqe tutub, imkanlı şəxs olsun. Şagirdlərdə, əsasən, əqli tərbiyəyə üstünlük verir, onları həyata yox, ali məktəblərə hazırlayırıq. Bəs Komenski nə tövsiyə edirdi? Ən başlıcası, qəlbin, ruhun tərbiyəsini, həssas, xeyirxah, mərhəmətli, dindar şəxslərin yetişdirilməsini.

Komenski məşhur əsəri "Böyük didaktika"da "ruhun həqiqi və universal mədəniyyəti üçün" öz ideya və fikirlərini irəli sürür. Təəssüf ki, bu qiymətli əsər 1961-ci ildə Azərbaycan dilinə tərcümə olunarkən onun ilk dörd fəsli dilimizə çevrilməmişdir. Halbuki, Komenski təliminin istinad etdiyi fikir və ideyalar məhz bu fəsillərdə şərh olunmuşdur. Əgər biz insan tərbiyəsi ilə məşğul oluruqsa, bu sahədə uğur qazanmaq istəyiriksə, insanın mahiyyətini düzgün öyrənməliyik. İnsanın mənşəyi ilə bağlı konsepsiyanı düzgün müəyyənləşdirməklə pedaqoji təlimin elmi əsaslarını yarada bilərik. İnsanın Allah tərəfindən yaradıldığını etiraf ediriksə, onda onun hökmləri, göstərişləri tərbiyənin əsasında durmalıdır. Öz yaratdığının təbiətinə, fitrətinə uyğun qanunları da o müəyyən etməli deyilmi? Necə ki, Komenski müdrikliklə bu həqiqi əsasdan yapışmış, xristian dininin əsasında insanın ali məqsədinə uyğun pedaqoji təlimini yaratmışdır. Mütəfəkkir "Böyük didaktika"nın I fəslində "insanın ən ali, ən kamil, hər şeydən üs-

---

[7] Y.A.Komenski. İzbrannıe pedaqoqiçeskie soçineniya.T.P.M. 1939, c. 16

tün məxluq olması” müddəasını irəli sürərək insanın həqiqi, layiq olduğu ucalığa çatması üçün son məqsədi uğrunda ləyaqətlə mübarizə aparmağa səsləyir. İnsanın son məqsədi isə bu həyatdan kənardadır (II fəsil məhz belə adlanır). Komenskiyə görə, bizim hər birimiz üçün üçlü həyat və üç yaşayış yeri müəyyən olunub: ana bətni, yer və göy. Birinci yerdən ikinciyə insan doğumla gəlir, ikinci yerdən üçüncüyə ölümlə keçir. Üçüncü yer əbədi yerdir, əbədiyyətdir. Beləliklə, ölüm özü əbədiliyə, ölümsüzlüyə pillədir, qapıdır. Əgər ana bətnində yer üçün hazırlaşırıqsa, yerdə isə göy üçün (axirət üçün) hazırlaşmalı deyilikmi? Bu həyatda əbədi həyat üçün kamil ruh formalaşmalıdır. Deməli, Komenskiyə görə, bu həyat yalnız əbədi həyata hazırlıqdır. **Həzrət Məhəmməd (s.) buyurmuşdur ki, dünya axirətin tarlasıdır**. III fəsil bu fikrin izahına həsr olunub. Komenski yazırdı: **“Bu dünya bizim məktəbimizdir, bu məktəbin hazırlıq mərhələlərindən keçib əbədi akademiya üçün yüksəlməliyik. Xoşbəxt o kəsdir ki, buradan oraya yaxşı qəlb aparsın. Qəlb cilalanmalı, paklanmalıdır. Necə ki, Süleyman peyğəmbər (ə.) buyurmuşdur: “Çirkin qəlbə müdriklik ruhu daxil olmaz”**. Komenski əbədiyyətə hazırlığın üç mərhələsini göstərir: özünədərk (özü ilə bərabər hər şeyi), özünüidarə və Allaha doğru cəhd. Sonra o, “İncil”ə istinad etməklə fikrini davam etdirir: “İnsan İlahiyə bənzəyir. İnsan da müqəddəs olmağa çalışmalıdır. Necə ki, “İncil”də deyilir: “Allahınız kimi müqəddəs olun”.

Komenski X fəsildə ruhumuzun quruluşuna aid fikirlərini irəli sürür. Onun fikrincə, ruhumuz üç qabiliyyətə malikdir: düşüncə, iradə, hafizə və ya vicdan. O, sonra ya-

zır: "Bu qabiliyyətlərin göstərilən xassələri (öz vəzifələrini) uğurla təzahür etdirmələri üçün (yerinə yetirilməsi üçün) mütləq düşüncəni maarifləndirən, iradəni yönəldən, vicdanı oyadan şeylərlə təchiz etmək lazımdır: bunun sayəsində düşüncə şeyləri daha dərindən dərk edə bilər, iradə ismətləri səhvsiz seçə bilər, vicdan isə hər bir şeyi həssaslıqla Allaha xəbər verər"[8]. Deməli, vahid ruhun tərkib hissələrini bir-birindən ayırmaq mümkün olmadığı kimi, ruhun üç bəzəyini – təhsil, xeyirxahlıq və möminliyi də bir-birindən ayırmamaq lazımdır.

Komenskiyə görə, əxlaqa və möminliyə təsir etməyən təhsil bədbəxt təhsildir. O, öz fikrini əsaslandırmaq üçün Süleyman peyğəmbərdən (ə.) misal gətirir: **"Xeyirxahlıqdan üz döndərən adama verilən təhsil donuz burnuna taxılmış qızıl həlqəyə bənzəyir"**. Komenski sadalanan keyfiyyətləri insanın mahiyyəti hesab edir, qalan şeyləri isə (sağlamlıq, güc, gözəllik, ad-san, dostluq, işlərdə uğur, uzunömürlülük) ikinci dərəcəli hesab edir.

Bəs müasir həyatda biz nəyə can atırıq? Elmi özünüdərk, Allahı dərk, əqidə, məslək naminə deyil, çox vaxt böyük pedaqoqun ikinci dərəcəli şeylər hesab etdiyi məqsədlər naminə öyrənirik.

Müasir dövrün ruhu ilə daha çox səsləşən əxlaq tərbiyəsinin yeni məzmununu müəyyənləşdirərkən, yeni forma və metodlarını yaradarkən biz Komenski irsinə yeni baxışla baxmalı, ondan faydalanmalıyıq. Onun humanist pedaqoji təlimində əxlaq tərbiyəsi və insanda insanlığın tərbiyəsi xüsusi yer tutur. Aqil babalar da, **"insanın insandan**

---

[8] Y.A.Komenski. Seçilmiş pedaqoji əsərləri. B., Azərnəşr, 1961, s.96

**yalnız insanlığı artıqdır"** – demişlər. İnsanlıq, insanpərvərlik insanın bəzəyi, mahiyyətidir. Komenski "Böyük didaktika"da insan şəxsiyyətinin, insan ləyaqətinin, qısası, insanlığın himnini səsləndirir. O yazır: "Allah əsrlər boyu özünəbənzərin rifahı üçün bütün zəruri şeyləri etmişdir". İnsanlar isə özləri yaratdıqları bədbəxtlikdə batırlar. Şər əkib, şər biçirlər. Şər isə insanı daxildən cilovlayır, təkmilləşməmiş qabiliyyətini buxovlayır. Biz gərək həqiqəti yalandan, xeyri şərdən ayıra bilək. Komenskiyə görə, cəmiyyətdə şərin aradan götürülməsi üçün insanın üç qabiliyyəti inkişaf etdirilməlidir: zəkası, iradəsi və yaradıcılıq qüvvələri. İnsan gərək mənfi əməllərinin nəticəsini qiymətləndirə bilsin, şərdən çəkinsin və xeyirxahlığa can atsın, verilən ağıllı məsləhətlərə qulaq assın. Ağıllı insanlar başqasının hərəkətlərindən ibrət alır, bu ibrət güzgüsündə özlərini düzəldirlər. Komenski insana əxlaq dünyasının qurucusu kimi baxır. İnsan qəlbindən şərin silinməsi haqda Komenskinin tövsiyələri böyük Nizaminin aşağıdakı fikirləri ilə necə də səsləşir:

***Dəmiri ayna tək parladan insan,***
***Pası silməlidir öz vicdanından.***

İnsan qəlbinin pasdan təmizlənib, nura bələnməsi isə Allaha etiqad, məhəbbətdən başlayır. Bu müqəddəs amal uğrunda mübarizə insanın öz-özü ilə, öz nəfsi ilə elə şiddətlə döyüşməsi deməkdir ki, nəticədə nəfs əqlə ram olur. Yeniyetmələrə, gəncliyə bax bunu öyrətməliyik, bax bunu aşılamalıyıq. Komenskinin də dönə-dönə qeyd etdiyi kimi, bəşəriyyətin səadəti yalnız bundadır. Onun bu humanist fikirləri qəlblərdə səslənməlidir. Komenski əxlaqlı olmağın

və onu inkişaf etdirməyin 16 ümumi qaydasını irəli sürüb və əsaslandırıb[9]. Hər şeydən əvvəl, yüksək məziyyətlərə - müdrikliyə, mötədilliyə (hər şeydə orta həddi gözləməyə), mərdliyə, ədalətə yiyələnməyə çağırıb. Komenski ilahiyyat mövqeyində duraraq "ruhi şeyləri cismanilərdən", "əbədi şeyləri keçicilərdən", deməli, möminliyi əxlaqdan, əxlaqı elmdən üstün tuturdu. O yazırdı ki, möminlik İlahi paydır və göydən verilir, biz Allahı axtararaq onun əzəmətini bütün yaradılışda tapırıq. Yerdə və göydə Onun məhəbbətindən şirin heç nə ola bilməz. Onun haqqında fikirlərdən xoş heç nə ola bilməz. Möminliyin tərbiyəsi üçün üç mənbə və üç pillə, vasitə vardır: müqəddəs Kitab, dünya və özümüz. Komenski "Bibliya"nın dəyərini çox yüksək qiymətləndirir və Kassiodardan nümunə gətirir: "Yazı həyat üçün göy təlimi məktəbi, həqiqətin təbliği, şübhəsiz, yeganə elmdir; o, sözlərin boş bəzəyi ilə deyil, bol-bol hisslərlə dinləyiciləri çulğalayır". Komenski qeyd edir ki, həqiqi kilsə, həqiqi Allaha itaət edənlər Allah məktəbindən başqa heç bir məktəb axtarmadılar, oradan hər cür dünya müdrikliyindən yüksək bol-bol həqiqi göy müdrikliyi qazandılar. Allah kəlamı o kökdür ki, oradan həqiqi müdriklik zoğu göyərir. Böyük mütəfəkkir "Bibliya"nı hər cür elmin mənbəyi hesab edərək filosofların təlimlərinə bu nöqteyi-nəzərdən qiymət verir. Onun fikrincə, əgər filosoflar təbiətdən danışırlarsa, onlar təbiətin zahiri cəhətlərinə yüngülcə toxunurlar, mahiyyətə varmırlar. Müqəddəs Kitabda isə təbiətin hakimi öz işləri haqda böyük sirləri göstərir, bütün ya-

[9] Bu haqda geniş bax: Y.Talıbov, Y.A.Komenskinin pedaqoji sistemi. B., ADBTİ, 1992.

ratdıqlarının birinci və axırıncı səbəblərini aydınlaşdırır (görünən və görünməyənlərin). Əgər filosoflar əxlaq haqqında danışırlarsa, onlar quşlar yapışdırılmış qanadlarıyla nə edilərsə, onu edirlər. Müqəddəs Yazı isə xeyirxahlığın həqiqi mənzərəsini canlı misallarla elə verir ki, qəlbin dərinliyinədək nüfuz edir. Komenski tövsiyə edir ki, uşaqlar və yeniyetmələr bütpərəst filosofların Allah kəlamına zidd fikirlərinin təsiri altına düşməməkdən ötrü onların əsərlərini oxumasalar yaxşıdır. **Həqiqi fəlsəfə Allahın və onun işlərinin həqiqi dərkindən başqa bir şey deyildir**. Bunu isə müqəddəs kitablar bəyan edir. Komenski Apostol Pyotra istinadən "müqəddəs yazı uşağın dərketməsindən uzaqdır" fikrinə qarşı çıxır: **"İlahi kəlam doğulmuş uşaqlar üçün süddür, ona görə verilib ki, onlar onunla böyüsünlər və möhkəmlənsinlər"**.

Böyük pedaqoq möminliyin tərbiyəsində ikinci vasitəni bizi əhatə dünyada görür. Göstərir ki, həqiqi müdrikliyi kitablardan öyrənmək olmaz. Biz dünyaya –İlahi saraya ibrətlə baxmalı, gördüklərimizin həqiqi mahiyyətinə varmalıyıq. Bizə lap aşkar olan şeydə gizli bir məna yatır. Onlar İlahinin qüdrət dəlilləridir. Təbiət İlahi işlərin ən həqiqi əksi olub bizə göstərir ki, Allah nə məqsədlə yaratdı, yaradır, yaradacaq.

Komenskiyə görə, təbiətdən və Kitabdan – pansofiyanın (müdrikliyin) əsasları üçün elə normalar qurulmalıdır ki, onların köməyi ilə hər şey vahid həqiqi harmoniyaya gətirilsin. O, möminliyin tərbiyəsində üçüncü mühüm vasitə kimi insanın özünədərkini, ruhunun sirrini öyrənməyə can atmasını göstərmişdir. Doğrudan da, yaradılmış bütün şeylərin əksi içimizdədir. Dünyanın sirri özümüzdədir.

Özümüzü tanımalı, öz mahiyyətimizi dərk etməliyik. Özümüzü nə qədər dərindən tanıyırıqsa, bizi Yaradanı da bir o qədər dərindən tanıya bilərik. Komenski göstərir ki, möminliyin tərbiyəsi üçün vacib bu üç vasitədə, bu üç kitabda və ya güzgüdə Allah bilinməsi lazım gələn şeyləri bizim nəzərimizə təqdim etmişdir. Dünya bataqlığında ilişib qalmamaq üçün bu üç güzgünü ibrət güzgülərinə çevirməliyik. Böyük pansof mömin tərbiyəsinin xüsusi metodunun 21 qaydasını irəli sürüb. Bəzilərinə diqqət yetirək:

1) Erkən yaş dövründə dini tərbiyəyə başlanılmalıdır, çünki bu işi gələcəyə qoymaq təhlükəlidir. Əgər bu yaş dövründə qəlblər Allahı yada salmırsa, Allaha məhəbbətsiz keçən vaxtda qəlbə Allaha hörmətsizlik daxil olur, sonra böyük çətinliklə onu kökündən çıxarmaq olur, yaxud da mümkün olmur;

2) Uşaqlara öyrədilməlidir ki, axirətdə həyat ikilidir – cənnət və cəhənnəmdən ibarətdir. Bir çoxları məhz bu məsələdə inkarçılıq mövqeyi tuturlar. Mətləbdən uzaqlaşmadan onu qeyd etmək yerinə düşər ki, akademik Vernadski noosferanın – insan zəkalarının ölümdən sonra toplaşdığı qatın mövcudluğunu söyləyəndə xəyala yox, elmi dəlillərə, fakt və sübutlara istinad etmişdir;

3) Uşaqlara Allahın hökmünü pozmamaq, ləyaqətli yaşamaq təlqin edilməlidir;

4) Uşaqlar müqəddəs Kitabı oxumalı, Allaha xidmətdə iştirak etməlidirlər (ibadətdə, dini mərasimlərdə və s.);

5) Uşaqlar xeyirxah işlərlə məşğul olmağa həvəsləndirilməlidirlər. “Bibliya” əlifba kimi uşaqlara yaxın olmalıdır;

6) İnam, məhəbbət, ümid həyatda tətbiq üçün öyrədilməlidir. Uşaqlara başa salınmalıdır ki, işsiz, əməlsiz inam ölü inamdır. Əgər bizim inamımız pəhriz, ədalət, mərhəmət və səbr kimi gözəl keyfiyyətlər aşılamırsa, onda onun nə faydası vardır? Allaha inamımız yüksək, əqidəmiz möhkəm olmalıdır. Necə ki, İbrahim peyğəmbər (ə.) öz Vətənini tərk etməyə, öz sevimli oğlunu Allah yolunda qurban verməyə hazır idi;

7) Uşaqlara səmimi şəkildə Allaha xidməti öyrətmək lazımdır. Onlar Allaha ruhən, qəlbən itaət etməlidirlər.

Komenski kamillik yolu ilə irəliləyənlərə tövsiyə edir ki, bu yolda özündən razılığın, mənəvi təkəbbürün toruna düşməmək üçün yerdə və göydə hər cür kamilliyin zirvəsi, öz müqəddəs qanı ilə bizim günahımızı yuyan Xristosu (İsa) (ə.) köməyə çağırmaq lazımdır. O, İsa (ə.)-da müdriklik və elmin bütün xəzinəsinin gizləndiyini bildirməklə, "xristianlıqdan kənar pansofiya (müdriklik) yoxdur və ola bilməz" – deyə Müqəddəs Avqustinin (məşhur xristian ilahiyyatçısıdır) "yalnız xristianlıq həqiqi fəlsəfədir" – fikrini müdafiə edir. Ona görə də pansofiyanı xristian pansofiyası adlandırır. Hərgah Komenski bu pansofik əməkdə xristian, Məhəmmədi (müsəlman), yəhudi və ya bütpərəst, hansı icmaya mənsub olursa olsunlar – pifaqorçu, akademik (Platonçu), peripatetik (Aristotelçi), stoik, essey (yəhudi dini sektası) alimləri də toplamaq istədiyini bəyan edir. Əlbəttə, Komenski xristianlığa ən yüksək mövqe ayırmaqla xristian dini təəssübkeşliyi çərçivəsindən kənara çıxa bilməmişdir. O, sözsüz ki, "kainatın günəşi islam"la (Məhəmməd peyğəmbər (s.), Qurani-Kərimlə tanış olmamış deyildi. Məlumdur ki, xristianlıqda İsa (ə.) Allahın oğ-

lu kimi qələmə verilərək digər peyğəmbərlərdən daha üstün mövqeyə qaldırılıb (bu isə Allaha şərik qoşmaqdır, küfrdür).

Aydındır ki, Həzrət İsaya (ə.) nazil olan "İncil"də ziddiyyət və ixtilaf ola bilməzdi. Görkəmli islam alimi Ayətullah Əhməd Sabiri Həmədaninin "Xristianlığın mahiyyəti" kitabında yazdığı kimi, əsil "İncil" aradan getmişdir və mövcud dörd "İncil" İsadan sonra yazılmışdır (Bornaba "İncili"nin həqiqi "İncil" olması şübhə doğurmasa da kilsə onu oxumağı qadağan etmişdir, çünki onda islam peyğəmbəri Həzrət Məhəmməd (s.)-in gələcəyi müjdəsi verilmişdir).

Bəli, Allahın Rəsulunu Onun oğlu kimi tanımaqla İlahi həqiqəti təhrif edənlərin təsiri zaman-zaman elə güclü olmuşdur ki, Avqustin, Komenski kimi mütəfəkkirlər də bundan qurtula bilməmişlər.

Dindən kənarda tərbiyənin mümkün olmaması haqqında təkcə Komenski deyil, digər pedaqoqlar da – Fridrix Frebel, H. Spenser, Natorp, K.D.Uşinski və b. da yazmışlar. **L.Tolstoy kimi dahi demişdir: "Dinsiz mənəviyyat puçdur"**. Köksüz ağac boy atmadığı kimi dinsiz də mənəviyyat boy verməz. Mədəniyyət beşiyi qoca Şərqdə də Hegel dediyi kimi, mənəvi fundament, özül həmişə din olmuşdur. Bu gün bizim gözümüz həqiqət işığına doğru, qulağımız haqqı eşitməyə açılmışsa, əqlimiz bunları saf-çürük etməyə hazırdırsa, Komenski təliminin həqiqi mahiyyətindən çıxış etməli, məktəblərimizin həqiqi "müdriklik emalatxanasına", "mömin, xeyirxahlıq yetişdirən baxçaya" çevrilməsinə çalışmalıyıq. İnsanı insan etmək, yəni insanı tam və harmonik inkişaf etdirmək, gizli qabiliyyət-

lərini çiçəkləndirmək – bax budur humanizm, Allahabənzərliyin təsdiqi. Uşaqlarda tam dünyagörüşü formalaşdırmaq üçün pansofik təhsildə göstərildiyi kimi, ümuminsani dəyərlərə qayıtmalı, elm və din arasında “Berlin divarı”nı götürməli, müdrikliyə istiqamətləndirməliyik.

2000

## HƏSƏN BƏY ZƏRDABİNİN DİNİ-FƏLSƏFİ GÖRÜŞLƏRİ

XIX əsr Azərbaycan xalqının ictimai-siyasi, hüquqi-estetik fikrinin inkişafında mühüm dövr hesab edilir. Bu inkişafda görkəmli maarifpərvər və təbiətşünas alim Həsən bəy Zərdabinin xüsusi payı var. Sovet dövründə mütəfəkkirin həyatı, yaradıcılığı H.Hüseynov, Z.Göyüşov, Z.Məmmədov, Ş.Məmmədov, İ.Rüstəmov və başqaları tərəfindən tədqiq edilmiş, mədəniyyət tariximizdə onun mühüm rolu işıqlandırılmışdır. Təbii ki, o dövrdə marksizm-leninizm ideologiyası çərçivəsindən kənara çıxmaq olmazdı və həmin araşdırmalarda ciddi təhriflərə də yol verilmişdi. Belə ki, görkəmli mütəfəkkir materialist kimi tədqiq edilmiş, onun “Quran”a, hədisə istinad etdiyi dini fikirləri guya din xadimlərinin qəzəbinə gəlməmək üçün istifadə etdiyi vasitə, ən yaxşı halda isə dünyagörüşünün məhdud cəhəti, “dinin tam inkarı səviyyəsinə qədər yüksələ bilməməsi" kimi qələmə verilmişdir. Bu tədqiqatların təsiri fəlsəfə dərsliklərində də özünü göstərir. Bu baxımdan, H.B.Zərdabinin dünyagörüşü, irsi yeni təfəkkür işığında öyrənilməli və dərsliklərdə öz əksini tapmalıdır.

**Kimdir Həsən bəy Zərdabi?**

O, 1842-ci ildə keçmiş Göyçay qəzasının Zərdab kəndində dünyaya gəlmiş; mədrəsə, gimnaziya (Tiflisdə) təhsili aldıqdan sonra Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq şöbəsinə daxil olmuş və oranı 1865-ci ildə bitirmişdir. Təhsildə xüsusi uğuruna görə Universitet Elmi Şurası onu "təbiət elmləri namizədi" elmi dərəcəsinə layiq bilmişdir.

Həsən bəy Zərdabi dövrünün elə böyük şəxsiyyətidir ki, onun nəcib qəlbi həmişə xalqın taleyi sarıdan narahatlıqla döyünmüş, ilk xeyriyyəçilik ideyalarının carçısına çevrilmiş, yetim uşaqlara təhsil vermək məqsədilə yaratdığı xeyriyyə cəmiyyətinə pul toplamaq üçün ölkəni qarış-qarış gəzmiş, təmənnasız vəkillik fəaliyyəti ilə məşğul olmuş (o, zərdablılardan bu işinə görə pul almır; o pula "Tərcüman" qəzetini alıb məsciddə oxutdurmağı məsləhət görürdü), "Əkinçi"ni nəşr etməklə mətbuatımızın əsasını qoymuş, ziyalılarımıza bu yolda böyük örnək olmuş və Hənifə xanımın yazdığı kimi, "mükafat, şöhrət üçün yox, xalq naminə fəaliyyət göstərmişdir". Dəfələrlə həyatına təhlükə olsa da (ona güllə atılmış, evi yandırılmışdı), bu millət, fikir mücahidi mübarizədən dönməmişdi. Həsən bəyin xalqına sevgisi, ruhi əzəməti vəsiyyətindən aydın görünür: **"Sizdən xahiş edirəm: təntənəli dəfn mərasimi düzəltməyin, məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olar!"**

Mütəfəkkirin bu xidmətləri müasirləri tərəfindən yüksək dəyərləndirilmişdır. Seyid Əzim Şirvani ona 6 şeir

həsr etmiş, onu elmi-hikmətdə saniyi-Loğman (ikinci Loğman – F.R.), müəllimi-dana, “müəllimi-huşyar” adlandırmış, islam qeyrətini, millət qeyrətini çəkən kəs kimi ona Allahdan rəhmət diləmişdir:

***Gərçi, ey sərvəri-büləndməqam,***
***Sənə vacibdi qeyrəti-islam.***

Həsən bəyin əsərlərindən aydın görünür ki, o, zamanın ruhu ilə yaşayan, dünya mədəniyyətinin qabaqcıl nümayəndələrinn yaradıcılığına elmi-təbii baxışlara dərindən yiyələnən, bununla bərabər, öz dilinə, dininə, mədəniyyətinə ürəkdən bağlı olan, bu kök üstündə yüksələn mütəfəkkirdir. Onun dünyagörüşündə elmi, fəlsəfi, dini fikirlərin vəhdətini görürük. O, həqiqəti bu fikirlərin qovşağında axtarır.

Həsən bəy Zərdabi materialist alimlərdən fərqli olaraq təbiəti, insanı, dünyanı, bütövlükdə varlığı varlığın öz ayağına yazmır, Böyük Yaradana bağlayır: “Hər şey Allahdandır. Amma Allah-Təala hər şeyi yaradıb, hərəsinə bir xüsusiyyət verib ki, bu xasiyyət onda baqidir[1] (1, s.143).

Mütəfəkkir deizm nəzəriyyəsinin tərəfdarlarından fərqli olaraq bu əqidədədir ki, Allah hər an yaratdıqlarına nəzarət edir, varlığı yaradıb özbaşına buraxmayıb: **“Bəli, bizi qoruyan yalnız Allahdır və bütün ümidlərimiz də yalnız Onadır. Onun mərhəmətindən bizdə indiki zamanda heç bir epidemiya nəzərə çarpmır”[2] (2, s.123).**

“Bu il Allah bizi nəzərindən salmadı. Gur yağışlar nəticəsində bizdə məhsul yaxşıdır....” (2, s.124). Həsən bəy

---

[1] Həsən bəy Zərdabi. Seçilmiş əsərləri. Bakı: 1960
[2] Гасан бек Зардаби. Избранные статьи и письма. Баку: 1962

“Bədəni salamat saxlamaq düsturüləməli” əsərində orqanizmin sağlamlığı üçün bu gün də öz əhəmiyyətini zərrə qədər itirməmiş dəyərli məsləhətlər verir və can sağlığını Allahın böyük neməti hesab edir: **“Salamat bədən Allahın böyük nemətidir ki, hamıya verilib”** (1, s.453).

Həsən bəy əsərlərində tez-tez Allahı xatırlayır, “Allaha şükür”, “Allah eləsin”, “Allah bilir”, “bizim dinimiz”, “bizim peyğəmbərimiz”, “bizim gözəl şəriətimiz”, “mübarək Qurban bayramımız” kimi ifadələrdə öz əqidəsini aşkar şəkildə büruzə verir. Amma çox təəssüf ki, tədqiqatçılar onu təbiətşünaslığa dair fikirlərinə, xüsusən Darvinçi olmağına görə materialistlər cərgəsinə aid etmişlər. Bir şeyi qeyd edək ki, XIX əsrdə elmdə bir sıra nailiyyətlərin səhv izah olunması nəticəsində materializm bazarı rövnəq tapmışdı (hüceyrənin, elektronun kəşfi, təkamül təlimi və s.). Məsələn, materialistlər maddənin itməməsi və enerjinin çevrilməsi qanununu əldə rəhbər tutaraq deyırdilər ki, kainat yaradılmamışdır, onun Yaradıcıya ehtiyacı yoxdur: o, əzəli və əbədidir. Halbuki, Lomonosov bu cür düşüncələrə hələ xeyli əvvəl tutarlı cavab vermişdi: “Elə bir təbii başlanğıc yoxdur ki, o, Qadir Allahın – Hərəkətvericinin mövcudluğunu böyük israrla tələb etməsin”.

**“Darvin özü Allaha və dinə inanmışdı. Bir çox yazılarında da Allaha inamını bildirmişdir. Amma onun görüşləri yüz faiz Allaha zidd olaraq tanıdıldı”** [10] (3, s.77).

Darvin demişdir: **“Dünya qanunauyğunluqlarda**

---

[10] Şəhid Mürtəza Mütəhərri. Materializmə yönəlmənin əsas səbəbləri. Qum: 1992

**uyuyur və təzahürlərində Zəkanın məhsulu kimi təqdim olunur – bu, onun Yaradıcısına işarədir”.** O, təkamül nəzəriyyəsini irəli sürəndə demişdi ki, həyat başlanğıcda Yaradıcı tərəfindən çox az sayda formalarda, yaxud yalnız bir formada yaradılmışdır. Deməli, Darvin təkamül dedikdə yaradılmış formaların (və ya formanın) təkamülünü nəzərdə tutmuşdur. Amma materialistlər bu fikrin üstündən keçib həyatın özbaşına yaranmasını ideyasını yaydılar. Ümumiyyətlə, Darvin təlimi bir fərziyyə təsiri bağışlayır. Bu təlim yalnız bir növ daxilində inkişafı izah etmək gücündədir. Təbii seçmə, mutasiya (təsadüf dəyişikliklər) növlərin necə meydana çıxmasını izah edə bilmir. Növlər arasında aralıq pillə tapılmayıb. Son vaxtlar vahid yaradılış nəzəriyyəsi - yəni növlərin hamısının ayrılıqda Yaradıcı tərəfindən yaradılması irəli sürülmüşdür.

Zərdabi də yuxarıda qeyd etdiyimiz kimi, bütün varlıqların yaranışını Allaha bağlayır. O, təkamülü qəbul etsə belə, materialistlərlə heç bir fikir birliyinə malik deyil. O, Lomonosov kimi varlığın təbii-elmi və ilahiyyatçı izahını bir-birindən ayırmır.

Məlumdur ki, dinimizin əqidə əsaslarından biri də məaddır, yəni axirətin mövcudluğuna, Qiyamətdə ölülərin dirilməsinə, əməllərinə görə hesab verməlməsinə olan inamdır. Həsən bəy Qiyamətə də, Qiyamətdə Rəsuli- Əkrəmin (Əleyhissəlam) öz hümməti üçün şəfaətinə də etiqad bəsləyir: **“Ey millət təəssübü çəkən qardaşlar, aləmi-məhşərdə “va millətə” - deyən ancaq bizim peyğəmbər olacaq”** (1, s.92).

O, “va nəfsa” – deyib nəfsinə xidmət edən, elm adamlarını incidərək milləti kor qoyan müsəlmanları öz

peyğəmbərlərindən nümunə götürməyə səsləyir.

Ümumiyyətlə, Zərdabinin Rəsuli-Əkrəmə (Əleyhis-səlam) böyük məhəbbəti, ehtiramı yaradıcılığı boyu özünü göstərir: **“...qəzetin muradı xalqın gözünü açmaqdır, ona binaən Peyğəmbər əleyhissəlamın 1293 il əməl olunmayan qövlünü xalqa bəyan etmək qəzetə vacib-dir”** (1, s.88). H.Ə.Zərdabi Peyğəmbər kəlamını öz missi-yasında rəhbər tutur, onu hökm kimi qəbul edir: **“...bizə hökm olub ki: “deyin sözün doğrusunu, acı da olsa”** (1, s.89).

Mütəfəkkir “Dil və din” məqaləsində dili və dini mil-lətin mövcudluğunun iki əsası hesab edir: **“...dil və məz-həb (dini nəzərdə tutur – F.R.) tayfanın ruhu kimidir. Necə ki, ruh çıxanda bədəndən bircə nəş, yəni cəmdək qalır və bu cəmdək mirur ilə çürüyüb yox olur, habelə dilsiz və məzhəbsiz tayfa da gərək mirur ilə yox olsun. Pəs hər tayfa elm təhsil edən vaxtlarda gərək öz dilində və öz din məzhəbində tərəqqi eləsin ki, dünyada qala bilsin”** (1, s. 237).

Həsən bəyin bu çağrısı qloballaşan dünyada xüsusilə aktualdır. Öz varlığını, simanı qoruyub saxlamaq istəyir-sənsə, kökündən ayrılma, dilinə, dininə möhkəm bağlan! Bu yaxınlarda islamçılıq rəmzinə qarşı yönələn açıq etiraz göstərdi ki, hələ də sovet eynəyindən baxaraq islamı tərəq-qiyə düşmən hesab edənlər var. Hər kəs bilmədiyinin düş-mənidir axı. Həsən bəyin aşağıdakı fikirləri təkcə islam düşmənlərinə deyil, həm də bu düşmənlərə züy tutanlara qarşı yönəlib: “Biz müsəlmanların dünya işini soyuq tut-mağa bizim məzhəbimiz səbəb deyi ki, onu xaricilər biz-lərə böhtan deyirlər. Cənab Şeyxülislamın bu nömrədə çap

olunan məktubunu oxuyana bəlli olur ki, bizim peyğəmbərimiz öz ümmətini irəli salmaqdan ötrü onlara hökm edib ki, hər bir elmi təhsil etsinlər.” H.B.Zərdabi islam ölkələrinin Avropa ilə müqayisədə geri qalmasının səbəblərini araşdıran alman şərqşünası və səyyahı Vamberinin fikirlərini təhlil edir və təsdiqləyir ki, “o vaxt (islamın ilk çağlarında – F.R.) islamda olan hükəmalar heç bir məmləkətdə yox idi”.

Yeri gəlmişkən, bu fikri Qustav Lebon, Vil Dürant kimi vicdanlı Qərb tədqiqatçıları da təsdiqləyir. Q.Lebon deyir: **“Əziləri (avropalılar) bunu etiraf etməyi ar bilirlər ki, kafir və dinsiz bir tayfa (yəni müsəlmanlar) xristian Avropanın vəhşilik və cəhalətdən xilas olmasına səbəb olmuşdur”**[*]. V.Dürant yazır: **“İslam...beş əsr ərzində qüdrət, nizam, ərazi genişliyi, gözəl əxlaq, həyat səviyyəsinin yüksəkliyi, humanist qanunlar, dini dözümlülük, ədəbiyyat, elm, tibb və fəlsəfə baxımından dünya xalqlarının avanqardı idi”**[**].

Mütəfəkkir islam ölkələrindəki tənəzzülü “xalqı yoxsul və sərgərdan edib özləri keyf və ləzzətli dünyayla məşğul olan”, “xalqı üçün məktəbxanalar açmayan”, xalqı elm yolundan uzağa salan” soltanların, şahların, xanların idarəçilik fəaliyyəti ilə bağlayan Vamberinin qənaətini bölüşür. Əlbəttə, islam dövlətlərinin əzəmətli inkişafından sonra tənəzzül səbəblərinin araşdırılması bu gün də aktualdır. Burada müsəlmanların islami həyat tərzindən uzaqlaşması da, dinlə elm arasında vəhdətin pozulması da, is-

---

[*] Q.Lebon. İslam və ərəb mədəniyyəti

[**] V.Dürant. Mədəniyyət tarixi.

lam düşmənlərinin məqsədyönlü fəaliyyəti də öz rolunu oynamışdır. Amma gözümüzü yumub günəşi öz nurunu saçmamaqda qınaya bilmərik. İslam günəşi yenə də nur saçmağındadır, yetər ki, üzümüzü o nura sarı çevirək.

Mütəfəkkir həqiqi səadət yolunu elmdə görür və "beş günlük dünyada elm öyrənməyə səy etmək nə lazım" - deyənləri ayıltmağa çalışırdı ki, "dünyası olmayanın axirəti olmaz". O yazırdı: **"Ey qardaşlar, vaxtı keçməmiş səy edin ki, elm təhsil edib zindəganlıq cəngində (yaşamaq uğrunda mübarizədə – F.R.) faiq gəlib dünya və axirəti kəsb edə biləsiniz" (1, s.106)**.

Bu fikirlər də Peyğəmbər (Əleyhissəlam) kəlamından qaynaqlanmışdır: "Əgər hər iki dünyanı istəyirsinizsə, elm dalınca gedin". Zərdabi elmlə dinin münasibəti məsələsinə də aydınlıq gətirmiş, onları vəhdətdə götürmüş, elmi dinə zidd, Allahın sirrinə əl atmaq kimi qiymətləndirənlərin fikirlərini əsassız hesab edərək yazmışdır: **"Əsil din işıq-dan (elmdən – F.R.) qorxmaz. Hətta dəxi artıq işıqlanıb şəfəqi dəxi uzağa gedər. Pəs elm təhsil etməkdən din əl-dən getməz"** (1, s.243). O göstərirdi ki, dünya və onun qanunauyğunluqlarının dərki, hadisə və proseslərin elmi izahı Allahın sirrinə əl atmaq, onun işinə qarışmaq deyil, əksinə, Onun qüdrət və əzəmətinin təsdiqidir: **"Bu xasiyyəti (Allah yaratdığı hər şeyin xasiyyətini – F.R.) elm-hikmət ilə axtarıb tapmaq əsrarı-Xudaya əl aparmaq deyil, bəlkə bu yol ilə Xudavəndi-aləmin qüdrəti dəxi artacaq sübut olur"** (1, s.143). Bu fikirlər son dövrün böyük alimlərinin fikri ilə səslənir. Eynşteyn, Əbdussalam, M.Plank, C.Tomson, N.Bor, M.Born, Heyzenberq kimi alimlər etiraf etmişlər ki, elmlə dərindən

məşğul olduqca Yaradıcının qüdrətini aydın dərk etmişlər. Nobel mükafatçısı, pakistanlı fizik Əbdussalam bu mükafatı alanda öz çıxışına "Quran"dan misal gətirdiyi ayə ilə başlamış və demişdi: **"Əgər fizika elminin islamla heç bir əlaqəsi yoxdur" – desəniz, fizika elmini islamın nəzərində öldürmüş olarsınız"**. Eynşteynin: **"Dinsiz elm axsayır"**, Lomonosovun: **"Elmlə din əkiz bacıdır"** fikirləri Rəsuli-Əkrəm (Əleyhissəlam) kəlamının neçə əsrdən sonra əks-sədasıdır: **"Elmlə din əkiz qardaşdır; onlar bir-birindən ayrılsalar, cəmiyyət yanıb kül olar"**.

Mütəfəkkir şəriət hökmlərinin yerinə yetirilməsini insanlıq duyğularını korşaldan, ağıl nurunu söndürən nəfsi istəkləri cilovlamaqda mühüm vasitə hesabı edirdi: **"Pəs bizim müsəlmanların tiryək atan, vəng yeyən, şərab içən kəsləri, siz adət elədiyiniz şeylər zəhər imişlər. Onlar sizin beyninizi və bədəninizi tələf edib, sizi fövtə verirmişlər. Belə olan surətdə "şərab və qumar haramdır, şeytan işidir" - ayəsini yaddan çıxartmayıb istiğfar etmək vacib imiş" (1, s.72-73)**.

H.B.Zərdabi insan, onun dünyada yeri və məqsədi, cəmiyyətdə borcu və vəzifələri kimi ənənəvi fəlsəfi məsələlərə də öz münasibətini bildirmişdir. O, insana cismin və ruhun vəhdəti kimi baxır: **"Necə ki, insan cisimdən və ruhdan mürəkkəbdir və bunların hər birisi əlahiddə şeydir, amma onların bir yerdə olmağı həyata bais olur"** (1, s.100) **və yaxud "Necə ki, ruh çıxanda bədəndə bircə nəş, yəni cəmdək qalır..."** (1, s. 237). Bu baxış dini-fəlsəfi baxışdır - o, ruhu həyatverici qüvvə hesab edir.

Mütəfəkkir ilahiyyat fəlsəfəsində "təfəkkür düyünü" adlanan, çoxlu mübahisələr doğuran qəzavü-qədərlə bağlı

da fikrini bildirmiş, sərbəst iradənin, insan azadlığının çevrəsini cızmağa çalışmışdır: **"...biz öz bacarıqsızlığımızı və zəifliyimizi Tanrının ayağına yazırıq. Biz daim təkrarlayırıq ki, hər şey Tanrının yazdığı kimi olacaq, hər bir insanın taleyi onun alnına yazılıb. Lakin biz bilməliyik ki, hər bir insanın xoşbəxtliyi onun enerjisindən, istəyindən, arzusundan və zəhmətsevərliyindən asılıdır"**[*].

Məlumdur ki, fatalizm tərəfdarları insan həyatında iradənin rolunu inkar edir. Buradan belə çıxır ki, insan oyuncaqdır, onu hər cür günaha da Allah yönəldir. Bu, pak, ulu, adil Allahdan necə baş verə bilər? **- "Allah pis işlərə əmr etməz..." ("Əraf" surəsi, 28)**. Yeri gəlmişkən, A.A.Bakıxanov da H.B.Zərdabi kimi insan xoşbəxtliyini onun öz səyində, çalışmasında görür və "Quran" ayəsinə istinad edir: **"Səysiz və çalışmadan heç bir iş mümkün olmaz. Əməllərin nəticəsi Allahın hikmətinə bağlıdır", "İnsan üçün səydən başqa bir şey yoxdur"** – ayəsinə müvafiq surətdə insan çalışmalıdır ("Əxlaqın islahı").

Göründüyü kimi, görkəmli mütəfəkkirin zəngin dünyagörüşü, irsi ciddi tədqiqatını gözləyir.

2008

[*] "Əkinçi", 21.III.1877

# M.V.LOMONOSOV ELM VƏ DİNİN VƏHDƏTİ HAQQINDA

Görkəmli fizik Maks Plank demişdir: **“Dəqiq elm heç bir vaxt metafizik mənada real olansız keçinə bilməz”**. Bəşər əqlin dərk edə bilmədiyi məsələlərə, insan təbiətinin sorğularına cavabı əsrlər boyu dində axtarmamışdırmı? Hərgah biz sovet dövründə dinin təbiət qüvvələrinin qarşısında acizlik, qorxu nəticəsində yaranan insan şüurunun məhsulu kimi, avam adamların düşüncə tərzi kimi qiymətləndirilməyinin şahidiyik. Bu dövrdə bütün varlığıyla dinə bağlı olan mütəfəkkirlərin əsərlərində mütləq ateist fikirlər “tapılır”, onları ateistlər cərgəsinə qatırdılar. Elə haqqında söhbət açacağımız böyük rus alimi M.V.Lomonosov da bu “bölgü”dən yan qaça bilməmişdi. Onu bizə elə təqdim ediblər ki, hələ də bəzi ateistlər onun adının arxasında gizlənməyə cəhd edirlər. Artıq elə bir zamandayıq ki, hər şeyə həqiqət eynəyi ilə baxmalıyıq. Bu gün biz fizik Kelvinin bu fikrinin nə qədər doğru olduğunu etiraf etməliyik: **“Elmin sirlərinə nə qədər dərindən bələd olsaq, Allahı bir o qədər dərindən tanımış olarıq”**. Necə ki, Şərqin Biruni, Tusi, Fərabi, İbn Sina kimi mütəfəkkirləri elmin dərin qatlarına nüfuz etdikcə, kainatın yaradıcısının qüdrət dəlillərinin hikmətini anladıqca, onun əzəmətini etiraf etmişlər.

M.V.Lomonosovun baxışları da öz böyük sələflərinin baxışlarıyla səsləşir. Onun Yaradanın qüdrətinə münasibəti insanı riqqətə gətirir. O yazır: “Yaradan insan nəslinə 2 kitab verib. Birində öz əzəmətini, digərində isə iradəsini göstərmişdir. Birincisi, Onun yaratdığı bu dünyadır ki,

insan onun binasının nəhəngliyi, gözəlliyi və mütənasibliyinə baxaraq İlahi qüdrəti özünə pay verilmiş anlayışlar səviyyəsində etiraf etsin. İkinci kitab – Müqəddəs Yazıdır. Onda bizim xilasımız üçün İlahi xeyirxahlıq öz əksini tapmışdır (M.V.Lomonosov, “Seçilmiş əsərləri", I cild, səh. 336 (rusca)). Göründüyü kimi, Lomonosov İlahini dərk etmək üçün 2 kitabı – Kainat kitabını və Müqəddəs Yazını (İncil) oxumağı məsləhət görür. Kainat Yaradanın ayələr – dəlillər toplusudur. Baş rəssam bu sərgini sözlər üçün açıq oxuyub. Bax, zövq al, düşün, dərk elə, ibrət al, əməllərini düzəlt, qəlbini, ruhunu saflaşdır... Bəsirət gözü açıq olan, bar şeyə qəlbinin gözü ilə baxan insan bu rəngarəngliyin, çoxcəhətliyin, tarazlığın, möhkəm, ayrılmaz əlaqənin əsasında İlahi iradəsinin durduğunu etiraf edir. Necə ki, Lomonosovun digər böyük sələfi Şeyx Nizami yazmışdır:

***Bircə qarışqanın qanadında sən,***
***Tanrı qüdrətini görə bilərsən.***

Məlumdur ki, ayrı-ayrı dövrlərdə dinlə elmi qarşı-qarşıya qoymağa cəhd edənlər də olub. Lomonosov dinlə elmi “əkiz bacılar” adlandıraraq yazır ki, onlar arasında heç zaman münaqişə ola bilməz. Şöhrətpərəstlik, “müdriklik” azarına tutulanlardan bəzilərinin buna cəhd etməsi günahdır. Alimin yuxarıdakı fikri Həzrət Məhəmməd (ə.)-ın aşağıdakı kəlamı ilə səsləşir: **“Din və elm əkiz qardaşlardır. Onlar bir-birindən ayrı düşsələr, cəmiyyət yanıb kül olar”**. Allaha inam, iman dərindən dərk edilmiş biliklə sıx qovuşanda həqiqət qarşımızda cilvələnir. Din məhəbbətdir, xeyirxahlıqdır, əxlaqdır. Bu üç keyfiyyətin biliklə bir yerdə olması insanı yüksək məqama qaldırır. Cəmiyyət

elmi-texniki tərəqqinin zirvəsinə çatsa belə, dindən uzaq düşərsə, İlahi qanunlar pozularsa, o cəmiyyət gec-tez məhvə məhkumdur. Məhv olan böyük sivilizasiyaların taleyi bizi keçmişə – ibrət aynasına baxmağa, dərs almağa səsləmirmi?

Lomonosov kainatın təbii-elmi və ilahiyyatçı izahını bir-birindən ayırmır, onları uzlaşdırmağa çalışır. O, bəzi cahil kilsə nümayəndələrini də, dar düşüncəli alimləri də tənqid edir. Onun fikrincə, konkret elmi problemlərin həllini həmişə dini prinsiplərə əsaslanmaqla həll etmək olmaz. Elmin də imkanları, dərketmənin çərçivəsi məhduddur. Əqlin çatmadığı aləmi laboratoriyaya gətirmək olmaz. Alim yazır: **"İlahi iradəni pərgarla ölçmək istəyən riyaziyyatçı da, psaltır üzrə astronomiyanı, yaxud kimyanı öyrənməyi düşünən ilahiyyatçı da sağlam düşüncəli deyil"** (yenə həmin səhifədə).

Aləmin maddi vəhdətini cisimlərin atom-molekulyar quruluşa malik olması ilə izah edən alim onun baxışlarına düzgün qiymət verməyənlərə belə cavab verir: "Çoxlarında dərin inam kök salmışdır ki, atoma əsaslananların fəlsəfi metodunda ya şeylərin meydana gəlməsinin izahını verməyi bacarmırlar, ya da ki nə qədər bacarırlar Yaradıcını – Allahı inkar edirlər. Söz yox ki, onlar dərin səhvə yol verirlər, çünki bir təbii başlanğıc yoxdur ki, materiyanın və hərəkətin mahiyyətini aydın və dolğun şəkildə izah etsin. Elə bir təbii başlanğıc da yoxdur ki, o, Qadir Allahın – Hərəkətvericinin mövcudluğunu böyük israrla tələb etməsin" (M.V.Lomonosov, "Seçilmiş fəlsəfi əsərləri", səh.93) (rusca)). O, Yaradana "Baş qurucu", "Baş Memar" kimi müraciət edir.

Lomonosov dünyanın, kainatın, vəhdətini dərk edərək ona qırıq yox, bütöv, tam baxışa səsləyir. Həqiqəti elmin, fəlsəfənin, dinin qovşağında axtarmağa çağırır. Bu, bizim üçün örnəkdir.

## ELMLƏ DİNİMİZİN VƏHDƏTİNƏ DAİR

Bəşəriyyət tarixində elmlə din arasında münasibət məsələsinə baxış heç də həmişə birmənalı olmamışdır. Bəzi fikir sahibləri onları qarşı-qarşıya qoymuş, bəziləri isə onların vəhdəti mövqeyindən çıxış etmişlər.

Sovet siyasi-ictimai quruluşunun yaratdığı ateizm abhavası isə təkcə keçmiş SSRİ-də deyil, sosializm sistemi ölkələrində də elmlə din arasında dərin bir uçurum yaratmış, qarşılıqlı anlaşmaya doğru heç bir addım atılmamışdır.

İslam dininin müqəddəs Kitabı Qurani-Kərim təkcə iman, əxlaq, öyüd-nəsihət deyil, həm də hikmət, elm qaynağıdır. "Qur'an"da "elm" kəlməsi 779 dəfə işlənmiş, elmə yiyələnib, onu başqalarına öyrədənlərin Allah Dərgahında yüksək dərəcələrə malik olmaları bildirilmişdir. İslamda cəmiyyətə, şəriətə aid bəzi məsələlərdə zaman, məkan, cinsi və fərdi baxımdan məhdudiyyət qoyulsa da, elm sahəsində heç bir hədd qoyulmamış, ona daha geniş meydan verilmişdir. Peyğəmbərimiz **Həzrət Məhəmməd (ə.) buyurmuşdur: "Elmi beşikdən qəbrədək öyrənin"**. Bu fikri rəhbər tutan islam ölkələrində elmlə din həmişə qoşa addımlamışdır (Əlbəttə, dini inkar edən ayrı-ayrı elm adamları həmişə olmuş, indi də vardır). Fərabi, Xarəzmi, İbn-Sina, Nəsirəddin Tusi, Bəhmənyar, kimyaçı Cabir ibn Xəy-

yam, riyaziyyatçı İbn-Hasim ilk təhsillərini mədrəsələrdə almışlar. Mədrəsələrdə təkcə dini yox, həm də dünyəvi biliklər öyrədilirdi.

Xaqani, Nizami, Füzuli, Nəsimi, Sədi, Hafiz, Marağalı Əvhədi, Dədə Ələsgər islamın qüdrətli elm xəzinəsindən faydalanmışlar. O dövrdə bəşəriyyət məhz islam ölkələrinin bilik xəzinəsindən əsaslı şəkildə bəhrələnirdi. Bu gün bu dövlətlərin Avropa ölkələrindən inkişafca geri qalmasının səbəbini dinimizin buxov olmasında görən bəzi alimlər bu faktları dərindən öyrənməlidirlər. Yuxarıda qeyd etdiyimiz kimi, islam dini həmişə elmə, maarifə səsləmişdir. Allah-Təalaya əsl ibadət və itaət elmsiz ola bilməz. **N.Nərimanov yazmışdır: "İslam əqilli və təbii bir dindir; heç bir elmdən qorxmaz. Elmə yavuq olduqca, yəqin ki, islama yaxın olacaqsan. Ancaq bir şərtlə ki, elmləri oxuyan şəxs gərəkdir əvvəl öz dilini və dinini bilsin"**.

Elmin dərinliklərinə nə qədər dərindən baş vura bilsək, Allahı bir o qədər yaxından tanıya bilərik. Yeri gəlmişkən, qeyd edək ki, "Quran"ın "Allahın yanındakı bir gün sizin min ilinizə bərabərdir" – ayəsi Eynşteynin nisbilik nəzəriyyəsi ilə elmi cəhətdən əsaslandırılmışdır.

Bu gün mənəvi böhran keçirən cəmiyyətimizdə dinimizin qarşısında hər bir fərdin daxili aləmində uca Rəbbimizə doğru, islam maarifinə doğru dönüş yaratmaq missiyası durur. Hələlik bu sahədəki nəzarətsizlikdən və boşluqdan istifadə edən xarici missionerlər dini təxribatla məşğul olur, ayrı-ayrı şəxsləri öz dinlərindən döndərir, eyni millətin övladlarını qarşı-qarşıya qoyur, vəhdətimizi pozurlar. Belə qara qüvvələri cilovlamaq üçün dövlət sə-

viyyəsində dini təhlükəsizlik konsepsiyası hazırlanmalı və həyata keçirilməlidir. Hər şeydən əvvəl, mətbuatda, televiziyada dinimizin elmi şəkildə təbliğinə geniş yer verilməlidir. Bu gün orta məktəb kursuna "islam əxlaqı" fənninin salınması xüsusilə zəruridir. Onun başqa fənlərlə əlaqəli şəkildə tədrisi şagirdlərdə elmi-dini təfəkkürün formalaşmasında ilkin mərhələ rolunu oynaya bilər.

Respublikamızın gələcəyi saf əxlaqlı, yüksək elmi dünyagörüşlü gənclərin yetişdirilməsindən asılıdır. İnanırıq ki, bu şərəfli işdə elmimiz və dinimiz çiyin-çiyinə addımlayacaq, kamil cəmiyyət quruculuğunda öz töhfələrini verəcəkdir.

1996

## RUH FƏLSƏFƏSİ*

Bismilləhir Rahmənir Rahim!

**Ruhsuz qalan fəlsəfə**

Böyük mütəfəkkirlərdən, demək olar ki, heç biri öz axtarışlarında ruh problemindən yan keçməyib. Bu haqda çoxlu sayda fikirlər söylənilib, elmi əsərlər yazılıb. Aristotelin "Ruh haqqında" əsəri bu gün də məşhurdur. O yazıb: **"...Ruhun dərki hər bir həqiqətin, xüsusən də təbiətin dərkinə çox kömək edir. Axı ruh bir növ canlı varlıqların başlanğıcıdır"**.

Doğrudan da, canlı varlıqların şahı olan insanın təkcə bioloji və sosial cəhətdən deyil, ruhi-mənəvi cəhətdən də təbiətini öyrənmədən onun kimliyini dərk etmək mümkün

* Həmmüəllif: ilahiyyatçı Hacı Adil Hüseynov

deyil. Əsrlər boyu düşünən ərlər insanın fiziki və ruhi təbiətini bir-birindən ayırmamış, vəhdətdə baxmışlar. Acı həqiqətdir ki, Rusiyada bolşeviklərin hakimiyyət çevrilişindən sonra ruh da ideoloji qadağaya məruz qaldı, dindarların uydurması kimi kənara atıldı. Onun yerini elmdə "psixika", "şüur" tutdu. Müasirimiz görkəmli rus filosofu A.Q.Spirkinin dediyi kimi "fəlsəfə də, psixologiya da ruhsuz qaldı". Halbuki, şüur ruhun tərkib hissəsidir. Ruh bütöv varlıq kimi özündə şüuru, iradəni, hiss-duyğuları birləşdirir. Bu haqda Platon da yazıb.

**Ruhların əhd-peymanı**

Platonun maraqlı bir fikri var: ruhlar bədəndən qabaq mövcud olublar. Buna Qurani-Kərimdə də işarə olunmuşdur: "Adəm oğullarının bellərindən gələn nəsli vücuda yetirdi sənin Rəbbin. Və onları şahid tutaraq "Mən sizin Rəbbiniz deyiləmmi məgər?" – dedi. "Bəli, biz buna şahidik"– dedilər. Baxın, Qiyamət günü deməyəsiniz "Biz bundan xəbərsiz idik" ("Əraf" surəsi, 172-ci ayə.). Həmin gün misaq (əhd) günü adlanır.

Beləliklə, eşq-İlahiyə məhəbbət əzəlidir, ruhumuz əzəldən İlahiyə bağlıdır. Əhd-peyman bağlamışıq axı. Yunis İmrə deyir:

***Çoxlar Yunusa der ki,***
***Eşqin əsiri olma,***
***Hedim, əzəl binadan***
***Böylə çalınmış qələm.***

**Tənasüx nədir?**

İnsanı həmişə bu sual düşündürmüşdür: ölümdən sonra həyat varmı; varsa necədir. Qədim Misirdə belə bir

inam vardı ki, insan öləndən sonra onun ruhu karma körpüsünə gedir. Orada pis insanların ruhları cəzalanaraq qaranlıqlar aləminə, yaxşı insanların ruhları isə Ozris çəmənliyinə daxil olurlar. Beləliklə, üç min il orada qaldıqdan sonra yenidən öz bədənlərinə qayıdırlar. Arxeoloji qazıntılar nəticəsində tapılan mumiyalar həmin dünyagörüşün məhsuludur. Onlar belə hesab edirdilər ki, ruh təzədən bədənə qayıdarkən bədən çürümüş olarsa, o, belə bədəndən imtina edir və yenidən Ozris çəmənliyinə qayıdır, orada əbədi qalır. Guya mumiyalanmış bədənlər çürümədiyindən ruhlar onlara rahat keçirlər. Qədim ərəblərdə buna baxış ibtidai insan təfəkküründə qalsa da, o dövrün ərəb psixologiyasına uyğun fərqlər də mövcud idi. Ərəblər belə düşünürdülər ki, qətlə yetirilmiş şəxsin ruhu Humə adlı bir quşa çevrilir, öz qəbri ətrafında yuva bağlayır və həmişə qanadlarını bir-birinə çırparaq qışqırır: “uqsuni”, “uqsuni”. Yəni ki, məni öz qatilimin qanı ilə sirab edin. Əgər mənim intiqamımı almasanız, sakit olmayacağam!

Digər xalqlarda da ruhların bir bədəndən digər bədənə, heyvana və ya bitkiyə keçməsi haqda təsəvvürlər vardır. Buna tənasüx (reinkarnasiya) deyilir. “Ensiklopediya mistiçeskix terminov” (Moskva, 1998, səh.415) kitabında oxuyuruq: “İnduizmin, buddizmin və caynizmin əsas müddəalarından biri belədir ki, bizlərdən heç kəs həmişəlik ölmür. Müəyyən müddətdən sonra ruhlarımız dünyaya yeni bədəndə gəlir, yeni əzablara məruz qalır, sonra təzədən ölür və yenidən həyata gəlir. Biz kamilləşənədək və sonsuz doğum-ölüm zəncirini qıranadək bu hal davam edir. Qeyrikamil ruh özünün keçmiş reinkarnasiyalarını xatırlamır və

özünə lazımi bədən də verməyə qadir deyil, hər şeyi əvvəlki həyatlarında topladığı karma həll edir".

Tənasüx Avropa mədəniyyətində də geniş yayılmış, hətta axirət dünyası haqqında xristian ənənələrini belə sıxışdırmışdır. Avropada din xadimləri, alimlər bu haqda öz fikirlərini ya söyləmir, ya da tərəddüdlə danışırlar. Nə gizlədək, tənasüx haqda kifayət qədər kitabın Azərbaycana da daxil olması soydaşlarımız arasında da fikir çaşqınlığına səbəb olmuş, bir çoxu bu əqidənin təsiri altına düşmüşdür.

**İslam tənasüx haqqında**

Elm-məntiq dini olan islam, "bu cür xürafatlara məntiqi cavab vermiş, əqli və nəqli dəlillərlə insanın ölümdən sonra başqa bir aləmə getməsini və Qiyamət gününədək orada – bərzəx aləmində qalmasını sübut etmiş, Qiyamət günü isə yenidən dirilərək dünyada gördükləri işlərə görə cavab verəcəyini bəyan etmişdir" (Əllamə Seyyid Məmmədhüseyn Təbatəbai "Təfsir Əl-Mizan" ("Həcc" surəsinin təfsiri).

Qurani-Kərimin "Muminun" surəsinin 99, 100-cü ayələrində deyilir: **"Onlardan hər kimi ölüm haqlayarsa, deyər: "Rəbbim, geriyə qaytar məni" (99)**. **Yarımçıq qoyduğum işimi tamamlaram, yaxşı işlər görərəm. Bir sözdür deyir o, deməyin nə faydası? Diriləcəkləri günə qədər bir maneə dayanar onların arxasında" (100)**. "Maneə" dedikdə bərzəx aləmi nəzərdə tutulur. Ayənin məzmunundan belə məlum olur ki, insanlardan bəziləri öləndən sonra dünyadakı nalayiq işlərinə görə, peşiman olarlar, yenidən dünyaya qayıtmaq istərlər, amma rədd cavabı alarlar, Qiyamətədək bərzəx aləmində qalarlar.

Nəsirəddin Tusinin fikrincə, tənasüxlə bağlı fikirlərə məntiqi nöqteyi-nəzərdən yanaşanda bir sıra təzadlı nəticələrlə rastlaşırıq. Bütün dini dünyagörüşlərində insanların öz əməllərinə görə cəza və ya mükafat almaları iddia edilir. Məhz elə bu fikrin özü tənasüxün mövcudluğu ilə ziddiyyətli mövqedə durur. Yəni əgər bir insan yaxşı işlər gördüyü üçün mükafat alaraq başqa bir insan bədənində yenidən dünyaya gəlirsə, bu zaman o, ya yaxşı insan olmaq məcburiyyətində qalmalı, ya da ixtiyari olaraq yaşamalıdır. Birinci halda belə nəticə çıxır ki, tənasüx nəticəsində dünyada pis insan mövcud olmamalıdır. Çünki insanların bədəninə yalnız yaxşı insanların ruhu daxil ola bilər. Pis insanların ruhları isə pis varlıqlara, vəhşi heyvanlara, bitkilərə və s. daxil olurlar. Ona görə də pis insan dünyaya gəlməməlidir.

Digər tərəfdən, başqa məxluqlardan fərqli olaraq insanlara verilmiş ixtiyar, sərbəst iradə də onlardan alınmış olur, yəni insan həmişə yaxşı işlər görmək məcburiyyətində qalır. İkinci halda isə (yəni sərbəst buraxıldıqda) yaxşı iş əvəzində mükafat almış insan yeni bədəndə ixtiyar sahibi olduğu üçün pis işlər gördüyü halda daha sonrakı bədəndə anlaşılmaz bir vəziyyətdə qalır. Çünki bu zaman o, insan bədininə daxil olursa, pis əməllər sahibi olduğu halda mükafat almış olur. Bu isə tənasüx qanununun pozulmasıdır. Əgər o, cəza əlaməti olaraq vəhşi heyvan bədəninə daxil olsa, əvvəlki bədənində yaxşı işlər gördüyü halda indi cəza aldığı üçün yenə tənasüx qanununu pozmuş olacaqdır. Hər iki halda insan əməllərinin nəticəsinə görə təzadlı vəziyyətlərlə üzləşməli olduğu meydana çıxır. Bu da tənasüxün öz qanunlarına görə düzgün deyildir (Xacə Nəsi-

rəddin Tusi. “Kəşful Murad”). Qurani-Kərimdə Allah-Təala buyurur: **“Siz ölü idiniz; sizi Allah diriltdi, sonra yenə öldürəcək, sonra yenə dirildəcək və sonra Ona tərəf qayıdacaqsınız” (“Bəqərə” surəsi, 28-ci ayə)**. Bu ayədən göründüyü kimi, islam dini tənasüxü qəti surətdə rədd edir və insanlar üçün yalnız bir bədənin olmasını, o bədənin əzəldən yox olduğu halda (“siz ölü idiniz”) vara çevrilməsini, sonra həyat tamam olarkən ölməsini, nəhayət, Qiyamət günü yenidən diriləcəyini, öz layiqli mükafatını və ya cəzasını alıb, Allaha tərəf gedəcəyini bəyan edir. Beləliklə, insanın sonsuz sayda yox, bir dəfə ölüb-diriləcəyini qəbul etməliyik. Əhli-Beyt məktəbində qəbul olunan rəcət əqidəsinə görə, İmam Zaman (ə.) zühur edəndə bir qrup mömin yenidən diriləcək və Ağaya qoşulacaqlar. Bu, istisnadır. Daha ruhun quşa çevrilməsi kimi xürafatlarla əqli tora salmaq olmaz. Necə ki, Həzrət Məhəmməd Əleyhissəlama Humə quşu barədə sual verdikdə o buyurmuşdur: “Humə adlı şey mövcud deyildir” (hədis “Səhihi-Buxari”, Əzələddin İbni Əsir “Əl-kamilu fit-tarix” (“Tarixi-kamil”). Bu mübarək hədis də bir daha tənasüxün batil əqidə olmasını və insan ruhunun yalnız insan bədənində mövcud olmasını nəqli surətdə isbat edir (yuxarıda biz əqli-məntiqi dəlillərə istinad etdik).

# YUXUGÖRMƏ RUHUN VARLIĞINA DƏLİLDİR

Bismilləhir Rahmənir Rahim

Hər bir insan ömrünün, təxminən, üçdə birini yuxu vəziyyətində keçirir. Bu zaman onunla nə baş verməsi, yuxugörmənin necə yaranması, onun mahiyyəti bəşər nəslini həmişə düşündürmüşdür. İnsanın daxili dünyasına nufuz etməyə, yuxugörmə kimi sirli aləmin üstündən pərdəni götürməyə cəhd edənlər az olmamışdır. Bununla bağlı bir sıra fikirlər, nəzəriyyələr meydana gəlmişdir.

## Elmi yalnışlıq, yoxsa...

Bizə orta məktəbdən tanış olan elmi müddəaya görə, yuxu zamanı beyin qabığının tam tormozlanmaması və qabıqaltı nüvələrin fəallığı nəticəsində yuxugörmə baş verir. Bu fikrə görə, yuxugörmə sadəcə olaraq həyatda olmuş hadisələrin bir qədər dəyişdirilmiş təkrarıdır. Ayıq halda insanın fikrini və hisslərini həyacanlandıran obraz və təsəvvürlər yuxugörmə zamanı qeyri-ixtiyari olaraq insan beynində canlanır. Əlbəttə, yuxugörmənin səbəbinin bu şəkildə mexaniki izahı materialist düşüncənin məhsuludur. Bu düşüncəyə görə, fikir, şüur yüksək quruluşlu materiyanın – insan beyninin xassəsidir. Ancaq bir sıra faktlar var ki, ağır beyin zədələri keçirənlər, beyin şöbələri demək olar ki, öz funksiyalarını itirmiş şəxslər öz şüurlarını saxlamışlar. Əsrin əvvəllərində Parisdə alman qadınının tibbi müayinəsi zamanı aşkara çıxıb ki, onun beyninin yeri maye ilə dolub.

Buna baxmayaraq, həmin qadın sonralar elmi fəaliyyətini davam etdirmişdir.

## Əql İlahi nurdur, bəs ruh?

Ümumiyyətlə, şüurun (əqlin) Yuxugörmənin mahiyyətinə açar salmaq üçün indiyədək fikrimizi tora salmış basmaqəlib ideyalardan uzaqlaşmaq lazımdır. Şüur heç də Marks dediyi kimi, materiyanın beyinə köçmüş şəkli deyil. Ətraf aləmlə təmas yalnız informasiya verə bilər, şüur yox. Gəlin, diqqətimizi islama yönəldək. **Həzrət Məhəmməd (s.a.s.) buyurmuşdur: "Əql insanın qəlbində bir nurdur ki, haqq ilə batili bir-birindən ayırır"**. İnsana pay verilən İlahi nuru əqli beyində baş verən fizioloji proseslərlə izah etmək olmaz. Yuxugörmə də bu qəbildən olan proses kimi yozula bilməz. "Tibbin atası" Hippokrat insana bədən və ruhun vəhdəti kimi baxmış, yuxugörməni ruhi hadisə hesab edərək yazmışdır ki, yuxu zamanı ruhumuz bədənimizə toxunduğu, təmasda olduğu hər şeylə yenidən təmasda ola bilir və hətta digər yerlərə (heç vaxt təmasda olmadığı) səyahət edir.

Doğrudan da, bəşəriyyətin çoxəsrlik tarixində yuxugörmə haqqında əldə olunmuş nəhəng informasiya əsaslı surətdə sübut edir ki, yuxugörmə heç də yalnız olmuşların təkrarı deyil, həm də olacaqlar haqqında xəbərdarlıqdır, gələcəyə "pəncərədir".

## Qəhrəmana buta verilir

Son 70 ildə mənəvi inanclarımıza, adət-ənənələrimizə xurafat damğası vurmuş basmaqəlib ideyalar yuxugörmə ilə bağlı xalqımızın mənəvi xəzinəsindən də yan keçmə-

mişdir. Halbuki, xalq nağılları və dastanlarımızda bununla bağlı yozmalarımız, inanclarımız öz əksini tapmışdır. Dastan, nağıl qəhrəmanları yetkinlik yaşına çatdıqdan sonra yuxuda nurani şəxsdən buta alırlar. Bütün butavermə məqamlarında bir sabit şərt var: buta qəhrəmana yuxuda verilir. Buta alan yuxuda heç vaxt olmadığı şəhəri, o şəhərdə tanımadığı qızı görür. Göründüyü kimi, yuxu, qəhrəmanlara gələcəkdən xəbər verir, onlar gələcək yarlarını əvvəlcədən tanıyırlar.

**Səyahət edən ruh**

Təkcə nağıl və dastanlarda deyil, mif, əfsanələrdə də bir elmi həqiqət yatır. Yeri gəlmişkən, Dədə Ələsgərin "Qabaqda" qoşmasına nəzər salsaq, yuxugörmə ilə bağlı dərin mətləblərə işıq salmış olarıq:

***Neçə sirri gördüm, sir qaldım aşkar!***
***Səxavət əhlini yandırmadı nar.***
***Salavatnan işlər hər dükan-bazar,***
***Zay oldu dünyanın malı qabaqda.***

Haqq Aşığı – Böyük Ustad bu qoşmanı yuxudan qalxandan sonra söyləmişdir.O, yuxuda bizim əqlimizə sığışmayan ruhi dünyaya səyahət etmiş (səyahət edən ruhdur), orada ruhi gözüylə gördüyü mənzərəni şeir dilinə çevirmişdir. Bu baxımdan xalqımız yuxugörməyə ilahi qüvvələrlə, gözəgörünməz aləmlə təmas vasitəsi kimi baxmış, onu müqəddəsləşdirməyə, yuxuların həqiqi yozumunu tapmağa çalışmışdır.

Məşhur rus filosofu P.Florenski "İkonastas" əsərində yazır ki, ruhumuz ayrı-ayrı hallarda adi məişət təəssüratla-

rından yan keçir, yüksək, ruhi dünyaya qalxır, oradan qayıdanda gördüyünü, nə başa düşdüyünü "danışır". Necə ki, Dədə Ələsgər həmin aləmə ruhən səfər etmişdi. Heç təsadüfi deyil ki, qədim Şərqdə hökmdarlar yanında müdriklər cərgəsində yuxuyozanlar da xüsusi hörmətə malik idilər. Dövlət işlərini görülmüş yuxuların məzmununa və mahiyyətinə uyğun şəkildə icra edir, gələcək barədə tədbirlər görürdülər. Biz hansı elmi nəzəriyyə irəli sürürüksə-sürək, insan bədəni ilə ruhu, bu ruhla digər ruhlar və aləmlər arasında elmi izaha sığışmayan sirli əlaqə mövcuddur. M.V.Lomonosov vaxtilə deyirdi: **"İlahi iradəni pərgarla ölçmək istəyən riyaziyyatçı sağlam düşüncəyə malik deyil"**... Əlbəttə, bu əlaqəni bu gün pərəstiş obyektinə çevrilən Ziqmund Freyd kimiləri açmağa qadir deyillər. O, yuxugörməni şüuraltı səviyyədə baş verən psixi proseslər kimi izah edərək bundan uzağa gedə bilməmişdir, gedə də bilməzdi, çünki dini "kütləvi psixoz" adlandıraraq Yaradıcını inkar edən Freyd ruhu da inkar edir. Yuxugörməni isə bunsuz izah edə bilməzsən.

## Yuxugörmə dinimizn gözü ilə

İndi isə müqəddəs dinimiz islamda yuxugörmənin mahiyyəti ilə bağlı fikirlərlə tanış olaq. İmam Museyi-Kazım (ə.) buyurmuşdur: **"Yaranışın ilk çağlarında bəşəriyyət üçün röya (yuxugörmə) yox idi. Sonradan bu xüsusiyyət Allah tərəfindən verildi. Səbəbi də Haqqa dəvət üçün göndərdiyi Peyğəmbərin insanlar tərəfindən inkarı oldu. Peyğəmbər, insanın öləndən sonra ruhi aləmə qovuşacağını deyəndə ona cavab vermişdilər ki, ölülər çürüyüb torpaq olurlar və belə şey yoxdur. Ya-**

**radan yuxugörmə müəyyən etdikdən sonra yuxu zamanı gördülər ki, yeyir-içir, hərəkət edir, danışır, eşidirlər. Elə ki yuxudan oyandılar, bundan əsər-əlamət görmədilər. Peyğəmbərdən bunun səbəbini soruşduqda o izah etdi ki, bu, Allahın sizə dəlilidir. Sizin ruhlarınız da belədir. Yuxuda bədəniniz yatsa da, ruhunuz oyaqdır. Öldüyünüz vaxt bədənləriniz torpağa qarışsa da, ruhlarınız Əbədi Məkana dönəcəklər”**. Beləliklə, **yuxugörmə İlahi hikmət, İlahi dəlildir.**

Onun hikməti ondan ibarətdir ki, insanın mahiyyətini üzə çıxarır. İnsanda iki aləm qərar tutmuşdur: maddi və ruhi. Maddi aləmin təmsilçisi – bədənimiz çürüməyə məhkumdur, ruhi aləmin təmsilçisi – ruhumuz isə əbədidir.

Yuxuyozma müdriklik elmidir. Onun əsl biliciləri Yaradanın hikmət bəxş etdiyi şəxslərdir. Qurani-Kərimin “Yusif” surəsinin 21-ci ayəsində buyrulur: **“Yusufu beləcə yer üzündə yerləşdirdik ki, yuxuların yozumunu öyrədək ona”**. Həmin surənin 46-cı ayəsində isə deyilir: **“Yusuf, ey doğrucul insan, bu yuxunu yoz bizə – yeddi yekə kök inək basıb yemiş yeddi arıq inəyi və yeddi yaşıl sünbülə yeddi quru sünbül dolanmış. Mən də gedim adamlara bildirim, bilsinlər bunu”**. Adı çəkilən surənin 47-48-49-cu ayələrində bu yuxunun Yusufun dili ilə yozumu verilir: **“Yusuf dedi: “Yeddi il dalbadal buğda əkərsiz. Biçəndən sonra yeyəcəyinizin bir hissəsini saxlarsız toxumluq üçün (47). Sonra yeddi il qıtlıq olacaq. Yığdığınız azuqəni yeyəcək bu illər. Bir az saxladığınızı saxlayacaqsız (48). Sonra da bir il gələr, bol yağış göndərər insanlara Allah, meyvələri sıxıb şirəsini içər onlar (49)”.**

Beləliklə, gələcək qıtlıq illəri rəmzi şəkildə yuxu ilə insanlara bildirilmiş və Yusif tərəfindən düzgün yozumunu tapdıqdan sonra onlar buna əvvəlcədən hazırlıq görmüşlər.

### Yuxuyozma müdriklikdir

Yuxunu sxematik yozmaq olmaz. Bu zaman yuxu görənin cinsi, həyatda tutduğu mövqeyi, dünyagörüşü və s. nəzərə alınmalıdır. Həm də ayın günü (bu, yeni Ay doğuluşundan etibarən hesablanır), yuxugörmə vaxtı da (sübh yuxuları çox vaxt çin olur) nəzərdən qaçırılmamalıdır. Çox vaxt yuxuda bizi həyəcanlandıran problemlərə cavab tapır, tərəddüd, şübhə, gümanlarımızı daha dərindən saf-çürük edir, eyni zamanda gələcəyə dair xəbərlər alırıq. Bu isə ruhi təkmilləşmə yolu ilə keçən insana kompas kimi düzgün yol göstərir. Yuxu sadəcə fiziki, mənəvi yorğunluq üçün nəzərdə tutulsaydı, ömrümüzün üçdə birini İlahi bizə yatmağa ayırmazdı. Ayıq vaxtı aldığımız dərslərin davamı yuxudakı ruhi dərslərdir.

Yuxular yozula-yozula sınanıb, sınana-sınana yozulub. Bu yozmalar əsrlərin çiynindən bu günümüzə gəlib çatıb.

## ÖLÜMÜN FƏLSƏFƏSİ

### Ölümdən sonrakı həyat: dəlillər və mülahizələr

İnsan ölür. Niyə? Təcrübələrlə təsdiq olunmuş dəqiq elmi cavabı yoxdur. Bu da təbiidir, ölümdən sonrakı həyat təcrübi elmin laboratoriyasına sığışmaz. Qızıl tərəzi nə qədər dəqiq olsa da, dağı çəkməyə yaramaz. Burada əqli dəlillərə əsaslanmalıyıq. Konfutsidən şagirdi soruşdu:

– Ustad, ölüm nədir?

– Bunun üçün həyatın nə olduğunu başa düşməyə çalış – deyə filosof cavab verdi (hər şey öz ziddiylə tanınar). Bəs həyat nədir? Bioloji mövcudluğumuzu qoruyub saxlamaqla cürbəcür qovğalar, sınaqlar, iztirablardan keçərək əqli-mənəvi yüksəlişə can atmaq! Sonra isə dəvətsiz qonaq – ölüm qapını döyür. Sual olunur: "Əgər insan çürüyüb torpağa qarışacaqsa, kamilləşmənin nə faydası?" Yaranış sirrini yalnız bu dünya ilə bağlayan materialistlər bu suala cavab verə bilmirlər. Metafizikanın əsas məsələlərindən biri kimi ölümdən sonrakı həyatı tədqiq edən **Kant haqlı olaraq yazıb ki, əgər ruh yaşamırsa, varlığımız oyuncaqdır**.

İnsanı çox gözəl biçimdə yaradan, ona kamilləşmə yolunu göstərən Mütləq Kamal hikmətsiz, dəlilsiz onu həyatdan məhrum edərdimi? Halbuki, hər bir ağıllı insan öz işini dəlilsiz, səbəbsiz görmür. Məsələn, biçinçinin zəmini biçməkdə məqsədi taxılı samandan ayırmaqdır. Heç bir sənətkar da kuzə düzəldib onu əbəs yerə sındırmaz. Sədəfin də sınması içindəki gövhərin üzə çıxması üçün deyilmi? İnsana da sədəf-gövhər misalını şamil etmək olar. Sədəf (bədən) ona görə sınmalıdır ki, içindən gövhər (ruh) çıxaraq ali bir məqama qovuşsun. Bəs ruhun varlığına dəlil nədir? N.Tusi bunu çox sadə şəkildə izah edir: **"Nəfsin** (ruhun - F.R.) **varlığını sübut etmək tələb olunur ki, bunun da heç bir dəlilə ehtiyacı yoxdur. Çünki ağıllı adamlar üçün ən aşkar və aydın dəlil onların özlərinin varlığıdır. Dəlilin xüsusiyyəti ondadır ki, bir şeyi sübut etmək üçün vasitə olsun, əgər varlığın özü özünə dəlil gətirilsə, o zaman dəlil eyni şey arasında, yəni özünün**

**özü olduğuna dəlil olar, hər şeyin özü həmişə özü olduğundan özünü özünə dəlil göstərmək qeyri-mümkün və səhv hesab edilər”** (Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, 1989, səh.43).

Mütəfəkkir demək istəyir ki, heç kəs öz varlığını inkar edə bilmədiyinə görə, öz varlığı üçün dəlil tələb etməyi mənasızdır. Ümumiyyətlə, insan öz varlığındakı “mən’i inkar edə bilməz. “Mən” bütövdür, bədən kimi hissələrə (sağa, sola və s.) ayrılmaz. Heç kəs vicdan, şərəf, həya, qeyrət, alicənablıq kimi keyfiyyətləri bədənə (sümüyə, ətə, hüceyrəyə, neyrona və s.) aid edə bilməz. Bu hisslər “mən”lə (ruhla, qəlblə) bağlı olub bədən çürüyəndən sonra da yox olmur.

Sokratdan ölümqabağı soruşdular ki, onu necə dəfn etsinlər? Sokrat: “Necə istəyirsinizsə, elə. O, mən olmayacağam” – dedi. Haqq aşiqi Nəsimi: “Məndə sığar iki cahan, mən bu cahana sığmazam”, – deyəndə məhz əbədi “mən”i - əbədi mahiyyəti nəzərdə tutmuşdu.

Ruhun əbədiliyini, axirətin varlığını sübut edən digər dəlilləri araşdıraq. İnsanın içində müxtəlif istəklər, hisslər var ki, hər birinin həyatda öz qarşılığı vardır. Məsələn, aclıq, susuzluq hissləri varsa, yemək də, su da vardır. Fitrətimizdəki həmişə var olmaq (əbədiyyət) hissinin isə real həyatda qarşılığı yoxdur. Qarşılığı olmayan şey isə fitrətimizdə qoyulmazdı. Əgər fitri istəklər tam təmin olunmaq imkanından məhrum olsaydı, insana belə bir qüvvənin verilməsinə nə ehtiyac var idi? Deməli, əgər əbədiyyət hissinə malikiksə, ona qarşılıq olaraq əbədiyyət aləmi də vardır. “Mən”imiz – ruhumuz məhz oraya can atır.

Məlumdur ki, hissi xarici dünya insanı zəruri cəhət-

lərdən asılı edir. Bu dünyada təbiət, cəmiyyət qanunlarından asılıyıq. Ancaq mənən, ruhən azadlığa can atırıq. Çünki ruh bədəndə sıxılır, özünü zindanda hiss edir, qurtulmaq istəyir:

***Möminə Haqq dünyanı zindan dedi,***
***Möminə çox qalmaya zindanımız.***(Nəsimi)

və yaxud:

***Könül bir quşdur ki, sevməz əsarət.***
***Daim çırpınır, istəyir hürriyyət.*** (M.Y.Lermontov "Hacı Abrek")

## Həqiqi azadlıq yalnız ruhu aləmdə mümkündür

İnsan həmişə rahatlıq axtarır, amma tapa bilmir. Qaranlıq otaqda orada olmayan pişiyi axtarmaq əbəs olduğu kimi, sınaqlar dünyasında rahatlıq axtarmaq da əbəsdir. "Hədisi-Qüdsi"də deyildiyi kimi, Allah rahatlığı cənnətdə qərar verib, bu dünyada yox.

İnsan həmişə fiziki, mənəvi ləzzət axtarışındadır. Bu ləzzətlər isə nisbidir, həmişəlik deyil, keçicidir. Əbədi ləzzət hissi əbədi ləzzət, əbədi həzz diyarının olduğuna dəlildir.

İnsan bu dünyada özünü tez-tez qərib hiss edir, ciddi səbəb olmadan qəmlənir, həsrət çəkir. Bu həsrət, kədər isə gəldiyimiz yerə görədir. Yer adlı qonaq evindən həqiqi vətənimizə dönənədək həsrətdə olacağıq. İnsan qürbətdə həsrət çəkməzmi?

İnsan kamala – əqli, ruhi-mənəvi kamala aşiqdir. O daim öyrənmək, əxlaqını gözəlləşdirmək qayğısına qalır

(söhbət İnsandan gedir). Əgər axirət olmasaydı, insanın sonluğu sür-sümüklə başa çatsaydı, bu kamala sonsuz meylin heç bir dəyəri olmazdı. O ruhdur ki, kamala doğru cəzb olunur. Axirətdə də ruhun kamal yolu (Allaha yaxınlaşmaq) bağlanmır.

İnsan hər zaman səadət sorağındadır, onun ən çox arzuladığı şey səadətdir. Bu dünyada isə şair demişkən: "O bəxtəvər dediyinin bəlkə doxsan-yüz dərdi var". Həyatda acı ilə şirinin xəmirləri bir-birinə qarışıb. Sevinci kədər, kədəri sevinc əvəz edir. Bir sözlə, həqiqi xoşbəxtlik əlçatmazdır. Bu xoşbəxtlik Rəbbimizin müttəqilərə (paklara) vəd etdiyi əbədi diyarla bağlıdır. Din isə əbədi xoşbəxtlik proqramıdır.

### Hər bir şey öz ziddindən yaranır

İnsan hər cür gözəlliyə aşiqdir. Bu gözəllik onu coşdurur, o, bu gözəlliyi vəsf edir. Ancaq bu dünyada gözəlliklər də solub gedir. Fani dünyanın təbiəti belədir: **"Hər şey axır, hər şey dəyişir"** (Heraklit). Fitrətimizdəki gözəlliyə meyl hissi axirətdəki əbədi gözəlliyə bir dəlildir. Onu da deyək ki, ariflər cənnətdəki gözəlliyə yox, Mütləq Gözəlin özünə aşıq olub, yalnız Onun vüsalını arzulayırlar.

İnsan bu dünyada yaşamağa məhkum olunandan ədalət arzusunda olub. Haqq, ədalət uğrunda çarpışanların, haqqı deyənlərin başları isə cəllad kötüyündə kəsilib. Yezid kimi alçaqlar rəyasətdə əyləşib, ən yağlı tikələri yeyərək Haqqın insanlara İmam Hüseyn (ə.) kimi höccətini, həqiqət çırağını cismən aradan götürüb, insanlığa zülm etmişlər. Haqqın, ədalətin tamamilə bərqərar olması, zalımların

əbədi cəzalarına çatmaları, məzlumların haqqının zalımlardan alınması – Rəbbimizin öz vədidir ki, axirət məhkəməsində öz yerini tapacaq.

İnsan elə bir harmonik həyat arzulayır ki, orada heç bir mənfi insani keyfiyyət olmasın. Eqoizm, təəkəbbürlük, paxıllıq, kin kimi keyfiyyətlər insanlığa ləkə gətirməsin. Bu hisslər heyvani nəfslə bağlıdır. Bu dünyada hər şey öz ziddiylə tanındığına görə, onların da olması zəruridir. Təkəbbür olmasaydı təvazökarlığın, simiclik olmasaydı səxavətin dəyərini bilməzdik. Sınaqlar da bunlarsız olmazdı. Axirətdə isə ikiliyə yer yoxdur. Cənnətdə heç kəs bir-birinə həsəd aparmayacaq, hərə öz məqamına görə razı qalacaq.

Sokrat ziddiyyət prinsipinə istinad edərək ölümdən sonrakı həyatın varlığını belə sübut etmişdir: **“...Hər bir şey öz ziddindən yaranır. Bu ümumi qanun ölümlə həyat, varlıqla yoxluğa da şamildir və bu dəlilə görə, ölümdən digər bir həyat yaranmalıdır. Belə olmasa, təbiətin ümumi qanunu pozular”**. Bu qanuna görə, acının əksi şirin, uzunun əksi qısa, həyatın əksi ölümdürsə, ölümün də əksi həyatdır – **əbədi həyat!**

Deməli, həyatdan keçən ölümlə, ölümdən keçən həyat (əbədi) qovuşuqdur. Onda dahi Nizaminin söylədikləri öz təsdiqini tapır: **“Ölüm ölmək deyil, yer dəyişməkdir”**.

## Ruhların bu dünya ilə təması var

**“Ruhun varlığına, bədən öldükdən sonra onun müstəqil şəkildə qalmağına dair ən çox ürəyəyatan və xatircəmlik gətirən dəlillərdən biri doğru yuxulardır.**

**Belə ki, bəzi şəxslər öldükdən sonra düzgün məlumatları yuxugörənin ixtiyarına verirlər" (Ayətullah Misbah Yəzdi. Əqidə üsullarının təlimi. 2006, səh.249)**. Bəli, dünyadan köçmüş insanların ruhu ilə yatan adamın ruhu arasında əlaqə yaranır. Bunu isə hər kəs öz üzərində yoxlamışdır. Buradan aydın görünür ki, ruhların bu dünya ilə təması ölümdən sonra da davam edir. Transmediumların ruhlarla əlaqə yaratmaq bacarığı təcrübələrlə sübut olunub. Böyük Britaniyanın Psixi Tədqiqatlar Cəmiyyətinin tədqiqatları bunun mümkünlüyünü aşkara çıxarmışdır. XX əsrin Karl Yunq kimi tanınmış psixoloqu etiraf edib ki, onun əsas elmi nailiyyəti ruhlar aləmi ilə əlaqədən sonra meydana çıxmışdır. Kant Avropada məşhur medium (ruhlarla əlaqə yaradan) Svedenberqlə bağlı deyilənlərə belə bir faktla aydınlıq gətirmişdir: **"Bir qadının əri öləndən sonra zərgər gəlir və ona deyir ki, ərin gümüş servisin pulunu ödəməyib. Qadın isə inana bilmir ki, çox məsuliyyətli olan əri pulu ödəməmiş olsun. Ancaq ödəmə qəbzini tapa bilmir ki, bunu sübut edə bilsin. Onda Svedenberqə müraciət etməli olur. O isə qadının əri ilə ruhi əlaqə saxlayır və mərhum deyir ki, qəbz şkafdadır. Elə də olur" (İ.Kant. Traktatı i pisma. Moskva, 1980, səh. 508-509).**

Ariflərin batini – qəlb gözü açıq olduğuna görə onlar bərzəx aləmini (qəbirdən Qiyamətədək bərzəxdəyik) müşahidə edə bilirlər. Keçən əsrin böyük arifi Şeyx Rəcəbəli haqqında yazılan "Məhəbbət iksiri"ndə bununla bağlı kifayət qədər məlumatlar tapmaq olar: "Şeyx, Hafizi İlahi övliyalardan hesab edir və onun bərzəxdəki yüksək məqamından xəbər verirdi" (Ayətullah Məhəmməd Reyşəhri.

Məhəbbət iksiri. "Möminin" 2001, səh.41). Şeyx Rəcəbəli Nəsirəddin şahın bərzəxdəki halını belə ifadə etmişdir: "Onun ruhunu cümə günü azad etmişdilər. Şənbə gecəsi isə zəncirləyib öz yerinə aparırdılar. O ağlar halda məmurlara yalvarıb deyirdi: "Məni aparmayın!". Məni gördükdə dedi: "Əgər bilsəydim ki, yerim bura olacaqdır, dünyada özümə asayişi rəva görməzdim" (yenə orada, səh.48).

## İnsanlar ölümqabağı astral səyahət edirlər

Kamala çatmış ariflər öz iradələri ilə hələ sağlıqlarında ruhu bədəndən çıxarmağa qabil olurlar. Azərbaycan filosofu Ş.Y.Sürhəvərdi demişdir: **"Filosof öz iradəsi ilə ruhunu bədənindən çıxara bilməyincə, onu filosof hesab etmirik"**. Nəcəf elmi-dini hövzəsinin müctəhidlərindən biri (adının çəkilməsinə razı olmayıb) belə demişdir: "... sübh namazını Behcətə (əsrimizin müctəhidi və kamil arifi Məhəmmədtəqi Behcət) iqtida etdik. Ağa Behcət namazda "Qədr" surəsini oxudu. Mən camaat namazında ikinci sırada durmuşdum. Bir anlıq onun ruhunun təcərrüd halını müşahidə etdim. Behcətin ruhu qabaqda durub "Qədr" surəsini oxuyurdu və onun bədəni isə ruhuna iqtida edirdi" (Ayətullahül-üzma Behcətin həyatı. 2006, səh.85). Ümumiyyətlə, ilahi şəxsiyyətlərin Allaha qovuşmaq yolunda ələ gətirdikləri məqamlardan biri də ixtiyari ölüm məqamıdır, yəni istədikləri vaxt ruhu bədəndən çıxarmaq və yenidən geri qaytarmaqdır.

Klinik ölüm halları ilə bağlı çoxlu əhvalatlar da ruhun varlığına tutarlı dəlildir. Klinik ölüm keçirənlər öz bədənlərini kənardan seyr edir, hər şeyi eşidir, görür və bilirlər. Bu haqda kitablar az dərc olunmayıb. Ölümqabağı mü-

şahidələr (bu müşahidələrlə məşğul olan elm sahəsi tanatologiya adlanır) göstərir ki, insanlar həyatla vidalaşarkən o dünyanı hiss üzvləri olmadan qavrayır, hətta bir anda astral səyahət də edirlər. Ruhi əlaqə, insanın gedəcəyi yeri batini gözüylə görməsi ölümqabağı mümkün olur. Bu da axirətə bir dəlildir.

Körpə həyata gələndə üzü göylərə, arxası dünyaya tərəf olur. Bu da bizim üçün İlahinin bir nişanəsi, dəlilidir. Üzümüzü tutduğumuz tərəfə daha yaxın olmaq üçün çalışmalı, arxa çevirdiyimiz dünyaya qəlbimizi bağlamamalı, dünyanı axirət üçün bir vasitə hesab etməliyik.

Bu dünyada şam 4-5 min il, sekvoya 5 min il, baobab isə 10 min il yaşayır. Leş yeyən qarğanın da payına az düşməyib: 300 il! İnsan isə bu dünya üçün yox, axirət üçün yaradıldığından ömür payı onlarla müqayisədə xeyli azdır. İnsan həyatının dəyəri onun uzunluğunda deyil, mənasındadır.

Ulu Yaradandan sizlərə mənalı, müqəddəs həyat diləyirəm!

## BİZİM NEÇƏ RUHUMUZ VAR?

Biz təkcə Yerin sakini deyilik, həm də kainatın sakiniyik. Şüurumuz da kosmik səviyyəyə qalxmalıdır. Bunun üçün özümüzü dərk etməli, dərindən tanımalı, həqiqət yolunun yolçuları olmalıyıq. Hazırda keçmişimizi, milli kökümüzü həqiqət işığında araşdırmaq üçün geniş imkanlar açılıb. Mifologiyamızda, nağıllarımızda, dastan və inanclarımızda böyük xalq hikməti, elmi sirlər yatır.

Oxucularımızın diqqətini uşaqlıqdan hamımızın sevdiyi, onunla yatıb-durduğumuz Məlikməmməd nağılına

cəlb etmək istərdim. Məlikməmmədlə bağlı aşağıdakı epizod hamıya bəllidir: o, divi öldürməyə gedəndə ona deyirlər ki, divin canı sandığın içində olan şüşədəki göyərçindədir. Əgər bu göyərçinin başını üzə bilsən, divə qalib gələcəksən. Məlikməmməd bu məsləhətə əməl etməklə bu qorxunc varlığa qalib gəlir, xalqı onun təhlükəsindən xilas edir. Burada yeri gəlmişkən Ölməz Kaşşey haqqında bir rus nağılını da yada salaq: xalq qəhrəmanı İvan Ölməz Kaşşeyi öldürmək üçün sandığı sındırır. Oradan dovşan çıxır, dovşandan ördək uçur, ördəkdən yumurta düşür. İvan yumurtanın içindəki iynəni sındırmaqla Ölməz Kaşşeyi məhv edir.

Hər iki nağılın eyni bir fikir mənbəyindən qidalandığı göz qabağındadır. Onlarda oxşar cəhətlər ondan ibarətdir ki, qəhrəmanlar öz düşmənlərini öldürmək üçün bir neçə əməliyyatı ardıcıl yerinə yetirməli olurlar. Elə bil ki, divin də, Ölməz Kaşşeyin də canı təbəqələrdən ibarətdir. Qəhrəmanlar əsas təbəqəyə çatmaqla onları məhv etməyə qadir olurlar. Yuxarıda qeyd etdiyim kimi, hər bir nağılda elmi həqiqət yatır. Bəs bu nağılla əcdadlarımız nə demək istəmişlər? Şübhəsiz ki, mülahizələr çox ola bilər. İnandırıcı bir mülahizə ondan ibarətdir ki, burada hər bir canlının bir neçə bədənə malik olması haqqında fikir gizlənib. Ekstrasenslər də təsdiq edirlər ki, insanın bir neçə bədəni var. Biz fiziki bədəndən əlavə efir, astral, mental, kauzal və s. bədənlərə malikik. Efir bədəni fiziki bədənin surətidir. Onun daxilində astral bədən var (hiss və arzular bədəni). Yuxu məhz astral bədənin həyatıdır. Biz yatarkən astral bədən fiziki bədəni tərk edib səyahətə çıxır, keçmişdən, gələcəkdən xəbərlər gətirir, ruhi aləmə baş vurur. Ona görə

də yuxularımızın bir çox hallarda çin olması təbiidir. Astral bədənin daxilində mental (ağıl, düşüncə) bədən vardır. O, hərəkətlərimizin ölçülü-biçili olmasına nəzarət edir, bizim fəaliyyətimizi düzgün istiqamətə yönəldir. Kauzal bədən mental bədənin tərkibindədir. Bu bədənə səbəblər bədəni də demək olar. İnsan təbiətinin daha dərin qatlarına nüfuz edir. Okkultik elmlərə görə, insan ölən zaman əvvəlcə onu efir bədən tərk edir (Enerji potensialımız efir bədənində toplanıb – F.R.). Sonra o dağılır, ondan astral bədən çıxır. Müəyyən müddətdən sonra astral bədən də mental bədənə parçalanır. Yoqlara görə, efir bədən ölüm günündən etibarən 9-cu gün, astral bədən isə 40-cı gün parçalanır. 40-cı gündən sonrakı proseslər bizim dünyanın – üçölçülü məkanın fiziki təbiətindən tamamilə fərqlənən ruhi aləmdə baş verir.

Bəs biz müsəlmanlarda mərhumun yeddisinin keçirilməsi, ona ehsan verilməsi, onun ruhuna dualar oxunması nə ilə əlaqədardır? Bu, yoqların təsəvvüründən (9-dan) görəsən nə üçün fərqlənir? İslam alimləri belə hesab edirlər ki, insan üç ruha malikdir: nəbati (bitki), heyvani və insani. Bir şeyi qeyd edək ki, məşhur yunan filosofu Aristotel də ruhun bu üç səviyyəsini fərqləndirib: bitki ruhu, heyvan ruhu və zəkalı ruh. Bitki ruhu bütün orqanizmlər üçün xasdır (qidalanan, boy atan). Heyvani ruhda əlavə olaraq duyğu da vardır: istək, nəyəsə can atmaq, nədənsə çəkinmək. Zəkalı (düşünən) ruh ancaq insana məxsusdur, mühakimə, düşüncə qabiliyyəti ilə fərqlənir. Bədəni əvvəlcə insani ruh – zəkalı ruh tərk edir.

Ölümün 7-ci günü heyvani ruh, 40-cı günü isə nəbati ruh bədənlə vidalaşır. Həbati ruhun 40 gün bədəndə qal-

ması səbəbindəndir ki, qəbirdə ölünün dırnaqları, saçı, saqqalı uzanır.

7 rəqəmi ilə bağlı düşüncələrimizə fiziklərin kəşf etdikləri mikroleptonlar (elektronlardan kiçik) da bir qədər aydınlıq gətirir. Müəyyən olunub ki, maddi obyektlərin ətrafında (həm də bədənin) kvant təbəqələrinin yarımparçalanma periodu, təxminən, 7 günə bərabərdir. Görünür, gələcəkdə elə zərrəciklər kəşf olunacaq ki, yuxarıdakı fikirlərimizə daha dərindən baxmağa kömək edəcək. Göründüyü kimi, insandakı təbəqələr, ruhlar haqqında fikirlər zahirən fərqlənsə də, mahiyyətcə oxşardır. Yoqların işlətdikləri bədən sözü (astral, mental və s.) ruhdan mahiyyətcə fərqlənmir.

Nağıldakı div obrazı da xeyli düşündürücüdür. Bu obrazda belə bir fikir gizlənə bilər: HƏR KƏSİN DAXİLİNDƏ QORXULU BİR DİV VAR. Bu, insanı alçaqlıqlara sürükləyən istəkləri, ehtiraslarıdır. Şəhvət, qəzəb, xəyal qüvvələrinin (özündən müştəbehlik) həddini keçməsi, insanı ləyaqət zirvəsindən heyvani səviyyəyə (hətta ondan da betər) salmasıdır. İnsan bunları cilovlaya bilsə, nəfsinə tərbiyəçi ola bilsə, qısası, özündəki "divi" (kənardakı divlərdən qat-qat qorxulu) - həqiqi düşmənini öldürə bilsə, ruhi təkamül yoluna çıxa bilər. Fiziki bədən istəklərinə görə yox, ruhun istəklərinə görə yaşaya bilər. Axı biz Allahdanıq, Allaha doğru qayıdacağıq. Pak, xeyirxah qəlblə onun dərgahına qayıtmaq – bax budur insan həyatının həqiqi mənası! (Quranda insana əbəs yerə and içilməyib: "And olsun insana, insanı kamil Yaradana").

İLAHİ, BİZƏ HƏQİQƏT YOLUNU GÖSTƏR!

## BEYİN PROQRAMI RUHDAN ALIR

"Düşünən bir beyin bir torpaq olur" – S.Vurğunun bu məşhur misrası kimə tanış deyil ki? Düşünən beyin! Doğrudanmı, insanın idrak və düşüncə mərkəzi beyindir?! Beyin elə bir orqandır ki, orqanizmimizin istifadə etdiyi enerjinin 20 faizə qədəri onun payına düşür. Maraqlıdır ki, fasiləsiz işləyən ürək onunla müqayisədə az enerji sərf edir. Amma bu gün də məlum deyil ki, beynin məsrəf etdiyi enerjinin əksər hissəsi nəyə sərf olunur!?

İnsan beyninin fiziologiyası sahəsində görkəmli mütəxəssis, akademik N.Bextereva beynin işini "möcüzə" adlandırmışdır. **"Bütün elmi həyatımı ən mükəmməl orqana – insan beyninin tədqiqinə həsr etmişəm. Belə nəticəyə gəlmişəm ki, bu möcüzə onu Yaradansız mümkün deyildir"** – deyib Bextereva. Göründüyü kimi, akademik bu möcüzəni təbiətin ayağına yazmır, Mütləq Kamalın işi hesab edir. Ənənəvi akademik elm isə hələ də insana bioloji maşın kimi baxır, şüur probleminə bioloji təkamül çərçivəsindən yanaşır. Şüurun beyin fəaliyyəti ilə əlaqəsi materialistcəsinə izah olunur: şüur materiyanın (beyinin) xassəsidir. "Şüur insanın başına köçürülüb, orada yeni şəklə salınmış maddi varlıqdan başqa bir şey deyildir" (K.Marks). Şüura sadəcə olaraq materiyanın inikası kimi baxmaq həqiqətdən uzaqlaşmaq deməkdir. Sual olunur: xarici qıcıq, informasiya şüura necə necə çevrilir? İnsanın ifrat hissiyyatı, inamı, imanı aydın göstərir ki, məkan-zaman səviyyəsindən kənara çıxan sonsuz şüur sahəsi vardır. Hamıya məlumdur ki, yuxuda məkan-zaman çərçivəsindən kənara çıxır, bir anda məkanın istənilən nöqtəsində olur,

zamanı hiss etmirik. Yuxugörmə bir nişanə, dəlil kimi insanın ruhi mahiyyətindən xəbər verir.

Materialistlərin günahı ucbatından elmdə, fəlsəfədə varislik əlaqəsi itib. Bəşər fikrinin şüur, ruh haqqında böyük xəzinəsinin üstündən sükutla keçilir. Belə ki, şüur, düşüncə problemi həmişə mütəfəkkirlərin diqqət mərkəzində olmuş, onlar bunu əbədi mahiyyətdən – ruhdan ayırmamışlar. Platona görə, gözdə görmək qabiliyyətindən fərqli olaraq, şüur cismin hansısa orqanında mövcud deyil; düşüncəli ruh hansısa formada bədənlə birləşib. Şərq filosoflarının böyük əksəriyyəti insana bədən və ruhun vəhdəti kimi baxmış, inandırıcı dəlil və aydın sübutlarla göstərmişlər ki, insanın şüurlu canı bədən yox, dağılmağa və çürüməyə uğramayan əbədi mahiyyətdir – ruhdur. Dahi mütəfəkkirimiz N.Tusi "Əxlaqi-Nasiri" əsərində ruhun bəsitliyini, qeyri-cismaniliyini, əbədiliyini əqli dəlillərlə əsaslandırmşdır. Nizaminin Yaradana müraciətlə yazdığı misralar Bexterevanın fikri ilə səsləşir:

***Hökmünlə ruh alır, əql alır bədən,***
***Yaradan da sənsən, öldürən də sən.***

Dekart da, çoxları kimi, təfəkkürü ruhla bağlayırdı: "Ruh fikirləşir, can, bədən hərəkət edir, yaşayır". Mütəfəkkirlər aydın dərk edirdilər ki, düşüncə cismə – beyinə yox, qeyri-maddi olan ruha (qəlbə) bağlıdır. Əlbəttə, insan düşünərkən beyin hüceyrələri, neyronlar mühüm funksiyalar yerinə yetirirlər. Amma beyin maddəsinin dərk etdiyi, gördüyü və eşitdiyi sübuta yetirilməmişdir.

Müasir alimlərin daha çevik düşünənləri artıq etiraf edirlər ki, bədənin maddi mexanizmindən əlavə bir gözə-

görünməz mexanizm də var ki, (əgər belə demək mümkünsə) orqanizmin idarə olunması onun öhdəsinədir. Fizik A.M.Biç yazır: **“Bu gün, demək olar ki, hamı şübhə etmir ki, insan bədənində hansısa bir struktur var ki, qeyri-ixtiyari, düşüncəli şəkildə, yaxud məcburən (ölümdən sonra) bədəni dərk edir, özüylə bərabər hiss etmək, dərk etmək və hərəkət etmək qabiliyyətini də aparır”** (Biç A.M. “Problema vremeni: Qipoteza proisxojdenii fiziçeskoy vremeni” M., 2003, səh. 225).

Alimin işarə etdiyi struktur ruhdur (qəlbdir). Əgər düşüncə, bədənin idarə olunması ruha bağlısa, bəs beynin rolu nədən ibarətdir?

Beynin tanınmış tədqiqatçısı J.P.Şmelevə görə, beyin fikirləşmir, psixi proses bu orqandan kənarda baş verir. (Vitaliy i Tatyana Tixoplav, “Vremya Boqa”. M. 2005, səh. 215-216).

Beynin funksiyasını fizioloq, Nobel mükafatı laureatı C.Eklis də belə ifadə etmişdir: “İnsan beyni sadəcə bioloji kompüter və informasiya alıb-paylayandır.” (yenə orada, səh. 208).

Bəli, kompüter proqramı yerinə yetirdiyi kimi, beyin də ona verilən proqram üzrə fəaliyyət göstərir. Bəs proqramı haradan alır? Cavab aydındır – ruhdan (qəlbdən)! Bu fikirləri akademiklər – Q.J.Şipov, A.E. Akimov, A.P. Dubrov da bölüşürlər. İnsan şəxsiyyətinin, psixikasının beyindən, ümumiyyətlə, bədəndən kənarda lokallaşmasını qeyd edən akademik Şipov beynin necə informasiya almasını belə izah edir: **“Beynimiz informasiya daşıyan torsion sahələrlə qarşılıqlı təsirdə olan cihazdır... Torsion sahələr vasitəçi kimi çıxış edərək bizi informasiya sahəsi ilə**

**(qərb terminologiyasında "şüur sahəsi" adlandırılır) bağlayır" (yenə orada, səh. 209).**

Bir şeyi qeyd edək ki, elektromaqnit dalğalarından fərqli olaraq torsion dalğalar istənilən maneəni aşıb keçir, sınmır. Telepatiyanı (uzaqdan fikri əlaqəni) məhz torsion dalğaların varlığı ilə izah etmək lazımdır.

Şüurun beyindən asılı olmamasını hollandiyalı kardioloq Rim van Gommel təcrübə yolu ilə sübut etmişdir. O, koma vəziyyətində olan xəstənin beyin fəaliyyətinin dayandığını elektroensefaloqrafda müşahidə etdikdən sonra xəstə ayılaraq koma müddətində nə baş veribsə, söyləmişdir. Əgər beyin fəaliyyətini dayandırmışdırsa,şüur necə ola bilərdi? Deməli, bu halda şüur fəaliyyəti yuxarıda qeyd etdiyimiz kimi ruhun hesabına baş verir. Ruh müvəqqəti bədəni tərk edərək onu kənardan seyr edir və təbii ki, olanları görür, eşidir.

Düşüncə faktının beyinə yox, ruha (qəlbə) məxsus olmasının təsdiqini həqiqətin meyarı olan Qurani-Kərimdə də tapırıq: **"Onların qəlbləri var; amma onun vasitəsilə düşünmürlər, gözləri var; amma onlarla görmürlər, qulaqları var; amma onlarla eşitmirlər" ("Əraf" surəsi, 179)** və yaxud: **"Həqiqətən, gözlər kor olmaz, lakin sinədəki ürəklər kor olar"** ... ("Həcc" surəsi, 46); **"Onların ürəyində nifaq və həsəd mərəzi var"** ("Bəqərə" surəsi, 10). Görkəmli islam filosofu M.Mütəhhəri yazdığı kimi, "Quranın dediyi ürək və qəlb, müalicə üçün ürək həkiminə müraciət edilməsi lazım olan ürək deyil. Bu müqəddəs kitabda ürəkdə məqsəd ruhdur" (Ustad, şəhid Mürtəza Mütəhhəri, "Kamil insan", 2001, səh. 13-14)

İnsanın idarəetmə, düşüncə mərkəzinin ruh (qəlb) olması Həzrət Əlinin (ə.) bu kəlamından da aydın görünür: **"Qəlbin xəstəliyi ən ağır xəstəlikdir. Çünki bədənin əmr verən mərkəzi qəlbdir..."**, Qəlb xəstə olan zaman insan tədricən Allahdan və insani kamilliklərdən uzaqlaşır, insaniyyət duyğularını itirir.

Ədəbiyyatımızda da istənilən qədər nümunə tapmaq olar ki, qəlb, könül dedikdə ruhu nəzərdə tutmuşlar. Dədə Ələsgərin "Eylə" qoşmasında işlənən könül də ruh mənasındadır:

***Könlümün nöqtəsin çıxart qaradan,***
***Məni doğru yola dəlalət eylə.***

Və yaxud:

***Ürək deyir: qocalmışam,***
***Könül deyir: yaşa hələ!***
(H.Arif)

Bədən ruh üçün alətdir, onun miniyidir. Bu baxımdan beynin fiziki, kimyəvi xassələri ruhun əlində bir vasitədir. Düşünən də, görən də, eşidən də əslində ruhdur. Necə ki, teleskopla baxanda görən gözdür, teleskop isə vasitədir.

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd edək ki, şüur (əql) ruha məxsus keyfiyyətdir, qabiliyyətdir. Ruh əqlin köməyi ilə düşünür, ondan nur alır. Hədisdə deyildiyi kimi, **"ruh bədənin, əql ruhun həyatıdır"**. Yəni, bədənin mövcudluğu ruha bağlıdırsa, ruhun da məqsədyönlü fəaliyyəti əqlə bağlıdır. Əql kamilləşdikcə, ruh da kamilləşir. Əql bir çıraqdırsa, onun yağı elmdir. Ən böyük şərafət,

ucalıq elm öyrənib əməl etmək, ən böyük sədəqə isə elmi yaymaqdır.

İnsan Ali Həqiqət daşıyıcısıdır. Bu həqiqət isə ruhda qoyulub. Özünü tanıyan, ruhunu kamilləşdirən insan Mütləq Həqiqətə, Mütləq Kamala, Mütləq Gözələ – Allaha qovuşacaqdır.

## ADIMIZ İNSAN, MAHİYYƏTİMİZ İNSANLIQDIR

İnsanın kamala çatması yolunda təkəbbürlük, özündənrazılıq nə qədər qorxuludursa, milli müstəsnalıq, xudbinlik də millətin yüksəlişi yolunda bır o qədər əngəldir. Nə çoxdur bunu sübut edən ibrətli hadisələr, nə azdır ibrət alanlar! Vaxtilə Hitler irqçi dövlət quruculuğu haqqında fikirlərini açıqlayarkən yazırdı ki, məktəblərdə alman millətinin müstəsnalığı haqqında fikirlər aşılamalıyıq ("Mənim savaşım"). Belə ideyaların aqıbəti necə oldu? Almanların özünə hədsiz vurğunluğu alman sosioloqu Voltman Lüdviqdə də aşkar görünür. O, almanları (germanları) ən seçmə nümunə kimi tərifləyir. Hegel kimi görkəmli filosof da alman xalqını yüksəklərə qaldırır, bu xalqı dünya tərəqqisinin əsl daşıyıcısı hesab edirdi. Bu gün də Avropada belə bir fikir hakimdir ki, roman-german xalqlarının yaratdığı mədəniyyət ən yüksək mədəniyyət, onu yaradanlar isə ən mədəni insanlardır. Bizə isə bəşər mədəniyyətini bu hazır arşınla ölçməkdən başqa bir şey qalmır.

Əlbəttə, mütəfəkkirlər arasında bəşəriyyət tarixinə həqiqət eynəyindən baxanlar da tapılır. Nə yaxşı ki, almanların arasında Disterveq kimi şəxsiyyətlər də vardır: "İnsan

mənim adım, alman isə ləqəbimdir”. Bax, budur İlahi həqiqət, böyüklük! Adımız – insan, mahiyyətimiz – insanlıqdır. Atalar nə gözəl deyib: “İnsanın insandan yalnız insanlığı artıqdır”. İnsan ruhlarının quruluşu, məntiqi strukturu eyni deyilmi? İnsanın böyüklüyü, əzəməti onun hansısa şöhrətli bir millətə, xalqa məxsusluğunda deyil, onun ruhunun paklığında, əməllərinin təmizliyindədir. Bir sözlə, Allaha yaxınlığındadır. Doğrudan da, bir xalqın, bir millətin nümayəndələri toplum halında İlahi dəyərlərə tapınıb, bu dəyərlər əsasında yaşayıb fəaliyyət göstərsələr, o toplum ruhi-mənəvi ucalığa çatıb digərlərinə də nümunə olar. Daha öz arşını ilə mədəni səviyyəyə qiymət vermək, özünü hər millətdən üstün saymaq həqiqətdən uzaqlaşmaq deməkdir. Özü də gərək unutmayasan ki, çatdığın yüksəklik üçün kimlərə borclusan. Necə ki, bütövlükdə Qərb etiraf etməlidir ki, onun varlığını saran zülməti Şərqin işığı aradan qaldırıb. Ərəbistan üfüqlərindən doğaraq bütün dünyanı nurlandıran islam günəşi beş əsrlik Avropa zülmətini də dağıtdı. İbn Sinaların, Fərabilərin, Tusilərin elmi əsərləri Avropa dillərinə tərcümə edilərək öyrənildi. Beləliklə, bugünkü Avropa sivilizasiyasının qaynaqlarından danışarkən islam mədəniyyətini unutmaq ən azı insafsızlıqdır. Hərgah Qustav Lebon kimi vicdanlı alimlər bunu etiraf etmişlər. Biz gərək bir-birimizin üstün cəhətlərini etiraf edək, xudbinlikdən uzaq olaq, habelə bir-birimizdən öyrənək, görək-götürək. Heyne kimi şair: **“Almaniyanın da qüdrətli şairləri vardır, ancaq onlar Nizami ilə müqayisə oluna bilməzlər”** – deyirsə, bu, digərləri üçün də gözəl bir nümunədir. Dünyanın, təbiətin gözəlliyi həm də onun rəngarəngliyində, çoxnövlüyündədir. Dünya xalqlarının belə

rəngarəngliyi də İlahinin qüdrət nişanələrindən, dəlillərindən biridir: bir-birimizi daha yaxşı tanımaq üçün, özünəməxsusluğumuzu saxlamaq şərti ilə qarşılıqlı mübadilə, faydalanmaq üçün.

İnsanlar bir-biri ilə sınaqdan keçdiyi kimi, xalqlar, millətlər də bir-biri ilə sınaqdan keçirlər. Hamımızın Rəbbi birdir. Adəm və Həvvanın törəmələriyik. Bununla belə, millətlərin, xalqların bir-birinə qarışması, birinin digərinin içində əriyib yox olması ilə bəşəriyyətin cırlaşması, məhvə məhkum olması konsepsiyası tutarlı müddəalarla əsaslandırılmışdır. Sovet dövründə bütün səylər “sovet xalqı” yaratmaq isıiqamətinə yönəlmişdi. Vahid ideologiya çərçivəsində standart düşüncəli, vahid dildə danışan, vahid həyat tərzinə malik insanlar birliyi nəyə gərək olacaq? İnsan ruhunun fərdiliyi, özünəməxsusluğu, sərbəst düşüncəsi və bu düşüncəyə uyğun mədəniyyəti aradan getdisə, insan əzəmətindən nə qaldı? Bu, artıq danılmazdır ki, öz kökündən, adət-ənənələrindən ayrı düşən cəmiyyət cırlaşmağa, tarix səhnəsindən silinməyə məhkumdur. Necə ki, türk xalqları zaman-zaman öz köklərindən ayrı düşəndə “olum-ölüm” sualı qarşısında qalmışlar. Orxon-Yenisey yazılarına daxil olan Gültəkin abidəsi bizlərə danışır ki, göy türklərə qonşu olan tabğaçlar (çinlilər) onlara silah gücünə qalib gələ bilməyib, hiylə ilə aldadıblar; yağlı dilləri, bahalı mallarıyla türk bəylərinin qılığına giriblər. Türk bəyləri türk adlarını atıb, tabğaç adlarını qəbul ediblər. Türkün unutqanlığı, özündən, kökündən uzaqlaşmağı bəyəm elə bununla bitirmi? XIX əsr alimi Rassel Fridrix “Xalqşünaslıq” əsərində yazır ki, krım tatarları, aderbidcanlılar (yəni bizlər) və osmanlılar öz nəsil adlarını tamamilə unudublar. Bu

gün ümumtürk ruhu, onun tərkib hissəsi kimi azərtürk ruhu ciddi araşdırmalara möhtacdır. Millət ruhi-mənəvi varlıq kimi bütöv öyrənilməli, onun düşüncə tərzi, hiss-duyğuları, iradi keyfiyyətləri geniş tədqiq olunmalıdır. Milli dövlətçiliyimiz milli ruhun özəlliklərinə uyğun şəkildə möhkəmləndirilməlidir. Milli ruhu əks etdirmək baxımından, mədəniyyətimizin çox mühüm qaynağı olan folklorumuz böyük bir aləmdir. Dünya, insan, onun kədəri, iztirabı, sevinci ruhumuzdan yan keçməyib. Muğamımız, sazımız parlaq surətdə göstərir ki, ruhumuz əzab-əziyyətə, min cür məşəqqətə sinə gərən, mübarizədə yoğrulan ruhdur. Yoxsa, "Segah"da bu yanğı, bu kədər haradandır? O, ruhumuzun yanğısı, fəryadıdır. Hələ bayatılarımızdakı dörd misralıq məna yükünə, hikmətə bir bax! Ruhumuz "Kitabi-Dədə Qorqud"a nə gözəl hopub! Məncə, bu abidə türkün əxlaq, mənəviyyat, təfəkkür güzgüsü kimi bu günümüz, gələcəyimiz üçün ibrət verən, öyüd verən bir dastan kimi yox, bir məktəb kimi öyrənilməlidir. Nümunələr nə gözəldir: **"Çox öyünən kişilərdə bir kişilik görmədim"** (kişilik dərsi), **"İzinsiz döyüşə girmək bizim eldə ayıbdır"** (igid məğrurluğu), **"Oğul atadan görməyincə süfrə açmaz", "qız anadan görməyincə öyüd almaz"** (valideyn məktəbi). Hələ məhəbbət, sədaqət nümunələri... Düşmən zindanında dustaq olan Beyrəyin nişanlısı Banuçiçək düz 16 il onun yolunu gözləyir. Dəli Domrulun xanımı öz canını ona qurban verməyə tərəddüdsüz razılıq verir. Qazan xanın xanımı Burla xatun öz ciyərparasının ətindən hazırlanacaq qovurmanı yeməyə hazır olması Azərbaycan qadınının iffəti, namusu nə qədər uca tutmasına parlaq bir nümunədir. Bax, budur sevgi, sədaqət, namus!

Bəşər bu gün demokratiyadan ağızdolusu danışır. Bəşərə haqq, azadlıq verilməsi hələ səadət, kamillik deyil, ona çatmaq üçün vasitədir. Azad insan kamilləşə bildiyi kimi, bu azadlıqdan sui-istifadə edib, sərbəstliyi sərməstlik kimi qəbul edib, heyvandan betər vəziyyətə düşə də bilər. Bəşərə bu gün Dədə Qorqud öyüdləri öyrədilməlidir. Bəşərə vicdan, mərhəmət, məhəbbət, sədaqət, vəfa dərsləri keçirilməlidir. Dədə Qorqud-Banuçiçək məktəbi öyrədilməlidir. Bəlkə bu məktəbin dərsləri abrımızı tökən, açıq-saçıqlıqla, həyasızcasına üzümüzə irişən yabançı mədəniyyətin mahiyyətini aça, bəşərin zahiri parıltıya uyan əqlinə, qəlbinə bir məlhəm ola; bəşər ötəri dəyərlərə deyil, əbədi dəyərlərə üz tuta. Vaxt vardı ki, Bamsı Beyrək, Qanturalı, Qaraçəkir və onun oğlu Qırxqınıq kimi igidlər başqa oğuz kişilərinin xanımlarının diqqətlərini cəlb etməmək üçün üzü niqablı gəzirdilər. Bu gün həyadan kənar qadın şəkilləri şəhərimizdə reklam vasitəsi kimi gözümüzü, qəlbimizi dəlməkdədir. A kişilər, bura Azərbaycandır! Əhalisi də türkdür, müsəlmandır. Qadının zinəti onun yad baxışlardan gizlənməsindədir, həyasındadır. Qadın şərəfi, ləyaqəti onda tapdalandı ki, o, reklam, kimlərinsə cibinə pulların axması vasitəsinə çevrildi. Hörmətli reklamçılar, Banuçiçək sədaqəti, həyası, həyalı mühitdən boy atar yalnız! Bir şey qəti şəkildə aydındır: həya, sədaqət, ismətli sevgi olacaqsa, nər oğullar, namuslu xanımlar bu saflıqdan, bu duruluqdan dünyaya gələcəklər. Əgər abır-həyamızı, ailənin saflığını, məhəbbətin ülviliyini qoruya bilsək, ulusumuz bu sarsılmaz bünövrə üzərində göy-yer durunca, duracaqdır. Yoxsa Tomrislər, Xətailər doğulmaz daha.

Bu gün də nə yaxşı ki, Banuçiçəklərimiz var. Əgər

cəmiyyəti idarə edən böyük şəxsiyyətlərdirsə, bu şəxsiyyətləri yetişdirən analardır. Analar, əslində, cəmiyyəti idarə edənlərdir. Bugünkü qızlarımızın, gələcək anaların öz kökünə bağlılığı, yad təsirlərdən qorunması millətimizin gələcəyidir. Onlar nənələrimizin gözəl əxlaqi keyfiyyətlərini yaşatmalıdırlar.

## QOCA ŞƏRQİN NƏRİMANI

*Ətrafınız olsa zalımla dolu,*
*Genə izləyiriz tutduğun yolu.*
***Almaz İldırım***

Allah qəni-qəni rəhmət eləsin iki layiqli Vətən oğluna – Əbülfəz Elçibəyə və Famil Mehdiyə! Mən Nərimanovu xatırlayanda onları, onları xatırlayanda Nərimanovu xatırlayıram. Əbülfəz bəyə birinci və axırıncı sualım N.Nərimanovla bağlı oiub (1988-ci il Meydan hərəkatında meydanda gecələyəndə). F.Mehdinin: "Mən o şapalağın yetirməsiyəm" – misrası Nərimanovla bağlı bir əhvalatın acı göynərtisidir. O, hələ uşaq ikən yerdə bir şəkil görüb onu götürür və... müəllim şapalağına tuş gəlir. Nəymiş bu uşağın suçu? Sən demə, bu şəkil "xalq düşməni" N.Nərimanovun şəkliymiş. Adamı o şapalaq yox, haqsızlıq göynədir.

"Xalq düşməni", "millətçi" damğasını daşıyıb Nərimanov. Bir soruşan olmayıb ki, axı millətçi xalq düşməni necə ola bilər? Ona "xalq düşməni" xalq demirdi, xalqın adından danışıb, xalqa xəyanət edənlər deyirdi. Hələ sağlığında ikən Nərimanovun adı verilmiş bir sıra müəssisələrdən onun adı götürülsə də (ölümündən sonra), xalq yeni doğulmuş körpələrə Nəriman adı qoyurdu.

Nərimanov öz əqidələrinə xəyanət edən Stalinlə, Mikoyanla, Orçonikidzeylə, Kirovla, Mirzoyanla və yerli "baltalarla" mübarizəyə girişmişdi. Əslində Nərimanov kommunist adlansa da, tamamilə fərqli baxışların sahibi olub. "Müsavat" partiyasının rəhbərlərindən biri Mirzəbala Məmmədzadənin dediyi kimi **"o, millətçidir** - (millətsevər – F.R.) **nəzəriyyəsi komminizmə müvafiq deyildir"**. Məmməd Əmin Rəsulzadə heç də nahaq yerə onu "Böyük Nəriman" adlandırmamışdı.

Onun nəzəriyyəsinin özunəməxsus cəhətlərini Məmməd Səid Ordubadi "Nərimançılıq" məqaləsində göstərmişdir. M.S.Ordubadi yazır: **"Onun nəzəriyyəsində kommunizm ilə islamiyyəti barışdırmaq fikri mühüm yer tuturdu"**. "Din xalq üçün mənəvi araqdır" – deyən Leninin dinə münasibəti hara, Nərimanovun münasibəti hara? M.S.Ordubadiyə görə, Nərimançılıq sosializm və kommunizmə sinfi mübarizə yolu ilə deyil (qardaşı qardaşa qırdırmaqla) barışdırıcılıq yolları ilə getməyi tövsiyə edir. N.Nərimanov burjuaziyaya toxunmamağa, xüsusi mülkiyyəti ləğv etməməyə çağırırdı. O, milli-dini dəyərlər əsasında dövlət quruculuğu tərəfdarı idi. Həsən Həsənov "N.Nərimanov – milli təmayüllü kommunist" adlı qiymətli əsərində N.Nərimanovun milli dövlətçilik baxışlarını təhlil etmiş, haqlı olaraq onun siyasi baxışlarını "demokratik təkamül sosializmi" adlandırmışdır. H.Həsənovun yazdığı kimi, sovet sistemi şəraitində bolşevik ideologiyası ilə ölüm-dirim mübarizəsinə qalxan, milli təmayüllü siyasətin banilərindən sayılan, Mikoyanın Azərbaycandan qovulmasına nail olan, təkbaşına Bakını (onu Rusiyaya birləşdirmək istəyirdilər – F.R.), Qarabağı, Naxçıvanı Sovet Rusi-

yasının və ermənilərin əlindən alan, Zaqatalanı Gürcüstanın əlindən xilas edən, simasızlaşmış Bakının milli simasını özünü qaytaran, Rəsulzadəni, Şıxlinskini, Mehmandarovu, Üzeyir Hacıbəyovu, Pişnamazzadəni (Şeyxülislam - F.R.) qətldən qoruyan Nəriman Nərimanov xalqın düşməni yox, pənah yeri, ümidi idi.

## Nəriman Nərimanovun dinə münasibəti

N.Nərimanov, M.S.Ordubadinin dediyi kimi, dini dəyərlərə yüksək qiymət verir, dindarlara həssas münasibət bəsləyirdi. O, dindarların dini mərasimləri yerinə yetirməkdə sərbəst olduqları barədə məscidlərdə çıxışlar da edirdi. Hərgah bununla əksər rəhbər işçilər razılaşmırdılar. Onun 1922-ci ildə Genuyada olmasından istifadə edən Kirov və Mirzoyan S.Ağamaloğlu və Q.Musabəyovun "hə"sindən sonra Aşura günündə matəm yürüşünü qadağan etmiş, dindarlara qarşı silah işlətmişdilər. Həlak olanlar olmuşdu. Nərimanov "Ucqarlarda inqilabımızın tarixinə dair" adlı məruzəsində ("Stalinə məktub" da adlanır) ürək ağrısı və hiddətlə bu hərəkəti pisləmişdir. Bu məruzədə onun Aşuraya, İmam Hüseyn mübarizəsinə verdiyi qiymət sovet təbliğat maşınının təsirindən qurtulmayan bəzi ziyalılar üçün dərsdir (Onlar hələ də bu müqəddəs hərəkatı sadəcə hakimiyyət uğrunda döyüş kimi qələmə verirlər).

Nərimanov yazır: **"...Bu, öz gücsüzlüyünü bilərək, Məhəmmədin qanunlarını pozan, hamını və hər şeyi qızılla ələ almaq istəyən Yezidə qarşı mərdi-mərdanə çıxış etmiş adamın həyatından bütöv bir faciədir... İmam Hüseyn tabe olsun və öz vicdanını qızıla satsın**

**deyə, Yezid bütöv bir vilayəti idarə etməyi ona təklif edirdi. O, bunu etmədi: həlak oldu”**.

Nərimanov Qurban, Ramazan, Novruz bayramları ilə yanaşı, Mövlud bayramını və Aşura gününü istirahət günü elan etmişdi.

Nərimanov özü də vicdanını qızıla satan deyildi. O yazmışdır: **“Şəxsi mənfəət üçün həqiqəti, vicdanı, əqidəni satmaq qəbahət, insanlığa xəyanətdir”**.

## Yanımcıl Nəriman

N.Nərimanovun oğlu Nəcəfə yazdığı məktub onun anasının daxili aləminin güzgüsüdür. Məktubda deyilir: **“Sənin nənən və mənim anam Həlimə ürəyi yumşaq, sadə qadın idi. O, ehtiyacda olanlara yardım edir, xəstə qonşulara qayğı göstərir, bir parça çörəyi onlarla bölürdü və s. Uşaq yaşlarımdan mən bütün bunları görürdüm və bunlar mənə təsir edirdi...”**

Belə ananın övladı idi Nəriman! Gənc Nəriman hələ 20 yaşından böyük qayğılar yükünü çiyninə almalı olub; həyatla erkən vidalaşmış qardaşı Salmanın da ailəsinin dərd-sərini içində yaşadıb. Yenə məktubdan sətirlər: **“Mən 20 yaşımdan qardaş və bacılarımın ailəsinə baxmış, bu 30 ildə 11 adam tərbiyə etmişəm”**.

O, bu qayğılardan yalnız 1924-cü ildə qardaşı qızı Xanımı ərə verdikdən sonra azad olmuşdu (ölümünə isə bircə il qalırdı!). Nərimanov bu kimi səbəblərdən çox gec ailə qurmuşdu – 44 yaşında!

Bu nəcib, mərhəmətli insanın belə təəssübkeşliyi, belə yanımcıllığı məni həmişə düşündürmüş, doluxsundurmuş və qəlbimdə ona mənəvi heykəl ucaltmışdır. Ömrünü

başqalarına sərf eləyən bu şəxsiyyətin həyatı bu günümüz üçün örnəkdir. Aylarla bir-birindən telefonla belə xəbər tutmayan, “vaxtım yoxdur” kəlməsi dilində bitən müasir insan məhəbbət, mərhəmət, xeyirxahlıq hisslərindən uzaqlaşmayıbmı?!

Könüllər aralı düşüb sevgi telləri qırılanda, insan müxtəlif bəhanələrlə başqasını da, özünü də aldatmağa çalışır. Könülə isə zor etməzlər. Dostoyevski gözəl deyib: **“Xalq yalnız sevdiyini yadında saxlayır”**. Xalq isə yalnız o adamı sevir ki, onun qəlbində xalqa sevgi olsun, xalqın dərd-səriylə yaşasın. Atalar demişkən: **“Yan mənə, yanım sənə, qurbandır canım sənə”**. Nərimanov qəlbən, ruhən xalqa, bütövlükdə insanlara bağlı idi. O, vəfat edəndə “bizi yetim qoyan atamız” – deyə ağlaşırdılar. Hətta Novruz bayramını qara bayram kimi keçirmişdilər. Xalq onu “Bizim Doktor” – deyə çağırırdı. “Xoş o adamın halına ki, xalq onu özününkü saya”. Onun həkimlik fəaliyyəti özü bir məktəbdir, insanlara xeyirxahlıq timsalıdır. O, Həştərxanda, Qara şəhərdə (Bakıda) və s. yerlərdə həkim işləyəndə xəstələr üçün əlindən gələni edir, ehtiyacı olanlardan pul almır, hətta xəstələr üçün xörək də aparırmış. Xeyirxah insan da günəşə bənzər. Onun da qəlbi digər hamı üçün səxavətlə nur paylayır, bu qəlbin işığından neçə qəlb isinir, qanadlanır. Nərimanovun da qəlbi günəşə açılan çiçək kimi yaxşılıqlara açıq idi. Vəli Məmmədov yazır: “Ə.Haqverdiyev Nərimanovun yanında olanda xəstə gətirirlər. Dərhal o biri otağa keçir (daha demir ki, gözlə, qonağım var), xəstəni müayinə edir və qayıdaraq cibindən pul çıxarıb xəstəni gətirənə verərək deyir: “Tez fayton tut, aptekdən dərman al”. Ə.Haqverdiyev kimi alicənab insan bu əməldən hey-

rətlənir: “Mərhəmət yaxşı şeydir, Nəriman. Lakin bu dərəcədə yox! Belə getsə, evinin çörəyi də olmaz”. Belə mərhəmət nümunələri birdimi, ikidimi? Düşbərə əvalatı Nərimanov dünyasına daha bir cığırdır. İltifat xanım (Nərimanovun qardaşı qızı) xatirələrində yazır ki, Nərimanov əlillər evinə baş çəkib hal-əhval tutarkən, bir əlil ürəyinin düşbərə istədiyini deyir. O, evə gələn kimi Gülsüm xanıma düşbərə bişirib əlillər evinə aparmağı tapşırır. Gülsüm xanım İltifat xanımla bir qazan düşbərəni ora aparır və hamını düşbərəyə qonaq edirlər. İltifat xanımın xatirələrindən öyrənirik ki, Nərimanov indi İncəsənət Muzeyi yerləşən binada işləyərkən bir uşaq evini yoluxur. Uşaqların paltosuz olduqlarını görüb, işlədiyi binadakı otaqların qalın pərdələrinin hamısını söküb palto tikdirməyi tapşırır.

Nərimanov uşaqları çox sevirmiş (11 uşaq qayğısını yalnız belə insanlar çəkə bilər). İltifat xanımın qız nəvəsi Kamilə Hüseynova (Nərimanov muzeyinin cəfakeş xanımı) bunları söylədi: “Göyçayda olanda bir qadın Nərimanova yaxınlaşır və xəstə uşağının müayinəsini xahiş edir. Həkim müalicəsi almayan bu uşaq artıq sönməkdə imiş. Nərimanov bundan çox mütəəssir olur, gələndə bu əhvalatı evində danışır və dərhal Səhiyyə Xalq Komissarı Kazımova sərəncam verir (06.09.1921-ci il tarixdə) ki, üç gün müddətində əyalətlərə həkim və əczaçılar təyin olunsun və icrası haqqında ona məlumat verilsin”.

Nərimanov dindarlara qarşı çox xeyirxah olub. İltifat xanımın dediyinə görə, məhərrəmlikdə məscidə gedir, çay, qənd yollayırmış.

## Nəriman Nərimanov niyə qəflətən vəfat etdi?

Bu suala hələ dəqiq cavab verilməyib. Həsən Həsənovun yazdığına görə, onun ölümü haqqında rəsmi məlumat belə olub: 1925-ci il martın 19-da Moskvanın Kremlə yaxın küçələrindən birində N.Nərimanovun qəflətən halı xarab olur və xəstəxanaya çatdırılmadan vəfat edir. Həsən müəllimin fikrincə, bu məlumat İltifat xanımın xatirələri ilə üst-üstə düşmür, çünki o, iclasa piyada yox, maşınla gedib. Ancaq bu uzlaşmama zahirəndir, belə ki, Nərimanov işə maşınla getsə də, işdən çıxanda sürücüsünə deyib ki, sən get, mən piyada gedəcəyəm. Görünür ki, halı pisləşdiyindən hava almaq istəyirmiş. Sürücü isə onu tək buraxmayıb arxasınca gəlirmiş. Nərimanovun halı pisləşib yıxılanda o, özünü çatdırır və Gülsüm xanıma zəng vurur (saat 20:30-da). Gülsüm xanım çatanda artıq keçinibmiş (bu məlumatları İltifat xanım deyib). Taleyin işinə bax. Nərimanov ölümündən bir neçə gün qabaq sanki vidalaşmaq üçün Bakıya gəlir. Martın 15-də İltifat xanımı da özüylə bərabər Moskvaya aparır. Martın 18-də mənzil başına çatırlar. Səhərisi gün o, tezdən işə gedir və saat 17.00-da qayıdır. Deyir ki, saat 19.00-da məni yuxudan oyadarsınız. İstirahət edəndən sonra sürücüsü həmin vaxtda gəlir. Sonrası isə məlumdur. O, axşam iclasına yola düşür. Bu məlumat xalq arasında dolaşan versiyadan birinin üstünə xətt çəkir. Dosent Bəxtiyar Abdullayev yazır ki, Kirov və Mikoyan Orconikidzenin evində Nərimanova dolmada zəhər verirlər (“Kredo” qəzeti, 27.11.2004). Görünür ki, nə baş veribsə, o başabəla iclasda baş verib. Burada Şerlok Holms duyumu, fəhmi, məntiqi gərəkdir ki, kələfin düyünlərini çözələsin,

müəmmalı ölümün üstündon 100 illik pərdəni götürsün. Əgər evinə, Gülsüm xanıma 20.30-da zəng vurulubsa, iclas niyə belə tez qurtarıb? Axı evdən Kremlədək məsafəni də nəzərə alsaq, iclasa bir saat da vaxt qalmır (saat 19.00-da getmişdi). Nərimanov iclasdan yarımçıq çıxıb, Kamilə xanım da İltifat xanımın dediyinə əsasən, bunu təsdiqləyib. Yaxşı, niyə belə tez? O da məlumdur ki, Nərimanov iclasda çıxış edib. Görəsən, çıxışı nə ilə bağlı olub? Həmin iclasın stenoqramını əldə etmək, doğrudanmı, çətindir? Sual olunur, Nərimanov o iclasda konfliktə girərək bərk əsəbiləşə bilərdimi? Təbii. Çünki onsuz da Stalinə məktubundan sonra çoxlarının maskasını yırtdığına görə, onun əlindən zəncir çeynəyənlər girəvə gözləyirdilər. Nərimanov isə cəsarətlə tarana gedirdi. Artıq geriyə yol yox idi. O, ya özü öz əcəli ilə ölməli, ya da öldürülməliydi. Sadəcə işdən çıxarıla bilməzdi. Çünki onun nüfuzu çox böyük idi, sakit durmayacaqdı. Artıq söz-söhbət, başağrısı nəyə lazımdı ki? Əgər işdən götürmək Stalinə, Orconikidzeyə əl versəydi, onlar buna çoxdan gedərdilər. Nərimanov özü dəfələrlə vəzifəsindən istefa verib Vətəninə dönmək istəmişdi. Qoymamışdılar. Qoymazdılar da. Onu ora elə ona görə aparmışdılar ki, Bakıda "əl-ayağa dolaşmasın". Ölümünə bir ay qalmış onun şərəfinə təntənəli tədbir keçirmişdilər (adamın dalağı burada sancır). Nərimanov oğluna məktubunda yazmışdı: **"Bütün bunlar haqqında sən mənim MK-ya yazdığım geniş məruzəmdən biləcəksən!.. Həmin məruzədən sənə bəlli olacaq ki, bir çoxlarının cəsarəti çatmadığı, öz vəzifə və hakimiyyətlərini itirəcəklərindən qorxaraq susduqları şeylər haqqında sənin atan danışmaqdan çəkinməmişdir".** Məktubun tarixi: 28 yanvar 1925-ci

il. Bəlkə bu iclasda elə o məruzə müzakirə olunub? Fransa mətbuatı Nərimanovun ölümünü elə o zaman qəhvədə zəhərlə əlaqələndirmişdi. Bu versiya idi, ya həqiqət? Nərimanovun Ev Muzeyinin keçmiş direktoru Loğman müəllimə Orconikidzenin adamlarından birinin, çox qoca bir kişinin etirafını eşitmək müyəssər olub. Qocanın dediyinə görə, o, Orconikidzenin tapşırığına əməl edərək, Nərimanova qəhvədə zəhər verib. Orconikidze ona beləcə deyib: "Bu, Kobanın tapşırığıdır." Kobanın (Stalin) isə arzuedilməz şəxslərə qarşı öz "fəlsəfəsi" vardı: "Adam varsa, problem də var, adam yoxsa, problem də yoxdur." Əlbəttə, indi bu deyilənlərin şahidləri, dəlil-sübutları yoxdur. Buna görə də hələ bu məsələyə nöqtə qoymaq olmaz.

N.Nərimanov oğluna məktubunda yazırdı: **"...mənim qəlbim sakit deyildi, mən istəyirdim və cəhd edirdim ki, bəşəriyyətə heç olmasa, bir xeyir verim".**

İnsana, insanlığa xeyir verərək yaşayanlar, insanlığı yaşadanlar insanlıq kimi ölməzdirlər. Sərdar Əsəd nə gözəl deyib:

***İnsan ölür, deyirlər...***
***İnsanlıq ölmür, insan!***

## ÇİNGİZ AYTMATOV – ƏBƏDİ HƏQİQƏTİN SƏSİ

**“– Müsahibə zamanı ona etiraf etmişdim ki, Ana Maral haqqında əfsanəni oxuduqca ağlamışdım.**

**– Mən də yazanda ağlayırdım, – sadədilliklə söylədi”.**

D.Bıkovun Ç.Aytmatov haqqında qələmə aldığı “Mən yazarkən ağlayırdım” adlı yazısındakı bu səmimi etiraflar bizə ədəbi bir həqiqəti yenidən xatırladır: hər söz üstündə ürək yandırmasan, ürək yağını əritməsən, duyğuları tərpədib ürəkdə tufan qopara bilməzsən. Yazmaq-yaratmaq şirin olduğu qədər də əzablıdır. Bu da Müşfiq etirafı:

***Şeir qalıbına, söz qalıbına,***
***Əriyə-əriyə tökülən mənəm.***

Kimdir Aytmatov? O, özünü “folklorun fəqir yetişdirməsi” sayır, xalqın yaradıcılıq bulağından su içdiyini söyləyirdi. Amma yaradıcılıq ruhu bir millətin ədəbiyyatının, eləcə də sovet klassiki obrazının çərçivəsinə sığışmır, dünyanın fövqünə qalxır, dünyanın, insanın taleyi sarıdan böyük nigarançılıqla missiyasını həyata keçirirdi. Nəydi onun missiyası? – **“Ədəbiyyat həmişə faciədir. Biz oxucuya nə qədər acı və dəhşətli mətləblərdən söz açsaq, o qədər də müdhiş bəlalardan qoruna bilər. Bizim işimiz oxucunun yerinə hər şeyi yaşamaqdır”** – deyirdi. Ürəyin nəcibliyinə, insana sevgiyə bax: gözlənilə bilən hər cür dəhşətləri yana-yana yaşayıb qələmə alır ki, oxucu əvvəlcədən xəbərdar olub qoruna bilsin. Ana da balası üstündə belə əsmirmi?!

“Kasandra damğası” romanı da həssas mütəfəkkirin gələcəyimizlə bağlı narahatçılığından doğub. Əsərdə göstə-

rilir ki, bir alim ana bətnində üç aylıq döldəki xüsusi nişanədən müəyyənləşdirə bilir ki, bu nişanə sahibləri gələcəkdə böyük rola malik şəxsiyyətlər olacaqlar (onların mənfi və ya müsbət rol oynayacaqları isə bəlli deyil). Cəmiyyət qərara gəlir ki, gələcəkdə başağrısı ola biləcək belə nişanəli körpələr məhv edilsin. Həyata bu cür müdaxilənin fəlakət doğuracağını görən alim öz üsulunu gizlədir. Mütəfəkkir bizə xəbərdarlıq edir ki, mənəviyyat çərçivəsindən kənar hər cür elmi kəşf insanın məhvinə səbəb ola bilər. Keçmiş sivilizasiyaların taleyindən ibrət almalıyıq.

Aytmatovun böyüklüyü ondadır ki, o, real dünyanın sadəcə təsviri ilə kifayətlənmir, dünya və onun həqiqi düzümü, insan və onun həyatı ilə bağlı baxışlarını ortaya qoyur. O, fantaziya verən realist təsiri bağışlayır. Onun qəhrəmanları böyük duyğular, ideyalar, ideal fikirlərlə yaşayırlar. Bu baxımdan, Aytmatov nəsrin Platonudur ki var.

Sergeyin anası oğluna nə deyir? – "Öldürüb, qana batma!" Ana ürəyinin böyüklüyünə və qəribəliyinə bax! Düşmən onun torpağını işğal edərək hər şeyi məhv edir, ana isə özü kimi anaların gözü yaşlı qalmasına razı ola bilmir. Təbii ki, silah qaldırana silahla cavab verərlər. Amma ananın duyğusu məntiqə sığmır. Mütəfəkkir bu obrazla anaları haraylayır: öz balasını sevən ana başqa anaların, balaların taleyinə biganə olmamalıdır! Əxlaqsız, zalım siyasətçilər "qan-qan" deyəndə, onlara "durun!" – deyilməlidir. Dünyanın taleyinə görə ana məsuliyyəti böyükdür.

Böyük Yaradan anaya sonsuz məhəbbət hissini ona görə verib ki, öz körpəsini sevə-sevə onu sevgiyə köklәsin, nifrətə, düşmənçiliyə kökləməsin. Bir zamanlar Hitlerin əfsunedici sərsəm dünya ağalığı fikrinə əl çalaraq "fürerə

xidmət üçün oğullar doğmalıyıq" – deyən analar da milyonların faciəsinə görə məsuliyyəti bölüşməli deyillərmi? Eləcə də Qarabağ faciəsinə görə Zori Balayanlarla bərabər, onları türkə düşmən ruhunda tərbiyə edən analar da tarixin vicdan məhkəməsinə çəkilməli deyillərmi?

Aytmatov müharibələrin aradan getməsinin fəlsəfi-psixoloji yolunu açmağa çalışır. Müharibənin bütün gözəllikləri məhv etməsini, quşların yuvalarından, balalarından ayrı düşməsini, ümumiyyətlə, təbiətin iniltisini elə yanğılı təsvir edir ki, vicdanı susmamış insan bundan sarsılmaya bilməz. Sənətkarın: **"İnsan, dayan və fikirləş"** – hayqırtısı müharibələrdən cana doymuş Yer üçün hər zaman aktual olmuş, bu gün də aktualdır. İnsan həyatın, təbiətin nizamını pozmaqla öz süqutunu yaxınlaşdırmırmı? Budur Aytmatovun müharibə kultuna münasibəti: **"Müharibə kultunun yerinə mütləq dünya mədəniyyəti gəlməlidir. Dünya paytaxtlarının mərkəzində mütləq at belində sərkərdələr görürük. Bəs sülh istəyən böyük şəxsiyyətlər hanı?".** Bəli, böyük sənətkar da öz ulu sələfi Füzuli kimi silahlı fatehlərin yox, qələmli fatehlərin – könülləri fəth edənlərin əbədiləşdirilməsinə, onlardan nümunə götürməyə səsləyir. Gəlin etiraf edək ki, tarixdə müharibələrə, fatehlərə daha çox yer verilir. Özü də fatehləri elə təsvir edirlər ki, məktəblilər Napoleonlara, İsgəndərlərə oxşamağa çalışır. Mənəviyyata, bu yolda qurban gedənlərə daha geniş meydan verilməlidir ki, gənclər də mütəfəkkirləri, Mahatma Qandi kimi qan tökmədən mübarizə aparanları daha yaxından tanıya bilsinlər. Ayrı-ayrı ölkələrdə gənclər arasında Hitlerçilərin meydana gəlməsi, onların yaramaz hərəkətləri dünyanın humanist mədəniyyətinin lazımınca gənclərə çatdı-

rılmamasının və bəzi xəstə təxəyyüllü siyasətçilərin onlara təsirinin nəticəsidir.

Aytmatov bu kompleksi aradan götürməyin yolunu ədəbiyyatda, incəsənətdə görürdü. Çünki onların bünövrəsində humanizm (insanpərvərlik) durur. Humanist dəyərlərin böhranı sənətkarı üzürdü və o, insanlara xəbərdarlıq edirdi: **“Biz hamımız bir qayıqdayıq!”**. Bu qayığın batmaması üçün hər kəs məsuliyyət daşımalı, bu qayığı deşənlər – ali bəşəri dəyərləri tapdalayanlar, müharibə alovu yandıranlar cilovlanmalıdır ki, taleyimizə qarşı biganəlik hamımızın fəlakətinə çevrilməsin.

Aytmatovun insan-insan, insan-cəmiyyət, insan-dövlət münasibətlərinə özünəməxsus baxışı vardı. O, totalitar rejimin mahiyyətini, bu rejimdə insan faciəsini DTK müstəntiqi Tansıkbayovun düşüncələrində göstərir (“Çingiz xanın ağ buludu”): **“Dövlət elə bir sobadır kı, odunu da, kösövü də yalnız insandır. Camaatın güzəranını dövlətin mənafeyindən yüksəkdə qoyanlar əbləhlərdir”**. Həmin bu baxışın nəticəsiydi ki, neçə-neçə namuslu adam o sobanın içinə atıldı, Tansıkbayov kimi rütbə hərislərinin “xalq düşmənləri” ovu Abutalıb kimi vicdanlı ziyalıların məhvinə səbəb oldu.

Aytmatov öz qəhrəmanı dustaq Abutalıbın hisslərini, düşüncələrini elə psixoloji dəqiqlik va yanğıyla təsvir edir ki, adamın içini göynədir, gözünü yaşla doldurur. Kimdi onun qahrəmanı? – “Ömrü-günü müharibədə, əsirlikdə keçmiş, arvadına və uşaqlarına sevgidən başqa heç bir dinə qulluq eləməmişdi və həyatın başlıca mənasını da həmin sevgidə görürdü”. Aytmatov özü də ağır iztirablardan keçmiş, erkən atasını itirmiş (o, 1937-ci il qurbanlarındandır),

haqsızlığın, təkliyin, maddi sıxıntıların acısını dadmışdı. Məhz belə ruhi əzablardan keçən başqasının əzabına şərik olub, onu yana-yana təsvir edə bilər. K.Yunq haqlı olaraq demişdir ki, **əzablarda həqiqət doğulur**.

Aytmatovun qəhrəmanını (Abutalıbı) sarsıdan heç də müharibə, əsirlik deyildi, "uzandıqca uzanan, ola bilsin dünya bina olandan bu günədək uzanan "şər" idi. Yazıçının bununla əlaqədər olan bir sualı bütün zamanlara tuşlanıb: "İnsan niyə "şər"in daşıyıcısı oldu?" "Şər"in fəlsəfəsini açmağa çalışan yazıçı onun mənbəyini insanın özünü tanımamasında görür. İnsan öz "mən"ini, həyatın mənasını dərk etməyəndə nəfsinin buyruğu ilə yaşayır, əql, iradə qeyb olur. Şər də nəfsdən qaynaqlanır. Folklordan gələn manqurt obrazı ("Əsrə bərabər gün") bu baxımdan çox ibrətamizdir. Nayman ananın manqurt oğlu öz yaddaşını - mənliyini itirmiş, yad ağılla yaşayan, ümumiyyətlə, həyat sürməyən bir insanın faciəsidir. Özü də təkcə bir insanınmı? Əslində öz vicdanının səsiylə yox, başqalarının göstərişləri ilə yaşayanlar, nəfslərinin qulu olduqlarına görə başqalarına qul olanlar, azadlıq kimi nemətdən məhrum olanlar da manqurt deyillərmi? Nayman ananın oğlundan fərqli olaraq, onların başına zorla çiy göndən qalpaq pərçim-ləməyiblər, özləri könüllü manqurta çevriliblər. Məcburi manqurta çevrilənin nə günahı? Könüllü şəkildə mənliyini, insanlıq şərəfini itirməyə razı olanlar özlərini qınasınlar. Məhz buna görə müqəddəslərimiz nəfsin – ən təhlükəli düşmənin fitnəsindən qorunmağa səsləyirdilər: **"Allah səni azad yaratmışdır. Tamah səni qul etməsin" (Həzrət Əli Əleyhissəlam)**.

Mütəfəkkir yapon tənqidçisi D.İkeda ilə söhbətində

insan-zaman probleminə belə münasibət bildirmişdi: **“Zamanlar arasında əlaqə yox olub, öz köklərimizdən ayrılmışıq. Ağlımız ürəyimizi qabaqlayır... İnsan məişət miqyasında düşüncələrdən yuxarı qalxmalı, öz vicdanı, taleyi, həyatı və gələcəyi qarşısında hesabat verməlidir”**.

Vicdan qarşısında hesabat – məsuliyyət deməkdir, özü-özünü mühakimə etmək deməkdir. Dünyanı təzədən qurmaq istəyənlər gərək özlərindən başlasınlar: niyyətləri də, əməlləri də xalis olsun. Ağlın ürəyi qabaqlaması isə böyük faciədir. Rasional əqli, təfəkkürü bütün dərdlərin dərmanı bilənlər insanı yarımçıq tanıyanlardır. Vicdan, iman, sevgi necə olsun bəs? – Əqli imana qarşı qoymaq gözü işıqsız qoymaq deməkdir. Əql ilə qəlbin vəhdəti – budur bəşərin xilas yolu!

Yazıçı haraylayırdı: **“Ürəyin mühafizəsi uğrunda döyüşmək, onun üçün xüsusi dəmir zireh geyim axtarıb tapmaq vaxtı gəlib çatıb”**. Bu səs **“vicdanı hərəkətə gətirən əbədi həqiqətin səsi”** idi (Pyer Fryujer).

Ürəyin mühafizəsi – onun şər duyğulardan, düşüncələrdən saflaşması deməkdir, inam, ümid, məhəbbətin bu ürəkdə sönməməsi deməkdir, vicdan nurunun, mərhəmətin, xeyirxahlığın təntənəsi deməkdir. Sevməyən, xeyirxah olmayan insan Allahı da tanımayıb, çünki Allah məhəbbətdir!

Görəsən ürəyi, ondakı sevgini qoruya biləcəyikmi? Sərdar Əsədin: **“Bir ürəyin sevgisi min ürəyin oldumu” sualına “bəli” deyə biləcəyikmi?**

Bu baxımdan, Aytmatov o yanda da narahatdır..

2008

# MƏMMƏD ARAZIN DÜNYA FƏLSƏFƏSİ

Özünü dərk etməyə cəhd edən insan üçün dünya haqqında düşüncələr ruhi-mənəvi tələbatdır. O, həmişə bu suallara cavab axtarmışdır: dünya nədir?; o, hansısa mənaya, məqsədə malikdirmi?; mənim bu dünyada yerim, vəzifələrim nədən ibarətdir?

Dədə Qorqudun dünya yozumu necə də təbii, sərrast, düşündürücüdür!

***Gəlimli-gedimli dünya,***
***Son ucu ölümlü dünya!***

Məmməd Arazın "Dünya sənin, dünya mənim..." şeri dünya həqiqəti, onun məzmun və mahiyyəti haqqında fəlsəfi düşüncələrin poetik ifadəsidir.

Dünya nədir – sualını şair belə cavablandırır:

***Bu get-gəllər bazarına dəvədi dünya...***

Dünya özü get-gəllər bazarı olmaqla yanaşı, həm də bu bazara yük daşıyan dəvədir. Dünyadakılar isə karvan əhlidir. Hər birinin də bazarda xırıd eləyib əvəzində nəsə almağa mətahları vardır.

Görəsən, insan dünya bazarında nə qazanır, nə itirir? Filosoflar dediyi kimi, hər qazancda bir itki vardır. Dünya zahirən çox cazibədardır, öz ağuşuna "gəl-gəl" deyir. Dünyanın mal-dövləti də, şöhrəti, vəzifəsi də, ləzzətli yemək və geyimləri də, eyş-işrəti də özünə doğru çağırır. Bax, insanın əsl siması, şəxsiyyəti də burada üzə çıxır, dünya hər birimizi xəlbirindən keçirir. Kimi nəfsinin dalınca sürünür, bu nemətlərin hamısını qazanmaq xülyası ilə hərisliklə mübarizəyə girişir. Onun qazandığı dünyanın gəldi-gedər şeyləri, itirdiyi isə mənlik, şərəf, ləyaqət olur.

Həzrət Əli (Əleyhissəlam) buyurmuşdur: **"...İnsanlar dünyada iki bölükdür – bir bölüyü özlərini satar; dünya onlan həlak edər. Bir bölüyü isə canlarını qurtarar; dünya onları azad edər"**. Yeri gəlmişkən, İmam dünyanı çəyirtkənin ağzından düşən yarımçiynənmiş yarpaqdan da, qoyunqırxan qayçının ağzından düşən kiçik yun qırıntısından da dəyərsiz hesab edirdi. Dünyadan özünü satın alanlar isə mənəvi-ruhi yüksəlişə doğru can atırlar, çünki dünya bazarlığının sonunu yaxşı bilirlər:

***Ana rəhmindən gəldik bazara,***
***Bir kəfən aldıq döndük məzara.***
***Yunis İmrə***

Bu baxımdan, M.Arazın **"əbədiyə qəh-qəh çəkər əbədi dünya"** misrası keçmişdəkilərin taleyindən, aqibətindən ibrət almağa çağırış, bir öyüddür. Dünya çox "mənəm-mənəm" deyənləri dəyirmanında un kimi üyüdüb. Çox cahangirlər uca-uca sarayları tərk edib torpağın yemi olublar. Əbədi dünyanın qəhqəhəsi özünü ölümsüz kimi aparan, dünyadan daha çox qoparmaq istəyən insan oğluna lap yerindədir. Əslində insan həyatı yüz il olsa belə, bir an kimi gəlib keçir. Ancaq "əbədi dünya" ifadəsini biz nisbi mənada başa düşməliyik. Materialist düşüncəyə görə, dünya əzəli və əbədidir. Yəni o yaradılmamış və sonu da yoxdur. İlahiyyatçılar və filosoflar isə tutarlı dəlillərlə sübut ediblər ki, əzəli və əbədi olmaq yalnız Yaradana məxsusdur. Maddi dünya ötəridir, sonuna doğru hərəkətdədir. Əslində şairin aşağıdakı misrası dünyanın nə vaxtsa yaradılışının təsdiqidir:

***Min illərdir Araz belə, Həkəri belə***

Əzəli olana zaman nisbət vermək olmaz. Əgər zamana istinad edərək, “min illərdir” – deyiriksə, qəbul etmiş oluruq ki, dünya nə vaxtsa yaradılmışdır, onun zamanca başlanğıcı vardır, zamanca sonu da gəlib çatacaqdır. “Min illərdir” ifadəsi çox-çox uzun tarixi özündə ehtiva etsə də, zamansızlıqdan kənardır. Əzəli olan, məkan və zamanı yaradan Yaradıcıdır. Əbədilik də Ona məxsusdur. Ötəri, keçici şeylərdən təşkil olunmuş maddi dünya, təbiət əbədi ola bilməz. Dünya, təbiət məkan-zaman çərçivəsində hərəkətdədir, bu çərçivədə isə əbədilik yoxdur.

Dünya kimindir?

Şair deyir:

***Dünya sənin, dünya mənim, dünya heç kimin...***

Hind fəlsəfəsində dünya – “maya” (illüziya) adlandırılır. Bir şey ki, illüziyadır, o kimin olacaq ki? Dünya hamımızın anası, hamımız onun övladlarıyıq. Amma bu ana, Şeyx Nizami dediyi kimi, “balasını öldürən ana”dır. Hamımız onun nemət-lərində – işığında da, torpağında da, bu torpağın yetirdiklərində də şərikik. Həm də dünyanın sevincinə, kədərinə şərikik. Amma dünya ayrılıqda heç kimindir. Heç kim müvəqqətı qalmaq məkanına “mənim evim” – deyə bilməz. Bəhlul Danəndənin torpaq üstdə dalaşan iki şəxsə verdiyi dərs ibrətlidir! O, qulağını torpağa dayayaraq dedi: “Torpaq səslənir ki, mən heç birinin deyiləm – ikisi də mənimdir”. Nə yazıqlar ki, bu həqiqəti yalnız dünya bizi qəbir adlı yataq yerinə atanda anlayırıq.

Dünya çox mürəkkəbdir, bir ölçülü, bir rəngli, yekcins deyil. Dünya rəngarəngdir. Hadisələr də, proseslər də, dağlar da, çaylar da, bitkilər də, heyvanlar da... İkicə nəfər

tapa bilməzsən ki, taleləri üst-üstə düşsün, bütün cəhətlərə görə eyni olsunlar. Eyni düşüncəli, eyni duyğulu, eyni xarakterli iki insan tapılmaz. Bu isə Mütləq Kamilin, Mütləq Gözəlin zatının təcəllisidir. Taleləri O biçir, O düzüm verir hər şeyə. Eyniyyətdə yox, rəngarənglikdə yaşadıq dünyanı, insanı:

***Bir taleyin oyununda cütlənmiş zərik,***
***Yüz il qoşa atılsaq da qoşa düşmərik.***

İnsan həyatı saatlardan, günlərdən ibarətdir. O günlər də bir-birinə bənzəməz. Hər günün öz rəngi, naxışı, öz hökmü var. Dünyanın sərt həqiqətləri, pozulmaz qanunları bizə onları nəzərə almaqla yaşamağı diqtə edir. Sınaqlar, çətinliklər, bütövlükdə mübarizələr meydanı olan dünya bir həvə kimi ömrümüzün naxışlarını, ilmələrini yerbəyer edir:

***Bü ömür-gün naxışına həvədi dünya***

Filosof-şair yazır:

***Bir zərrənin işığına milyonlar şərik***

Sətiraltı məna dərindir: əgər milyonlar bir zərrə işığına şərikdirsə, şərik dünya qarşısında məsuliyyətə də şərik olmalıdırlar. Məsuliyyət duyğusu!

Təbiət, təbiətdəkilər, dünya, dünyadakılar qarşısında məsuliyyət!

İndi elə bir zamandayıq ki, dünya üçün bir nəfərdən belə gələcək təhlükənin həddi çox böyüyüb. Terror, kütləvi silahların tətbiqi təhlükəsi dünyanı hədələyir. İnsan-təbiət, cəmiyyət-təbiət, insan-insan, insan-cəmiyyət, bütövlükdə insan-dünya münasibətləri yerindən qurulmalıdır. Dünya

ahəngi, tarazlığı hər birimizin daxili ahəngindən, öz vəzifələrimizin dərkindən keçir. Düzgün olmayan dünyagörüş, düzgün olmayan iqtisadiyyat, siyasət deməkdir. Şair birbaşa deməsə də, misranın bir kitablıq dərsi bax, budur.

M.Araz dünyanın vəfasızlığını, faniliyini çatdırmaqla barabər, qəlblərdə ümid göyərdən, nikbinlik toxumu səpən şairdir:

***Çevrəsindən çıxsa əgər sevda fırfıran,***
***Bir ümidin ətəyindən tutub da fırlan.***

Nədir ümid? Bu, İlahinin dərkində birinci addım deyilmi? Məşəqqətlərdə, əzablarda üzüm cecəsi kimi sıxılıb əlimiz hər yerdən üzüləndə, ağlımız çaşıb çıxış yolu tapa bilməyəndə içimizdəki o hiss nədir ki, bizi ruhdan düşməyə qoymur? Sanki daxilimizdəki bir səs pıçıldayır: "Sən həyat okeanında özbaşına, nəzarətsiz, köməksiz buraxılmamısan. Rəbbin hər an səninlədir!" Heç də təsadüfi deyil ki, inam, ümid, məhəbbət kimi bizi yaşadan müqəddəs hisslər yanaşı qoyulur. Həyatımızın mənası da inamla, ümidlə yaşayıb-yaradaraq Allah məhəbbətinə qovuşmaq deyilmi? M.Araz kimi bircə şirin sözlə, ılıq təbəssümlə, mehriban baxışla insanlara ümid verənlər Haqqa qovuşanlardır.

M.Araz dünyaya gülür:

***Gülünclərə gülünc gələn bu ada güldüm,***
***Yüyəninə hər əl yetən bu ata güldüm.***

İnsan dünyanı dərk elədikcə dünya kədəriylə qol-boyun olur. Şairin də dünyaya gülüşü dünyanı dərkdən, ona acımadan qaynaqlanır. Demokrit insanların əməllərinə baxıb gülür, Heraklit isə, əksinə, ağlayırdı. Əslində o gülüşün də, kədərin də mahiyyəti birdir: insanın faciəsinə, insan-

lığın zəlalətinə acımaq. İnsan kimi şərəfli bir varlığın hissi ləzzətlərə aludə olaraq alçaq məqama düşməsinə acımaqdır. Şair “gülünclərə gülünc” gələn dünyaya gülür. Kimdir gülünclər? Özləri cəhalətdə, zəlalətdə, nəfsin itaətində, İblisin tərkində olsalar belə, dünyaya gülənlər, onu qınayanlardır. Dünyanın bu üzqaraları dünyadan nə qədər qamarlasalar belə, dünya ən çox belələrinə yar olsa belə, onlar dünyanı məzəmmət eləyirlər. M.Araz dünyaya həm də ona görə gülür ki, o, yüyənini hər kəsə verən at kimidir, onun daimi bir sahibi yoxdur. Dünya bir qadına bənzəyir ki, öz ərlərini bir-bir öldürür. Gülməlisi, həm də ağlamalısı budur ki, sonrakılar əvvəlki ərlərin aqibətindən ibrət götürmürlər, yenidən ona eşq elan edirlər. Şair həm də özüylə oynadığı şahmata gülür. İnsan həyatı da şahmat kimi gedişlərdən ibarətdir. İnsan öz məqsədinə yetirmək üçün planlar qurur, gedişlər fikirləşir. Başqalarına qalib gəlib, onları “mat” eləmək istəyir. O, seçdiyi yolun düzgün olduğu fikrilə özünü aldadır. Bir zaman gəlir ki, çıxış yolu kəsilir, özü “mat” vəziyyətdə qalır. Arzuları, istəkləri boşa çıxaran, əldə olunanları əldən aparan dünya həqiqətlərini anlayandan sonra həyat oyununa acı gülüş hissi ilə baxır.

M.Araz ətraf aləmə ibrətli baxışa, həyatı düşünərək yaşamağa səsləyir:

***Ayaq saxla, dövranə bax ötəri belə***

Bu dünyada nizam, harmoniya öz yerindədir, gecə-gündüz bir-birini əvəz edir:

***Axşamların, səhərlərin təkəri belə***

Sətiraltı məna bizi silkələyir: zamanın təkəri eyni ahənglə fırlanır, zahirimizdə qanundan kənara sürüşmələr yoxdur. Bəs daxilimizdə necə, İlahi harmoniyadan əsər-

əlamət varmı? Bəsdir, zamanı, zəmanəni qınadıq, "zəmanənin üzü qara olsun" – dedik. Biz özümüz zəmanəyə üz qarasıyıq. Gəlin, özümüzü qınayaq:

***Zamanı qınama, zaman o zaman,***
***İçimizdən qalxır yaxşıyla yaman*** (F.R.).

Bu şeir özünü dərkə, dünyanı dərkə, tarixi, dünyanı ibrət güzgüsü bilməyə, dünyaya qəlbən bağlanmamağa, insanlığın üzünü qara eləməməyə bir çağırışdır, bir haraydır, özü də Vətən daşı olmağı özünə səadət bilən ləyaqətli vətəndaşın, ləyaqətli insanın, filosof şairin dünyanın bütün övladlarına çağırışıdır. Dünyanın mütəfəkkir oğlu dünyaya hayqırır: Dünya həm sənin, həm də mənimsə, nədir bu didişmələr, çəkişmələr, qırğınlar, qətllər?.. Nədir bu zəlalət? Nədir bu ayrı-seçkiliklər? Hanı bizim insani əzəmətimiz, idraki böyüklüyümüz, ülviyyətimiz, məhəbbətimiz?

Unutmayaq bu həqiqəti:

"...Dünya heç kimin".

## "QÜDRƏTDƏN DOĞAN NUR": FƏLSƏFİ TƏHLİL

"Sensasiya" qəzetinin 101-ci sayında belə bir xəbərə rast gəldim: **"Almaniyanın paytaxtı Berlində milyon yarımadək adam lüt-üryan küçə və meydançalardan keçərək özünü nümayiş etdirmiş, "məhəbbət paradı" keçirmişdir"**. Bu nədir? Azad insanların hoqqabazlığı, sərbəstlərin sərməstliyi, yoxsa soyunduqları libasla bərabər abır-həyanın, şərəfin, ləyaqətin, namusun lazımsız əşya kimi kənara atılması, toz kimi üstdən çırpılması, nə qədər qurbanlar hesabına bişmiş əxlaqi dəyərlər qazanının ağzı

üstə çevrilməsi? Yeni Diogençilik. Diogen də utancaqlığı aradan götürməyə çağırırdı, "it kimi olaq" – deyirdi. Bəs "haqq", "ədalət" – deyə dünyamızın köksündə insan qırğınlarına – qətlgahlara rəvac verənlərə, körpələrə belə rəhm etməyənlərə nə ad verək?

Pedaqoji elmlər doktoru, professor, yazıçı A.Rəhimovun "Qüdrətdən doğan nur" kitabı bu baxımdan təkcə Azərbaycan oxucusuna deyil, bütün insanlara ünvanlanmışdır. Kitab ölkəmizin, dünyamızın taleyinə biganə qala bilməyən həssas qəlbli ziyalının İblisin torunda çabalayan, ucalıq taxtından düşən insanı xilas harayıdır. Bu gün dünyamızın başı üstündə bir kabus dolaşmaqdadır – bütpərəstlik kabusu. Nəfslər bütə çevrilib, insan öz nəfsinə səcdə edir, nəfsi istəklərinin dalınca sürünür, bu istəklərə çatmağı özünün ali məqsədi hesab edir. Maddi istəklərlə yaşayan cəmiyyət idealsız deyilmi? (Əlbəttə, bu qiymət ayrı-ayrı şəxsiyyətlərə aid deyil). Bütövlükdə götürüldükdə şər xeyri xeyli üstələyib. Bu faciələrin səbəblərini, ondan çıxış yollarını Ağarəhim müəllim açıb göstərir: **"İnsan Uca Yaradandan, Onun aləmi ziyalandıran nurundan ayrı düşüb"**, Onu çox az yada salır, yalnız dara düşəndə imdad diləyir. Fitnə torları qurulan dünyada insan İblislə, onun hiyləsi ilə, öz nəfsi ilə mübarizədə tək qalıb. İblis isə günahları bəzəyib onu gözəl göstərir və insan günahlar dənizində boğulur. Xilasımız Ulu Tanrıya üz tutmaq, Onun buyruqlarını pozmamaq, Onun yardımından faydalanmaqla əxlaqımızı saflaşdırmaqda, kamilləşdirməyimizdədir. Tez-tez iç dünyasına, könül mülkünə qapılan müəllifin hər an böyüklüyünü, ululuğunu duyduğu Uca Rəbbinə qəlbindən qopan alqışları, duaları, etirafları o qədər səmimidir ki,

oxucunun da qəlbini riqqətə gətirir, titrədir, onu iman işığına bürüyür. Onun İlahinin əzəməti barədə düşüncələri nurdan yoğrulub, hər cümlədən nur tökülür. Bütün kitab boyu bu düşüncələr bir xətt kimi keçir.

Müəllif vəzifəsini, borcunu Ona qəlbən bağlanmaqda və bu yolla daxili nurlanmada görür. "İnsana Yaradan hər şeyi verib, onları çaşdıran, haqq-ədalət yolundan sapdıran nədir" sualını müəllif araşdırmaqla bu nəticəyə gəlir ki, insan həqiqətdən uzaqlaşmamaq üçün öz-özünü qiymətləndirməli, keçdiyi yola nəzər salmalı, daim özünüdərkə, daxili təmizlənməyə çalışmalı, haqq-ədalət uğrunda, Allaha qovuşmaq uğrunda mübarizə aparmalıdır. Allaha doğru gedən yol isə Qurani-Kərimdə göstərilən həqiqət yoludur, islam dəyərləridir. Yazıçı ilahiyyatda "təfəkkür düyünü" adlanan, çoxlu mübahisələr yaradan qəzavü-qədərə (taleyə) öz münasibətini bildirir, sərbəst idarənin çevrəsini cızmağa, insan azadlığının həddi-hüdudunu aydınlaşdırmağa çalışır. Göstərir ki, qəbahət və fəzilətləri İlahi bizə bildirmişdir. Seçim isə bizim öz öhdəmizdədir, hansını istəyirsənsə, seç, ancaq öz əməllərinə görə Rəhman qarşısında cavab verəcəksən. Bu fikirlər sərbəst idarənin rolunu inkar edən fatalizm cərəyanı tərəfdarlarının tənqididir. Fatalizmə görə, dünyada insanın xeyir və şər işlərdə heç bir rolu yoxdur, taledə belə yazılıb. Buradan belə nəticə çıxır ki, insanı hər cür günaha Allah yönəldir və bu günaha görə ona cəza verəcək. Bu, pak, ulu, adil Allahdan necə baş verə bilər? Necə ki, Qurani-Kərimdə buyrulur: **"Allah pis şeylərə əmr etməz..." ("Əraf" surəsi, 28-ci ayə)**. Müəllif qəzavü-qədəri (taleni) inkar etmir (bizim məhz filan ölkədə, filankəsin ailəsində, filan gündə doğulmağımız tale deyilmi),

əksinə, onu aydınlaşdırır ki, işıqlı düşüncələrimiz və gözəl əməllərimiz taleyimizin sahibi olmağa, ömür yolumuzu təkmilləşdirməyə imkan verir.

Sərbəst iradəni ön plana çəkən müəllif İblisin də roluna qiymət verir: Şeytanı Sən yaratdın! Burda cahillərin nədir günahı, Ulu Tanrım?! – "Şeytanın muxtariyyətinin həddi-hüdudu varmı?" – sualına Tanrının məramı ilə cavab verir: "O hədd xəlq etdiyim bəndənin əlindədir. Məni düşünən, özünü tapan bəndələrim Şeytandan çox-çox uzaqdadırlar". Bəli, özünü dərk edən, qəlbində İlahi nur parlayan insana Şeytanın gücü çata bilməz. Yazıçı sosializm cəmiyyətini Şeytanın hiyləsi ilə qurulan, şüuru dəyişdirib, Yaradanı unutduran cəmiyyət kimi xarakterizə edir və "bu cəmiyyət öz içində insanı uddu" – fikrini söyləyir. İnsanı sosial mexanizmin vintciyinə çevirən cəmiyyət haqqında bu qiymət çox düzgündür. Sokrat senatda ona qurulan məhkəmədə demişdi: "Düşündüyünü danışmaq (sərbəst düşüncə) azadlığı adamlar üçün ən böyük nemətdir, başqa cür düşünənlərin ağzına daş basmayın". Bu ittiham sosializm cəmiyyətinin ilhamvericilərinə və rəhbərlərinə də yönəlməli deyilmi? Öz Yaradanını inkar edən cəmiyyət rəhbərlərini bütə çevirər, bütə sitayiş edər, insanın öz fikri, düşüncəsi olmaz; o, öz kökünü danar, manqurtlaşar. Bu isə ən dəhşətli cinayətdir.

Yazıçı bu gün hamımızın "məşğuliyyət" hesab etdiyimiz siyasətə də qiymət verir. **"Siyasət ikilidir – deyir: biri adamlara sülh, səadət gətirən İlahi siyasət; ikincisi, qan, zülm gətirən şeytani siyasət"**. Biz burada siyasətçilərə sətiraltı çağırış eşidirik: **"Ey dünyanın başbilənləri, deməyin ki, siyasət çirkin işdir, oyundur. Onu zinadan**

**doğulmuş uşaq kimi, gözükölgəli, başıqapazlı eləməyin, özünüzün günahlarınızı onun boynuna atmayın. Ya Allaha xidmət edin, ya Şeytana”**. N.Tusi siyasəti əxlaq, ədalət, fəzilət qanunları haqqında elm hesab edirdi. “Siyasətdə əxlaq yoxdur” – deyən Lenin kimləri isə bu gün də müdrikliyin yox, hiyləgərliyin “qanunlarını” öz fəaliyyətlərində əldə rəhbər tuturlar, bu cəhətdəndir ki, dünya da qan içində boğulur.

Yazıçı elm və dinin qarşılıqlı münasibətinə də aydınlıq gətirmişdir. Məlumdur ki, zaman-zaman elm dinə qarşı qoyulmuş, onlar arasında süni ziddiyyət yaradılmışdır (bu, insafla desək, təkcə sovetlər ölkəsinə aid deyil). Müəllif onları vəhdətdə götürür, digər fikirləri rədd edir. Doğrudan da, əzəli və əbədi Allah elminə qarşı məhdud insan elmini qoymaq nə deməkdir axı? Din Allaha doğru gedən yoldur, insanın yaşayış nizamını qoruyan qaydalardır. Məgər Allah elmi qadağanmı edib? Qurani-Kərimdə elm sözü 850 dəfə işlədilmişdir. İnsan elmlə nə qədər dərindən məşğul olsa, kainatın sirlərinə o qədər vaqif olar, onun yaradıcısı Allahı da bir o qədər dərindən tanıyar. Peyğəmbərimiz (ə.) buyurmuşdur: **“Din və elm əkiz qardaşdırlar. Onlar bir-birindən ayrılsalar, cəmiyyət yanıb kül olar”**. Müəllifin fikrincə, cəmiyyət texniki tərəqqi ilə bərabər, ruhi inkişafa can atmalı, ruhun təkmilləşməsi qayğısına qalmalıdır. Kitabda işıqlandırılan məsələlərdən biri də ruha olan münasibətdir. İdraka sığmayan əbədi ruhlar aləmi haqqında söz demək, əlbəttə, çətindir. Müəllifin yuxuda ruhən cənnətə səyahətinin təsviri çox maraqlıdır, müqəddəslərimizin cənnəti təsviri ilə üst-üstə düşür.

Müəllif ölüm və ölməzlik problemini geniş işıqlan-

dırmışdır. O, "ölüm bizdən asılı deyilsə də, həyata sevgi, gözəlliyə ülfətlə yaşamaq, mənalı yaşamaq bizdən asılıdır" – deyir. Əbədi dünyada yaşamaq üçün cinayətkarlıqla, qarətçilikdə yığılan, toplanan cah-cəlal, zər-ziba lazım olmayacaq (Onlar insanı heç qəbrədək də müşayiət eləmir). Bizə əbədi yoldaşlıq edəcək, axirətdə, Qiyamətdə dadımıza yetəcək şey aləmi zinətləndirən fəzilətlərlə zəngin könül mülkümüz olacaq. İnsan qəflət yuxusundan oyanmalı, özünün daxilinə enməli, onu Allahdan uzaqlaşdıran nəfsin istəklərini cilovlamalıdır. Nəfsə dair fikirlər əsaslandırılmış, onun əqllə, idrakla münasibətləri düzgün açıqlanmışdır. Nəfsin tənzimləyicisi, nizamlayıcısı kimi əql götürülmüşdür. İdrakın nuru zəifləyəndə insan nəfsi tüğyana gəlir, insan yolundan çıxır, ehtiraslarının ağuşunda çabalayır. Mənəviyyat korlanır, yaltaqlıq, yalançılıq, oğurluq, rüşvətxorluq, zinakarlıq, möhtəkirlik baş alıb gedir, evlər dağılır, faciələr baş verir. Beləlilkə, dünyadakı yaramazlıqlar, bütün şər məhz nəfsimizin fitnə-fəsadı deyilmi? İnsanın ən böyük düşməni elə öz nəfsi deyilmi? İnsan kənar düşmənlə bütün gücü ilə döyüşür, bəs öz içindəki düşməni – daha qorxulu düşməni niyə unudur? Allah insana nəfs də verib, bu nəfsə hakim olmaq ruhu da. Yazıçı: bu vuruşda kim qalib gələcək? Nəfs, yoxsa ağıl, idrak? – sualına belə cavab verir: "Nəfs idrakın, iradənin gücü ilə cilovlanmalıdır. Tanrıya üz tutmaqla, hökmünə itaət yolunu tutmaq, haqqədalət mövqeyindən çıxış etməklə bu mübarizədə qalib gəlmək olar". Maddi istəkləri, həzzləri cilovlamaq, şöhrət, sərvət, ləzzət, hərislik qapısına qıfıl vurmaq, təkəbbür, qeybət, nifrət, xainlik, həsəd qapılarını biryolluq mismarlamaq daim özünlə döyüşməyi tələb edir. Çox qəhrəmanlar

döyüş meydanlarında qələbə çalsalar da, öz nəfsləri onları məğlub edib, dəbdəbəli həyatın, zahiri parıltının işığından qurtula bilməyiblər. Öz balasını öldürən anadan – dünyadan ibrət almayıb, onun fitnə torunda çürüyüblər.

Ağarəhim müəllim daxilimizdə gedən mübarizəni – "Mən"in və "Özüm"ün mübarizəsi kimi göstərir. "Mən"də fitnə-fəsadlar var, qəbahətlər var, eybəcərliklər var. "Özüm" məhəbbətdir, fəzilətdir, nurdur. Xeyir və Şərin içimizdəki mübarizəsi! Dədə Ələsgər "Eyləməynən" qoşmasında bu mübarizəni nəfslə mərifətin timsalında təsvir etmişdir:

***Nəfs ilə mərifət durub cihada,***
***Mərfət deyir: – Belə kar eyləməynən.***

Bu paralellər təsadüfi deyil. Ta ulu Zərdüştdən bəri müdriklərimiz xeyrin qələbəsinə inanıblar. Mərifət nuru nəfsə qalib gələcək, "Özüm" "Mən"in alçaq istəklərindən yüksəyə qalxacaq, insan kamillik yolu tutacaq. İnsanın öz nəfsi üzərində mənəvi qələbəsini Peyğəmbərimiz (ə.) cihadi-əkbər (böyük cihad) kimi qiymətləndirmişdir. Bu cihadda qalib gələn şəxs cihadi-əsğərdə (kiçik cihadda) da qalib gələcək (haqq-ədalət yolunda dinin düşmənləri ilə mübarizədə). Bu baxımdan cihad islam binasının təməlidir. İslam onun sayəsində ucalmış və yayılmışdır. Bu gün düşmən ayaqları altında tapdalanan torpaqlarımızın da xilasi hamımızın böyük cihada qoşulmağımızdadır. Qəlbi Allah məhəbətilə döyünən, maddi mənfəəti yox, Vətən sevgisini uca tutan əsgər basılmazdır. Müsəlman dünyasına qarşı yö-nələn qorxunc səlib yürüşlərinin qarşısını "La İlahə İlləllah" şüarı ilə silahlanan türk əsgərləri almadılarmı?!

Ağarəhim müəllimin əsl azadlığın nəfs üzərindəki qələbədən sonra əldə ediləcəyi fikri şəxsiyyətin azadlığı probleminə işıq salır. Öz azadlıqlarına mane olur – deyə Allahı tanımayan Sartr kimilərinin davamçılarına bu, bir cavab kimi səslənir. Əsl azad adam nəfsin istəklərindən qurtulmuş, özünüdərk edən adamdır. Yoxsa, tamah səni qul edəcəksə, öz simanı itirib kiminsə kölgəsinə çevriləcəksənsə, hansı azadlıqdan söhbət gedə bilər? Əsl azadlıq üçün şərəf, ləyaqət, namusumuzu qorumalıyıq. Siyasi müstəqillikdən sonra bizim yolumuz əsl azadlığa doğru gedən yoldur. Ona çatsaq səadətə qovuşacağıq. Bizim idrak və qəlbimiz bir ahəngdə – xeyirxahlıq ahəngində döyünməlidir. "Onların vəhdəti mənim qüdrətimdi, əzəmətimdi, möhtəşəmliyimdi, səadətimdi" – deyir müəllif. Burada intuisiya ilə bağlı fikirlər də maraqlıdır. Müəllifə görə, "intuisiya İlahi nurlanmadır, İlahidən gələn vəhydir". Biz bundan "intuisiya imandan doğur" fikrinə gəlirik. Doğrudan da, insan nə qədər qəlbən paklaşırsa, onun qəlbinə qeybdən İlahi nur axır, qəlb genişlənir, qəlbin gözü açılır, o, sirləri əks etdirən İlahi aynaya çevrilir. **"Allahı yalnız qəlb gözü (iman gözü) ilə görmək olar" (Həzrət Əli (ə.)**. Məlumdur ki, irfan əhli həqiqətin dərkində intuitiv yola, filosoflar rasional idraka üstünlük verirlər. İnsan qabiliyyətlərinin harmonik tarazlığı (əql və qəlbin vəhdəti) həqiqətin dərkində böyük imkanlar açır.

Yazıçı "Zəka simfoniyası"nda "Ön söz"ü "Kəlilə və Dimnə"dən başlayır: "Günəşin camalı yer üzünü işıqlandırdığı kimi, zəkanın da nuru zinətli qəlbləri parladır". Əqlimiz, kamalımız yüksəldikcə, ruhumuz, qəlbimiz də cilalanır, parlayır. İnsan daim təhsilə can atmalıdır. Bütün

sirləri öyrənməyə cəhd etsək də, öz içimizdəki xəzinədən xəbərimiz yoxdur. Biz də bu fikirlə şərikik ki, XXI əsr texnika əsri yox, özünüdərk əsri olacaq. "Zəka nuru olan yerdə qəbahətlər ola bilməz". Müəllif ən yüksək əxlaqi keyfiyyətlərə – vicdana, ədalətə, məhəbbətə zəka işığında qiymət verir. "İnsanı insan edən zəka nurunda parlayan vicdandır, ədalətdir, məhəbbətdir" – deyir. İnsanın əzəməti, ləyaqəti yüksək əxlaqi keyfiyyətlərdə, nəcib hiss və duyğulardadır. Əgər ömür yolumuzu zəka nurunda parlada biliriksə, gözəlləşdirə biliriksə, onda yaşanan ömür mənalı ömürdür. Nikbin ovqata köklənən mənalı ömrə çağırış kitabın dəyərini qat-qat artırır. Böyük yazıçıların heç də hamısının əsərlərinə bu ruh hopmayıb. Drayzer kimi yazıçı həyatı mənasız hesab edirdi. Müəllifə görə, ömürlərini mənəvi yoxsulluq içində yaşayanlar nə qədər bədbəxtdirlər, onlar Tanrı bəxşişini-zəkanı ehtiraslarının quluna çevirirlər, yaşamırlar, sürünürlər. **"İnsan ömrü qısadır. Onu ötəri həzzlərə sərf etmək ən azı haqsızlıqdır, cahillikdir"**. Böyük Vurğun "İnsan" dramında filosof Şahbazın dili ilə "Qalib gələcəkmi cahanda kamal?" – sualını bəşəriyyətə ünvanlamış və "insan kamalının zəfər bayrağının yüksələcəyinə" inamla əsəri bitirmişdi. A.Rəhimov da özündən əvvəlki böyük sələfləri kimi yüksək inamla, nikbinliklə kitabını tamamlayır. Kitab əsl insan haqqında dastandır, insanlıq dastanıdır. Mübaliğəsiz demək olar ki, son dövrdə yaranan əsərlərin içində çətin ki, insan əzəmətinə, qüdrətinə bu qədər inam bəslənən əsər tapıla. Müəllifin insanı "sonsuz ümmandır", "sirli-soraqlı kainatdır", "təbiətdə hər şeyi dərk edəndir", "idrakı möhtəşəmdir, əlçatmazdır". Təbiət də, kainat da, o sirli-sehrli aləm də bu

insanın içindədir. Biz ruhumuzun sirrinə vaqif olsaq, hələ axirətə qovuşmamış onu görər kimi yaşar, ölümü isə Allah hədiyyəsi kimi qarşılarıq. Beləliklə, “ordan gələn olmayıb” kimi uşaq məntiqindən biryolluq əl çəkərik. Allaha inam insanın özündədi, içindədi, mahiyyətindədi. Bax buna görə də, o, böyüklük, ucalıq taxtından düşməməli, mələklərdən də uca məqamını qoruyub saxlamalıdır.

Özünəqayıdış, inam, iman uğrunda gedən mübarizəmizdə bu kitab, əminik ki, layiqli rol oynayacaq, içimizdəki mənəviyyat yanğısına su səpəcəkdir.

## QİDA FƏLSƏFƏSİ

Bismilləhir Rahmənir Rahim

Kainatda hər şey qarşılıqlı əlaqədədir. Mənzil tikintisi də, uşaq tərbiyəsi də, geyim də, yemək hazırlanması da Vahid Qanuna tabedir. Çalışmalıyıq ki, əməlimizi, düşüncəmizi məhəbbət və xeyirxahlıq istiqamətləndirsin, bu Qanunun prinsipləri pozulmasın.

Ruhi-mənəvi inkişafımızda qida amili böyük əhəmiyyət kəsb etdiyindən ona xüsusi diqqət verilməlidir.

Şərab haqqında Quran ayələrinə nəzər yetirək. “Bəqərə” surəsinin 219-cu ayəsində Rəbbimiz buyurur: “Ey Məhəmməd! Səndən şərab və qumar barəsində soruşurlar. De ki, hər ikisi insanlara böyük günah da gətirir, bəzi fayda da. Günahı faydasından böyükdür”. Burada fayda dedikdə onlardan gələn maddi fayda, habelə şərabın bədənə müəyyən müsbət təsirinə işarə edilir. Bu ayə ilə şərab qəti haram olmadı, bir çoxları şərabdan əl çəksə də, bəziləri hələ də içirdi (Ə.Əhmədov. “Hikatül-Quran”. I kitab, səh. 17-18).

“Nisə” surəsinin 43-cü ayəsində buyrulur: “Ey möminlər, nə qədər ki, sərxoşsunuz, nə dediyinizi bilmirsiniz, yuyunub paklanmamısınız – bu, yolçulara aid deyil - yaxın gəlməyin namaza”. Bu ayədə sərxoş vəziyyətdə namaz qılmamağa çağırış var. Çünki insan belə halda nə dediyinin fərqinə varmaz, səhvlərdən qurtula bilməz. “Maidə” surəsinin 90-91-ci ayələrində isə qəti şəkildə İlahi hökm səslənir: “Ey iman gətirənlər! Şərab, qumar, bütlər və fal oxları Şeytan işidir, iyrənc əməldir. Bunlardan kənar durun ki, uğura uğrayasınız” və “Şərabla, qumarla Şeytan aranızda düşmənçilik, kin-küdurət salmaq istər, Allahı anmaqdan və namaz qılmaqdan çəkindirmək istər. Deməli, bunlardan əl çəkdiniz, deyilmi?”

Bu ayələrdə şərab insanlar arasına düşmənçilik, kin-küdurət salan, Allahı anmaqdan, namaz qılmaqdan uzaqlaşdıran Şeytan işi, iyrənc əməl kimi pislənilir. İslama görə, belə əməllər haramdır. Şəraba başqa cür münasibət Şeytan məntiqindən çıxışdır, Qurana qarşı çıxmaqdır.

Böyük Nizaminin “İsgəndərnamə”sində özü haqqında dediyi sözlər bizlər üçün müqəddəs çağırış olmalıdır – şeyx-övliya çağırışı!

***O Böyük Tanrıya aydındır bu iş:***
***Ömrümdə dilimə şərab dəyməmiş.***
***Bu dilim, dodağım görmüş isə cam,***
***Olsun Nizamiyə hər halal haram.***

Haqq aşiqləri, doğrudan da, dünya şərabından məst olmağı özlərinə layiq bilərdilərmi? Onlar İlahi eşq şərabından məst deyildilərmi? Bəs bizlər – Nizamini böyük hesab edənlər necə, böyüyün yolunu getməli deyilikmi?

Bioenergetika elminə görə, alkoqol, narkotika astral bədənə (energetik bədənə) çox pis təsir edir, energetik tarazlığı pozur, bədəni aşağı tezlikli enerjiyə kökləyir. Qara, şər qüvvələr məhz aşağı tezlikli enerjiyə həssas olub, onlarla qidalanırlar. Bu halda onların havayı yeyinti yeri oluruq, enerjimizi sorurlar. Xüsusən də şər vaxtı, yuxuda onlar öz istədiklərini həyata keçirirlər. İçkiyə, narkotikaya meyilli insanda iradə zəifləyir, ruh düşkünləşir, qəlb ölür.

Şərab haqqında mübahisələrdə belə bir sualla da az rastlaşmırıq: "Bəs nəyə görə, xristianlara, yəhudilərə şərab, donuz əti haram buyrulmayıb? Ruslar yasda belə araq içirlər". Quranda göstərildiyi kimi, şərab, donuz əti, eləcə də qan, leş, Allahın adı ilə kəsilməmiş heyvan xristianlara da, yəhudilərə də haram buyrulub. Bu, "Tövrat"da, "İncil"də də aydınca göstərilmişdir. Allahın Qanunu dəyişməzdir. Onlar İlahi qadağanı pozublar. Hələ gör bu pozuntu hansı həddə çatıb ki, məsələn, ruslar yasda da içirlər. Belə hesab edirlər ki, mərhumun ruhunu bu yolla şad edirlər. Burada bir vaxtlar "Arqumentı i Faktı" qəzetində görkəmli pravoslav din xadiminin məhz bu yönümdə olan suala cavabını xatırlatmaq yerinə düşərdi (Təəssüf ki, qəzet əlimizdə olmadığından alimin adını unutmuşuq). O, yas məclislərində araq içilməsini ənənələrin, dini qaydaların kobud şəkildə pozulması kimi dəyərləndirmişdi. Bu alimə görə, dünyadan gedəni onun haqqında xoş xatirələrlə yada salmaq, onun ruhuna dualar oxumaq lazımdır ki, Rəbbimiz mərhumun günahlarını bağışlasın. Tamamilə doğrudur. Dünyadan gedənlər bizim dualarımıza necə də ehtiyac hiss edirlər!

İstəkli oxucular, unutmayın doğmalarınızı, tanışlarınızı, onların ruhunu yad eləyin. Ya dua ilə, ya sədəqə verib savabını onların ruhuna tapşırmaqla.

ALLAH OHLARI VƏ BİZLƏRİ BAĞIŞLASIN!

## KOSMOLOJİ DÜŞÜNCƏLƏR

**Əgər mənə bir kainat yaratmaq tapşırılsaydı, onu mən də bu cür yaradardım.**

**İbn Sina**

Bismilləhir Rahmənir Rahim

Gecə ulduzlara kim baxmayıb ki? Göyün bağrından saysız-hesabsız çıraqlar asılıb, səyyarələr daim hərəkətdədir. Bəs onlar necə yaranıb? Müasir alimlər bu suala cavab verərkən, hər şeydən əvvəl, Böyük Partlayış nəzəriyyəsi haqqında danışırlar. Bu nəzəriyyəyə görə, kainatın bütün materiyası başlanğıcda bir nöqtədə cəmləşmiş idi və çox yüksək temperatura qədər qızmışdı. Hansısa bir anda dəhşətli partlayış olub. Genişlənən dumanlıqda tədricən atomlar, onlardan isə ulduzlar, planetlər, qalaktikalar, nəhayət, həyat formalaşmışdır. Bu fikir artıq dərsliklərdə özünə yer tapıb. Hərgah Maks Plank kimi görkəmli fizik onun doğruluğunu şübhə ilə qarşılayıb. Axı Böyük Partlayış nəzəriyyəsinə görə, sonsuz dərəcədə kiçik həcmdə cəmləşmiş kainat maddəsi sonsuz böyüklükdə sıxlığa və temperatura malik olmalıydı. Belə başlanğıc vəziyyət isə prinsipcə riyazi cəhətdən təsvir oluna bilməz. Bütün hesabatlar cavabsız suallar doğurur. Fizik A.Qutun dedikləri isə çox maraqlıdır: “Kainat “heç nə”dən yaranıb”. Alim deyir ki, bu “heç nə” hipotetik kvant-mexaniki boşluqdur, vakuumdur. Fizi-

ki zərrəciklər və antizərrəciklər bir səbəbsiz vakuumdan yaranır. A.Qut və onun tərəfdarlarına görə, elə bir an olub ki, vakuumdan zərrəcik əvəzinə kainat yaranıb. Bu nəzəriyyə də; göründüyü kimi, mükəmməl hesab oluna bilməz. Kainatın yoxdan yaradılması vurğulansa da, vakuumdan yaranması məsələsi qoyulur. Vakuum isə yoxluq deyil axı?! Çünki vakuumdan bu gün enerji alınır. Qutun fikrincə, kvant – mexaniki vakuum milyonlarla qalaktikalar törədir. Onların çoxunda həyat üçün şərait yoxdur, bizim qalaktikada isə var. Yaxşı, elə isə belə mükəmməl kainat mənbəyi olan vakuum özü necə yarandı? Yoxsa belə bir nizam, düzüm, harmoniya kor təsadüfünmü məhsuludur? Hələ kainatın başının tacı İNSAN – o böyük, əzəmətli varlıq!

Sual-cavab labirintindən can qurtarmağa cəhd edən bəzi alimlər "Sonsuz pulsasiya edən kainat" nəzəriyyəsi irəli sürüblər. Onlar təsdiq edirlər ki, kainatın nə başlanğıcı, nə də sonu var. O gah mövcud olur, gah da olmur (Bu lap ağ oldu ki...). Bəli, onların fikrincə, kainat genişlənir, sonra yox olmağa qədər sıxılır, nəhayət, yenidən peyda olur, genişlənməyə başlayır və əksinə... Bu fikir kainatın mənşəyi məsələsini gündəlikdən çıxarır, çünki başlanğıcı olmayan kainata mənşə axtarmağa ehtiyac yoxdur.

"Ağ deşiklər – kvazarlar" nəzəriyyəsinin banisi C.Qribbin isə "Ağ deşiklər" kitabında təsdiq edir ki, Ağ deşiklər bölünürlər və özlərini yenidən "istehsal edirlər" (Lap amöbə oxşayırlar). Açığını deyək ki, müasir kosmologiyanın konsepsiyaları bir sıra hallarda əqlə ziddiyyət təşkil edir. Alimlər etiraf edirlər ki, ulduz sistemlərinin mənşəyi problemi astronomiyanın həll olunmamış prob-

lemlərindən ən əhəmiyyətlisi olaraq qalmaqdadır. Ayıq düşünən astrofiziklərdən bəziləri kainatın real mənzərəsini vermək üçün İLAHİ BAŞLANĞICA tərəf üz çevirirlər (Niyə də çevirməsinlər, son qayıdışımız İlahiyə doğru deyilmi?).

Nobel mükafatı laureatı amerikalı astronom Çarlz Tauns bildirir: "Kainat qanunlarında əqilli başlanğıc mövcuddur". Bu fikir bizə indiyə qədər Allahsız kimi tanıdılan M.V.Lomonosovun dedikləri ilə səsləşir: "...Elə bir təbii başlanğıc yoxdur ki, o, Qadir Allahın – hərəkətvericinin mövcudluğunu böyük israrla tələb etməsin". Çarlz Tauns fikrini daha aydın şəkildə belə ifadə edib: "İnsan nə vaxt məkan və zamanın sonsuzluğu haqqında düşünür, o qaçılmaz surətdə Allah haqqında aydın və düzgün fikrə gəlib çıxır". Alimin fikrincə, əgər Yaradıcı mövcuddursa, Onun özündən kainatın necə yaranması haqqında dəqiq informasiya almaq imkanı mövcud olmalıdır. O informasiya mənbəyisə artıq neçə yüzilliklərdir ki, mövcuddur: Allahın Kəlamı olan Qurani-Kərim. **Yaradıcı buyurur: "Allahdır göyləri, yerləri, bunların arasında olanları altı gündə yaradan..." ("Səcdə" surəsi, 4-cü ayə)**. Bu surənin 5-ci ayəsində isə deyilir: **"...Sizə min il gələn bircə günün içində verər hökmünü"**. Bu ayə zamanın nisbiliyini aşkar surətdə sübut edir. Yuxarıda deyilən 6 gün bizim zaman ölçümüzlə 6 min il deməkdir.

Astronomların fikrincə, başqa bir yolla da Allahın Kitabındakını təsdiqləyən informasiya almaq mümkündür: Kainat haqqında mövcud olan informasiyaları yığmaq və kompüterə daxil etmək yolu ilə. Kembric Universitetində "Kosmos" kompüterində kainatın modellərini artıq neçə

vaxtdır ki, hesablayırlar. Onlar kainatın mənşəyinin Yaradıcıya bağlılıq variantını araşdırırlar. Belə təcrübə Amerikada da aparılır. Bizim heç bir şübhəmiz yoxdur ki, əvvəllər olduğu kimi bu dəfə də kompüterin cavabı yeganə həqiqətin təsdiqi olacaq: kainatı Allah yaradıb. Necə ki Amerika yazıçısı və alimi Maykl Hart və onun köməkçiləri bəşəriyyət tarixində ən mühüm rol oynamış şəxsiyyətlərin tərcümeyi-halını kompüterə daxil edib və bu cavabı alıblar ki, bəşərin ən böyük fəxri Həzrət Məhəmməddir (ə.). (Mənbə: “Çudesa Allaxa”, səh. 94.). Yoxdan yaratmağın mümkünlüyünü bir çoxları qətiyyən yaxın qoymurlar. Müasir rus filosofu A.Q.Spirkin yazır: “Bəzi alimlər təsdiq edirlər ki, müddətdən-müddətə atomların... yoxdan yaranması baş verir. Materiyanı təşkil edən müxtəlif atomlar bir müddət mövcud olmurlar və bir anda yaranırlar. Onlar heç nədən yaranırlar...” (“Filosofiya”, səh. 271.). Filosofun özünün də bu fakta inanmağı gəlmir. Bu isə İlahinin qüdrət nişanəsi, dəlili deyilmi? Dünyanın İlahi tərəfindən yoxdan yaradılması ideyasını heç cürə yaxın buraxmadığımız üçün Onun belə dəlillərini də öz baxış bucağımızdan izah edirik. Gerçəkliyə isə göz yummaqla gerçəklik öz mahiyyətini itirmir. Daha böyük parlaqlıqla, aydınlıqla düz gözlərimiz qarşısında cilvələnir. Bəli, həqiqət bütöv kainatda cilvələndiyi kimi bir atom miqyasında da beləcə cilvələnir.

## ZAMAN HAQQINDA DÜŞÜNCƏLƏR

Əziz oxucu, Yerdə bütün hadisələrin baş verməsinin düz və əks xarakterdə olması hamımıza aydındır. Külək bir istiqamətdə hərəkət etmir ki?.. O, səmtini tez-tez dəyişir. Elə səma cismləri – Günəş də, Ay da, planetlər də fırlanır, əvvəlki vəziyyətlərinə (cüzi fərqlə) qayıdır. Bəs zaman necə? Zaman da hər iki istiqamətdə (həm keçmişə, həm gələcəyə) doğru axmalı deyilmi? Hamımızda belə bir ənənəvi fikir formalaşıb ki, zaman təkcə bir istiqamətdə - keçmişdən gələcəyə doğru axır. Doğrudan da, insanın get-gedə qocalmasını təbii hal kimi qəbul edirik, bəs qocanın cavanlaşmasını görsək, bu, bizim üçün qeyri-adi olmazmı?

Eynşteyn deyirdi ki, zamanın əksinə axmasına heç nə mane olmur. Belə isə zaman niyə geri qayıtmır? Nyutona görə, zaman heç nədən asılı deyil, öz-özünə mövcuddur, yalnız bir tərəfə axa bilər. Amma faktlar göstərir ki, bu, belə deyil. Biz hələ orta məktəb fizika kursundan bilirik ki, zaman nisbidir, Yerdən çox uzaqlaşdıqca onun hərəkəti ləngiyir. Əgər zaman heç nədən asılı deyilsə, gələcəyi necə xəbər vermək olar? Təkcə bir fakt: Vanqa nənənin gələcək barədə yeddi min proqnozu özünü doğruldub. Biz zamanın axması fikrini tez-tez işlədirik. – Doğrudanmı, zaman çay kimi axır? (Bizdən gəlib keçərək). Bəs görəsən qədim müdrikləri bu fikrə gəlməyə vadar edən nə idi: “Zaman heç yerə axmır”. Yəni yerindəcə durur, biz onun axarınca gedirik. Elə yolda getdiyimiz kimi. Yol biz gedəndə hərəkət etmir ki? Əlbəttə, söhbət onun görünən vəziyyətindən gedir, əslində hərəkətsiz heç nə yoxdur. Fikirlər, göründüyü kimi, haçalanır. Məşhur rus fiziki Nikolay Kozırev za-

man haqqında təsəvvürlərdə əsl inqilab etdi. O, sübut etdi ki, zaman sadə bir hadisədən digər hadisəyədək olan vaxt deyil. O, müəyyən xassələrə malik fiziki amildir ki, bütün təbiət proseslərində fəal iştirak edərək, hadisələrin səbəb-nəticə əlaqəsini təmin edir. Kozırev göstərdi ki, indiki zaman özündə həm keçmişi, həm də gələcəyi gizlədir. Keçmiş sadəcə yox olub getmir, obrazlı desək, bizimlə nəfəs-nəfəsədir, elə gələcək də bizimlə nəfəs alır.

Deməli, böyük Xəyyam aşağıdakı rübaisini yazmaqda haqlı deyilmiş?

***Ey dost, gəl özünü qüssəyə salma,***
***Bu köhnə dünyanın qəminə dalma.***
***Olmayan olmamış, olan keçmişdir,***
***Olub-olmayanın hayına qalma.***

Sən demə, olan keçmiş deyilmiş, olmayan da artıq olubmuş! Çoxlu faktlar var ki, açıqca sübut edir ki, "olub-olmayanın" (keçmiş və gələcək) indi olanla heç bir sərhəddi yoxdur. İnsanların bu gündən keçmişə, ya gələcəyə düşməsi elə də çətin deyilmiş. Bəli, bəli, "Sehrli xalat"dakı "piyanar" kimi (kinonun yaradıcıları öz fantaziyaları ilə elmi qabaqlayıblar). Britaniya Kraliça Metapsixiki Cəmiyyəti keçmişin, gələcəyin bu günə daxil olmasını sübut edən iki yüzə qədər fakt toplayıb.

Məsələn, 1929-cu ildə Fransada dörd nəfər bir mehmanxanaya düşüb. Onları burada olan hər şey – həm onlara xidmət edən insanların geyimi, həm işlənən pullar və s. çox heyrətləndirib. Hər şey qədimdən xəbər verirdi. Bununla belə, bu qədimliyi mehmanxana sahibinin "keçmişə səyahət üzrə fantaziyası" kimi qiymətləndiriblər. Maraqlı

burasıdır ki, onlar bir neçə gündən sonra geri qayıdanda burada yenidən istirahət etmək istərkən onları şok vəziyyətinə salan mənzərə ilə qarşılaşıblar. Mehmanxananın yerində qədim xarabalıqdan başqa heç nə yox idi. Təəccüb dolu maraqla tədqiqata başlayıblar. Məlum olub ki, həqiqətən keçən əsrdə burada onların düşdüyü mehmanxana olub, elə bu xarabalıq da neçə illərdir ki, onun nişanəsi kimi durur. Beləliklə, nə baş verib? Sadəcə olaraq (doğrudanmı, sadədir?) turistlər bir anda keçmişə düşüblər. Sual olunur, Xəyyam dediyi kimi, zaman dönməz proses olaraq keçib getsə idi, turistlər bu gündən keçmişə düşə bilərdilərmi? Təbii ki, turistlər gələcəyə də düşə bilərdilər. Digər bir fakta baxaq. Jiqulevsk dağlarının ətəklərində səhər bir də görürsən ki, dumanın içindən köhnə şəhər boylanmağa başlayır. Şəhərin divarları, kilsələr, ümumiyyətlə, hər şey qədimiliyi xatırladır. Beləcə bir neçə dəqiqə göründükdən sonra mənzərə itir. Bu hadisənin müşahidəçiləri artıq dörd nəfər deyil, şəhər əhalisidir. Düşündürücü, həm də ağlabatmazdır, elə deyilmi? Onda görək biz də günün günorta çağı özümüzü şah divanxanasında, yaxud heç təsəvvürümüzə gətirə bilmədiyimiz bir yerdə (gələcəkdə) görsək, gərək təəccüblənməyək. İndi isə bu hadisələrin elmi təsdiqini verən Kozırev təcrübəsini nəzərdən keçirək. Bu təcrübə çox sadədir. O, teleskopu hər hansı bir ulduzun, tutaq ki, min ildən sonra olacağı nöqtəyə yönəldəndə cihazlar zamanı qeydə aldılar. Deməli, ulduzun indiki anında zaman olduğu kimi (ulduz hərəkətə başlayandan zamana malikdir), onun min ildən sonrakı anında da zaman var. Astronomik yolla ulduzun min ildən sona tutacağı vəziyyəti hesablamaq olar. N.Kozırev müşahidə etmişdir ki, te-

leskopu ulduz olmayan nöqtəyə yönəldəndə heç bir zaman qeydə alınmır. Bu təcrübə təkzibedilməz şəkildə sübut edir ki, ulduz eyni zamanda keçmişdə, bu gündə, həm də gələcəkdə mövcuddur. Doğrudan da, ulduzun əgər gələcəkdəki vəziyyətində zaman qeydə alınırsa, (eləcə də min il bundan əvvəlki vəziyyətində) bu müddəanın doğruluğuna heç bir şübhə qalmır. Əgər ulduzun gələcəyinin, həm də keçmişinin bu günə dəxli olmasaydı, hansı zamandan söhbət açmaq olardı. Mövcudluq olmayan yerdə zamandan söhbət açmaq mənasız olardı. N.Kozırev təcrübəsi sübut etmişdir ki, keçmiş, indi, gələcək təbiətdə eyni zamanda mövcuddur.

Beləliklə, heç də fikirləşmək lazım deyil ki, artıq keçmiş yoxdur, gələcək isə hələ daxil olmayıb. Onlar yan-yana mövcuddurlar, hətta bəzən kəsişirlər. Necə ki, bu kəsişmədə turistlər keçmişə düşmüşdülər. Biz şərti olaraq zamanı keçmişə, bu günə, gələcəyə bölürük. Əslində zaman bütövdür, heç yerə axmır.

## İMAM HÜSEYNİN (Ə.) BƏŞƏRƏ EŞQ DƏRSİ

Bismilləhir Rahmənir Rahim

Bəşər tarixində elə insanlar olub ki, onlar zülməti dağıdan nurlar, hidayət çıraqları kimi yaddaşlarda, qəlblərdə yaşayırlar...

**İmam Hüseyn (ə.) qiyamının səbəbləri**

İmam Hüseyn (ə.) öz həyatı boyu cəmiyyətin islahı, azadlıq, ədalət uğrunda mübarizə aparmışdır. O, atası Həzrət Əlinin (ə.) hakimiyyəti dövründə də siyasi və hərbi səhnələrdə onunla çiyin-çiyinə çalışmış, bu dövrdə baş

vermiş müharibələrdə fəal iştirak etmişdir. Həzrət Əlinin (ə.) vəfatından sonra Müaviyə kimi şər, hiylə dağarcığının hakimiyyəti ələ keçirməsi nəticəsində islam cəmiyyətinin əsl mahiyyəti itib batdı və islami dəyərlər aradan getməyə başladı.

Ümumiyyətlə, Əməvilər sülaləsi islamın qatı düşməni idi. Həmişə islama qarşı mübarizə aparıb, yalnız Məkkənin fəthindən sonra (630-cu il) zahirən müsəlman olmağa məcbur olan Əbu Süfyan törəmələrindən bundan artıq nə gözləmək olardı ki? O, törəmələrinə belə tapşırmışdı: "İndi ki hakimiyyət sizin əlinizə düşüb, onu top kimi bir-birinizə ötürün... Mən and içirəm əqidə bəslədiyim şeyə(?), nə əzab var, nə hesab-kitab, nə Cənnət, nə Cəhənnəm, nə də ki Qiyamət var" (Mehdi Pişvayi, "Məsum imamların həyatı", (səh.115). Müaviyə də məhz atası Əbu Süfyanın yolunun davamçısı idi. Onu islam yox, hakimiyyət maraqlandırırdı. Müaviyə haqq-ədalət siyasəti yox, zorakılıq, hiyləgərlik siyasəti aparır, hər cür müxalif hərəkatın qarşısını amansızlıqla alırdı.

Onun hakimiyyəti üçün işləyənlər yalançı hədislər uydurur, Quranı onu xeyrinə təfsir edir, bir sözlə, Müaviyənin hər hərəkətinə islami rəng verməyə çalışırdılar. Camaat da ya qorxudan, ya məqam xatirinə, ya da nadan-lıqdan Müaviyəyə itaət edirdi. Pərakəndə etirazlar isə ümumxalq hərəkatına çevrilməkdən uzaq idi.

Müaviyə Mədinədə oğlu Yezidi tərifləyib onu vəliəhd təyin etmək istədikdə, İmam Hüseyn (ə.) ona qarşı kəskin çıxış etdi: "Camaatın ümumi malını qəsb etməklə zülm etmisən!.. Yezid itbaz, quşbaz və keyf adamıdır. Yezidi bu cür tanıyırlar". İmam məktubunda Müaviyəyə

yazır ki, bunu bil ki, Allah sənin törətdiyi cinayətləri, sırf güman nəticəsində camaatı qətlə yetirməyini, onları ittiham edərək  həbs etməyini, şərabxor və itbaz bir uşağı hökümət başına gətirməyini heç vaxt unutmayacaq... (yenə o kitabda, səh. 101-102). Belə bir vəziyyətdə İmam Hüseyn (ə.) Yezidə beyət edərdimi? O, qiyamının səbəblərini belə açıqlayır: **"İlahi! Bizim hərəkatımız (qiyamımız) nə hökümət başına gəlmək üçündür, nə mal-dövlətə yiyələnmək üçün. Məqsədimiz yalnız budur ki, sənin dininin nişanələrini camaata göstərək və islahatı islam ölkələrində həyata keçirək. Qoy bunun nəticəsində məzlum bəndələr zalımlar əlindən amanda olsunlar və sənin ehkamın və Peyğəmbərin (ə.) sünnəsi həyata keçsin...".**

Beləliklə, İmam Hüseynin (ə.) məntiqi islama zidd olan hökümətə qarşı etiraz, mübarizə məntiqidir. O, Küfə camatı onu İraqa dəvət etməmişdən də qabaq mübarizəyə hazır idi. Yolda onların vəfasızlığı xəbərini alanda belə hərəkətini saxlamadı və daha qətiyyətlə yoluna davam etdi.O, ilk gündən Mədinədən əmr be məruf (yaxşılığa dəvət) bə nəhy əz-münkər (pislikdən çəkindirmək) şüarı ilə hərəkət etmişdi. Ondan Yezidə beyət tələb olunmasaydı belə, inqilab edəcəkdi. Çünki Yezid hakimiyyəti şər, fəsad mənbəyi idi və İmam Allah qarşısında öz borcunu yerinə yetirməkdən ötrü qiyam etdi. Onun qiyamı İlahi missiya idi. O, insanlara İlahiyə həqiqi sevgi dərsi, itaət dərsi verdi. İlahi eşq yolunda canını fəda edənləri az tanımırıq. İbrahim (ə.): "İlahi, sənin yolunda ciyərparam İsmayıl da qurbandır" – deyərək, böyük sınaqdan üzü ağ çıxmadımı? Hüseyn şücaəti, Hüseyn şəhadəti isə misilsizdir. O, Kərbəlada

oğlanlarını, qardaşlarını qurban verdi, özü də müsibətlə! Onun əzizləri (xanımı, bacıları və s.) düşmənlər əlinə əsir düşdü. Onu ölümlə qorxudanda, **"Məni ölümlə qorxudursunuz? Allah yolunda ölməyə salamlar olsun" – dedi. "İlahi, sənin məhəbbətin və dinin uğrunda yetmiş min dəfə öldürülüb dirildilməyə hazıram, təki bununla Sənin şəriətin qorunsun, dinin dirçəldilsin..."**

## İmam Hüseyn bəşərə örnəkdir

İmam öz mübarək məqsədinə çatdı.O, ümmətin qəflət yuxusundan oyanması, zalımın maskasının yırtılması üçün qeyrət, igidlik, məhəbbət və sevgi dərsi verdi. Alçalmaq əvəzinə şərəflə ölməyi, haqqı müdafiə etməyi öyrətdi. İmam müqəddəs qanıyla qurumaqda olan islam ağacını suvardı. Vaxtilə Həzrət Məhəmməd (ə.) buyurmuşdu: **"Hüseyn hidayət çırağı, nicat gəmisidir"**. Doğrudan da, o, təkcə islam hümməti üçün deyil, bütün bəşər üçün hidayət çırağı oldu.

Din, xalq, azadlıq naminə inqilab edənlər Kərbəladan, Aşuradan dərs alıblar. Hind xalqının böyük oğlu Mahatma Qandi etiraf etmişdir: "Mənim qalib gəlməyimin əsas səbəbi İmam Hüseynin (ə.) məktəbini özümə örnək hesab etməyim oldu". O, xalqına öyrədirdi ki, əgər müstəmləkədən qurtulmaq istəyiriksə, əqidəmiz uğrunda İmam Hüseyn (ə.) kimi mübarizə aparmalıyıq. M.Qandi İmam Hüseyn (ə.) məktəbini nümunə hesab edirdi. Bu, mücahidlik, şəhadət məktəbidir. Bu məktəbi keçməmişik hələ. Əgər bir millət mücahidlik ruhiyyəsini itirərsə, onun şəxsiyyətinə hörmətlə yanaşmazlar.

Bir şeyə qəti əminəm: ermənilər bizdə həqiqi mücahidlik ruhu görməyincə, gələcəkdə də bizə qarşı fitnəkarlıqlarından əl çəkəsi deyillər! Mücahidin məntiqi – yanmaq, işıqlandırmaq məntiqidir,böyük amallara doğru hərəkətə gətirmək məntiqidir. İmam Hüseynin (ə.) şəhadət məktəbi kamil insan yetişdirən məktəbdir.

## Kərbəla şəhidlərinə ağlamağın fəlsəfəsi

Aşura səhnəsində o qədər ürək yandıran məqamlar var ki, insanın qəlbini titrədir. İnsan kədərlənir, ağlayır, eyni zamanda, böyük heyrət hissi keçirir. İnsan ruhunun əzəməti qarşısında, İlahi eşqin dərəcəsi qarşısında heyrətlənməyə bilmirsən. Əzadarlıq daxilən insanı saflaşdırır. Özümüzü Kərbəla şəhidləri ilə müqayisə edir, öz naqisliyimizə görə xəcalət çəkirik, günahlarımıza görə tövbə yaşları axıdırıq. Şəhidlərə ağladıqca, o hadisələri qəlbən yaşayırıq, onlarla bir dalğaya köklənirik. İmam Hüseyn (ə.) qiyamını əqli-məntiqi şəkildə qavramaq məsələnin bir tərəfidir. Ağlamaq isə bu qiyamı qəlbimizin dərinliklərinə də nüfuz etdirir, qəlbimizdə mücahidlik ruhu oyanır. Yas saxlamaq həm də Yezid kimi qatillərə öz münasibətini bildirmək deməkdir. Beləliklə, əzadarlığın mahiyyəti İmam Hüseyn (ə.) qiyamının məqsədlərini insanlara çatdırmaq, əsl insan yetişdirməkdir. Materialist təfəkkürlü insanlar təəccüb edirlər ki, insanlar Kərbəla şəhidlərinə necə ağlaya bilərlər. Onun sirri bu kəlamdadır: **“Doğrudan da, möminlərin qəlbində Hüseynə (ə.) məhəbbət gizlənmişdir”**. İmanın artıqca, məhəbbətin də artır.

Böyük sənətkarlarımız – Füzuli, Sabir, Şirvani, Natəvan, Dədə Ələsgər, Şəhriyar... və başqaları Aşuraya yanıqlı şeirlər həsr ediblər.

Dədə Ələsgər deyib:

***Qan ağla, gözüm, şahi-şəhidana bu gündə,***
***Ümmətə verib oğlunu qurbana bu gündə.***

Bu gün Hüseyn (ə.) qiyamını dərk etməyənlərə N.Nərimanovun sözləri ilə cavab vermək istərdim:

"Bu, öz gücsüzlüyünü bilərək Məhəmmədin qanunlarını pozan, hamını və hər şeyi qızılla ələ almaq istəyən Yezidə qarşı mərdanə çıxış etmiş adamın həyatında bütöv bir faciədir" (N.Nərimanov. "Ucqarlarda inqilabımızın tarixinə dair", İ.V.Stalinə məktub, səh.43, Bakı, 1992).

Mərdlərin həyatı isə bizlərə həmişə örnəkdir!

## MƏKTƏB VƏ MƏSCİD

***"Elmlə din əkiz qardaşdırlar; onlar bir-birindən ayrılsalar, cəmiyyət yanıb kül olar".***

İnkaredilməz bir gerçəklikdir ki, həyatın, cəmiyyətin, kainatın dərki dini təfəkkürsüz, dini mədəniyyətsiz tam, bütöv ola bilməz. Dünya mədəniyyətinin böyük simalarının – Nizaminin, Hafizin, Sədinin, Füzulinin, Nəsiminin, Hötenin, Tolstoyun, Dostoyevskinin, Motsartın, Baxın, Bethovenin, Rafaelin, Dalinin və başqalarının yaradıcılığına həqiqi qiyməti yalnlz dini-metafizik təfəkkür baxımından verə bilərik. Əgər fəxr etdiyimiz Nizami Ulu Yaradana müraciətlə:

“Nizami vəhdətinin carçısı bir bəndədir” və ya “Səndən danışmayanda susa bilmək yaxşıdır” – deyirsə, hanı bizim Allahşünaslığımız? Əgər klassiklərimizin yaradıcılığını bir bağçaya bənzətsək, bu bağçaya ətir verən islam təfəkkürü, Quran həqiqətidir. İslami elmləri, o cümlədən irfanı (Allahıtanıma) bilmədən bu bağçanın ətirli güllərindən dərə bilməyəcəyik.

Sovet dövründə marksizm dinin missiyasını öz üzərinə götürmüşdü. Belə fikir formalaşdırılmışdı ki, “din xalq üçün tiryəkdir” və marksist etikaya yiyələnsək, mənəvi ehtiyaclarımızı ödəyə bilərik. Bu gün qabaqcıl ölkələrin də faciəsi odur ki, zahirən yaxşı təsir bağışlayan ictimai münasibətlər (ədalət prinsipləri, bir-birinin haqqına hörmət və s.) cəmiyyəti mənəvi iflasdan qoruya bilmir. Nitsşenin zahirən elmi təəssürat yaradan güc-qüdrət (burada mərhəmətə, insafa yer yoxdur, güclü haqlı hesab olunur), freydizm (cinsi ehtiraslara sərhəd qoyulmur), ulitarizm (mənfəətpərəstlik), hedonizm (ləzzətpərəstlik) kimi nəzəriyyələr, habelə siyasətdə makiavelliçilik (siyasətin əxlaqsızlaşdırılması) əl-ələ verərək əxlaqi-mənəvi dəyərləri ayaqlar altına atmışdır. Şəxsi mənfəət, ləzzət dalınca qaçan insanın həya, vicdan nəyinə gərək?

Bu gün əsas dəyər kimi azadlıqdan daha çox danışılır. Azadlığın meyarını, həddini necə, bilirikmi? Azadlıqdan düzgün istifadə etməklə kamala da çata bilirsən, ondan sui istifadə edib heyvandan betər vəziyyətə də düşə bilərsən. Təəssüflər olsun ki, azadlığın hökm sürdüyü ölkələrdə ailə institutu dağılır, nikahdankənar doğulan uşaqların sayı durmadan artır (ABŞ-da ildə 300 minədək), alkoqolizm, narkomaniya fəlakət həddinə çatır. Ümumdünya Səhiyyə

Təşkilatının məlumatına görə, hər il dünyada bir milyona yaxın insan intihar edir. Respublikamızda intiharlar haqda rəsmi məlumat verilməsə də, təkcə qəzetlərə əsasən, demək olar ki, keçən illə müqayisədə kifayət qədər artmışdır. İsveçrə kimi inkişaf etmiş ölkələrdə də intiharlar yüksək səviyyədədir. İntiharlar təkcə maddi problemlərin nəticəsi deyil. Təhlillər göstərir ki, ruhi sarsıntılar, mənəvi boşluq, həyatın mənasızlığı fikirlərinə qapılmalar burada ciddi səbəbdir. İngilis alimi Riçard Bell yazır: "Avropa böyük tənəzzül qarşısındadır. Üzdə olan dəbdəbənin və cah-calalın arxasında özünəqəsd, ruhi xəstəliklər, əxlaqsızlıq, narkomaniya və alkoqolizm, qarət, zorlama, zöhrəvi xəstəliklərin görünməmiş vüsəti durur. Qarşılıqlı məhəbbət və inam yoxa çıxıb..."

Bina bünövrə üzərində qurulduğu kimi, həyat da, insanlıq da mənəvi dayaqlar üzərində qurulmalı deyilmi? Vaxtilə Aristotel: **"Mənəvi dayaqlarsız insan şərəfsiz və vəhşi olub, özünün cinsi instinktlərində alçaq məxluq səviyyəsindədir"** – demişdi. Bəs mənəvi tərbiyə necə olmalıdır? Əgər biz orta və ali məktəblərdə yeniyetmə və gənclərin tərbiyəsi ilə məşğul oluruqsa, tərbiyə etdiyimiz insanın mənşəyini, mahiyyətini düzgün anlamalı, bir sözlə, onu yaxşı tanımalıyıq. Bu, hər şeydən əvvəl, tərbiyənin metodoloji əsaslarını düzgün formalaşdırmaq üçün lazımdır.

Sovet məktəbi yetişdirdiyi insana təbiətin, təbii seçmənin, təkamülün nəticəsi kimi baxır, onun ruhi mahiyyətini kənara atırdı. Hələ də o konsepsiyadan çıxa bilməmiş, inersiya (ətalət) ilə hərəkət edirik. Nəhayət, insanın Allah tərəfindən yaradıldığını etiraf ediriksə (şüursuz

təbiətin şüurlu insanın yaradıcısı olması ideyası mənasızdır), tərbiyənin metodoloji əsaslarına yenidən baxmalıyıq. Mütləq tərbiyəçi Rəbbdir (Rəbb – bəsləyən). Onun göstərişləri, hökmləri tərbiyənin əsasında durmalı, insana təkcə biososial varlıq kimi yox, ruhi varlıq kimi baxmalı, onun ruhunun, qəlbinin saflaşmasının qayğısına qalmalıyıq. N.Tusi də, Y.Komenski də öz pedaqoji təlimlərini bu prinsipdən çıxış edərək yaratmışlar. Y.Komenski məktəbləri "mömin, xeyirxahlıq yetişdirən bağçaya" çevirməyə səsləyirdi. Dindən kənarda tərbiyənin mümkün olmaması haqqında F.Frebel, H.Spensep, K.D.Uşinski kimi mütəfəkkirlər də yazmışlar. Tərbiyədə varislik əlaqəsi itib. Möminlərin iman tərbiyəsini keçmişə aid edib, mütəfəkkirlərin bu cür fikirlərinin üstündən sükutla keçirik.

Müasir təhsilin ən böyük qüsuru odur ki, insanın fitri ehtiyaclarına cavab vermək gücündə deyil. Təkcə intellektual tərbiyəyə üstünlük verildiyindən, insanın digər ehtiyacları unudulub. Gərək özümüzdən soruşaq: "Təkcə dünyəvi elmlərin öyrədilməsi insanın ən böyük düşməni – nəfsi cilovlamaq, onu islah etmək gücündədirmi?" "Açıq danışaq, elmi qanunları əzbər bilmək yeniyetmə, yaxud gəncə şəhvət, tamah və qəzəb qüvvələrinin qarşısını almağa kömək edirmi? Halbuki, **N.Tusi dediyi kimi: "Nəfs elə bir şeydir ki, onu özbaşına buraxsan alçaqlığa meyl göstərib bataqlığa batar; cilovlayıb istiqamət versən, fəzilət yüksəkliklərini fəth edib kamala çatar"**. Bütün yaramazlıqlar, cinayətlər nəfsdən qaynaqlanmırmı? Yüksək savadlı insanların belə tamahkarlığı (müəllimin, məmurun rüşvətxorluğu) nəfsdən deyilmi? Nəfsi özbaşına buraxa bilərikmi? Nəfsin tərbiyəsini yeniyetmənin, gəncin

öhdəsinə buraxa bilərikmi? Dövlətin əsas vəzifəsi şəxsiyyətin tərbiyəsidir (dövlətin də mövcudluğu bu amildən asılıdır). Şəxsiyyətin tərbiyəsi isə özünütanımadan, öz nəfsini tərbiyə etmədən mümkün deyildir. Belə ki, nəfsani qüvvələr hər zaman əl-ələ verərək ağıl nurunu söndürməyə qadirdilər. Nəfs islah olunmayınca, içimizdəki bu qorxulu əjdaha ram olmayınca intellektual, fiziki, estetik tərbiyə kamil şəxsiyyət yetişdirə bilməyəcək. İbrətamiz bir misal yerinə düşərdi. Əgər anbara çoxlu sayda siçovul daraşıbsa, oraya nə qədər taxıl töksək də, ehtiyat yığa bilməyəcəyik. Əvvəla, o siçovulları zərərsizləşdirməli deyilikmi? Nəfsin də misalı buna oxşayır. **"Nəfsini islah etməyən ağıldan bəhrə götürə bilməz" (Həzrət Əli Əleyhissəlam)**.

İndi elə bir dövrə yetişmişik ki, yalnız elmi-texniki səviyyəmizlə kifayətlənə bilmərik. İnsan daxilən dəyişməli, qanun, ictimai məzəmmət qorxusundan yox, saf vicdanın diqtəsindən doğan məramla yaşamalıdır. Bu gün elm acgözlük, hərislik əlində alətə, hərbi qüdrətləri artırmaq vasitəsinə çevrilib. Elm insanın təbiət üzərində hökmranlığını artırdı, amma əvəzində insanı öz mənindən, öz yaradıcısından ayırdı. Bəşərin batan gəmisini təkcə elmlə xilas etmək mümkün deyil. Çünki elm insana məqsəd vermir, yalnız məqsədə çatmaqda kömək edir. Qəlbdəki mənəvi boşluğu doldurmaq elmin işi deyil. Bəşəri hədələyən qlobal problemlərin, ümumiyyətlə, dərdlərimizin bir dərmanı var – iman! Qəlbdə də, sözdə də, əməldə də Yaradana itaət, Onun əmrlərinə itaət!

Görkəmli islam alimi **Şəhid Ustad M.Mütəhhəri yazır: "İman elə bir qalanı fəth edir ki, o qala elmin hakimiyyətində deyil və elm o qalanı fəth etməyə qadir**

**deyil. O qala insan mənəviyyatı, insan nəfsidir”**. Allah və onun əmrləri qarşısında məsuliyyət, cavabdehliklə müşayiət olunan əxlaqla (imandan doğan) yalnız dünyəvi səadət naminə olan əxlaq müqayisə oluna bilməz. İmana əsaslanmayan əxlaq etibarsız bir dəyərdir. Bu cür əxlaq daşıyıcıları zahirdə yaxşı olsalar da, gizlində hər cür yaramazlığa gedə bilirlər. Amma öz üzərində hər an Allah nəzərini hiss edən kəs hər cür şəraitdə öz mənəvi paklığını saxlamaq gücündədir (əlbəttə, iman dərəcəsinə uyğun olaraq).

Özünü tanıyan, özündən agah olan insan hər şeyin Allahdan və Ona doğru olduğunu biləndə öz nəfsinin istəkləri ilə yox, Allahın dəyər verdikləri ilə yaşayır. O, hər şeyi, o cümlədən elmi də Ona yaxınlaşmaq vasitəsi hesab edir. Nobel mükafatı laureatı, fizik Əbdüssəlam elmi “Allahın sənətini (yaratdığını – F.R.) başa düşmək üçün bir açar” hesab edirdi. Məktəblilər fizik Kelvinin dediyi kimi: **“Elmi nə qədər dərindən dərk etsələr, Allahı bir o qədər yaxından tanıya bilərlər”**. Bu baxımdan, elmi-dini biliklərə vəhdətdə yiyələnmək zəruridir. Dərketmə prosesi fikrin sonsuzluğa doğru hərəkət prosesidir. Əqlin dərk etmədiyi o biri aləmi laboratoriyaya gətirə bilmərik, yalnız intuitiv şəkildə (imanla) hiss edə bilərik. Elm olmayan yerdə cəhalət, fanatizm; din, iman olmayan yerdə isə mənəviyyatsızlıq, zəlillik qaçılmazdır. Onların vəhdətindən isə həqiqət cilvələnəcək, gözəllik, səadət boy atacaqdır. Quş bir qanadla uça bilmədiyi kimi, bəşərin də Mütləq Kamala, Mütləq Gözələ doğru mənəvi uçuşu elmlə dinin qovuşması olmadan mümkün deyildir. Əziz İslam Peyğəmbəri (Əleyhissəlam) buyurmuşdur: **“Elmlə din əkiz**

**qardaşdırlar. Onlar bir-birindən ayrılsalar, cəmiyyət yanıb kül olar”** (Neçə əsr sonra rus alimi M.V.Lomonosov onları “əkiz bacılar” adlandırmışdı). Belə isə islam, islam əxlaqı, islamın əvəzolunmaz tərbiyə üsulları, Qurani-Kərimin elmi, mənəvi fəzilətləri, islam müqəddəslərinin örnək həyatları və s. məktəblərdə niyə öyrədilməsin? Niyə gözümüzü Haqqın nuruna açmayaq? Mənəviyyatın kökü dindir. Dinsiz mənəviyyat yaratmaq köksüz ağac əkmək kimi bir şeydir.

Yeniyetmələrin və gənclərin mənəvi tərbiyəsində, ümumiyyətlə, cəmiyyətin saflaşmasında, yeniləşməsində sosial bir institut kimi məscidlərin də üzərinə böyük vəzifələr düşür. Zaman-zaman qanunlar işləməyəndə, cəmiyyətdə xaos, qarşıdurma olanda məscidlər nizamlayıcı, qoruyucu kimi çıxış etmiş, insanları Allah qarşısında məsuliyyətə, başqalarına qarşı mərhəmətə, xeyirxahlığa, bəlalar, sınaqlar qarşısında səbrə, dözümə səsləmişlər. Bu gün də dünyanın maddiyyatçılıq əsarətində çabaladığı, fəsadların artdığı bir şəraitdə məscidlərin paklığa çağırışı mənəvi böhran keçirən,qəlbi həqiqətə susayan insan üçün bir xilas qapısıdır. İslam dini ictimai bir din olduğuna görə, hər bir fərdi digərləri qarşısında məsul olmağa, ictimai dərdlərə qarşı biganə olmamağa səsləyir. Dini şüura yiyələnən kəs fərdilikdən kollektivçiliyə asanlıqla alışır, kollektivdə özünə dayaq tapır. O, burada maddi-mənəvi problemlərini bölüşür və yaşamağa böyük bir stimul alır. Bu isə sosial sarsıntılardan, tənhalıqdan, düşkünlükdən, özünəqəsddən qoruyur. Məscidlər dünyanı hədələyən, alkoqolizm, narkomaniya kimi bəlalarla mübarizədə öndə gedə bilirlər və getməlidirlər. Acınacaqlıdır ki, ölkəmizdə 24 min narko-

man rəsmi qeydiyyatdadır (bəs qeydiyyatda olmayanlar?!). Çox düşündürücüdür ki, Moskva meri Yuri Lujkov şəhərdə on məscid tikiləcəyini elan edəndə təkcə müsəlmanların dini ehtiyaclarını ödəyərək onların razılığını almaq istədiyini büruzə vermirdi. Aydın görürlər ki, Rusiyanı hədələyən ölümün doğumu üstələməsi faktını alkoqolizm bəlasının ayağına yazmaqdan başqa yol yoxdur. Bu bəlaya qarşı yalnız islam dura bilmək gücündədir. İslamın alkoqolizmə qarşı mübarizəsini hətta Jirinovski də təsdiq etdi. Bəs bizdə məscidlərə münasibət necədir? Ayrı-ayrı şəxslərin xeyirxahlığı hesabına son vaxtlar tikilən bir neçə məscid qeyri-qanuni hesab edilərək sökülüb. "Fatimeyi-Zəhra" məscidinin sənədləri ilə şəxsən tanış olmuşam. Hər şey öz qaydasında olduğu halda, bu məscidin sökülməsi haqqında məhkəmə qərarı adamı heyrətləndirməyə bilmir. Hakimlər Allah Evi haqqında qərar çıxararkən, Ali Hakimi (hər şeyi bilən və görəni) başqalarının üstündə görməlidirlər.

Vaxtilə tez-tez mənzilini dəyişən Dostoyevski o evə üstünlük verirmiş ki, onun pəncərələrindən kilsə qüllələri və xaçları görünsün; bu harmoniya ona dinclik, rahatlıq verirmiş. Bizdə isə məscidlərin artması kimlərinsə rahatlığını əlindən alır. Məsələn, Seymur Əhməd kimilərinin. O, "hər tin başı məscid olmaz" deyərək, "hər şəhərə bir məscid" kimi "sanballı ideya irəli sürür (bax; "Azadlıq" qəzeti, 19.09.2009). Onun fikrincə, evdə yox, məsciddə ibadət edənlər başqa məqsədlər (?) güdürlər. Göründüyü kimi, S.Əhməd də məscidin funksiyasını dərk edə bilməyib. Görəsən, müsəlman öz dinini, onun nəzəri əsaslarını, hökm və vəzifələrini harada öyrənməlidir? Bu sahənin mütəxəssisinə müraciət etməli deyilmi? "Cəmdə bərəkət

var" – demişlər. Allahın feyz və nurunun bərəkəti cəmə nazil olur, cəmin duaları dərgaha tez yetişir. Məscid əhli bir-birindən xəbər tutur, bir-birinin mənəvi, psixoloji, maddi yardımından faydalanırlar. Bir hədisdə deyildiyi kimi, canavar sürüdən ayrı düşən qoyunu tez tuta bildiyi kimi, insanın canavarı olan Şeytan da camaatdan ayrı düşən dindarı daha tez azdırmağa nail olur. Unutmayaq ki, vacib namazlardan sonra Haqqa ünvanlanan kollektiv dualar ətraf məkanı qara enerjidən təmizləyərək saflaşdırır, bəlaları uzaqlaşdırır.

Sovetlər Birliyi şüurlarda məscidin cəhalət, fanatizm məkanı obrazını yaratmışdı. Bu düşüncə tərzindən hələ o qədər də uzaqlaşmamışıq. Çünki həqiqəti tanımamışıq, öz dinimizi bilmirik, onu düşmənlərin gözləri ilə baxıb dəyərləndiririk. **"Hər kəs bilmədiyinin düşmənidir" (Həzrət Əli (ə.)**. Allahım haqqa çağıranları da, haqqı müdafiə edənləri də nəzərdən salmasın!

27.12.2009

## ALLAHIN VƏ AĞLIN HÖKMÜ, FİTRƏTİN TƏLƏBİYLƏ

Həyat dərslərdən ibarətdir. Hər bir hadisə də hansısa bir dərsi mənimsətmək vasitəsidir. Hamımızın öyrənəcəyi əsas dərs isə Allahı tanımaq dərsidir. Böyük filosofumuz N.Tusi "Əxlaqi-Nasiri" əsərinin son fəslini Platonun Aristotelə vəsiyyəti ilə tamamlamışdır: "Öz Yaradanını tanı, Onun haqqını yerinə yetir". Bəli, Yaradanı tanımaq təkcə dinin yox, insanlığın da əsasıdır. Bəşər Onun haqqını tanımayıb, qanunlarını tapdalayanda nəfsə pərəstiş, maddiyyatçılıq, nəhayət, insanlığın süqutu qaçılmazdır. Bu gün nə

baş verir? Aydın görünür ki, abır-həya, namus, vicdan, qeyrət kimi dəyərlər xeyli ucuzlaşmışdır. Halbuki, bu keyfiyyətlər insanlığın bir himayəçisi, onun şəxsiyyətinin, mənəvi simasının qoruyucusudur. İnsan həyasının, ləyaqətinin bariz təzahürü olan geyim mədəniyyəti xüsusi narahatlıq doğurur.

## Geyim meyarı

Geyim insanı həm ətraf mühitin təsirindən qoruyur, həm abır-həya pərdəsidir, həm də ona gözəllik, zinət verir. Geyimin daxili mədəniyyətlə, dünyagörüşüylə, əqidə ilə birbaşa əlaqəsi vardır. İnsan hansı dəyərlərə tapınırsa, geyimi də o dəyərlərə uyğun olacaqdır. Amma bilirik ki, hər şeyin bir meyarı, ölçüsü vardır. Geyim də bu meyara əsaslanmalı deyilmi? Bəs bunu necə müəyyən etməli? Hansı prinsipləri əldə rəhbər tutmalı?

Bu suala cavab verməzdən əvvəl onu qeyd edək ki, dünya xalqlarının geyim muzeylərindən də göründüyü kimi, həm orta, həm də sonrakı əsrlərdə kişi və qadın geyimləri çox geniş olub; indiki kimi dar, qısa, bədənə yapışmış olmayıb. Əgər desək ki, belə tikməyi bacarmırdılar – gülünc səslənərdi. Bu cür tikmək iqtisadi cəhətdən də səmərəli deyilmi? Daha az xərc çəkilir. Deməli, məsələnin kökü başqa şeydədir. Bu gün, xüsusilə, əksər qadın geyimləri qadında insanlıq sifətlərini yox, onun bədənini nümayiş etdirməkdədir. Geyimlərin modellərini müəyyən edən cinsi psixologiyadır. Modelçilər paltara elə biçim verirlər ki, qadının cazibəsini maksimum dərəcədə nümayiş etdirə bilsin. Ülvi bir varlıq yarıçılpaq şəkildə hətta avtomobil təkəri üçün reklam vasitəsinə çevrilir. Əslində, bununla o,

bu əşyadan da aşağı dəyərləndirilmirmi? Bir sözlə, qadın kapital dünyasının məzlum qurbanlığına çevrilib. Belə reklam bazarlarına meydan verən təkcə pul qazanmaq hərisliyi yox, həm də bəzi təlimlər oldu. Məsələn, freydizm. Freydə görə, cinsi meyillər insanın həyatının əsasıdır və bu meyillərin qarşısında hər hansı maneə olduqda cinsi rahatlıq olmur, nevroz yaranır. Buna görə də cinsi həyatın sərbəstliyinə qarşı olan əxlaq qanunları kənara qoyulmalı və cinsi ehtiraslar heç bir məhdudiyyətsiz təmin olunmalıdır. Freydin insana baxışı birtətəflidir. O, bunu nəzərə almayıb ki, nəfsin istəyi başqa şeylərin istəyi kimi deyil. Məsələn, torpağın su istəyi onun suya ehtiyacı qədərdir. Amma nəfsin istəklərini yerinə yetirsən də, qətiyyən doyan deyil və yeni-yeni əmrlər verəcək, nəhayət, səni heyvandan da betər vəziyyətə salacaqdır. Ona görə də müdriklər nəfsi "insanın ən böyük düşməni" adlandırmışlar. Açıq-saçıq qadın geyimləri ilə cinsi meyilləri təhrik etmək bazar dəllallarının işinə yaxşı yarayır. Axı cinsi psixologiyada da sübut olunmuşdur ki, qadın bədəninin bütün hissələri əks cinsin diqqətini cəlb edir. Buradan belə çıxır ki, əgər cəmiyyət öz mənəvi simasını qorumaq və heyvandan betər vəziyyətə düşmək istəmirsə, belə geyimlərə son qoymalı, cinsi istəklərin təhrik olunmasının qarşısı alınmalıdır. Modelçilərin "son yenilikləri" xanımların sağlamlıqlarını, gələcəklərini gə hədələməkdədir. Artıq şəhərimizdə də geniş yayılan bir dəb – qadınlar üçün beldənaşağı şalvarlar, qısa gödəkçələr, xüsusən küləkli, soyuq havalarda böyrək – sidikyolu xəstəlikləri, qadın sonsuzluğu və s. kimi fəsadlara yol açmaqdadır. Yuxarıda deyilənlərdən də aydın olur ki, insanlar geyim meyarını düzgün qiymətləndirə bilmirlər.

Burada nəfsi istəklər, özünügöstərmə xəstəliyi sözünü deyir. Bəs meyarı kim müəyyən etməlidir? Onu o kəs müəyyən edə bilər ki, insanı yaxşı tanısın, onun bütün istək, ehtiyac, meyillərini, gələcək inkişaf istiqamətini nəzərə ala bilsin və bundan heç bir şəxsi mənafe, məqsəd güdməsin. Əlbəttə, insanı ali ruh daşıyıcısı kimi, onu bədənini nümayiş etdirməkdən qat-qat üstün bir məqsəd üçün yaratmış olan Mütləq Kamaldan başqa kim bu işə iddia edə bilər? O ülvi Zat bu varlığın əsasını hikmət əsasında qurub və hökmləri, qanunları da hikmət üzündəndir. Bu hökmlər insanın bütün ehtiyaclarını nəzərə alaraq verilib. İlahi hökmlərin fəlsəfəsini bilməyənlər bu hökmlərə qarşı çıxırlar. Qadınlar üçün hicab hökmünü köhnəlmiş hesab edənlər bu suala cavab versinlər: insanın mahiyyəti, bioloji təbiəti, fitri istəkləri son əsrlərdə dəyişibmi? Kişi həmin kişi, qadın da həmin qadındır. Nəfs də həmin nəfsdir. Deməli, qadın və kişi münasibətlərinə aid İlahi hökmlər bütün cəmiyyətlər üçün sabitdir. Yox, bu məsələdə yenə də inadkarlıq edərlərsə, onda nə Allahı, nə də özlərini tanımayıblar.

## Hicab (örpək) – Qordi düyünü

"Hicab" lüğətdə pərdə, gizlətmək, örtmək mənasındadır. Hicab qadınların özünü yad kişilərdən gizlətməsi vasitəsidir. Bəziləri "hicab" deyəndə yalnız çadra nəzərdə tutur və guya "məktəbliləri qara çadraya bürüyürlər" – deyə hay-həşir salırlar. Çadra hicabın kamil bir formasıdır. Məktəblilər isə sadəcə örpəkdən istifadə edirlər. Örpəyə qarşı çıxaraq milli geyim məsələsini ortaya atanlar gərək öz keçmişimizə yaxşı nəzər edəydilər. S.Dünyamalıyeva

"Azərbaycan geyim mədəniyyəti tarixi"ndə aydın göstərmişdir ki, qadınlarımız həmişə örtünmüş və bunun üçün də yaşmaq, çadra, rübənd, niqabdan istifadə etmişlər.

Qurani-Kərim qadınların yaxşı sifətlərindən həya və vüqarı qeyd edir. Qadın naməhrəmdən örtünməklə öz həyasını, vüqarını, şəxsiyyətini nişan verir. Örpək həm də qadınpərəstlərin tamahından amanda qalmağa, yuxarıda qeyd etdiyimiz kimi, əks cinsin cinsi hisslərini təhrik etməməyə bir vasitədir. Nazik, dar, qısa geyimlər, bütövlükdə hicabsızlıq isə hər an fəsada yol açmaqdadır. **Həzrət Əli (ə.) buyurmuşdur: "Qadın bir incidir. İnci sədəf içində olar. Qadının sədəfi isə onun örtüyüdür"**. İncinin sədəf içində qorunmasını hər kəs təbii hesab edirsə, bəs qadının örpəklə qorunmasını kimdir qeyri-təbii hesab edən? Azadlığı qadının hicabsızlığında görənlər azadlığa zülm edənlərdir. Azad insan öz nəfsinin, tamahının əlindən azad olana deyilir. Əgər xanımlar təbii olaraq hicaba üz tuturlarsa, öz fitrətlərinə, Yaradanın onların səadəti üçün vacib buyurduğuna qayıdırlar. "Ümumdünya hörümçək toru" – masonluq müxtəlif vasitələrlə dini-mənəvi dəyərləri dəyərdən salmaq yolu tutub. Biz onun qarşısını yalnız öz inancımıza sahib çıxmaqla ala bilərik. Bu gün biz iki dünyagörüşün toqquşmasını görürük: sovet ideologiyasının təsirindən qurtara bilməyənlərlə islam ideologiyasının daşıyıcıları arasında. Köhnə sistemdən yeni təfəkkürlü insanlar doğulmaqdadır. Cəmiyyətin ruhi doğuluş ağrıları hələ də davam edir.

## Ə.Hüseynzadə “tərəqqi” deyəndə nəyi nəzərdə tutub?

Dövlət bayrağımızdakı üç rəngdə rəmzləşən “türkləşmək, islamlaşmaq və avropalaşmaq” – ideyasının müəllifi böyük filosof, mücahid **Ə.Hüseynzadə yazırdı: “Türklük və islam dairəsində tərəqqi etmək istiyoruz. Biz arzu ediriz ki, bizim tərəqqimizə baxıldıqda: “Türk və müsəlmanlar nə gözəl tərəqqi ediyorlar” – denilsin, yoxsa türklər, müsəlmanlar irtidad** (tənəzzül – F.R.) **ediyor, firəngləşiyorlar** (fransızlaşırlar – F.R) **denilməsin!”**. Böyük mütəfəkkir demək istəyirdi ki, öz milli-dini kimliyinə arxa çevirmə, həya libasını kənara atma və qabaqcıl elm-texnikaya yiyələn! Mütəfəkkirin fikrincə, islamçılıq islam etiqadına yiyələnmək və bunu əməldə göstərmək deməkdir. Çoxları hələ də milli ideologiyamızı, onun mühüm tərkib hissəsi olan islamçılığı dərk edə bilməyib. Yoxsa, çoxəsrlik tariximizin bolşevizm dövrü istisna olunmaqla, heç bir dövründə örpək indiki kimi “Qordi düyünü”nə çevrilməmişdi. Bu gün müstəqillik dövründə orta məktəbin inanclı qızları nə üçün göz yaşları içində qovrulmalıdırlar?

Əgər insan özünü Allah qarşısında məsuliyyətdən azad etmək istəyirsə, əvvəlcə Allah bəndəliyindən istefa versin, sonra da yaratdığı nemətlərdən istifadə etməsin. Gülünc səslənir, deyilmi? Elə dünyəvi dövlət prinsipi altında qızlara örpək qadağası da gülüncdür. Dünyəvi dövlətin iki təməl prinsipi var:

1) din və dövlət müəssisələrinin ayrılığı (dövlət din (şəriət) qanunları ilə deyil, dünyəvi qanunlarla idarə olunur).

2) Din (vicdan) azadlığı.

Vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsində də, "Dini etiqad azadlığı haqqında" Qanunda da öz əksini tapmışdır. Qanunun 1-ci maddəsində deyilir: "Şəxsin dini etiqadını ifadə etməsinə... hər hansı maneə törədilə bilməz". Dini etiqadın ifadə edilməsinin formalarından biri də örpəkdir ki, Qanunda göstərildiyi kimi, ona hər hansı problem yaradılmamalıdır. Ümumiyyətlə, Türkiyənin keçmiş prezidenti Kənan Əvrənin: "Ərdoğanın xanımı başını açmalıdır" – deyə örpək təlaşı heç cürə anlaşılmadığı kimi, Təhsil Nazirliyinin, bəzi ziyalıların da örpək qorxusu başa düşülmür. Axı insanın ictimai əxlaqa təhlükəli olan şeyə qarşı çıxmaq əvəzinə, əxlaqın, həyanın bir təzahürünə qarşı çıxması nə deməkdir?

## N.Tusi və Ə.Əlizadə həya hissi haqqında

N.Tusi "Əxlaqi-Nasiri"də yazır: **"Uşaqda təmiz idraki qüvvələrdən ən əvvəl utanmaq, həya əlamətləri özünü göstərir"**. Böyük filosof məhz bu hissin təkmilləşdirilməsinə birinci diqqət yetirməyə çağırıb: **"...hansı təmiz qüvvə uşaqda özünü əvvəl büruzə verirsə, onun da təkmilləşdirilməsi əvvələ salınmalıdır"**. Ustad, qızlara evdarlıq, yaşınmaq, vüqarlı olmaq, iffət, həya öyrədilməsinə çağırıb. Tanınmış psixoloq, professor Ə.Əlizadə də "İdrak prosesləri və hisslər" kitabında həya hissinin hələ kiçik yaşlarından təzahürünü göstərmişdir: "Belə bir cəhət diqqəti cəlb edir ki, uşaqlarda həya hissinin təşəkkülü də məhz onların özlərini qavranılan obyekt kimi ayırd etməsi dövrünə (yəni özlərinə başqalarının gözləri ilə baxa bilmək dövrünə – F.R.) təsadüf edir. 6 yaşından başlayaraq uşaq-

larda həya hissinin daha aydın şəkildə təzahür etməsi bu baxımdan tamamilə qanunauyğun hadisədir”. Bəli, 6 yaşdan! Hədisdə də deyilir ki, qızlar 6 yaşına çatdıqda onu naməhrəm kişilər öpməməlidir. Sən demə, kiçikyaşlı məktəblinin sinifdə örpəklə oturmasının bir mənası varmış! Əbdül müəllim həya hissini mənlik şüuru ilə bağlayır, insan şəxsiyyətinin qoruyucusu hesab edir. Bəli, bu hiss insanın fitrətindən, təbiətindən qaynaqlanır və bu hissin hər bir təzahürü gözəldir. Elə qızların örpəyi də bu baxımdan gözəldir, təbiidir. Bəs nədən təbii olan şey belə qıcıq doğurur?

Xəmirimiz necə yoğrulmuşsa, Yaradan ona uyğun da qanunlar vermişdir: **“Bu, İlahi fitrətdir ki, Allah insanları onun əsasında yaratmışdır. Allahın yaradılışında heç bir dəyişmə yoxdur...” (Rum;30).**

Əsrlərin arxasından mütəfəkkirlərin səsi gəlir. Aristotel: **“...kim tələb edirsə ki, qanun hökm sürsün; görünür ki, Allahın və ağlın hökm sürməsini istəyir...”. N.Tusi: “...fəzilət və mərifət sahibləri Böyük Yaradanın lap ilk andan qoyduğu qayda-qanunu əleyhinə getməz, adət-ənənəni qoruyub saxlamaqla öz imkanı daxilində onun hikmətinə riayət edər”.**

Nəhayət, **“...Allahdan daha doğru danışan kimdir?” (“Nisa”, 87).**

11.02.2011
“Nəbz”

## VİCDAN HƏQİQƏTİ

Fransız yazıçısı Alber Kamyunun "Yabançı" əsərinin qısaca məzmunu belədir: əsərin qəhrəmanı anasının ölüm gününün sabahı dənizə gedib orada bir qadınla əylənir, sonra gülməli bir tamaşaya baxır və nəhayət, bir ərəbi qətlə yetirərək edam kürsüsünə gətirilir. O, bu zaman da şadlığından geri qalmayaraq deyir ki, mənim edamıma nə qədər çox adam tamaşa eləsə, bir o qədər ləzzət alacağam. Tipik vicdansızdır, vəssəlam – deyəcəksiniz. Bu, elə belədir ki var. Amma sual olunur: insan nədən bu boyda alçaqlığa yuvarlana bilir? Bu suala cavab vermək üçün vicdanın özünün mahiyyətinə varmağa çalışaq. Nədir vicdan? Dünyagörüşündən, əqidəsindən asılı olaraq hərə öz baxış bucağından fikir söyləyə bilər. Materialist (maddəçi) fəlsəfəyə görə, vicdan tarixən formalaşmış ictimai münasibətlərdən doğur. İnsan təkamül keçərək kamil varlıq kimi formalaşdığı kimi, əxlaq, vicdan kimi dəyərlər də bu prosesin nəticəsində meydana gəlmişdir. Əlbəttə, bu fikir hər şeyə ibrət gözü ilə baxanlar üçün qəbul edilməzdir. Digər Qərb mütəfəkkiri Kantın öz qəbir daşına yazılmış bir cümləsi digər bir baxışı ortaya qoyur: **"İki şey məni həmişə təəccübləndirir: başımın üstündə qərar tutmuş ulduzlarla dolu göylər və qəlbimdəki vicdan"**. Kant əxlaqı vicdan üzərində qurulmuşdur. O deyir ki, vicdan Yaradan tərəfindən verilib və hissə, təcrübəyə əsaslanmır. Kanta görə, vicdan özü-özünü mühakimə qabiliyyətidir. Fitri olan vicdan insana həmişə fərmanlar verir. Əxlaq elə vicdanın verdiyi fərmanların nəticəsidir. Doğrudan da, vicdanın fitri olması danılmazdır. Əgər belə olmasaydı, vicdan əzabı haradan

olardı? İnsan qəbahətli bir iş görəndə öz-özünü danlayır, özündə heç cürə rahatlıq tapa bilmir. Elə bil ki, sinəsindən ağır daş asılır, vicdanım ağrıyır – deyir. Nəinki ağrıyır, ağlayır, hönkürür vicdan. Həyatda azmı olubmu ki, məsuliyyətdən qaçıb gizlənən qatillər axırda vicdan əzabına dözə bilməyib üzə çıxıblar? Bəli, dünya məhkəməsindən qaçmaq mümkündür, bəs vicdan məhkəməsindən necə? Bir çoxu da iç məhkəmədən qaçmaq üçün narkotik maddələrə üz tutur, qəlb ağrılarının şiddətini azaltmaq istəyirlər. Amma nə yazıqlar... Nə yaxşı olardı ki, insan özündən qaçmayaydı, daxili vicdan səsinə, onun harayına qulaq asaydı. Bu, onu Rəbbinə doğru səadət yoluna aparıb çıxarardı. Vicdanın əleyhinə getməklə insan günahlar bataqlığına yuvarlanır. Bir şəxs Rəsuli-Əkrəmdən (s.) soruşur: **"İnsanın günahı nədə gizlənir? Həzrət buyurur: "Vicdanı incidən şeydə. Onu burax"**. Deməli, vicdan Yaradanın içimizdəki nəzarətçisidir, bizə yol göstərən, bizi səhvlərdən çəkindirəndir. Qurani-Kərimdə insanın fitri ilhamla təmin olunması haqqında bir neçə ayə mövcuddur. **"And olsun nəfsə və onu Yaradana (ona biçim verənə), sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki..." ("Şəms"; 8-ci ayə)**. Yəni Allah-Təala bəşər ruhuna əxlaqsız işləri qadağan etdi və ona gözəl işlər görməyi təlim etdi. Digər bir ayədə buyrulur: **"Biz onlara xeyirli işlər görməyi... vəhy etdik" ("Ənbiya"; 73)**.

Vicdan bütün gözəl insani keyfiyyətlərin mayası olub, İlahi bir həqiqətdir.

Səməd Vurğun dediyi kimi:

*__Vicdan dedikləri bir həqiqətdir –__*
*__Beşiyi, məzarı əbədiyyətdir.__*

Vaxtilə S.Vurğunun "əyilməz vicdanın böyük heykəli" misrası mübahisə doğursa da, vicdan məfhumunun vüqar, əyilməzlik, böyüklük kimi çalarlarını da ifadə etmişdir. Bir kəsin ki, qüruru, vüqarı tapdalana; bir kəs ki, əyilə, alçala, onun vicdanından nə qalar ki? Vicdanın heykəli əzəmətdir, bütövlükdür, ləyaqətdir, şərəfdir. O heykəl əyildisə, insan əyildi, insanlıq əyildi. İnsan ölürsə də, insanlıq ölmür axı. Yazıqlar olsun ki, bəzi Qərb filosofları insanın azad və sərbəst yaşamasına mane olur – deyə vicdandan imtina etməyə çağırırlar. Ağıldan bəla buna deyirlər. Əgər insan vicdan nəzarətindən çıxsa, heyvandan da betər vəziyyətə düşməzmi? Azadlığı hər şeyin əsası, əsas məqsəd hesab edənlər onu etiraf etməyə bilməzlər ki, azadlıqdan (qanunların verdiyi hüquqlardan) yerində istifadə edərək kamilləşmək də olar, ondan sui-istifadə edərək ən alçaq məqama yuvarlanmaq da olar. Deməli, azadlıq məqsəd deyil, kamilliyə, həqiqi səadətə çatmaq üçün bir vasitədir. "Qanunlar qanunu" vicdana etinasızlıq etmək deyil, onun paklığı qayğısına qalmalıyıq. Uzaq əsrlərin çiynindən ulu Nizaminin səsi gəlir:

*__Dəmiri ayna tək parladan insan__*
*__Pası silməlidir öz vicdanından.__*

İnsan hər günah etdikcə qəlbinin, vicdanın aynasına qara nöqtələr düşür və o qara nöqtələr o qədər böyüyür ki, nəhayət, qəlbdə Allah nurunu söndürür və beləsinin qəlbi qapqara, möhürlənmiş olur. Qara qəlbdən, paslı vicdandan Allaha sığınırıq.

## ORUCUN HIKMƏTİ

### Bismilləhir Rahmənir Rahim

İstəkli oxucular, bəşər nəsli üçün aclıq təzə bir şey deyil. Ta qədim çağlardan insana bədən və ruhun vəhdəti kimi baxılmış, onun üçün aclığın böyük əhəmiyyəti müəy-yənləşdirilmişdir. Orta əsrlərədək çoxları üçün ikidəfəlik gündəlik qida adi hal idi. Sokrat gündə iki dəfədən çox yeyənləri "barbar" adlandırırmış. Qədim mütəfəkkirlər müntəzəm olaraq aclıq keçirirmişlər ki, mürgüləyən ruhi-mənəvi qabiliyyətləri açılsın. Ümumiyyətlə, həqiqət axta-rışına çıxan müdriklərin aclıq adlı etibarlı bir silahı olub. Hippokrat xəstələri aclıqla müalicə edirmiş. **"Əgər bədən təmizlənməyibsə, onu nə qədər qidalandırırsan, ona bir o qədər zərər vurursan"** – kəlamı da bu loğmana məx-susdur. İbn Sina da xəstəyə 3-5 həftə aclıq təyin edirmiş. Müdriklər aclığı təkcə fiziki sağlamlıq üçün tətbiq etmir-dilər. Pifaqor İsgəndəriyyə Universitetində imtahan vermə-mişdən əvvəl qırx gün aclıq edibmiş ki, düşüncəsi aydın-laşsın, əqli qabiliyyəti yüksəlsin. Tarixi məlumatlarda de-yilir ki, aqil dövlət rəhbərləri də mühüm qərar qəbulundan qabaq aclıq edirlərmiş. Bu kimi faktlar çoxdur. Aclıq haq-qında müxtəlif xalqların deyimləri də sübut edir ki,aclığa qorxulu bir şey kimi yox, insanın dostu kimi baxıblar. Rus atalar sözü- "aclıq xala deyil, doğma anadır" – bir kitablıq tutuma malikdir.

### Orucun fiziki təsiri

Keçən əsrin həkimlərindən Tayner aclığı "cavanlıq eleksiri" adlandırıb. Son dövrlər aydın dərk edirlər ki, tul-lantılarla dolu olan orqanizmə dərmanlar yeritməklə müali-

cə etmək yüksək səmərə verə bilməz. Ona görə də mühüm müalicə metodu kimi aclıqdan (əlbəttə, düşüncəli şəkildə) istifadə edirlər. Müəyyən olunub ki, aclıq zamanı orqanizm həzmetmə prosesindən azad olub dincəlir, bədən təmizlənir, maddələr mübadiləsi fəallaşır, orqanizmdə xüsusi mexanizmlər işə düşür*.

Aclığın görkəmli təbliğatçısı P.Breq yazır: **"Siz aclıq edəndə orqanizm həyat enerjisi hesabına öz-özünü təmizləyir, müalicə və bərpa edir"**. Orqanizmimiz özünü tənzimləyən sistem kimi böyük imkanlara malik olduğundan biz də gərək ona mane olmayaq. Bir məsələni qeyd edək ki, tam aclıq orqanizm üçün böyük yükdür. Heç də hamı onu daşımaq gücündə deyil. Belə ki, orqanizmin tullantıları, xüsusən zəif böyrəklərə zərər vurur. Bəs bu kimi xoşagəlməz hallardan necə qorunmalı? Bu baxımdan Böyük Yaradanın bizlərə buyurduğu oruc bir çox üstünlüklərə malikdir.

Orucluq zamanı insan cəmi 12-16 saat yeməksiz, susuz qalır. Bu tədrici təmizlənmə yolu bir ay ərzində özünün gözəl səmərəsini verir. Orucluq Ay tsiklinin başlaması ilə başlayıb bu tsiklin başa catması ilə qurtarır. Bu təbii ritmi nəzərə almaq çox vacibdir, çünki onun orqanizmimizdə baş verən proseslərə böyük təsiri var. Akademik G.P.Malaxov "Qoladanie" (1994, Sankt Peterburq) kitabında yazır ki, Ay qravitasiyasının dəyişməsilə insanın ağırlıq mərkəzi dəyişir, o, yuxarıdan aşağı və ya əksinə "rəqs" edir. Ağırlıq mərkəzi haradadırsa, orada fizioloji proseslərin fəallaşması

* Yapon alimi Esinori Osumi 2016-cı ildə sübut etdi ki, ac qalanda orqanizm toksin hüceyrələrini parçalayıb tullantılardan azad edir. Autofagiya adlandırdığı bu prosesi açdığına görə ona Nobel mükafatı verdilər.

baş verir. Ayın I fazasında (ilk 7 gündə) baş, boyun, boğaz, çiyinlər, əsəb sistemi; II fazasında sinə, mədə, ürək, bağırsaqlar; III fazasında böyrəklər, cinsiyyət orqanları, çanaq, baldır; IV fazasında sümük sistemi, dizlər, dəri, gözlər, ayağın pəncələri və s. daha çox fəallaşır. Bu orqanların təmizlənməsi, möhkəmlənməsi fəallaşdıqları fazada daha sürətlə gedir. Orucluğun bu işdə rolu misilsizdir.

## Orucluğun əqlə təsiri

Məlumdur ki, qidalanmanın birbaşa əqli qabiliyyətlərə təsiri var. Bağırsaqda böyük sinir sistemi var ki, alimlər onu şərti olaraq "üçüncü beyin" adlandırıblar. Öz əhəmiyyətinə görə o, baş və onurğa beyinlərindən geri qalmır. Bundan əlavə, ondan endokrin vəzilərdə olduğu kimi bütün hormonlar ifraz olunur. Bu hormonlar baş beyində əsəb proseslərinin gedişinə də təsir göstərir. Bədən çirkablardan nə qədər təmizlənirsə (təmizlənmə bağırsaqlardan başlanır) düşüncə, təfəkkür üçün bir o qədər imkan açılır. Qarındolusu yemək beyində buxarın çoxluğuna səbəb olur, beyin yorulub məstliyə oxşar bir hala düşür və yaxşı fikirləşə bilmir. Amma aclıq zamanı bunun əksi baş verir. Həzrət Məhəmməd (ə.) buyurub: **"Qarnını ac saxlayan (oruc tutan) şəxsin fikirləşmə, təfəkküretmə qabiliyyəti tərbiyələnir"**.

## Orucun qəlbə, ruha təsiri

İnsan təkcə biososial varlıq deyil, həm də energetik, ruhi varlıqdır. O, energetik təbəqələrdən (efir, astral, mental və s.) ibarətdir. Daxilimizdəki mənfi hisslər (paxıllıq, kin, nifrət, yersiz qəzəb, qorxu, inamsızlıq və s.) energetik

çirkab kimi bu təbəqələri "zibilləyir", qaraldır, təhriflər yaradır. Kainatın daima bizə sarı axan enerji-informasiya selindən lazımınca faydalana bilmirik. Elə ki, aclıq keçiririk, hisslərimizin energetik fırtınası başlayır. Mənfi hisslərlə bağlı qara enerjilər bizdən ayrılır. İnsan energetik çirkabdan təmizlənir, sakit, xeyirxah, inamlı olur. Bu proses oruc zamanı dua edəndə daha da sürətlənir. Oruc ifrat şəhvət hisslərini zəiflədir, böyük günahların qarşısını alır. Nəfsimizlə mübarizədə ("böyük cihadda") oruc bizim güclü silahımızdır. Nəfsə boyun əysək, o, bizi kar və kor edib zəlalətə salar, heyvandan betər olarıq. Oruc insanın həqiqi "mən"ini – İlahi "mən"ini qüvvətləndirir, qəlbə səfa verib, onu İlahi nur, mərifət nuru üçün hazırlayır. Pak qəlb isə İlahini görər, onun camalını seyr edər. Həzrət Məhəmməd (ə.) buyurub: **"Oruc tutmaqla qəlbinizi saflaşdırın".** Dilin, qulağın, gözün, qəlbin orucu insanı kamilliyə çatdırar, ali məqamlara hazırlayar.

Dilin orucu dili qeybətdən, yalandan, söyüşdən, böhtandan, xəbərçilikdən və s. qorumaq deməkdir. Qəlb isə gərək pak duyğuların, arzuların, gözəl fikirlərin yuvası olsun. Qəlbimiz Allah evidir, Allahın xatirinə də onu pak saxlayaq. Orucu özünə yaxınlaşmaq vasitəsi qərar verən Ulu Rəbbimiz Ramazan ayını ən əziz ay, onun günlərini ən gözəl günlər, saatlarını ən gözəl saatlar kimi qələmə verib. Biz mübarək ayda İlahi ziyafətdəyik. Allah-Təala bizi saysız-hesabsız nemətlərlə bəzədiyi süfrəsinə dəvət edir. Çalışaq ki, bu süfrədən layiqincə bəhrələnənlərdən olaq, inşallah.

## QƏZƏB HİSSİNİN TƏRBİYƏSİ

Əziz oxucular! Bina bünövrə üzərində qurulduğu kimi, həyat da, insanlıq da mənəvi dayaqlar üzərində qurulmalı deyilmi? Vaxtilə Aristotel: **"Mənəvi dayaqlarsız insan şərəfsiz və vəhşi olub, özünün cinsi instinktlərində alçaq məxluq səviyyəsindədir"** – demişdi. Mənəvi kamilləşmə isə öz nəfsini tərbiyə etmədən mümkün deyildir. Belə ki, nəfsani qüvvələr hər zaman əl-ələ verərək ağıl nurunu söndürməyə qadirdilər. İbrətamiz bir misal yerinə düşərdi: əgər anbara çoxlu sayda siçovul daraşıbsa, oraya nə qədər taxıl töksək də ehtiyat yığa bilməyəcəyik. Əvvəla, o siçovulları zərərsizləşdirməli deyilikmi? Nəfsin də misalı buna bənzəyir. **Həzrət Əli (ə.) buyurduğu kimi, nəfsi islah etmədən ağıldan bəhrə götürə bilmərik.** Bədən məmləkəti daim dörd qüvvənin – əqlin, şəhvətin, qəzəbin və işi fitnəkarlıq, xəyanət, hiylə-kələk olan vəhmin müharibə meydanıdır. Üç qüvvə birləşib əqli öz tabeliklərinə almağa çalışır. Bu söhbətimiz qəzəb qüvvəsi haqqındadır. N.Tusiyə görə, qəzəb nəfsin bir vəziyyətidir ki, heyvani ruhun qalib gəlmək, intiqam almaq üçün daxildən xaricə hərəkətinə səbəb olur. Hər vaxt şiddətlənsə, bədəndə hərəkət artar, boyun damarları şişər, gözlər qızarar, Şeytan qəlbə daxil olar. Əlbəttə, insanların təbiətindən asılı olaraq qəzəb halı onlarda müxtəlif şəkildə baş verər. Eləsi var ki, kibrit kimi qığılcımdan odlanar; eləsi var ki, yağ kimi alovlandırmaq üçün daha çox vasitəyə əl atmaq lazım gəlir; elə adam var ki, quru ağaca, adam var ki, yaş ağaca bənzəyir. Qəzəbdə ifrata varanlar çox vaxt dinin və ağılın itaətindən xaric olur, böyük bədbəxtliklər gətirirlər. Bu cür qəzəb qət-

lə, yaralamağa, təhqirə, hətta kənar əşyaları vurub dağıtmağa gətirib çıxarır. Bu cür qəzəblənən şəxsin qəzəb odu onun özünü də yandırır, ətrafdakıları da. Bu, ağlın başdan çıxması halıdır ki, Əmirəlmöminin (ə.) onu dəliliklə müqayisə edir: **"Qəzəb bir növ dəlilikdir; çünki sahibini peşman edər, peşman olmasa, deməli, əsl dəlidir"**. Çox təəccüblüdür ki, bəzi adamlar elə bilirlər ki, çox qəzəblənmək kişilik sifətlərindəndir. Hippokrat deyib ki, mən güclü fırtınaların, dağlar qədər böyük olan dəhşətli dalğaların girdaba atdığı və ya qayaya çırpdığı gəminin xilas olmasına daha çox inanıram, nəinki ağzı köpüklənən qəzəblinin sakitləşməsinə; çünki dənizçilər bəlkə bir çarə tapıb o gəmini xilas edərlər, lakin qızıb-coşan qəzəbi heç bir şeylə söndürmək mümkün deyildir; nə qədər çox nəsihət etsən, yalvarıb-yaxarsan, içərisinə tez-tez quru talaşa atılan oda oxşayır, o qədər də çox alovlanıb özündən çıxar. Belələrinin qəzəbli halında hansı vəziyyətdə olmaları gərək o anda çəkilə, sonra özlərinə göstərilə. Bəlkə bundan bir nəticə alalar, gələcəkdə qəzəblərini cilovlaya bilələr. Bəzi insanlar isə qəzəbdə ifrat yox, təfrit halındadırlar, yəni yeri gəlsə belə, şərəfi, heysiyyatı, dini təhlükədə olsa belə qəzəblənməzlər. Bir qism insanların qəzəbi isə orta səviyyədə olub, ağlın həddini keçmir. Onlar öz namus-qeyrətlərini tapdalamağa imkan verməzlər. Bu hal dinimizdə də bəyənilən haldır. Filosoflar bunu qəzəb yox, şücaət adlandırırlar. Doğrudan da, öz hisslərini idarə etmək insana şərəf gətirir, onu başqalarının qəlbinə yara vurmaqdan saxlayır.

Bu baxımdan hisslərin, xüsusən qəzəb hissinin tərbiyəsi ilə elə uşaqlıqdan başlamaq lazımdır ki, cəmiyyətdə harmonik münasibətlər qura bilək. Qəzəb enerjisinin insan

aurasına təsirini dövrümüzün böyük ariflərindən biri Şeyx Rəcəbəli gözəl açıqlamışdır: "Məsciddə gördüm ki, namaz qılan bir cavanın ətrafınıı nur bürümüşdür. Öz-özümə dedim ki, namazdan sonra onunla tanış olub onu bu hala salan hansı xüsusiyyət olduğunu öyrənərəm. Birlikdə məsciddən çıxdıq. Cavan məscidin qapısında məscidin xidmətçisi ilə bir az sözləşdi və ona qəzəbləndi. Onun ətrafındakı nurun məhv olub aradan getdiyini gördüm". Doğrudan da, arifin batini gözüylə gördükləri bizim üçün bir ibrətdir. İbadətlə qazandığımızı bir andaca əldən veririk. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bizim maddi bədənimizin dalğa əksi var. Ona energetik bədən də deyilir. Orqanizmdə bütün dəyişikliklər əvvəlcə bu bədəndə başlayır, sonra isə informasiya maddi bədənə verilir. Yəqin ki, güclü əsəbdən, psixi gərginlikdən 1-2 gün sonra onun təsirini bədəndə hiss etməmiş deyilik. Təbabətdə o da məlumdur ki, əksər xroniki xəstəliklərin səbəbi mütəmadi əsəb, qəzəb nəticəsində qan-damar sisteminin zərbə alması, orqanların lazımi qədər qanla təmin olunmaması ilə bağlıdır. Bu baxımdan, qəzəbin, yersiz əsəbiliyin səbəblərini öyrənməli, ondan yaxa qurtarmaq yollarını aramalıyıq. Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində qəzəbin bir neçə səbəbini göstərmişdir:

1) iddialıq – özündən müştəbehlik, layiq olmadığı mövqe iddiasına düşmək;

2) təkəbbürlük – özünü hamıdan yüksək hesab etmək, hamıya yuxarıdan aşağı baxmaq;

3) höcət – yersiz və əsassız mübahisə;

4) yersiz, şit zarafat və s.

Əslində sayılan səbəblərin kökündə təkəbbür, eqoizm

durur. Bu cür insanın eqosuna bir az toxunan kimi özündən çıxır. Əxlaq ustadları qəzəbin əlac üsullarını aşağıdakı kimi təklif etmişlər:

1) Qəzəbin kökündə duran təkəbbür, düşmənçilik, iftixar etmək, mal-məqam sevmək kimi səbəbləri aradan aparmaq. Sual olunur: necə? Ağıllı insan dərk etməlidir ki, əvvəli bir damcı su, sonu isə çürümüş bədən olan bir kəs üçün təkəbbür yaraşmaz. Mal-məqam da keçicidir. Bir şey ki, gec-tez əldən çıxacaq və sənə yaxşı əməllərdən başqa heç nə qalmayacaq, nə üçün ona görə qəzəblənməlisən?

2) Qəzəblənməyə səbəb olan iş və davranışlardan qorunmaq lazımdır.

3) Səbri olmayan, qəzəb qüvvəsi çox olan insanla yox, əksinə səbirli, helmli (dözümlü) olan insanla oturub-durmalı ki, atalar dediyi kimi, atı atın yanına bağlasan rəngi dəyişməsə də, xasiyyəti dəyişər.

4) Zəif insana qəzəblənəndə Allahın da buna görə sənə qəzəbləndiyini xatırlayasan və Allaha xatir qəzəbini boğasan. Əslində çoxları özündən güclüyə yox, zəifə qəzəb göstərirlər. Bu isə əsl insana yaraşan sifət deyil.

Qəzəbin əlaclarından biri də budur ki, insan bu halda Şeytanın şərindən Allaha pənah aparsın; ayaq üstə olsa əyləşsin, əgər oturmuş olsa, uzansın. Soyuq su ilə dəstəmaz alsın, ya sadəcə yuyunsun. Öz yaxın adamının əlindən qəzəblənən isə qəzəbin sönməsi üçün əlini onun bədəninə qoysun. Dərk etməliyik ki, hədisdə deyildiyi kimi, qəzəb Şeytanın insanı böyük günahlara çəkməsi üçün bir ipidir. Bu ipi həmişə qırmaq üçün Allaha sığınmaqdan başqa bir yol yoxdur.

## “DOSTUN EVİ KÖNÜLLƏRDİR”

Böyük Yaradanın bizim üçün qiblə qərar verdiyi mübarək evini – Kəbəni ziyarət çoxumuzun arzusudur. **Həzrət Əli Əleyhissəlam buyurub: “İnsanlar susuzluqdan yanıb qovrularaq suya tərəf qaçdıqları kimi oraya gedir, sürü-sürü göyərçinlər kimi oraya sığınırlar”** (Nəchül-bəlağə, səh. 27, Tehran: 1995).

Kəbə ziyarətində qeyri-adi mənzərə yaranır. Bir parça ağa bürünmüş insanlar Qiyamət günündə qəbirlərdən qalxaraq, Allah hüzurunda hesabat verirmiş kimi görünürlər. Onlar dirilər sırasından çıxmış, tam təslimiyyət anını yaşayırlar. Bu bir ibrətdir, öyüddür, mütləq olacağı günü xatırlamadır. Mənəvi baxımdan böyük dərsdir. İslamın mərkəzi olan bir yerdə dünyanın hər yerindən gəlib toplanmaq, bir-birilə danışmaq, görüşmək islam konqresi mahiyyəti daşıyır. Müsəlmanların vəhdətini, əzəmətini daha da gücləndirmək fürsətini verir. Amma bu fürsətdən lazımınca istifadə olunurmu? İslam dövlətlərinin dərd-sərlərinə baxış, real kömək istəyi ortaya qoyulurmu? Bu Həccin fəlsəfəsini, məna və məqsədlərini hələ də layiqincə dərk edə bilməmişik. Seyid Əzim Şirvani yazır:

***Hər il ki Kəbəyə hüccaz tazə-tazə gedərlər,***
***Bilib ol evdə məgər Xaliqi niyazə gedərlər?***

Hüccaz (hacılar) hər il Kəbəni ziyarətə gedirlər. Məgər onlar Yaradanı orada tapıblar ki, görüşə belə tez-tez can atırlar?

Əsrlərin çiynindən Allah aşiqinin – Yunus İmrənin (Əmrə) səsi eşidilir:

***Dostun evi könüllərdir,***
***Könüllər yapmağa gəldim.***

Dost! Aşiqin dostu kim olar? Xaliq özü! Əgər aşıq, həqiqətən, onun vurğunu olub, onun camalını bir an görməkdən ötrü canını verməyə hazırsa, niyə də O Ülvi Zatın dostu olmasın? Dost – Xaliq məkansızdır. Məkanı yaradana məkan (yer) nisbət vermək olarmı? Bəs “Dostun evi könüllərdir” – nə demək? Bunu da dostun özü bizlərə çatdırıb: “Mən yerlərə-göylərə sığışmaram, ancaq mömünin qəlbinə sığışaram”. Əgər insan özünü, öz həqiqi “mən”ini – “ilahi mən”i tanıyarsa, Yaradanını tanıyar. Əgər onu yaxından tanıyarsa, sevər. Bu baxımdan könüllər almaq, könüllər sevindirmək, könül evini abad eləmək elə Dostu sevindirməkdir. Təbii ki, Dostun Kəbə evini ziyarət böyük dəyərə malikdir. İmam Sadiq (ə.)-dan nəqi olunmuş hədisə əsasən, Kəbəni təvaf edənin əməl dəftərinə altı min savab yazılır, altı min günahı bağışlanır və onun məqamını Allah altı min dəfə ucaldır. Möminləri sevindirən şəxsin savabı isə bundan on dəfə çox olur. Doğrudan da, düşündürücüdür! Kəbəni həqiqi ziyarət etmək üçün qəlblərin ziyarətini unutmayaq. Həqiqi aşiqlər məhz bu ziyarəti Allah məhəbbətinə çatmağın əsas yolu hesab edirlər. Onlar hər əməli, hətta su içməyi də Allaha xatir, Allaha yaxınlaşmaq niyyəti ilə yerinə yetirirlər, nəfsin istəyini nəzərdə tutmurlar. Bir nəfər Şeyx Rəcəbəliyə (böyük ariflərdəndir) həccə getməyi təklif edəndə o deyib: “Get, əvvəlcə aşiqliyi öyrən, sonra gəl birlikdə Məkkəyə gedək” (Ayətullah Məhəmmədi Reyşəhri “Məhəbbət iksiri”, səh. 206). Şeyxə görə, həqiqi və kamil həcc o zaman gerçəkləşə bilər ki, həccə gedən şəxs Kəbə sahibinin aşiqi olsun və həcc əməllərinin həqiqi məq-

sədlərini dərk edə bilsin. Həcc mərasimində olan əməllər əvvəldən axıra qədər tərtiblə: ölümə, qəbrə, dirilib qəbirdən qalxmağa, Qiyamətə, Cənnət əhlinin Cənnətə, Cəhənnəm əhlinin Cəhənnəmə getməsinə işarədir ki, əql sahibləri bu əməllərdəki rəmzlərdən onların həqiqi mənasını başa düşürlər. Zahiri əməllər batinə, ruhi-mənəvi aləmə nəzər eləməyə qəlbdə səhman yaratmağa çağrışdır. Məsələn, bir parça ağa bürünən şəxs bilməlidir ki, bu ziyarətə Allahdan başqalarını özünə haram etmək üçün gəlmişdir.

Təlbiyə (ləbbeyk – bəli) demək Allahın dəvətini qəbul edərək, ondan başqalarını könlündən uzaqlaşdırmaq və ömrün sonuna kimi ondan başqalarına diqqət yetirməmək deməkdir. Təvaf – Kəbənin ətrafına dolanmaq batini məna daşıyır. Bu, Allah eşqində qərq olmaq, bu eşq ətrafında fırlanmaq, Allah dərgahında fani olmaqdır. Şeyx Rəcəbəli deyir: “Elə bir hal tap ki, Onun (Allahın) ətrafına fırlanasan (rəmzi mənada – F.R.), ona qurban olasan, elə bir iş görəsən ki, həqiqətən, ev sənin ətrafına fırlansın” (yenə orada, səh.207). Həcərül-əsvədə əl sürtməklə Allah qarşısında söz verirsən ki, onun düşmənləri ilə, insanlıq düşmənləri ilə düşmən olacaqsan. Səfa və Mərva arasında hərəkət edərkən ümid və qorxu arasında olmalısan. Yəni Allah mərhəmətinə böyük ümid, eyni zamanda günahlarına görə qorxu hissi keçirməlisən. İnsan nə qədər günahkar olsa belə, Cəhənnəmlik olan İblis və onun ordusu kimi ümidsiz olmamalıdır. Bəziləri deyir ki, Allaha eşqlə qorxu bir araya sığa bilməz. Bəli, Allah Rəhmandır, Rəhimdir. Allah məhəbbətdir, hər cür məhəbbətin, xeyirxahlığın, gözəlliyin qaynağıdır. Onun zatı qorxu mənbəyi ola bilməz. İnsan ancaq öz pis əməllərindən, onun nəticələrindən qor-

xu hissi keçirməlidir ki, Allahın mərhəmətinə ümid bağlayıb yenidən günahlara meyil eləməyə, vacibata əməl edə. Hətta ariflər də qorxu hissi keçirmişlər ki, görəsən onların əməllərində nəfsin istəyi olubmu? Yoxsa, hər şeyi yalnız Allah xatirinə eləyiblər? Qəlblərdən xəbərdar gizli şeylərdən agahdır axı. Bir də ən çox sevdiyinin nəzərindən düşmək qorxusu var axı.

Şeytanı daşlama əməlində təfəkkür eləməlisən ki, sən təkcə insanlığın düşməni kəsilmiş Şeytana daş atmırsan, həm də işindəki şeytana, özünün şeytani xüsusiyyətlərinə – təkəbbürlüyə, həsədə, yalana, hiyləyə, mərdimazarlığa, tamahkarlığa və s. daş atırsan. Allah eləməsin ki, özümüzün içi ala-bula ola. İnsan təfəkkür eləməli, əməllərinə qiymət verməlidir. Əgər Allah yolunda deyilsə, deməli, Şeytanın tərkindədir. Allah qarşısında tövbə eləyərək, "Ləbbeyk" – deyəndə təkcə ona şərik qoşulan bütləri yox, müasiri olduğumuz bütləri də inkar etməliyik. Müasir insan da bütpərəstlikdən əl çəkməyib: pulu, vəzifəni, şöhrəti, məqamı, ayrı-ayrı insanları (hətta müğənniləri) belə bütə çevirib. Kimi üçün öz övladı, kimi üçün atası bütdür. Çünki ona güvənir, ona bağlıdır, ondan ayrılmağı belə fikrindən keçirmir.

Həcc əməllərindən qurbankəsmə üzərində xüsusi dayanmaq vacibdir. İmam Zeynəlabidin (Əleyhissalam) öz səhabələrindən olan Şibilidən (o, abid, zahid olub) soruşur: **"Qurban kəsəndə niyyət etdinmi ki, sən dünyadan tamahını kəsirsən və İbrahim (ə.) öz oğlunu kəsdiyi kimi, sən də ona iqtida edirsən?"** (bax: geniş şəkildə – İmam Cəfəri-Sadiq (ə.) "Şəriət çırağı", səh. 26-30. Bakı: 1997 (tər. Ə.Əhmədovdur).

Dünyadan tamahı kəsmək – əmmarə (pisliyə əmr edən) nəfsi ram etmək, onu cilovlamaq, əqlin, nəzarətindən çıxmağa imkan verməməkdir. İnsanın nəfsi cilovlanmasa, zəlalət uçurumuna düşməsi labüddür. Bir filosofdan soruşurlar ki, nə üçün nəfsimizi ən böyük düşmən adlandırırlar? O cavab verir: **“Əgər düşməni razı salsan, o, səninlə dost olar, nəfsi razı salsan (onun bütün istəklərini yerinə yetirməklə) səni zəlil edər, heyvandan betər hala salar”**. C.Rumi də gözəl deyib: **“Ağa olan nəfsinin ağasıdır, qul olan nəfsinin quludur”**. Nəfsi öldürüb, qəlbi diriltmək! Həzrət İbrahim (ə.) bəşərə bu baxımdan böyük dərs verir. O, Allah eşqinə xatir dünyada hər şeydən keçməyə hazırdır. Can imtahanından necə də şərəflə çıxdı! Nəmrud onu oda atanda Həzrət Cəbrayıl (ə.) onun yanına gəlib soruşdu: “Bir mətləbin varmı?” O isə: “yaranmış bir varlıq möhtacdır, ancaq sənə yox” – deyə cavab verərək, hətta aşkar ölüm təhlükəsi anında ondan belə kömək istəmədi, Allahın hökmünü gözləyərək Ona sığındı. Digər bir imtahan – İsmayıl kimi bir balanın başını kəsmək! Bunu hətta təsəvvür eləmək belə insanın varlığına lərzə salır. Öz canını qurban verməyə nə var ki... Əqidə, məslək uğrunda canını qurban verənlər azmı olublar – Sokrat, Nəsimi ... Ancaq bu hal müstəsnadır. Hər ərənin, hər aşiqin işi deyil bu. Hər aşiq bu yükü götürə bilməz. Burada insanın, insanlığın əzəmətini, qüdrətini görürük, insan ruhunun əyilməzliyini görürük. Hələ İsmayılın sözlərinə bax: “Ata, mənim necə səbrlilərdən olduğumu görəcəksən”. Budur Allah eşqinin, itaətinin həqiqi timsalı! Budur imanın ali dərəcəsi, səbir, dözüm, dəyanət, mətanət, sədaqət dərsi!

Bir zamanlar İblis təkəbbürlük eləmişdi, insanın torpaqdan yaradılmasına görə, özünü ondan üstün bilmişdi (İblis oddan yaradılıb). Adəm övladı isə öz misilsiz əməli ilə **ona da Allaha həqiqi itaət dərsi verdi**, özünün kimliyini sübut etdi. Həzrət İbrahim (ə.) dünyayla onun arasında olan ən möhkəm ipi – övlad ipini də qırıb atdı. Allaha eşq ipindən yapışdı: "İlahi, sənin məhəbbətin yolunda ciyərparam da qurbandır" – dedi. Hələ növbədə şəhidlərin sərvəri – İmam Hüseyn (ə.) vardı. Həzrət İbrahim (ə.) Minaya bir qurbanla gəlmişdi. İmam Hüseyn (ə.) isə Kərbəlaya yetmiş iki qurban (özü ilə birlikdə) gətirmişdi. Bu qurbanlardan on yeddisi öz doğmaları idi. Bu da onun bəşərə eşq dərsi: "İlahi, sənin məhəbbətin və dinin yolunda yetmiş min dəfə (!) öldürülüb-dirildilməyə hazıram".

Qəlbi Allaha məhəbbətlə döyünən, ülvi duyğuları, böyük düşüncələri yaşayan insan necə də böyükdür! Belə əsgər də basılmazdır! Böyük mücahid Xiyabani demişdir: "Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti qoruyub saxlaya bilər".Torpaqlarımızın düşmən tapdağından qurtulması da, azadlığımızın, müstəqilliyimizin möhkəm təminatı da əxlaqi-mənəvi yüksəlişimizdən keçir. Dünya bazarında alış-verişin sonu nədir? Kəfən! Buna görə didişməyə dəyərmi? Qəlblərdə gözəl əməllər toxumu səpək ki, Vətən də gülzara dönsün.

Həzrət İbrahim (ə.) kimi müqəddəslərin həyatı ruhi təkamül, mənəvi cihad yolunda, azad dövlət quruculuğu yolunda bizim üçün mənəvi çıraqdır, əvəzsiz nümunədir.

## XOLODİNAMİKA VƏ MƏNƏVİYYAT

Ezoterik (gizli) elmlərə görə, Böyük Yaradan kainatın maddi strukturundan əvvəl onun informasiya sahəsini yaratmışdır. Hər bir proses, hadisə əvvəl sahə səviyyəsində baş verir, sonra fiziki planda reallaşır. Məsələn, insanın aurasında – enerji-informasiya sahəsində (biosahəsində) hər cür kənaraçıxmalar, bioenerjinin normal paylanmaması fiziki bədənə də təsirini göstərir. Bu fikri təkcə bioenergetiklər, ekstrasenslər müdafiə etmirlər. Kvant fizikasının nailiyyəti də bu məsələyə işıq salmışdır. Rusiya Kvant Təbabəti İnstitutunun Tibb Mərkəzinin rəhbəri Yuri Xeyfeç demişdir: **"Bizim maddi bədənimizin dalğa əksi var. Genetik informasiya dalğa əksimizdədir. Orqanizmin işində bütün dəyişikliklər (mənfi və ya müsbət) əvvəlcə bu dalğa əksində başlayır. Sonra isə informasiya fiziki bədənə verilir. Bədən zəifləyir, ya güclənir"**.

İnsan energetik sahəyə malik olduğu kimi bütövlükdə cəmiyyət də mənəvi sahə strukturuna malikdir. Hər bir iqtisadi, sosial hadisə bu cəmiyyətin sahə strukturu ilə müəyyən olunur, yəni cəmiyyətdə mənəvi-əxlaqi ab-hava nə qədər safdirsa öz təsirini iqtisadi-sosial sahəyə də göstərəcəkdir. Çoxumuz isə iqtisadi amilə həlledici üstünlük verir, mənəviyyatı ondan asılı hesab edirik. Texniki-iqtisadi yüksəliş hələ mənəvi yüksəliş demək deyildir. Bəşər tarixində texniki inkişafa üstünlük verib, mənəviyyat qanunlarına arxa çevirən dövlətlər Yaradanın iradəsi ilə tezliklə tarix səhnəsindən silinmişlər. Böyük mədəniyyətlərin məhvinin səbəbi (İlahi qanunların pozulması, mənəvi pozğunluğun ifrata çatması) Qurani-Kərimdə xatırlanır: **"Bir gəzələr, dolaşalar yer üzünü, baxalar necə olmuş**

**axırı öncəki nəsillərin. Bu nəsillər onlardan daha güclü idilər, onlardan daha çox qurub yaratmışdılar yer üzərində. Günahlarına görə yaxaladı onları Allah"** ("Ğafir"; 21). İnsan oğlu öz ibrət aynasına tez-tez boylanmağı unutmamalıdır.

Əxlaq binası zədələnəndə və sarsılanda ən yaxşı qanunlar belə bir iş görə bilməz, onların təsir gücü heçə enər. Təkcə biliyə, intellektual inkişafa can atmaqla insan kamilləşə bilməz. O, ruhi, mənəvi inkişaf yoluna çıxmalıdır. Bu günümüzdə beynini informasiya ilə doldurub mənəvi cəhətdən isə yoxsul olanlar o qədərdir ki. Təbiətin bir parçası olan insan təbiət qanunlarına həmahəng yaşamaq, təbiətə uyğunlaşmaq əvəzinə, onu özünə "uyğunlaşdırır". Yeraltı nüvə sınaqları, faydalı qazıntıların bir sıra hallarda elmi cəhətdən düzgün olmayan istismarı, süni göllər, sututarların dəqiq hesabat aparmadan yaradılması və s. tarazlığı pozmaqdır. Hələ bu harasıdır? Təbiətə ən böyük zərbəni qəzəb enerjimiz, kinimiz, nifrətimiz vurur. İnsanlardakı mənfi enerjilər kollektiv şəkildə toplanır. Yer qabığına, habelə aurasına təsir edərək müxtəlif fəlakətlərə, xəstəliklərə yol açır. Son dövrlərdə münaqişə zonalarında təbii fəlakətlərin şahidi olmadıqmı?

İnsanda nə çatışmır? Sevgi! Özün kimisinə, ətraf aləmə, cəmi məxluqata sevgi. **Kim sevmir, o, Allahını da tanımayıb, çünki Allah məhəbbətdir**. Allaha məhəbbət onun yaratdığına da məhəbbət deyilmi? Məhəbbətdən xeyirxahlıq doğar, mərhəmət doğar, ürəyiyananlıq doğar.

## Təsir əks təsirə bərabərdir, ya nə əkərsən, onu da biçərsən

Fizika kursundan bilirik ki, təsir qüvvəsi əks təsir qüvvəsinə bərabərdir. Sən demə, bu qanun təkcə maddi dünyada deyil, psixi fəaliyyət sahəsində də özünü doğruldur. Xolodinamika elmi (psixologiya ilə kvant fizikasının qovuşuğunda formalaşmışdır) bunu təcrübi yolla sübut etmişdir. Əgər sən hər hansı obyektə, məsələn, meşəyə öz ehtiramını, təşəkkürünü bildirirsənsə (istər düşüncə, istərsə də sözündə), o da sənə eləcə cavab qaytarır. Ədalətli deyilmi? Bir də baxırsan ki, biri külək, ya yağışdan xoşu gəlməyib dilinin ucuna gələn nalayiq sözləri yönəldir havaya tərəf (bəla budur ki, dili 32 diş və 2 dodaq arxasında dustaq edə bilmirik). Hava da, əlbəttə, fikirləşdiyimiz qədər müdafiəsiz deyil; dilinə, ya düşüncəsinə nəzarət edə bilməyən o şəxsin qara enerjisinə öz sahə strukturu ilə layiqli cavab verəcək. O, qəflətən özünü pis hiss etsə, xoşagəlməzliklə rastlaşsa, yalnız özünü qınasın. Eh, ətrafımızda nə varsa hirsimizi, qəzəbimizi onun üstünə tökürük. Ən çox da evdə hansısa bir elektrik cihazı yaxşı işləmirsə, onu qara enerjimizə "qonaq" edirik. Televizorlar belə "qonaqlığa" daha çox məruz qalır.

Xolodinamika sübut etdi ki, fikrimiz canlı varlıqdır. Fikir forması maddi şəkil alır: həndəsi fiqur, daş, bitki, müxtəlif varlıqlar. Qəlbi saf, düşüncəsi, arzusu xeyirxah olanlardan ayrılan fikri forma gül şəklində olur. Şər insanlarda isə qorxunc varlıq formasında olur (gözlər görməsin!).

Həzrət Məhəmməd (ə.)in kəlamı bu fikirlə səsləşir: **“Şübhəsiz, söyüş canlansa, qorxunc bir şəkil (forma) alar”**. O da məlum olub ki, fikri formalar mikpolepton təbiətə malikdir, yəni elektronlardan da kiçik olan leptonlar sinfinə aid zərrəciklərdən ibarətdir. Bu sinifdə elə zərrəciklər var ki, praktik olaraq heç bir maneə, sərhəd tanımır, məhdudlaşdırılmamış məsafə qət edə bilirlər. Məsələn, neytrino. Məlumdur ki, elektromaqnit dalğaları bu xüsusiyyətə malik deyil. Bu baxımdan, mobil telefonlarla heç də hər yerdə əlaqə yaratmaq mümkün deyil. Fikri dalğalar istənilən maneəni dəf etdiyindən iki nəfərin çox uzaq məsafədən fikrən bir-birlərindən xəbər tutmaları, bir-birlərinə informasiya göndərə bilmələri, eləcə də ekstrasensin uzaq məsafədən xəstənin aurasında-biosahəsində müsbət dəyişiklik edə bilməsi heç də təəccüblü deyil. Fikri dalğalarımız öz aralarında və insanın özü ilə nazik sap kimi energetik əlaqə yaradırlar. Yaxşı deyiblər ki, özün nəsən, ətrafın da elədir. Sən hansı dalğaları ətrafa yayırsansa, elə o dalğalara uyğun insanlarla rabitə yaradacaqsan. Düşüncən, arzun, niyyətin safsa, saf insanlara, əksinə olsa, şər insanlara tuş olacaqsan. Deməli, özünü dəyişməlisən ki, hisslərini, düşüncələrini tənzimləməlisən ki, ətrafını da dəyişə biləsən. Belə deyirlər ki, bir filosof küçədə dəlinin ona baxıb gülməsindən sonra dəliliyə qarşı dərman içir. Səbəbini soruşanda belə deyir ki, yəqin dəli məndə özünə oxşar nəsə gördü ki, mənə güldü. Əlbəttə, burada müəyyən mənada həqiqət olmamış deyil. Filosof insanları başa salmaq istəyirdi ki, həyat bir dağa bənzəyir. Dağa nə səsləyirsən, elə onu da əks-səda kimi sənə qaytarır. Nə əkəcəksənsə, onu biçəcəksən. Arpa əkib buğda biçə bilmədiyin kimi, şər

əkib, xeyir biçə bilməzsən. Başqalarına qarşı niyyətində, düşüncəndə saf, səmimi ol ki, sənə qarşı da elə olsunlar. Xolodinamika elminin təcrübi şəkildə aşkar etdiyi həqiqət islam müqəddəslərinin dilindən dəfələrlə səslənmişdir. Əmirəlmöminin Həzrət Əli (ə.) buyurmuşdur: **"Başqalarının sinəsindən sənə qarşı şəri aparmaq üçün öz sinəndən şəri kökündən qopar"**. Yəni əgər sənə qarşı qəlbində ədavət bəsləyənin sənə münasibətini dəyişmək istəyirsənsə, öz qəlbindən ona qarşı ədavəti kökündən at ki, qəlblər arasında gözəgörünməz əlaqə vardır. Bu halda onun da münasibəti sənə qarşı dəyişilər.

Digər hədisdə könüldən-könülə, doğrudan da, yollar olduğuna işarə edilmişdir: **"Bir adamın sənə olan məhəbbəti haqqında şübhən olsa, onun barəsində öz qəlbinə müraciət et"**. Yəni öz qəlbində həmin şəxsə qarşı məhəbbət hiss edirsənsə, deməli, o da sənə məhəbbət bəsləyir. Əgər bir adam üzünə gülüb, sənə zahirən ehtiram bəsləyirsə, amma qəlbində ona qarşı məhəbbətin yoxdursa, onun münasibəti səmimi deyil. Yuxarıdakı kəlamlar insanları bir-birinə həqiqətən mehriban etmək üçün gözəl bir nəsihətdir ki, ayılaq; saxtalıqdan, sünilikdən uzaqlaşaq, təbii, səmimi məhəbbət bağları ilə bir-birimizə bağlanaq.

## ORTA HƏDD – QIZIL HƏDDİR VƏ YA HİSSLƏRİN TƏRBİYƏSİ

Biz enerjilər dünyasında yaşayırıq. Enerji hərəkətə, istiliyə, işığa, elektrik gərginliyinə çevrilə bilir. İnsan özü energetik-ruhi varlıq kimi fasiləsiz olaraq kosmik enerjinin təsirinə məruz qalır. Müxtəlif enerjilərin insan orqanizminə, onun sağlamlığına, hətta taleyinə təsirinin öyrənilməsi zəruridir. Bu baxımdan Su-Djokk adlı Çin təlimi diqqəti cəlb edir (fəlsəfə ilə təbabətin qovşağında yaranıb). Bu təlimə görə, dünyamızda və daxilimizdə 6 enerji növü (ki) hökmranlıq edir: külək, istilik, qızmarlıq, rütubətlik, quruluq və soyuqluq enerjiləri. Onların qarşılıqlı təsiri orqanizmdə energetik tarazlıq yaradır. Onlardan birinin azlığı və ya çoxluğu bu tarazlığı pozur, orqanizm zəifləyir və insan xəstələnir. Buna görə də enerjilərin düzgün idarə olunması üçün hisslərin, emosiyaların, ehtirasların cilovlanması nəzarət tələb edir. Bu təlim öyrədir ki, əgər gülmək istəyirsənsə, gül, amma həddində. Yəni qəh-qəhə ilə, ha-ha ilə yox. Gülmək insanı cavanlaşdırır – deyə ifrata varmamalısan. Çünki istilik enerjisi həddindən çox artır, energetik tarazlığı, harmoniyanı pozur. Əvvəlcə, aşağıda göstərdiyimiz kimi, bu cür ifratçılıq təkcə energetik təsirə yox, həm də mənəvi-ruhi təsirə malikdir.

Dünyada əksliklər vəhdətdədir, ayrılmazdılar, hər şey həddini (qızıl həddi) keçəndə öz əksinə yönəlir. İfrat gülüşdə özünütənzimləyən sistem olan orqanizmə kədər, sıxıntı lazım olur ki, tarazlıq pozulmasın. Beləliklə, bu halda sevincin (gülüşün) qəmə çevriməsi təbiidir, qanunauyğundur. Xalqımızın bu məzmunda inancı da təsadüfi deyil: çox

gülmə, ağlayarsan. **Həzrət Əli (ə.) buyurub: "Həddən çox şadlıq kədər gətirər"**. Həzrət Məhəmməd (ə.) çox gülməyin qəlbə, imana təsirini belə izah etmişdir: **"Nəbadə çox güləsən, çünki bu iş həm qəlbi öldürər, həm də insanın üzünün nurunu aparar"**. O, əshabələrinə buyurmuşdur ki, insan qəlbi də bitki kimidir. Çox su bitkini çürütdüyü kimi, çox gülüş də qəlbi öldürür. Müqəddəslərimiz uca səslə gülməyiblər, yalnız təbəssüm ediblər. Müdriklər özlərində elə bir hal tərbiyə etmişlər ki, hər cür hadisəyə çox sakit reaksiya verirlər (artıq emosiya əlavə enerji itkisi deməkdir). Onlar güləndə də, hirslənəndə də, kədərlənəndə də qızıl həddi keçmirlər.

**Konfutsi demişdir: "Kim adamlara qalib gəlirsə, güclüdür; özünə qalib gəlirsə, qüdrətlidir"**. Özünə qalib gəlmək – nəfsi-əmmarəyə (pisliyə əmr edən nəfsə) qalib gəlmək deməkdir, öz hisslərini idarə etmək deməkdir. Hələ məktəbli ikən hissləri, emosiyaları idarə etməyi öyrənməməyimizin nəticəsidir ki, hər gün, hət saat qəzəb enerjimiz bir-birimizin qəlbini parçalayır, könlünü yaralayır. Faciəyə bax ki, biz hissləri yox, hisslər bizi idarə edir. Əql, iradə arxada görünməz olur. Qəzəb enerjisinin insana təsiriylə bağlı dövrümüzün böyük arifi, batini, qəlb gözü ilə gizli həqiqətləri müşahidə etməyə qadir olan Şeyx Rəcəbəli demişdir: "Məsciddə gördüm ki, namaz qılan bir cavanın ətrafını nur bürümüşdür. Öz-özümə fikirləşdim: namazdan sonra onunla tanış olaram ki, görüm onu bu vəziyyətə salan hansı xüsusiyyətdir. Namazdan sonra onunla birlikdə məsciddən çıxdım. O, məscidin qapısında məscidin xidmətçisi ilə bir az sözləşdi və ona qəzəbləndi. Onun ətrafındakı nurun məhv olub aradan getdiyini gördüm" (Ayətul-

lah Məhəmmədi Reyşəhri “Məhəbbət iksiri”, “Möminin”, 2001, səh. 205).

İbrətli əhvalatdır, əyani dərsdir. Gərəkdir ki, öz-özümüzlə döyüşək. Bu gün dünyanın 1000-ə yaxın məktəbində valdorf təliminin prinsiplərini öyrədirlərsə, bizdə də bu zərurəti dərk etmək vaxtıdır. Alman filosofu Rudolf Şteynerin (1861-1925) formalaşdırdığı bu təlim incəsənəti öyrətməyi (estetik hisslər aşılamağı), habelə, hisslər, emosiyalar, fikirlərin tərbiyəsini özündə birləşdirir. Özü də bu ənənələr Azərbaycanımızda neçə min il bundan əvvəl öyrədilirdi. Zərdüşt peyğəmbərin “Xeyirxah düşüncə, xeyirxah söz, xeyirxah əməl” düsturu tərbiyə ilə bağlı bütün dünya təlimlərini, o cümlədən Şteyner təlimini öz daxilinə alır və bütün zamanlar üçün təzədir.

## YER CANLIDIR

### Ana torpaq

Torpağa “ana” deyirik. Böyük Yaradan cismimizi torpaqdan yaradıb axı (ruhumuz Onun nurundandır). Son mənzilimiz də torpağın qoynudur. Burada bir haşiyə yerinə düşərdi. İki nəfər torpağa görə dalaşırmış. Biri deyirmiş – mənimdir, o biri deyirmiş – mənim. Torpaqdan səs gəlir ki, mən heç birinizəm, siz ikiniz də mənimsiniz. İbrətamizdir! İnsan oğluna heç yaraşmaz ki, sonunu, aqibətini düşünməsin. Torpaqla, yerlə bağlı çoxlu inancımız var: yerin də qulağı var, onu heç torpaq da götürmədi və s. Elə şər əməllər sahibi var ki, onun cəsədini torpaq da götürmür, kənara atır. İnsan da var ki, İlahi onun bədənini çürütməyi torpağa

haram buyurub. Biz bilirik ki, təbiət qanunlarına görə, bədənlərimiz çürüməyə məhkumdur. Ancaq nə qədər fakt vardır ki, bu qanun çərçivəsinə sığmır. Neçə illər keçsə də, öz təravətini saxlayan insan cisimləri ilə bağlı məlumatlar yetərincədir. Məsələn, Şah İsmayıl Xətai Kərbəla şəhidi Hürrün qəbrini açdıranda (onun haqqında gedən söz-söhbətə son qoymaq üçün) qoşun əhli, yerli əhali gördü ki, Hürrün bədəni təzəcə basdırılmış kimidir. Yunis Əmrənin (İmrənin) də qəbrini dəmiryolu çəkilişi ilə əlaqədar açmaq lazım gələndə həmin vəziyyətlə rastlaşmışdılar. Hədislərdən də məlumdur ki, müqəddəslərin, övliyaların, Allah dostlarının cəsədləri çürümür. Fiziklər belə faktları işıqlı, yüksək enerjili insanların cismində öləndən sonra da enerjinin (nurun) qalması ilə izah etmişlər. Onların fikrincə, bu nur bədəni çürüməkdən qoruyur.

## Yerin orqanları

Bəs "yerin də qulağı var" ifadəsini necə başa düşək? Bu, məcazi, yoxsa həqiqi məna daşıyır? Keçən əsrin əvvəlində Papyus "Kainatın genezisi və inkişafı" əsərində yazıb: **"Yer insan kimi orqanlara malikdir. Yer Günəş şüaları ilə nəfəs alır. Hər şey kainatda vahid qanuna tabedir: doğulur, yaşayır, ölür, sevinir, qəmlənir. Yerin üst təbəqəsi onun mədəsi, dəniz suyu – qan-damar sistemi, okean – döş boşluğu, şeh – qan ehtiyatı, çaylar, şəlalələr – venoz qanı, metallar əsəbləridir"**. Bəs daşlar, dağlar, otlar... Dağlar Yerin onurğa sütunu, daşlar sümükləri, otlar saçları deyilmi?! Görəsən Yerin də insan kimi hissləri, duyğuları varmı? Ezoteriklər deyirlər: bəli. O da ağlayır, kədərlənir, hətta inildəyir, fəryad edir. Deyirlər ki,

böyük müharibələrdən, fəlakətlərdən öncə Yer, həqiqətən, ağlayır, inildəyir. Bunu isə insanların yüksək duyumluları, heyvanlar hiss edirlər. Yer də insan kimi yatır, oyanır. Günəşin ilk şüaları ilə, bəlkə də daha tez – sübh vaxtı oyanır. Yer, onun üstündə və altında nə varsa öz Rəbbini tanıyır, Onu öyür, zikr edirlər. Dağların zikri haqqında Qurani-Kərimdə buyrulur: "Biz dağları ona (Davuda – F.R.) ram etmişdik. Onlar axşam-səhər onunla birlikdə Allaha təqdis və təsbih edib şəninə təriflər deyərdilər (Sad surəsi, 18-ci ayə). Beləliklə, hər bir varlıq öz iç aləminə xas olan bir qaydada ixtiyarsız olaraq Allahı təsbih edir. Yəni Onu hər cür eyibdən, nöqsandan uzaq bilərək öyür. Yuxarıda Yerin də ağladığını qeyd etməyimiz, heç də təsadüfi deyil. Dilimizdə belə bir ifadə var: yerlər də, göylər də ağlayırdı. Göylərin ağlamasının şahidi olmadıqmı? 20 Yanvar şəhidlərini torpağa tapşırandan sonra göylər necə yas tuturdu, İlahi! Göylər gözlərini yumub tökürdü – şıdırğı yağışla şəhidlər qarşısında öz borcunu verirdi. Yer isə öz üstündə gəzdirdiyi, yedirdib-içirtdiyi balasını öz ağuşuna alanda qəmlənməyə bilərmi? Özü də əməlisaleh bəndələr üçün kədəri uzun çəkir. **Həzrət Məhəmməd (ə.) buyurmuşdur: "Yer möminə qırx gün ağlayır"**.

Yer üzündə elə müqəddəslər olub ki, onlar hətta Yerlə danışıblar (əlbəttə, özünəməxsus dillə). Həzrət Fatimə xanım (ə.) belə buyurub: "Yerin Əli ilə və Əlinin onunla danışmasını eşitdim" ("Biharul-Ənvar", 41-ci cild, s.271). Yeri gəlmişkən, mötəbər mənbələr göstərir ki, Həzrət Əli (ə.) Günəşlə də danışırmış.

## Hilozoizm

Bir çoxlarımız yuxarıda söylənilənlərə şübhə ilə yanaşır. Hələ ta qədimdən filosoflar arasında hilozoizm mövqeyində olanlar az olmayıb. Hilozoizm bütün materiyanın canlılığı, qavrayışı, həssaslığı haqqında təlimdir. Fales kimi mütəfəkkir bu mövqedə idi. D.Didro demişdir ki, molekuldan insanadək əqli inkişaf xətti gedir. Ona sual verirlər ki, daş hiss edirmi? Niyə də yox?! – deyə cavab vermişdi. Bu, Spinozanın fikri ilə üst-üstə düşür: "Daşdan başlayaraq bütün təbiət düşünmək qabiliyyətinə malikdir". Fixner Qustavın (1801-1887) isə dedikləri belədir: "Zərrədən qalaktikalaradək hər şey canlıdır. Kainat tamdır".

Hilozoizm eıementləri folklorumuzda da aydın görünür. "Kitabi-Dədə Qorqud"da Qazan xan suya, qurda, ağaca və s. müraciət edir. Bu onu göstərir ki, əcdadlarımız ətraf mühitə bizim kimi mexaniki baxışla yox, ibrətli, düşüncəli, canlı baxışla baxıblar. Özlərini təbiətin bir parçası hesab edib, onunla həmahəng yaşayıblar. Ümumiyyətlə, dünyaya yalnız fiziki qanunlar çərçivəsindən boylanmaq hadisələrin, proseslərin əsl səbəbini bizdən gizli saxlamışdır. Məsələn, zəlzələ, vulkan kimi fəlakətləri sırf mexaniki-fiziki proseslərin ayağına yazmışıq, onları təbiətin kor qüvvələrinin şıltaqlığı hesab etmişik. Bəs əsl baxış necə olmalıdır? Həqiqəti necə axtarmalı? Həqiqət hadisə, prosesə elmi, fəlsəfi, dini, mistik baxışların qovşağındadır. Bu, bütöv baxışdır, yarımçıq yox. Yerin canlı olmasını qəbul edəndən sonra çox mətləblər aydınlaşır. Aydınlaşır ki, biz canlıların Yerə böyük təsiri var.

## Yerin fəryadını eşidəcəyikmi?

Fikirlərimiz, hisslərimiz, sözlərimiz, nəhayət, əməllərimiz bilavasitə ona təsir edir. Nifrət, qəzəb, həsəd, kin enerjimiz Yerin aurasını (enerji-informasiya təbəqəsini) qaraldır. İlahi qanunlara xor baxmağımız, hər cür günah əməllərimiz fəlakətlər şəklində özümüzə qayıdır. **Həzrət Məhəmməd (ə.) buyurmuşdur: "Sələm artanda zəlzələlər artır"**. Son zaman fəlakətlərin artması ilə Şuman tezliyinin artması üst-üstə düşür. Şüman tezliyi Yerin dalğa tezliyidir. Yerin ürək döyüntüsü özünü dalğa kimi büruzə verir. Bu döyüntü uzun illər 7,8 hs olub. 1994-cü ildə 8,6 hs-ə, 2000-ci ildə isə 11,8 hs-ə çatıb. Görəsən Yerə nə olub? Onun ürək döyüntüsü niyə belə artmışdır? Gərək cavabı özümüzdən soruşaq. Yer öz övladlarının yaşayış tərzinə qarşı fəryad etmirmi? Bu fəryadı, nəhayət, eşidəcəyikmi?

## GENETİK KODU DƏYİŞƏN SÖYÜŞ

Əziz oxucular! İnsan üçün özünü tanımaqdan, özünü kəşfdən çətin şey yoxdur. Həzrət Əli (ə.) məqamı mələkdən də uca olan insan haqqında buyurur: **"İnsan, sən özünü xırda bir nöqtə hesab etmə. Səndə böyük bir aləm gizlənmişdir".** Bu gün dərsliklərdə insanı biososial varlıq kimi xarakterizə edirlər. Bu isə insana bioloji və sosial yöndə baxışdır. Əslində isə insan kosmik, energetik, ruhi varlıqdır. Energetik bədən də bir neçə incə bədəndən ibarətdir. Hisslərimiz, düşüncələrimiz, əməllərimiz bu bədənləri formalaşdırır. İşıqlı fikir, arzu və əməllərin təsiri ilə formalaşan bədənlərlə qara fikir, qara əməllərin məhsulu

olan bədənləri müqayisə etmək olmaz. İlahi qanun və qaydaları pozduqca ruhumuz, qəlbimiz qaralır. Son vaxtlar dinin buyruqlarına elm çərçivəsindən baxan alimlər dini hökmlərə aydınlıq gətirməyə cəhd edirlər. Biologiya elmləri doktoru İvan Borisoviç Belyavski on yeddi illik tədqiqatı ilə belə bir elmi nəticəyə gəlib ki, dediyimiz, yaxud eşitdiyimiz söz aşkar şəkildə genlərimizə təsir edir. Sən demə, sözün mütəmadi təsiri ilə insanın qocalma və həyat müddəti templərinə aid xüsusi genetik kod dəyişir (xüsusən, söyüş söydükdə).

Məlumdur ki, hər bir söz xüsusi energetik yükə malikdir. Bu qayda ilə söz daşıdığı mənaya, əxlaqi tutuma görə müsbət və ya mənfi enerjiyə malikdir. Söyüş də elə bir sözdür ki, özündə mənfi enerji daşıyır. İ.Belyavskinin müşahidələri sübut etdi ki, söyüş sahəsində "çoxillik staja" malik olanlarda hüceyrə səviyyəsində yaş dəyişiklikləri baş verir. Bunun arxasında isə müxtəlif xəstəliklər durur. Əxlaqi qaydaları rəhbər tutanlar, söyüşsüz keçinənlər, təbii ki, onun dağıdıcı təsirindən uzaqdırlar. Biz söyüşlə həm də həyatda uğursuzluqlara zəmin yaratmış oluruq. İnsan aşağı səviyyəli söz işlətdikdə, İblisə, onun nökərlərinə daha çox yaxınlaşır. Yuxarıda qeyd etdik ki, hər kəs düşüncəsinə, sözünə, əməlinə uyğun kosmik (İlahi) enerji ilə qidalanır. Alçaq sözlərin tutumu nədir ki, özünə yüksək, işıqlı enerjini çəkməyə qabil olsun? Böyük məqsədlər uğrunda çarpışanlarda görürsünüzmü necə böyük enerji ehtiyatı, nikbinlik, həyat eşqi olur? Göylərdə, yerdə varlıqlar belə onlara dua edirlər. Söyüş söyənlər (hələ yalan, qeybət, böhtan və sairəni demirik) infeksiya mənbəyidir. Çünki söyüşün dağıdıcı təsiri təkcə onun müəllifinə deyil, həmçinin onu

eşidənlərə yönəlir (hətta bitkilərə belə). Bu da sübut olunub ki, heç vaxt söyüş söyməyənlər qeyri-şüuri vəziyyətlərdə, məsələn, hipnoz altında söyüş söyməyə qadirdirlər. Söyüşü eşitdinsə, o, şüuraltı dünyana hopacaq, burada öz izini qoyacaq. Bax, burada düşünməyə dəyər. Belə ki, söyüş söyən valideynlərin evində dünyaya göz açan körpənin qulaqları ilk dəfə söyüşə açılacaq. Valideynlər uşaqların tərbiyəsi üçün Yaradan qarşısında, bəşəriyyət qarşısında cavabdehdirlər. Onlar bilməlidirlər ki, ana bətnində döl həm eşidir, həm görür, həm də bilir. Dildən çıxan söyüşləri dünyaya gələndə o da təkrar edəcəksə, yalnız özümüzü qınamalıyıq. Bu baxımdan söyüş söyən tərbiyəçi müəllim uşaq bağçası, məktəb həndəvərinə belə buraxılmamalıdır. Əgər tərbiyəçiyiksə, ilk növbədə öz nəfsimizin tərbiyəsi ilə məşğul olmalı deyilikmi? Nümunə olmasaq, nümunə götürməzlər. Dilin söyüş adlı bəlası hər zaman batinimizi qaraldır, mənəvi simamızı, şəxsiyyətimizi korlayır. Söyüşün batinə təsiri Allahın saleh bir bəndəsi, həqiqi mənada arif olan Şeyx Rəcəbəli Xəyyatın dili ilə gözəl açıqlanmışdır. Çox yaxşı olardı ki, onun haqqında ibrətamiz, gözəl nümunələrlə dolu olan "Məhəbbət iksiri" kitabını hamı oxuya biləydi. Yüksək ruhi-mənəvi məqama malik Şeyxin dediyinə görə, velosipedçi ilə toqquşan piyada əsəbləşib ona "eşşək" deyəndə piyadanın batini (mənəvi) siması eşşəyə döndü! Digər bir misal: faytonçu piyadaya "yabı" deyəndə faytonçunun daxili siması dərhal yabıya çevrildi. Burada təəccüblü nə var ki? İnsanların əksəriyyəti yalnız zahiri şeyləri görür. Şeyx Rəcəbəli isə batin əhli olduğuna görə insanın həqiqi simasını (ruhi halını) aydınca görürmüş. İnsan qəlbi bir güzgüdür ki, hər şeyi əks etdirir. Dildən çı-

xan söyüş qəlbdə əks olunaraq onun simasını dəyişir. İbrət almaq gərək! Söyüşcül insanda gündə nə qədər batini çevrilmələr gedir, onda insanlıqdan əsər-əlamət qalmır. Doğrudan da, yazıq, insana yazıq – gündə neçə kərə heyvana dönənə yazıq!

Sual olunur: bizə söyüş söysələr, necə? Biz də eynilə cavab qaytara bilərikmi? Əlbəttə, yox. Haramı haram yolla aradan qaldırmaq olmaz. Söyüş qarşısında söyüş söyməmək helmli (dözümlü) adamların işidir. Hədisdə deyilir: **“Bir-birini söyən iki nəfər bir-birini parçalayan iki şeytandır”**. Digər bir hədis isə söyüş söyənin pis aqibətindən xəbər verir: “Həqiqətən, Allah-təala cənnəti haram etmişdir söyüş söyən o həyasıza ki, dediyi və ya ona deyilən söyüşlərdən həya etmir. Belə bir şəxsi yoxlasan görərsən ki, ya vələdüzzinadır (zinadan doğulan – F.R.) və yaxud da atası ilə Şeytanin nütfəsi qarışıb”.

Söyüşün, ümumiyyətlə, nalayiq sözlərin mənşəyi nəfsin çirkinliyi, mənəviyyatın yoxsuluğudur. Amma ziyalılardan da söyüş eşidəndə adamın əlləri üzündə qalır. Beləliklə, səhhətimizi korlayan, ruhumuzu qaraldan, taleyimizi dolaşdıran, aqibətimizi Cəhənnəmin odunda qərarlaşdıran nalayiq sözlərlə biryolluq vidalaşmalı deyilikmi?

## HELM

Hədislərin əksəriyyətində elmlə helmi birgə qeyd ediblər. Rəvayət olunur ki, xeyir-bərəkət mal və övladda deyil, çox əməl etməkdə və helmli olmaqdadır. Nədir helm? Çox vaxt helmi sadəcə qəzəbi boğmaq kimi başa düşürlər. Bu, qismən doğrudur. Şeyx Abbas Qumi “İslam əxlaqi” əsərində qeyd edir ki, filosof Buzərcmehrdən helm

haqqında soruşduqda o, belə cavab verir: **Helm əxlaqın duzudur. Xörəyin duzsuz dadı olmadığı kimi, əxlaq da helm olmadan gözəl ola bilməz. Helmli olmağın üç əlaməti var: əgər onunla acı danışsalar, onun qarşılığında şirin cavab versin; əgər ona əziyyət etsələr, onun əvəzində ehsan etsin. İkinci odur ki, qəzəb odu alovlananda və qəzəb son dərəcəyə çatanda sakitləşsin. Bu da ürəyin aram və ruhun sakit olmasına dəlildir. Üçüncüsü odur ki, həqiqətdə cəzaya layiq şəxsə qəzəblənməsin”**. Göründüyü kimi, helm sifətinə yiyələnmək, həqiqətən, əxlaqda kamilləşmək deməkdir. Helm əxlaq sahibinin zinəti, haqq əhlinin sifətidir. Əgər söhbət elimdən, helmdən gedirsə, Böyük Yaradanın höccətləri (dəliləri) olan 14 Məsumun (ə.) qapısını döyməli, həqiqəti bu qapıdan soraq etməliyik. Bəşər əxlaqının kamilləşməsində onlardan daha gözəl örnəklər kimlər ola bilər? Bir xristian İmam Məhəmməd Baqirə (ə.) “əntə bəqər” – (sən inəksən) deyir. İmam (ə.) isə sakitcə: “Yox, mən Baqirəm” (Baqir – elmləri yaran deməkdir – F.R.) deyə cavab verir.

Xristian: “Sən aşbaz qadının oğlusan”.

İmam: Aşbazlıq anamın peşəsi idi”.

Xristian: “Sən iftiraçı (böhtançı – F.R.) qara kənizin oğlusan”.

İmam: “Əgər dediklərin doğrudursa, Allah anamın günahlarından keçsin, əgər doğru deyilsə, Allah səni bağışlasın”. Xristian İmamdakı helmi, ruhi böyüklüyü görüb islamı qəbul edir. Böyük islam alimlərindən fəxrimiz N.Tusi helm sifətinə o dərəcədə yiyələnmişdir ki, bu günün reallığında (adi bir şey üstündə ziyalılar belə dava-dalaş müstəvisinə keçirlər) az qala əfsanə kimi görünür. Bir gün

N.Tusi məktub alır. Məktubda ona “it oğlu it” – deyə müraciət olunmuşdu. Filosof hansı yolu tutmalıydı? Burada Mark Tvenlə bağlı bir haşiyə çıxmaq yerinə düşərdi. Yazıçı həmişə imzasız məktublar (təhqir də az olmurmuş) alırmış. Bir dəfə isə təkcə bircə sözdən ibarət məktub alır. O söz “donuz” idi. M.Tven qəzetdə belə elan verir: “Həmişə imzasız məktub alırdım. Bu dəfə isə məktubsuz imza almışam”. Yəni məktubu yazan özünün kimliyini bildirib: donuz. Bu, təhqirə eyni təhqirlə cavab verməkdir. Hərgah yazıçının hazırcavablığı özünü göstərir. Amma N.Tusi təhqiri belə qarşılamayıb. O, cavab məktubunda belə yazıb: “Sənin mənə xitabən yazdığın “it” kəlməsi doğru deyil, çünki it dördayaqlıdır və uzun dırnaqlıdır. Məlumdur ki, mən düz qamətli insanam. Bədənim it bədəni kimi tüklü deyil. Dırnaqlarım enlidir və mən danışanam, gülənəm. Deməli, mənim xüsusiyyətlərim itdə olan xüsusiyyətlərdən fərqlənir”. Sizcə, təhqirə qarşı belə cavab alan o kəs öz davranışından xəcalət çəkməzdimi? Təhqir qarşısında böyüklük, alicənablıq, ehtiram. Qarşındakını tərbiyə baxımından bu, əvəzedilməz üsuldur. Onu öz helminlə ayıldırsan, ona insanlığın nə olduğunu xatırladırsan, ondakı zülməti öz işığınla boğursan. Pisliyi yerindəcə kəsib atırsan. Beləliklə, pislik əvəzində yaxşılıq, kobudluq qarşısında yumşaqlıq, nadanlıq qarşısında güzəşt, tənə, rişxənd qarşısında təbəssüm helm sahibini fərqləndirən xüsusiyyətlərdir. Həqiqi helm sahibləri həm də kamil elm sahibləridir. Elmi olanın helmi olar. Elmlə helmi ayırmaq olmaz. Həqiqi alim, bilən odur ki, əxlaqi, əməli də gözəl olsun. Şəxsiyyətin kamilliyi elmlə helmin qovuşmasındadır. Gözəllik də elə bu deyilmi? Helm hansı hallarda büruzə verir? Bir şəxs düzgün

olduğu halda onu töhmət edəndə, digərlərini haqqa, insanlığa dəvət edəndə, onun bu dəvətini yüngül sayanda,ona heç bir günahı olmadan əziyyət verəndə helmi aşkara çıxırsa, o şəxs, həqiqətən, helmlidir. Müasir dövrümüzdə insanların dinə qarşı biganə olduğu, fitnə-fəsadın artdığı bir vəziyyətdə əmr bə məruf (yaxşılığa dəvət) və nəhy əz münkər (pislikdən çəkindirmə) kimi vacib dini vəzifələrin icrası zamanı helm sifəti daha çox tələb olunur.

Allah bizləri həqiqi helmlilərdən qərar versin!

## ƏN YAXŞI LİBAS – HƏYA LİBASIDIR

İnsanda ruhi bir xüsusiyyət olaraq həya, utanmaq duyğusu var. Bu duyğu iki növ olur: 1) fitri olaraq hər bir fərdə məxsus olan insanlıq heysiyyatını qoruyan duyğu. 2) iman nəticəsində qazanılan həya duyğusu. Bu duyğulardan məhrum olanlar insanlıq şərəfini itirib qəlbən, ruhən heyvani xüsusiyyətlər kəsb edənlərdir.

Bu gün bəşər elmin, texnikanın yüksək nailiyyətlərindən istifadə etsə də, başı göylərə ucalan binalar tikib kosmosun ənginliklərinə doğru layihələr üzərində işləsə də, iman cəhətdən kasıbdır və həya duyğusuna möhtacdır. Bu, elə bir duyğudur ki, səni Allah qarşısnda həyalı olmağa məcbur edir, onun xoşlamadığı şeylərdən çəkindirir. Gəlin əlimizi vicdanımızın üzərinə qoyub bu suala cavab verək: cəmiyyət həya pərdəsinə bürünüb, ya yox? **Həzrət Məhəmməd (ə.) buyurmuşdur: "Həya imandandır"**. İman elə bir ağacdır ki, onun kökündə Allahın vahidliyi, şəriksizliyi durur; bu ağacın budaqları isə insana şərəf gətirən, insanlıq bəxş edən keyfiyyətlərdən ibarətdir. Həya da, sə-

xavət də, vətənpərvərlik də, comərdlik də, qeyrət də imandan qaynaqlanır. Ədəbli geyim, davranış da batindəki Allah nurunun təzahürüdür. İnsan xislətindəki mənfi xüsusiyyətləri nə qədər gizlətməyə çalışsa da, geyimi, davranış mədəniyyəti onları büruzə verir.

**Haşiyə:** Metronun "Sahil" stansiyasında ağsaqqal bir ziyalının haqlı gileyinin şahidi oldum: "Bu stansiyadan "Neftçilər"ə çatanadək əsəbləşdiyimdən halım özümdə olmur. Xanımların adət-ənənələrimizə uyğun geyinməməsi və gənclərin böyüklərə layiqincə ehtiram göstərməməsi məni üzür..."

Doğrudan da, geyim mədəniyyətində çox böyük aşınmalar göz qabağındadır. Bu gün istiləri bəhanə edərək əndazəni aşanlar kifayət qədərdir. Xanımlar arasında şalvar geymək birmənalı şəkildə dəbə minib. Özü də qəribədir ki, şalvar geyinənlər özlərinə haqq qazandırırlar. Onların fikrincə, açıq-saçıq geyməkdənsə, şalvar geymək yaxşıdır. Bunu dərk etmək istəmirlər ki, qadın gərək özünü kişiyə oxşatmasın. İmam Məhəmməd Baqir (ə.) demişdir: "Qadınlar özlərini kişilərə, kişilər də qadınlara oxşatmamalıdır. Cəddim Həzrət Məhəmməd (s.) belə şəxslərə lənət oxuyurdu" (Əllamə Məhəmmədbağır Məclisi, "Möminlərin zinəti", səh. 10).

Demək artıqdır ki, dar şalvar qadının bədən quruluşunu daha çox nəzər çarpdıraraq, əks cinsin diqqətini cəlb edir. Bu isə haram baxış və davranışlara səbəb olur. Üzümüzün suyu (abrımız) tökülür. Həya pərdələri yırtılır. Abırsız geyimlərin yeniyetmələrə, gənclərə təsiri isə xüsusi söhbətin mövzusudur. Təbii ki, təhrikedici geyim müxtəlif cinayətlərə də gətirib çıxarır. Bunun üçün kim məsuliyyət

daşıyır? O xanım da, onun boynunda haqqı olan ata, ər, qardaş da, elə buna göz yuman hər birimiz də. Əsl dəyərlərin yerini yalançı dəyərlər elə tutub ki, adət-ənənənin əksinə getməyi müasirlik, mədəniyyət, ona əməl etməyi isə geridəqalmışlıq hesab edirlər.

**Haşiyə:** Keçən il dağ rayonlarından birindən qəbula gələn ədəbli bir xanım Bakı Dövlət Universitetinə qəbul olduqdan sonra anası ona təzə bir don da hədiyyə aldı. Ananın sevinci uzun sürmədi. Qrup yoldaşları qızı hər tərəfdən danlayıblar ki, bu nədir geyinmisən, dəbdən geri qalma və s. Qız da dərsə getməyə utandığına görə (?) zavallı ana ona yenidən xərc çəkib şalvar aldı. Görün, nə vəziyyətdəyik: insan yaxşı işinə görə xəcalət çəkir, öz kökündən uzaq düşdüyünə, öz ənənəsinə xor baxdığına görə xəcalət çəkmir, yaramaz dəbləri yamsıladığına görə həya eləmir. Bu nə yoldur? Buna yol deməzlər, yolsuzluq deyərlər. Milli-dini, adət-ənənələrə arxa çevirmək deyərlər. Tarixin yaddaşında öz kökündən ayrılmış, mənəvi dəyərlərdən uzaq düşmüş xalqların səhnədən silinməsi ilə bağlı çox səhifələr yatır. İbrət almaq gərək!

Bu yaxınlarda orta məktəblərdə geyimlə bağlı keçirilən kompaniya nə uğrunda idi? Adət-ənənələrin qorunması, ya adət-ənənəyə qarşı? Baş örtüyü ilə dərsə gələn qızları dərsə buraxmırdılar. Bəyəm məktəbliyə yaraşmayan formada gələnlərə "gözün üstdə qaşın var" deyən tapılardı? Hədəfə götürülən başı-boynu açıq gəzməyə həya eləyən qızlar idi. Bəziləri elə başa düşür ki, baş örtüyündən istifadə dünyəvi dövlətin prinsiplərinə ziddir. Sovetlər imperiyası qurulmamışdan qabaq bu millətin övladları başıaçıq, boynuaçıq gəzmirdilər. Elmin, texnikanın inkişafına nail

olduqca həya pərdəsini atdıq. Yaxşı demişlər: "Millət məktəbdə doğulur, məktəbdə də ölür". Məktəb, bununla yanaşı ailə uşaqları hansı əxlaqi sistem, dəyərlər əsasında tərbiyə edəcəksə, cəmiyyətin də siması elə olacaqdır. Təəssüflər olsun ki, müəllimlərin də, valideynlərin də əksəriyyəti öz dinini, dini vəzifələrini bilmirlər. Hətta bəziləri islamı xurafat hesab edir, Avropadan geridə qalmağımızın səbəbini onda görürlər. **"Hər kəs bilmədiyinin düşmənidir"** (Həzrət Əli (ə.) axı. Keçilən yola ağlının gözü ilə baxanlar Avropanın bugünkü tərəqqisinin mənbəyini də islamda görürlər. Vicdanlı Avropa şərqşünasları (Qustav Lebon kimi) etiraf edirlər ki, Avropanın 5 əsrlik zülmətini islam günəşinin şüaları dağıdıb. Fərabilər, İbn Sinalar, Birunilər, Nəsirəddin Tusilər deyildimi Avropada öyrənilən, tədqiq edilənlər?

Bu gün əlacımız mənəvi simasını itirən insan öz yoluna qaytarmaq, onun kimliyini özünə tanıtmaqdır. Yoxsa hər tör-töküntünü dəb, mədəniyyət adı ilə qəbul edəcəyik. Müxtəlif rəngli parçalardan yamaq vurulmuş libasın dəyəri nədir ki!?

## HƏYA – ÜZÜN SUYU

Ta qədimdən həya gözəllərin, şərəf, qeyrət isə igidlərin zinəti, bəzəyi olub. Dədə Ələsgər Həcər xanımın dili ilə deyir:

***Eşit bu sözləri, saxla yadigar:***
***Gözəllərdə həya, igidlərdə ar...***

Həya nədir? Həya hissi nədən doğur? **Həzrət Məhəmməd (ə.) buyurmuşdur: "Həya imandandır"**. Yəni

imanı olanın həyası olar. Həya elə bir ilahi nurdur ki, insana utancaqlıq hissi, yad nəzərlərdən daldalanma, yaşınma verir. Yenə Dədənin söz boxçasından:

***Arif ola,eyham ilə söz qana,***
***Naməhrəmdən şərm eyləyə, utana.***

“Naməhrəmdən şərm eyləmək” (həya eləmək) oğuzların canında, qanında olur. Bz onun bariz nümunəsini türkdilli ədəbiyyatın ən möhtəşəm abidəsi olan “Kitabi-Dədə Qorqud”da görürük. Dörd oğuz igidi – Beyrək, Qanturalı, Qaraçəkir və onun oğlu Qırxqınıq həmişə üzü niqablı (örtüklü) gəzir. Bu, həya, ədəb, qeyrət rəmzidir. Boy-buxunlu, yaraşıqlı igidlər xanımların diqqətlərini özlərinə cəlb etməkdən yayınırlar. Yeri gəlmişkən, Şah İsmayıl kimi qüdrətli şəxsiyyət, övliya, mürşid də üzü niqablı gəzib. Həya pərdəsi yırtılan kəs cəmiyyətin diş ağrısıdır. Həyasızdan hər cür mərdimazarlıq, nanəciblik gözləmək mümkündür. Gözəl bir atalar misalı var: həyasızın üzünə tüpürdülər; dedi ki, yaz yağışıdır. Beləliklə, həya pərdəsini yırtan, abrımızı (“abru” ərəb sözü olub, “üzün suyu” deməkdir) tökən nə varsa, ona qarşı mübarizə hər bir sağlam əqidə sahibinin müqəddəs vəzifəsidir. “Mənə nə” prinsipi ilə yaşayanlar sadəcə olaraq mövcuddurlar. İnsan insanlıq etmirsə, ona insan deməzlər.

Gündəlik həyatımızda televiziyanın rolu mühümdür. Televiziya millətin mənəviyyat aynasıdır. Milli mentalitetə zidd nə göstərilirsə, bu aynaya ləkə salmaq deməkdir. Bir sıra xarici filmlər ailə xəyanətləri, sədaqətsizlik nümunələri ilə dolu olduğuna görə telegüzgüyə yaxın buraxılmamalıdır. Mütəxəssislər sübut etmişlər ki, filmlərdəki aşıq-

saçıq səhnələr cinsi hisslərin erkən oyanmasına, həyanın itməsinə səbəb olur. Qəzetin də televiziya kimi əxlaqa, mənəviyyata təsiri böyükdür. Qəzetlər sadəcə informasiya orqanı kimi fəaliyyət göstərməməli, mənəvi yüksəliş naminə oxucuları arxalarınca aparmağı bacarmalıdırlar. Çox təəssüf ki, əxlaqımıza yabançı ünsürlərə biz elə qəzetlərdə rast gəlirik. Söhbət təkcə Azərbaycan mətbuat bazarında özünə yer tapan açıq-saçıq qəzetlərdən (əsasən, rus qəzetlərindən) getmir. İctimai-siyasi xarakterli qəzetlər belə “sevgi macəralarına” səxavətlə yer ayırırlar. Sevgi məsumluqdur, o, qəlbə qəflətən qonur, insanın ruhunu yonub onu təzədən qurur. Sevgini faş etməzlər. Özü də qəzetlər vasitəsilə. Buna sevgi yox, yungül həyat tərzi deyərlər. Məşhurların həyatının bu səhifələrini qabartmağın oxuculara təsiri yalnız mənfi ola bilər. Jurnalistlərin bəziləri sərbəstliyi ədəb çərçivəsini qırıb atmaq kimi başa düşür. Müsahibə götürdükləri nüfuzlu şəxslərin intim həyatına, gizli sirlərinə belə baş vurmaq, necə deyərlər, yazılarının “duzunu” artırmaq istəyirlər. Bu isə, qətiyyən yolverilməzdir. Narahatlıq gətirən başqa bir məsələ. Qəzetlərin birinci səhifəsi çox vaxt qətl, intihar, qəza ilə bağlı başlıqla açılır. Oxucuları bu yolla cəlb etmək bir xəstəlikdir ki, qəzetlərin çoxu yoluxubdur. Belə çıxır ki, məmləkətimiz qətl, qarətlər yurdudur. Hansısa bir faciəni bu səviyyədə təqdim edəndə onun nəticələri haqqında da düşünməliyik. Səhər-səhər işə tələsən insanların gözü birinci növbədə məhz bu məlumatlara sataşır. Daxili səksəkə, özünün, doğmalarının həyatından sarı nigarançılıq hissi onu bürümürmü? Oxucunu elə öyrəşdiririk ki, şüuraltı olaraq o, kriminal hadisə haqqında informasiyaya meyl edir. Əgər belə insanların sayı çoxdursa, real

həyatda nəticəsi acınacaqlı ola bilər. Necə deyərlər, arzu, niyyətimiz özümüz də istəmədən faciələrə yol açır. Qəzet redaktorları bu haqda ciddi düşünməlidirlər.

Şəhərimiz günü-gündən gözəlləşir. Şəhərimizdə reklamların seçilməsinə də xüsusi diqqət yetirmək vacibdir. Addımbaşı əsasən maddi nemətlərin reklamına rast gəlirik. Mənəvi dəyərlərlə bağlı reklama nadir hallarda rast gəlinir. Fəvvarələr meydanındakı reklamların bəzisi milli ənənələrimizə ziddir. Onlardan birində əcnəbi oğlanın boynunda oturmuş bir qadın təsvir olunur (elə bil ki, uşaq atasının boynuna minib, ayaqlarını da sallayıb). Bura Azərbaycandır! Burada kişilər öz xanımlarını boynunamı mindirir, özü də cəmiyyət arasında? Reklamlar artıq metro vaqonlarına da ayaq açıb. Bir vaxt bu vaqonlardakı reklam lövhələrində nəsihət verən kəlamlar oxuyar, dünya qayğılarından az da olsa uzaqlaşardıq. Nə səbəbdənsə, indi belə kəlamların bir dənəsinə də rast gələ bilməzsən. Onun əvəzindəsə şokoladların "şokedici ləzzətləri" haqda oxu, ləzzət al! Son vaxtlar "fiqurin" adlı dərman preperatının reklamı ilə də rastlaşırıq. Xanımlara məsləhət görülür ki,bu preperatlardan istifadə etsinlər, çünki ondan istifadə gözəl bədən quruluşu qazanmaq deməkdir və s. Çimərlik paltarında qadın təsviri vaqonlarda uzaqdan belə diqqəti cəlb edir. Gözümüz sataşır, üzümüzün suyu tökülür.

İbrətamiz bir misal: bir anbara çoxlu sayda siçan dadanıbsa, hər gün anbara nə qədər taxıl töksən də, onu doldura bilməyəcəksən. Gərək siçanları aradan götürəsən. Əgər kamil insan yetişdirmək arzumuz varsa, onun ruhunu, qəlbini qaraldan, abrını tökən hər cür qeyri-əxlaqi ünsürləri aradan götürməliyik ki, tərbiyənin də təsiri olsun. Şeyx Xi-

yabaninin dediyi kimi, “Xalqın azadlığını onun əxlaqi fəziləti qoruya bilər”. Yalnız fəzilətli insanlar azadlığa layiqdirlər!

2002

## PİS VƏRDİŞLƏRİN TƏSİRİ

**Bismilləhir Rahmənir Rahim**

“Xeyirli düşünəcəyimə and içirəm, xeyirli söz deyəcəyimə and içirəm, xeyirli əməl edəcəyimə and içirəm”. İstəkli oxucular, bu müqəddəs and, bildiyimiz kimi, xalqımızın möhtəşəm abidəsi “Avesta”dandır. Əcdadlarımızın andına nə dərəcədə əməl edirik? İnsanın kimliyi onun niyyətindən bəlli olar. **Həzrət Məhəmməd (ə.) buyurmuşdur: “Öz din qardaşlarınız barəsində hüsnü-zənn edin, gözəl niyyətdə olun ki, ürəkləriniz səfa və paklıq tapsın”**. Əlbəttə, hər azar sağalar, qəlb azarı sağalmaz. Qəlbi qara adam başqasında yaxşı cəhətləri də qara görər.

İnsanlar gözəgörünməz energetik tellərlə bir-birinə bağlıdırlar. Başqalarına nifrət özünənifrət şəklində qayıdacaqdır. (“bumeranq” qanunu). Beləliklə, həqiqi insanın niyyəti, düşüncəsi getdikcə daha yaxşı, daha pak olmalıdır. O, başqasında xoşagəlməz bir xasiyyəti bəyənməsə, heç olmasa, başqa bir xoşagələn xasiyyətə sevinməlidir. İndi pis vərdişlərimizə nəzər yetirək. Müdrik bir kəlam var: “Vərdiş əkərsən, xarakter biçərsən, xarakter əkərsən, tale biçərsən”. Doğrudan da, insan bir şeyə vərdiş etdikdə, tədricən, bu, onun xarakterik xüsusiyyətlərindən birinə çevrilir. Təbii ki, insanın xarakteri, xasiyyəti onun taleyinə mühüm təsir göstərir. Şükür Allaha, insana həya adlı bir ne-

mət verib ki, onu pis vərdişlərdən, əməllərdən saxlayır. Həya itdisə, abır ("abru" üzün suyu deməkdir) getdisə, vay bizim halımıza! Balaca bir dilin başımıza gətirdiyi böyük bəlaların sayı-hesabı olmayacaq. Qeybət edən də, böhtan, yalan deyən də, xəbərçilik edən, mərdimazarlıq edib fitnə-fəsad salan da dil deyilmi?

Musiqi həyatımızda özünə möhkəm yer tutub. Musiqiylə, şeirlə nəfəs alırıq. Bu, anaların laylayı ilə qanımıza, canımıza hopub. Di gəl ki, indi şəhərimizin küçələrində səsləndirilən hay-küylü, bayağı mahnılar adama zövq vermir, gözəl duyğular yaratmaq əvəzinə qıcıqlandırır, əsəbiləşdirir. Belə musiqi ruhu, qəlbi tərbiyə etməz, onu qaraldar, onu ehtirasların qucağına atar. Hələ həyatın isti-soyuğunu görməmiş sürücü gənclər isə elə düşünürlər ki, qulaqbatırıcı musiqiylə sərnişinlərə "zövqlə" xidmət etmiş olurlar. Bu sayılan hallar artıq zərərli bir vərdişə çevrilib.

Siqaret çəkməyin zərərindən xəbərdarıq. Onu da əlavə edək ki, insan energetik struktura malik energetik varlıq olduğuna görə bu baxımdan da onun zərərini bilməyimiz vacibdir. Siqaret efir bədəninə (fiziki bədənin surətinə, enerji bədəninə) mənfi təsir edərək onun enerjisini zəiflədir.O, fikrin konsentrasiyasına (bir nöqtəyə cəmləşməsinə) mane olduğuna görə, meditasiya edənlər, ümumiyyətlə, ruhi yüksəliş yolu ilə gedənlər ondan uzaqdırlar. Təəssüf ki, dini qaydaları öz həyat tərzinə çevirənlər belə bu zərərli vərdişə heç də həmişə qalib gələ bilmirlər. Doğrudan da, F.Nitsşenin dediyi kimi, "insanlar öz vərdişlərinə faydalarına nisbətən yüz dəfə çox üstünlük verirlər".

## “ƏDƏB AĞLIN SURƏTİDİR”

Gözəl xasiyyət ən qiymətli qənimətdir. Elə bir qənimətdir ki, ondan hamı faydalana bilir, tükənməksə bilmir. Xasiyyətdəki gözəllik – xeyirxahlıqdır, sevgidir, mehribanlıqdır, qayğıkeşlikdir, nəzakətdir...

***İnsandan insanlıq – budur umacaq!***
***Bəşər gör nə vaxtdı bu gümandadı.***
***Təbəssüm paylaşaq biz qucaq-qucaq,***
***Neçə dərdli könül bu gümandadı*** (F.R.).

İnsanın bircə təbəssümü, bircə mehriban, ılıq sözü qəlbdəki tufanı sakitləşdirib, dərdi, qəmi bir dəryaz kimi doğraya bilər. Hamımızın ən çox buna ehtiyacı var. Həyat dəyirmanında un kimi üyülüb, üzüm giləsi kimi sıxıldıqca dərdə şərik axtarırırıq. İnsan ülfətə möhtacdır! İnsanda gözəl dediyimiz nə varsa, insanla ülfətdə, ünsiyyətdə üzə çıxır. Bu gözəlliklərin mənbəyi isə məhəbbətdir: Yaradana məhəbbət, insana məhəbbət, məxluqa məhəbbət. Məhəbbət elə bir ağacdır ki, budaqlarında hər cür gözəl meyvələr yetişir. Məhəbbət xeyirxahlıq doğurur, mərhəmət doğurur. Məhəbbət ağacının dadlı, ətirli meyvələrindən biri də nəzakətdir.

Nəzakət insanda elə bir keyfiyyətdir ki, tez nəzərə çarpır. İnsan danışmasa belə onun baxışından, duruşundan, rəftarından nəzakətlilik dərəcəsini müəyyənləşdirə bilirsən. Nəzakətdən ucuz başa gəlib, ondan baha qiymətləndirilən nə var ki? Nəzakətli insan qarşısındakına xəbərdarlıq edir: insansansa, insanlıq göstər. Hər bir xalq bu keyfiyyətə yük-

sək qiymət verir, uca tutur. Yaponları digərlərindən fərqləndirən xüsusiyyətlərdən bəlkə də ən başlıcası nəzakətdir. Onların insanlarla ünsiyyəti, doğrudan da, əsl nəzakət rəmzidir. Salamlaşmağa bax: hər kəs çalışır ki, qarşısındakına öz ehtiramını daha çox əyilib təzim etməklə sübut eləsin. İnsana təzim! Bu, ona layiqdir. İnsan İlahinin şah əsəri, yaradıcılığının zirvəsi olub, özündə onun nurunu gəzdirir axı. Eh, Yaradanın başı bağlı kitabı olan insan hər şeydən xəbər verməyə çalışır, özündən isə xəbəri yoxdur.

Yaponun vəzifə borcuna sədaqəti, məsuliyyət duyğusu nəzakətlə birgə harmoniya yaradır.

**Haşiyə:** Görkəmli rus sirk artisti Anatoli Durov Tokioda mehmanxanada qalarkən təzə ayaqqabılar alır, köhnəni isə şkafa qoyur. Bir müddətdən sonra Nakasaki şəhərinə yola düşür. Aradan bir az keçməmiş bir məmur ona təzim edərək qırmızı lentli bağlama uzadır. Bağlamada nə olsa yaxşıdır: şkafda qoyub gəldiyi ayaqqabı. O əsəbiləşərək ayaqqabını çarpayının altına atır. Bu şəhərdən də digər bir şəhərə yola düşür (qastrol səfərində idi axı). Bir neçə gündən sonra yenə də həmin "yük"ü ehtiramla ona çatdırırlar. Durovun daha səbri tükənir, ayaqqabıdan canını qurtarmaq üçün onu dənizə atmalı olur. Yoxsa, kim bilir bu ayaqqabı onu nə qədər izləyəcəkdi! Bax budur yapon xarakteri – onun vəzifə borcuna, əmanətə sadiqliyi, qonağa ehtiramı... Əlbəttə, vəzifə məsuliyyəti əxlaqi məsuliyyətdən – vicdani məsuliyyətdən doğur. İnsan oğlu qəlbindəki vicdan nurunu söndürməməli, onun nəzakətindən çıxmamalıdır.

Nəzakət ailədə, həyatın ayrı-ayrı sahələrində qarşılıqlı etimad, hörmət yaradır. Nəzakət insanın mənəvi qüvvəsi-

nin, onun şərəf və ləyaqətinin ifadəsidir. Başqalarına nəzakət onların da şərəf və ləyaqətini təsdiq etmək deməkdir. Bu isə hər kəsdə özünə inam yaradır, gözəl duyğular aşılayır və insan öz şəxsiyyətinə, "mən"inə ehtiramı görəndə, özünə ehtiramı artmaqla yanaşı digərlərinə də ehtiramı artır. Gündəlik həyatımızda nəzakətin nəyə qadir olduğunu aydın görürük. Metronun yaylı qapılarını açıb-örtən insanları müşahidə etsən, kimin kim olduğunu bilərsən. Eləsi var ki, yalnız özü ilə məşğuldur. Qapını açıb çıxdıqdan sonra arxada gələnlərə məhəl qoymur, qapını buraxır. Eləsi də var ki, qapını tezcə buraxmır, gözləyir. Bu hərəkətlə sübut edir ki, insanlara qarşı laqeyd, biganə deyil, onlara qarşı şəfqətlidir, mərhəmətlidir. Onun bu hərəkəti özündən sonrakının yadına salır ki, özündən başqaları da var bu dünyada. Amma neynəmək olar, kiminin ürəyi günəşə açılan çiçəklər kimi yaxşılıqlara açıqdır, kiminin laqeydliyindən, qəlbinin soyuqluğundan yayın qızmarında belə üşüyürsən.

Nəzakət yoxdursa, qabalıq, kobudluq var. Kobudluq isə həm ailədə, həm cəmiyyətdə məhəbbəti çeynəyən xərçəngdir. Otuz iki diş və iki dodaq arasında qərar tutan dili həbsdə saxlaya bilmirik. Dilin kobud ifadə, yersiz deyimləri neçə-neçə qəlbi parçalayır, könülləri viran qoyur. Qəlbə vurulmuş söz oxunu çıxarmaq olarmı? Düşünmədən danışanlar, dili zəhərli olanlar hər yerdə cəhənnəm mühiti yaradırlar. Şeyx Nizami "Sirlər xəzinəsi"ndə yazır:

***Gözün qəlbə dikilsin, dilin ağla bağlansın,***
***Yoxsa gözün tökülsün, dilin dağla dağlansın.***

İnsan gərək düşünüb danışa, hər şeyə qəlbinin gözü ilə baxa. Qəlb gözü, bəsirət gözü açılmasa, fiziki gözlərdən nə fayda. Qəlb korluğu varsa, dünyanın, özünün mahiyyətini, haradan gəlib, harada olduğunu, hara gedəcəyini bilərsənmi?

Nəzakət düzlüklə, doğruluqla bərabər hər bir yazarın da qələmində cilvələnməlidir. Qəzetlərdə tənqidlə təhqirin sərhədləri itib. Qələm müqəddəsdir, o, "çirkab atıb, gor eşməməlidir" (B.Vahabzadə). Sözümüz varsa, ədəblə, nəzakətlə deyək, dilin büllur çeşməsini bulandırmayaq. Unutmayaq ki, **"ədəb ağlın surətidir"** (Həzrət Əli (ə.).

## DİNİMİZİN BUYRUQLARI ELMİN GÖZÜ İLƏ

Bismilləhir Rahmənir Rahim

Dinimizin buyruqlarına müasir zaman çərçivəsindən baxdıqda heyrətlənməmək olmur. Doğrudan da, elmin elə bir sahəsi yoxdur ki, islam nuru oraya işıq salmasın. Hikmət axtaranlar bu hikmət çeşməsindən faydalanır, ruhi yanğılarını söndürürlər.

Həzrəti-Rəsul (s.) demişdir: **"Qadın oturduğu yerdən durandan sonra o yer soyumamış heç bir kişi orada oturmasın"**. Bu mübarək kəlamda gizlənən incə mətləbi müasir fizikanın gözü ilə aydınlaşdırmağa cəhd edək. Bu elmin son kəşflərindən biri – torsion sahələrin aşkara çıxarılmasıdır. Torsion dalğaları elektromaqnit dalğalarından fərqli olaraq maneəyə rast gəldikdə zəifləmir, məkanın istənilən nöqtəsinə bir anda ötürülür. Biz uzaq məsafəyə fikrin ötürülməsini, ekstrasensin uzaq məsafədən xəstəni müalicə etməsini (məsələn, telefonla) az qala möcüzə he-

sab edir, hətta bəzi hallarda bunun mümkünlüyünü inkar edirik. (Onların əllə müalicə etmələrini də bir sıra təbabət nümayəndələri az qala süngüylə qarşılayırlar). Ekstrasens öz qabiliyyətindən istifadə edərək uzaq məsafəyə torsion dalğaları göndərib xəstənin biosahəsində dəyişiklik edir, bioenerjinin normal paylanmasını təmin edir. Bu isə orqanizmi sağlamlaşdırır.

Torsion sahənin əsas əlaməti fəzada öz surətini (kölgəsini) qoyması hesab olunur. İnsan oturduğu yerdən qalxandan sonra bu sahənin təsiri ilə onun yerində kölgəsi, fiziki dildə desək, fantomu qalır. Bu fantom – energetik iz itməmiş digər şəxsin orada oturması müxtəlif energetik izlərin üst-üstə düşməsinə səbəb olur. Kişi qadının yerində əyləşəndə onların fantomları, enerjiləri bir-birinə qarışır. Yad kişi enerjisi isə qadın namusu üçün xələldir. Ona görə də Peyğəmbərimiz (s.) kişilərə yer soyuyanadək - fantom (kölgə) itənədək gözləməyi məsləhət görür. Peyğəmbərimizin (s.) qadın namusunun beləcə ən yüksək səviyyədə qorunmasına çağırışı islam əxlaqının əzəmətinə parlaq sübutdur.

Əlbəttə, bugünkü həyatımızda, gur insan axınında yuxarıda deyilənlərə əməl etmək çox çətindir. Amma çox yaxşı olardı ki, hər kəs imkan dairəsində nəqliyyatda, eləcə də salonlarda öz həmcinsinin yerində əyləşməyə cəhd etsin (kişi kişinin, qadın qadının).

İstəkli oxucular, burada xalqımızın bir bayatısını xatırlamaq yerinə düşərdi:

***Əzizim baxdı yarım,***
***Bəxtimin taxtı yarım.***

***Üzündə göz izi var,***
***Sənə kim baxdı, yarım?!***

Hər bir baxış özündən sonra energetik iz qoyur. Baxış nə qədər iti, diqqətlidirsə, bu iz bir o qədər dərin olur. Şəhvətli, həris baxışın isə özünəməxsus energetik izi olur. Açıq-saçıq geyinən xanımlar qoy özləri düşünsünlər: say-sız-hesabsız kişi baxışlarını – energetik izlərini özünə cəlb etmək nə deməkdir? Onlar hətta öz həmcinslərinin də həsəd dolu, çox hallarda isə məzəmmət dolu baxışlarından yan keçə bilmirlər. Bu isə aşkarda edilən ağır günahlardan olmaqla bərabər, taleyə, sağlamlığa da zərbə vurmaq deməkdir.

## Çörəyi bıçaqla kəsməyin

Yemək qaydaları haqqında da islamın buyruqlarını bilmək vacibdir. Məsələn, təamı üç barmaqla götürüb yemək müstəhəb (savabı çox olan) əməllərdən hesab olunur. Bu gün çəngəl-bıçaq məişətimizə elə daxil olub ki, barmaqla yemək yeyənə təəccüblə baxırlar. Ruslarda belə bir məsəl var: “Bıçaqla yemə, qəzəbli olarsan”. Məsələ burasındadır ki, insanın ağız nahiyəsi enerjimizin sıx cəmləşdiyi sahədir. İti əşya, o cümlədən çəngəl-bıçaq öz sahəsi (hər əşyanın öz energetik sahəsi var – F.R.) ilə bu enerjini parçalayır, biosahəmizin energetik tamlığını zəiflədir. Bu isə enerji çatışmamazlığına, hirsə, qəzəbə gətirib çıxarır. Yeri gəlmişkən, deyək ki, çörəyi də bıçaqla kəsəndə çörəyin energetik tamlığını, bütövlüyünü – bərəkətini kəsirik, parçalayırıq. Ona görə də dinimizdə çörəyi bıçaqla kəsmək məkruhdur (bəyənilmir). Bax belə “mədəniləşdikcə”, adət-

lərimizə, xalq məişəti qaydalarına etinasızlıq etdikcə özümüzdən uzaqlaşırıq. Bu isə bilavasitə taleyimizə təsir edir.

Bioenergetika elminə görə, üç barmağı (baş, göstərici, orta) bir-birinə toxunacaq qədər yaxınlaşdıranda enerji şüası yaranır. Hər tikəni götürdükcə bu şüa ilə tikələri əməlli-başlı energetik süzgəcdən keçirir, həm də əlavə enerji ilə yükləyirik. Bu isə orqanizmimiz üçün çox faydalıdır. Burada "energetik süzgəc" sözünü təsadüfi işlətmədik. Xörək bir neçə məhsulun cəmindən hazırlandığına görə özündə bu məhsulların energetikalarını daşıyır. Hər məhsulun özünəməxsus energetik strukturu, biosahəsi var. Bundan başqa bitki yad biosahələrə də həssasdır. Onu becərənlərin, hətta satanların da enerjilərinin müəyyən zərrələri bitkinin biosahəsinə hopur. Bu bitkilərdən xörək bişirənin də hissləri – onun narahatçılığı, yaxud qəzəbi, kini də ondan yan keçmir. Beləliklə, məhsullar özündə xeyli energetik çirkab daşıyır. Su ilə yuyulma, qaynatma bu çirkabı xeyli azaltsa da, tam aradan qaldırmır. Üç barmaqla yemək məhz bu baxımdan çox faydalıdır.

Nemətlərin barmaqlarımıza hopan enerjisi (bərəkəti) müalicəvi təsirə də malikdir. Rəsuli-Əkrəm (s.) buyurub: **"Yeməkdən sonra əlinizi yuyub, onda qalan rütubətlə gözlərinizi məsh edin ki, göz ağrısından amanda olasınız"**. Yeməyi üç barmaqla yeyəndən sonra isti su ilə (sabunsuz) əlləri yuyub, yaş halda barmaqların ucuyla gözlərə çəkmək lazımdır. Bu, gözün nurunu artırmaq üçün gözəl vasitədir. Axı biz İlahi bərəkətdən faydalanırıq. Yeri gəlmişkən, qeyd edək ki, "Qədr" surəsini gündə 21 dəfə oxumaq da gözün nurunu artırır (İmam Cəfər Sadiq (ə.).

## İNANCIMIZ, ƏXLAQIMIZ

**Dünyada mistik şeylərdən daha gözəl heç nə yoxdur... (Eynşteyn)**

İstəkli oxucular! Artıq öz kökümüzə, adət-ənənələrimizə yeni gözlə baxmağa başlamışıq. Aydın dərk edirik ki, yalnız öz xalqının düşüncə tərzindən yoğrulan, öz köklərinin üstündə yüksələn dövlətlər zamanın sınağından çıxa biləcək. Xalq inancları, əlamət və nişanələri əsrlər boyu əxlaqi-mənəvi dünyamızda, praktik həyatımızda mühüm rol oynamış, bu günümüzə gəlib çatmışdır. Onlar xalq müdrikliyinin rəmzidir.

### Səfərə gedənin dalınca su atarlar

Su İlahinin qüdrət nişanəsidir. Möcüzə axtaran ibrət gözü ilə ona baxsın: nə rəngi, nə qoxusu, nə də dadı var. Su təkcə paklıq, saflıq rəmzi deyil, o həm də özündə böyük sirlər daşıyır. Su özünə uğuru, bolluğu çəkir, qara enerjini yuyur. Çində fen-şuy təliminə görə, binaların qabağında hovuz düzəldirlər ki, uğur gətirsin. Suyun yaddaşı var, şahidi olduğunu yadında saxlayır. Səfərə gedənin dalınca su səpmək həm ona uğur arzulamaqdır, həm bəzi həsəd çəkənlərin, qara qüvvələrin – şər ruhların, İblisin və ordusunun şərini uzaqlaşdırmaq deməkdir.

### Hədiyyəni başqasına verməzlər

Hədiyyə almaqdan gözəl nə ola bilər ki? Hədiyyə qəlbləri yaxınlaşdırır, incikliyi götürür. Hədisdə deyilir: **“Hədiyyə qəlblərdə olan kini-kidurəti aparır”**. Biz sə-

mimi qəlbdən hədiyyə alıb bağışlamaq qərarına gələndən onu verənə qədər işıqlı enerji ilə əməlli-başlı yükləyirik. Beləliklə, ruhi enerjimizin müəyyən hissəsini bu hədiyyə vasitəsilə vermiş oluruq. Hədiyyəni təqdim edərkən dediyimiz sözlər də gərək qəlb sevindirə. Məsələn, gül verəndə: həyatınız bu gül kimi gözəl və ətirli olsun; şirniyyat verəndə (xüsusən təzə evlənənlərə): qoy ailə həyatınız bu şirniyyat tək şirin olsun! Yaxud da qısaca – sizə şirinlik arzulayıram! – desək, yerinə düşər. Söz enerji – informasiya daşıdığına görə, bu təravətli sözlərin də işıqlı enerjisi hədiyyəyə hopacaq. Onu başqasına vermək isə könüllü şəkildə bu enerjidən imtina etmək deməkdir. (Hədiyyələrin əldən-ələ keçməsinin az şahidi olmururq). Hədiyyəni geri almaq da bir çox xalqlarda bəyənilməyən hərəkət hesab edilir. Hətta slavyanlarda belə fikir var ki, hədiyyəni geri alanın qoltuğundan yara çıxar.

### Sifət, qulaqlar yanırsa, haqqımızda pis danışırlar

Eh, neynəməli, hələ də çölünü bəzəyib, lakin batinini təmizləməyin qayğısına qalmayanlar az deyil. Söyüş söymək, qarasınca pis danışmaq, qeybət etmək (**“Qeybət cəhənnəm köpəklərinin hürməsidir”** – Həzrət Əli (ə.) və s. haram əməllər insan qəlbini kömürə döndərir. Yuxarıda qeyd etdiyimiz kimi, hər bir söz özünəməxsus enerji-informasiya yükünə malik olub uzaq məsafəni bir anda qət edir (dalğa tək yayılaraq). Bir insan haqqında xoş danışanda ona işıqlı enerji göndərdiyimiz kimi, əksinə etdikcə qara enerji göndərmiş oluruq. O isə mənfi energetik təsir kimi zahirimizdə büruzə verir: qulaqlar, xüsusən sifət alışıb ya-

nır. Pis təsir həm də qulaqların cingildəməsi ilə (sol) müşayiət olunur.

## Danışanda əl-qol atmazlar

Bu, hər şeydən əvvəl, əxlaqi baxımdan düzgün deyil, ədəb qaydalarını pozmaqdır. Əl-qol ataraq danışan insan çox intensiv şəkildə enerji şüalandırır və onu ətrafındakıların üzərinə atır. Əgər o, qəzəbli, narahat danışırsa, təbii ki, qulaq asanlara mənfi təsir edəcəkdir. Hər şey həddində gözəl olduğu kimi, əl-qol hərəkətləri də nitqi tamamlamağa, onu daha da qüvvətləndirməyə xidmət etməli, onu gözəlləşdirməlidir.

## Özünü çox tərifləmə, gözə gətirərsən

Başqasının gözdəyməsi haqqında az eşitməmişik. İnsanın öz-özünü gözə gətirməsi də mümkündür. “Tibbin atası” Hippokrat da hər iksinin mövcudluğunu təsdiq etmişdir. İbn Sina isə nəzərə münasibətini belə ifadə etmişdir: “Çox vaxt ruh başqa bədənə təsir edər, məsələn, pis gözlə təsir zamanı”. Şeyx Nizami gözdəyməyə dair çoxlu fikirlər söyləmiş, özünü gözəgətirmə barəsində belə yazmışdır:

***Pisdir öz gözünə gələrsə insan,***
***Uğrasın nəzərə bir başqasından.***

Yəni insanın öz gözündən nəzərə gəlməsi başqası tərəfindən nəzərə gəlməkdən daha pisdir. Məlum olub ki, xüsusən suda, güzgü qabağında özünü nəzərləmə halları ola bilir. Axı güzgü, su əksetdirici xüsusiyyətə malikdirlər. İnsan özünə çox diqqət yetirib, tərif etdikcə (fikirdə, sözdə) özünün zərərli şüaları suda, güzgüdə əks olunub biosahəyə

(bioenerji, aura) yönəlir və onda energetik "süzgəc" zədələndiyinə görə enerji tamlığımız pozulur, bu isə təsirini fiziki bədənə verir. Nəticə xoşagəlməz olur: xəstəlik, uğursuzluq, əhval-ruhiyyənin pozulması, həmişə narahatlıq, yorğunluq, əzginlik, həyat eşqinin öləziməsi. Bu bizə ibrət dərsidir ki, öz qabiliyyətimizə, uğurumuza, gücümüzə, gözəlliyimizə vurulub özümüzü mütləqləşdirməyək. Bütün bu nemətləri bizə bəxş edən o Mütləq Kamalı, Mütləq Gözəli öyək, ona şükür edək.

## Evin açarını stolun üstünə qoymaq olmaz

Yemək stolu daxili aləmimizdə yüksək dəyər kəsb etdiyinə görə onun üstündə nə varsa, bizim üçün dəyərini artırmış olur. Açar evi müdafiə və təminatlı həyat rəmzi olduğuna görə bizdə istər-istəməz maddilikdən asılılığı gücləndirir. Yenə qəlb Allahdan uzaqlaşır. Biz nəyə daha çox üstünlük veririksə, o da qəlbin aynasında əks olunur. Bu aynada nə əks olunursa, biz elə oyuq. O, bizim əsl simamızdır, batini simamızdır. Bax, buna görə də böyük arif Şeyx Rəcəbəli Xəyyat adamları bir çox hallarda öz həqiqi simalarında (ruhlarının səviyyəsinə uyğun) – it kimi, yabı kimi... görürmüş.

# İNANCIMIZ - MƏNƏVİ ÇIRAĞIMIZ

Bismilləhir Rahmənir Rahim

İndi elə bir zamanda yaşamaq qismətimizə düşüb ki, qəlblərimizin pəncərəsindən güclü dəyişikliklər küləyi əsməkdədir. Öz kökümüzə, adət-ənənəmizə yeni gözlə baxmağa başlamışıq. Aydın dərk edirik ki, yalnız və yalnız öz

xalqının düşüncə tərzindən yoğrulan, öz köklərinin üstündə yüksələn dövlətlər uzun zaman yaşaya biləcək.

Keçmişdə əcdadlarımız adət-ənənələrə, inanclara, əlamətlərə ciddi əməl edirdilər. Onlar təbiətin bir parçası kimi onunla harmoniyada, həmahəng yaşayırdılar. Dünya xalqları bu gün də nəsillərin imtahanından keçən xalq sınaqlarını yaşadır. Bizdə isə dünənədək ateizmin təsirinə düşən elm onları xalq uydurmaları, xalq təxəyyülünün məhsulu – mistika hesab edirdi. Əslində isə "mistikadan gözəl şey yoxdur". Bunu Eynşteyn deyib. Çünki mistika əqlin dərk etmədiyi şeyləri, ülvi aləmi qəlbin gözü ilə, iman gözü ilə görməkdir. Xalq inancları elmi-fəlsəfi həqiqətlərin yığcam, sərrast ifadəsidir. Ən böyük akademiyadır inanclar akademiyası! Əsrlər boyu əxlaqi-mənəvi çıraq, yol göstərən mayak olmuşdur inanclar. Xalq müdrikliyi, xalq hikmətindən aydın həqiqət nə ola bilər?! Bu hikmət İLAHİ HÖKMLƏRDƏN qaynaqlanmışdır. Bu gün də onun mənəviyyatımızın formalaşmasında mühüm rolu var.

İndi isə bəzi xalqların inanclarına nəzər yetirək. Rusiyada aşağıdakı əlamətlərə inanırdılar: "Bəbiri öldürən xeyir tapmaz", "Qarışqanı öldürsən, onunla kobud davransan, gözlərin irinləyər, bədənindən çiban çıxar". Qeyd edək ki, həzrət Məhəmməd Əleyhissalam da qarışqanı öldürməməyi buyurmuşdur (bayquş, şanapipik, bal arısı, qurbağa ilə bərabər) (Ə.Əhmədov. "Dürəfşan kəlamlar", səh.57). Digər əlamətlər: "Stol ətrafında oturanda ayaqlarını oynatma, şeytan boynuna minər", "hədiyyəni geri almazlar, yoxsa qoltuğunun altından yara çıxar".

Bu əxlaq dərsidir! Biz onda çox şey itirdik ki, xalq inancları təlimini tərbiyə sistemindən çıxartdıq. Onlarda

həm də mühüm tibbi əhəmiyyət daşıyan həqiqətlər gizlənmişdir. Məsələn, "Yavan çörək çox yeyənin üzünə dəmirov çıxar" (heç olmasa duzla yemək lazımdır - F.R.), "Ulduz sayanın əlinə ziyil düşər" və s.

## Sınıq (çat) qablarda xörək yeməzlər

Sınan qab həmişə xoşagəlməzlik, itki kimi yozulur (toyda sındırdığımız nəlbəki və boşqab istisnadır). Evdə şüşə qabların sınması və çatlaması halları az olmur. Çünki onlar evə yönələn qara enerjini – bədnəzəri, həsədi, qarğışı və s. özlərinə götürür. Bir də görürsən ki, büllur güldan şkafın üstündən qəflətən düşüb parça-parça oldu. Bizim sadəcə olaraq əşya hesab etdiyimiz evdəki "dostlarımız" energetik zərbələrə bax, beləcə cavab verir, bizi qoruyurlar (Evdə saxlanılan quşlar xüsusilə).

Mətləbdən uzaqlaşmayıb qeyd edək ki, haqqında danışdığımız inanc həzrət Məhəmməd Əleyhissalamın bizlərə tövsiyəsi ilə səsləşir: **"Sınıq, yaxud çat qablarda xörək yeməyin, su içməyin"**. Təkcə ona görə yox ki, onlar tamamilə sınıb xəsarət törədərlər. Məsələ ondadır ki, belə qabların ilkin elektromaqnit sahəsi pozulur. Tamlıq, bütövlük pozulduğuna görə elektromaqnit dalğaları öz rəqsini dəyişir, kəsik, parçalanmış olur. Çat yerlər həm də mikrobların daha çox toplaşdığı sahədir.

Bu mülahizələr baxımından ucu sınmış qələmlə yazmaq, dişləri sınmış daraqdan istifadə etmək dinimizdə ruzini və ömrü azaldan şeylər kimi dəyərləndirilmiş, onlardan uzaqlaşmaq buyrulmuşdur (Ə.Əhmədov. "İslam təlimi", səh.217).

Bilməliyik ki, sınıq, çatlayan hər şeydə energetik bütövlük pozulur, ondan istifadə insana zərər verir. Biz isə maddi qənaət edə-edə ömrümüzdən, ruzimizdən kəsirik. İtkimiz ilə qazancımızın fərqi göz qabağındadır. Evdə sınıq güzgülərdən istifadə etmək, xüsusilə, yolverilməzdir.

## Səfərə gedənin dalınca su səpərlər

Su ilə bağlı inanclarımız daha çoxdur. Su İlahinin qüdrət nişanəsidir. Möcüzə axtaran suya baxsın (ibrət gözü ilə). O, təkcə paklıq, saflıq rəmzi deyil, özündə böyük sirlər daşıyır. Su özünə uğuru, bolluğu çəkir, qara enerjini yuyur. Onun yaddaşı var, informasiyanı yadında saxlayır. Bu baxımdan Bakımızın Xəzərin qoynunda uyuması bizim üçün böyük nemətdir. Xəzər ana kimi qayğımızı çəkir, bizi qara enerjidən qoruyur, bizə uğur, bolluq gətirir. Şəhərimizin enerji-informasiya sahəsinin (aurasının) təmizliyi üçün o böyük rol oynayır. Xəzəryanı dövlətlər onun çirklənməməsi üçün əl-ələ verməlidirlər.

Çində fen-şuy təliminə görə binaların qabağında hovuz düzəldirlər ki, uğuru özünə çəksin. Biz isə hovuzumuzun qayğısına qala bilmirik. Bir halda ki, söz uğurdan düşdü, səfərə gedənin arxasınca su atmağın bu cəhətdən faydası böyükdür. Su həm bəzi həsəd çəkənlərin nəzərlərini, həm də qara qüvvələri – şər ruhları, şeytan şərini uzaqlaşdırır.

Qarışıq yuxunu suya danışarlar. Qarışıq, qorxulu yuxunu pıçıltı ilə, yaxud fikrən suya danışmaq (başqasına qətiyyən olmaz) heç də təsadüfi deyil. Yuxuda gördüklərimiz hələ obrazdır, informasiyadır, reallaşmayıb. Onu suya danışanda özünə çəkir, yuyub ararır. Beləliklə, reallaşma

ehtimalı xeyli azalır. Həmin gün səhər tezdən sədəqə vermək də məsləhətdir.

## Gecə su qabının ağzını açıq qoymazlar

Bu inanc həm gigiyenik, həm də mistik cəhətdən böyük məna kəsb edir. Ağzıaçıq qaba toz, bakteriya, yaxud həşərat girir. Hədislərdən birində deyildiyi kimi, ildə elə bir gün var ki, (bəzi variantlarda gecə) vəba enir, o, ağzıaçıq qablara girə bilər (vəba törədicilərinə işarədir – F.R.).

Gecə sübh azanınadək şər qüvvələrin fəaliyyəti güclənir. Onlar ağzıaçıq qablara asanlıqla daxil olub su, qida vasitəsilə insan bədəninə nüfuz edə bilərlər. Ümumiyyətlə, hər bir vaxt bütün qabların ağzı bağlı olmalıdır. Bununla bərabər, şərdən qorunmağın asan bir yolu var: hər an “Bismillah” qalasına sığınmaq!

Xalq hikməti elə bir çeşmədir ki, onun suyu heç vaxt tükənməz. Bu su dumdurudur, şirindir. Xalq hikməti ağacından dərilən SÖZ adlı meyvələrin ətri də, dadı da gözəldir. Gərək arayaq, axtaraq, unudulmuşları yada salaq, mənasına varaq xalqın dürlü kəlamlarının. Bu, kökə enməkdir. Kökə endikcə ucalacağıq.

## Pişik əl-üzünü yuyanda qonaq gələr

Həyatımızda biz bunun dəfələrlə şahidi olmuşuq. Pişik çox hissiyatlıdır. Görünür ki, qonaq (qonaqlar) ev və ya ev sahibi haqqında düşünəndə həmin evin, ev sahiblərinin energetikası ilə bağlı olan pişik bu fikir dalğalarını tutur. O, əl-üzünü yumaqla həm özü təmizlənir, həm də ev sahibinə qonağın gəlişi haqqında xəbərdarlıq edir. Bu hərəkət

həm də qonağın mübarək gəlişi üçün yol açmaq deməkdir. O çaşmasın, mənzilə düz yetişə bilsin.

## Stolun küncündə oturmazlar

Hər hansı bir məclisdə biz bu xəbərdarlığı tez-tez eşitsək də, mənasına varmırıq, hətta bəzi evlilər məhz küncdə nümayişkaranə surətdə oturub “daha bizim nədən qorxumuz var?” – deyirlər. Kosmik qanunlara uyğun fəaliyyət göstərməli olan bizlər unutmamalıyıq ki, xalq inanclarına xor baxmaq olmaz. Belə ki, stolun iti küncləri mənfi enerjinin toplandığı yerlərdir. Təbii ki, bu enerji orada oturana yönəlir, onun aurasına (bioenerji sahəsinə) zərbə vurur. Bu isə vaxtaşırı təkrarlanarsa, sağlamlıqla bağlı müəyyən problemlər meydana çıxa bilər. Onu da unutmamalıyıq ki, səhv hərəkətlərimiz gec-tez taleyimizə də təsir edir. Bu baxımdan evdə dairəvi stollardan istifadə etmək daha yaxşı olardı. Çünki bu halda müsbət və mənfi enerji vahid sel kimi qovuşur, zərər neytrallaşdırılaraq söndürülür. Bununla da harmoniya yaranır. Dairəvi masa ətrafında əks mövqedə olanların da fikir mübadiləsi uğurlu alınır. Ən barışmaz fikirdə olanların üzbəüz, eyni fikirdə olanların isə yanaşı əyləşmələri məsləhətdir. Yeri gəlmişkən, qeyd edək ki, evin künclərində daha çox qara enerji toplanır. Künclərdə şam yandırmaq, dua oxunmuş su çiləməklə otağın enerji tarazlığını bərpa etmək mümkündür. Hər cür dava-dalaşdan, söz-söhbətdən, nifrət, qəzəb dolu fikirlərdən, duyğulardan yaxa qurtarsaq, həm daxilimizdə, həm də zahirimizdə sağlam enerji mühiti yarada bilərik. Çirkli qəlblər ətrafa çirkabdan başqa nə ata bilər ki?

## Yatanı qəflətən oyatmazlar

Həzrət Məhəmməd (ə.) buyurmuşdur: **“Yuxu ölümün qardaşıdır”**. Əslində, yuxu ölümün dostluq gəlişidir. İnsan yatanda onun ruhu göylərə baş vurur, digər aləmlərdən xəbər gətirir, digər ruhlarla görüşür. Yuxugörmə ruhun varlığının sübutudur, Allahın bizlərə dəlilidir. Yuxu sadəcə beynin dincəlməsi, orqanizmin istirahəti üçün deyil. Belə olsaydı, ömrümüzün təxminən üçdə birini yuxuda keçirməzdik. Bunu bizə Yaradan da rəva bilməzdi. Yuxuda ruhun gündüzündən fərqli olan başqa cür fəaliyyəti həyata keçir. Biz yuxuda ruhi dərs alırıq. Yatan adamı, xüsusən də uşaqları ehtiyatla, tədricən oyatmaq lazımdır ki, dolaşan ruh bədənə qayıtmaqda həddən artıq tələsməsin. Xalq arasında belə deyərlər: “Yatanın ruhu dolaşır, gəlib onu tapmaz”. Əks tədqirdə qorxma, səksənmə və s. kimi hallarla üzləşməli oluruq.

## Astanada görüşməzlər

Astana ilə bağlı əlamətlər də az deyil. Astana evi xarici aləmdən ayıran sərhəd – xüsusi bir yerdir. Astanada iki yol kəsişir: evə gətirən və evdən aparan. Hər ikisi astanada energetik mübadilədədir. Astanada mistik bir yer kimi magik əməliyyatlar həyata keçirilir. Bəzi mistik varlıqlar astanada, daha doğrusu, onun altında qərar tuta bilərlər. Bu müşahidələrə görə, həmin yerdə görüşmək, vidalaşmaq olmaz. Şər qüvvələr hücum etməsin – deyə, qədimdə tacirlər də astanada durmazdılar, həm də bu əlamətə inanır-

dılar ki, orada oturmaq alıcıları uzaqlaşdırır (pilləkənlərdə də oturmaq bu baxımdan düzgün deyil). Hər hansı otağa girərkən astananı ayaqlamaq olmaz. Dinimizin buyruqlarında göstərildiyi kimi, evə girərkən birinci dəfə sağ ayağı içəri atmaq lazımdır (astanaya toxunmadan). Evdən çıxanda isə sol ayaqla çıxmaq məsləhət görülür. Məscidə girəndə də sağ ayaqla girib, sol ayaqla çıxmalıyıq. Ayaqyoluna isə sol ayaqla girib, sağla çıxmaq lazımdır.

## Pay gələn qabı boş qaytarmazlar

Hər bir əşyadan istifadə etdiyimiz zaman biosahə (energetik sahəmiz) onda energetik iz qoyur. Bu iz qabı boş qaytardıqda qab sahibinin biosahəsinə mənfi təsir edə bilər. Qaba pay qoyanda bu enerji qalığı neytrallaşır, zərəri itir. Başqasının qabından istifadə həm də qab sahibinin müəyyən enerjisindən faydalanmaqdır (Ümumiyyətlə, təmasda olduğumuz hər bir əşya ilə bizim aramızda enerji əlaqəsi var, onlar bizim enerjimizi daşıyır). Madam ki, bir kəsin payından istifadə etməklə həm də onun enerjisindən faydalanırıq, onda onun əvəzində biz də nəsə verməliyik. Gərək qabı boş qaytarmayaq ki, öz qabımız da boş qalmasın. Hə qədər səxavətlə (israfçılıqla yox) verəriksə, bir o qədər artıqlamasıyla əvəzi gələr.

İstəkli oxucular! Pay verək, hədiyyə verək, sevindirək könülləri. Könülləri ziyarət Kəbəni ziyarətdir.

## ANA BƏTNİNDƏ TƏRBİYƏYƏ DAİR

Uşaqlar İlahinin qiymətli töhfəsidir. Onların tərbiyəsinə görə valideynlərin, xüsusən ananın üzərinə böyük məsuliyyət düşür. Yerində deyilmişdir: **“Yaxşı bir ana yüz ustada və müəllimə dəyər”**. Tərbiyənin təməlini ana qoyur, mənəvi rəhbər o olur. Ana uşaq qəlbində məhəbbət toxumu da səpə bilər, şər toxumu da. Beləliklə, cəmiyyətin əxlaqi təməlinin yaradıcısı anadır. Həzrət Məhəmməd (ə.) buyurmuşdur: **“Cənnət anaların ayaqları altındadır”**. Bu kəlamın bir mənası budur ki, cənnəti qazanmaq anaların razılığındadır. Digər mənası isə belədir ki, əməlisaleh övladlar tərbiyə edən ana o qədər ülvi, uca məqamdadır ki, Cənnət onun ayaqları altındadır.

Tarixdə elə qadın tərbiyəçilər olub ki, cəmiyyət üçün insan yox, vəhşi heyvan yetişdirib. Məsələn, Roma hökmdarı Kaliqulaya süd verən qadın o dərəcədə rəzil imiş ki, ona süd verərkən döşünə qan sürtürmüş. Kaliqula da böyüyəndə insan qanına həris olub. İnsan başı kəsməkdən, onun qanını içməkdən ləzzət alan bu vəhşi arzulayırmış ki, bütün adamların bircə boynu olsaydı, onu kəsib atardı. Çox təəssüf ki, Kaliqula qaniçənliyini S.Vurğun Qacar şaha aid etmişdir:

***Bir boynu olsaydı bəşəriyyətin,***
***Onu bu qılıncla vurardım yəqin.***

Ana bətnində tərbiyə məsələsi də Kaliqula timsalında göründüyü kimi, böyük əhəmiyyət kəsb edir. Biz hər şey-

dən əvvəl insanın mənşəyi ilə bağlı materialist düşüncələrdən əl çəkməliyik ki, onun mahiyyətini düzgün anlayaq. İnsan ruhi varlıqdır. Rəbbimizin buyruğu ilə ruhlar aləmindən ayrılan ruh ana bətnində gələcək körpənin bədəninə keçir (hamiləliyin 4-cü ayı başa çatdıqda). Bu baxımdan körpə dünyası sirlidir. Ananın hamiləlik zamanı keçirdiyi psixoloji, ruhi-mənəvi hallar körpənin ruhi vəziyyətinə öz təsirini göstərir. Bir ana belə xatırlayır: "Hamiləliyin 2-ci ayından başlayaraq "Баю-баюшки-баю, жил солдатик на краю..." mahnısını oxuyurdum. Ancaq körpə dünyaya gələn gündən ərim onu oxumağı qadağan etdi. Bir az böyüyəndən sonra uşağım dedi: "Ana, oxu da o mahnını" ("Баю..."). Dedim: "Haradan bilirsən bunu, axı mən sənə heç vaxt oxumamışam". O, nə desə yaxşıdır: "Mən onu eşidirdim, hələ burada olmayanda..." ("Taynaya vlast", 1999, № 9).

Göründüyü kimi, ana bətnində döl görür, eşidir, duyur, bilir. Onun bu dövrdə qulaq asdığı ədəbi-bədii, incəsənət əsərləri ruhunu əzizləyir, yaddaşında iz qoyur. Təcrübə ilə sübut olunub ki, döl təkcə musiqi eşitməyə yox, musiqi həvəsini, meylini göstərməyə də qabildir. İngiltərədə Nottingem Universitetinin alimləri qeyri-adi təcrübə keçiriblər (hamilə qadınların iştirakı ilə). Hər on beş saniyədən bir musiqi əsərindən parçalar səsləndirilib və dölün beyin fəallığının güclənməsini və zəifləməsini ultrasəs skaner qeydə alıb. Məlum olub ki, musiqidən asılı olaraq dölün də əhvalı dəyişir. Sən demə, onun zövqünü oxşamaq o qədər də asan deyilmiş ("Orakul", 1999, №11).

Beləliklə, hamilə qadınlar haylı-küylü, yorucu, qəmli musiqidən uzaq olmalıdırlar. Ailədə qanqaraldıcı mübahi-

sə, dava-dalaşın izi xüsusən ağır olur. Ana nə qədər qəzəblənir, həyəcanlanır, qorxu keçirirsə, körpənin şüuraltı dünyasına hopan hər cür mənfi psixoloji hallar sonralar özünü göstərir. Hətta gündüz belə qorxu hissi keçirən uşaqlara az rast gəlmirik. Bu kimi hallar, əsasən, hamiləlik zamanı ananın keçirdiyi möhkəm qorxu ilə bağlı olur. Hər cür narahatlıq, qorxu hissindən uzaq olmaq istəyən qadınlar böyük çex pedaqoqu Y.A.Komenskinin dediyi kimi, hamiləlik dövründə (ondan qabaq və sonra da) Yaradana səmimi şəkildə dua etməlidirlər ki, gələcək körpə pak olsun.

Ailə müqəddəs ocaqdır. Bu müqəddəsliyə xəyanət olsa, onun bərəkətini aparır. Ta qədimdən ailəyə sədaqət, onun namusunu uca tutmaq öyünc yerimiz olub. Ailə bütöv enerji strukturuna malikdir, onun üzvləri energetik cəhətdən birdilər. Körpə gözləyən valideynlər pak həyat tərzi keçirməlidirlər ki, bu həyat tərzinin öz nübarlarına böyük təsiri var. Firdovsi "Şahnamə"də yazmışdır:

***Valideynlər olsalar pak əgər***
***Verər onların nəsli şirin bəhər.***

Dədə Ələsgərin paklığa, halallığa çağırışı hər birimiz üçün örnəkdir:

***Nütfədən pak olan, loxmadan halal,***
***Mərifət elminə nabələd olmaz.***

**"Mərifət Allahı bütün sifətləri ilə tanımaq, Ondan qeyri bütün şeylərə "əlvida" deyib yalnız Onun zikri və ibadəti ilə məşğul olmaqla Ona yaxın olmaq, Onun eşq atəşində yanıb Ona qovuşmaq deməkdir"**[*]. Mərifət əhli

[*] İmam Cəfər Sadiq (ə.) "Şəriət çırağı. B., 1997, səh.109

(arif) o kəs ola bilər ki, o, nütfədən pak, loxmadan halaldır. Nütfədən pak olmayan (zinadan – qeyri-qanuni əlaqədən doğulan, habelə nütfəsində Şeytan şərik olan (nütfəsi qarışan) birisi necə hal əhli ola bilər? Halal qazanc, halal loxma yeməyən, onu övladına da yedirənin bu övladdan umacağı mərifət ola bilərmi? Əsla yox! Allah pakdır, pakları sevir. Paklardan törəyən də pak olar, kəramət yiyəsi olar, arif olar. Haram qida ana bətnini, qəlbini zülmətə döndərir, ruhunu qaraldır. Onun övlada təsiri necə olacaq ki? Seyid Əmir Kyulyal kimi böyük islam aliminin (o, XIV əsrdə Buxarada yaşayıb) anası görün nə deyib: "Mən ona (Kyulyala – F.R.) hamilə olarkən şübhəli bir şey yeyəndə o dəqiqə mədə ağrılarım başlayardı, yediyimi qusmamış ağrı sakitləşməzdi" (Şübhəli yemək dedikdə haram qida nəzərdə tutulur). Belə paklıq, duruluq da belə böyük alim yetişdirər. İslamda qadına hamiləlik zamanı daha çox məsləhət bilinən qidalar bunlardır: heyva, nar, əncir, üzüm, alma, xurma və s. Bunlar lətif qidalardır, körpənin əqlinə, əxlaqına gözəl təsir edir. **Həzrət Məhəmməd (ə.) buyurub: "Hamilə qadınlarınıza süd içirdin, çünki o, uşağın ağlını artırır.", yaxud "Qadına uşağı dünyaya gətirəcəyi ayda xurma yedirdin, çünki övladı pak və həlim xasiyyətli olar"**. Müdriklər demişkən: yediyin qida nəsə, sən də osan. Haram qida və içkidən (donuz əti, spirtli içki – araq, pivə, şampan, konyak və s.) söhbət gedə bilməz. Haram qida, içki bətində dölü də haramla qidalandırmaq deməkdir. Bu isə həm Yaradan qarşısında, həm cəmiyyət qarşısında, həm də körpənin özü qarşısında bağışlanılmaz günahdır.

İnsanın mənəvi dünyasının, kamal dünyasının əsası ana bətnində qoyulur. Ana bətnində tərbiyə məsələlərinin

geniş planda tədqiqi xeyirxah, nəcib insanlardan ibarət ruhani cəmiyyətin yaradılmasında mühüm addımdır.

## PEDAQOGİKA VƏ NUMEROLOGİYA

İndi elə bir zaman kəsiyində yaşamaq qismətimizə düşüb ki, ruhi-mənəvi biliyimizin sərhədlərini genişləndirmək, şeylərin həqiqi mahiyyətini öyrənməyə cəhd etmək üçün qarşımızda geniş imkanlar açılıb. Dünənədək öyrənilməsi qadağan olmuş astrologiya, numerologiya, parapsixologiya və s. kimi elmlər bu gün özünüdərkdə mühüm rol oynamağa başlayıb. Bu elmlər xüsusən uşaqların təbiətini-qabiliyyətlərini, xarakterinin görünməyən tərəflərini, həyat məqsədlərini öyrənməkdə əsl köməkçilərimizdir.

Dərsliklərdə haqqında məlumat verilən Pifaqorun rəqəmlər nəzəriyyəsi (numerologiya) sadəcə rəqəmlər haqqında elm deyil, həyat və insani dəyərlərin dinamikası haqqında təlimdir; ali, yüksək reallığa, ruhi aləmə açılan bir pəncərədir. Pifaqor ərəb, druid, finikiyalı, misirlilərin riyazi sistemlərini insan təbiəti haqqında elmlərlə birləşdirib indiki qərb numerologiya elminin əsaslarını yaratmışdır (Fəxrlə onu da qeyd edək ki, Demokrit kimi Pifaqor da uzun müddət Midiyada elmi-fəlsəfi sirləri öyrənmişdir).

İnkaredilməz faktdır ki, Böyük Yaradan kainatda nə yaratmışdırsa, dəqiq nizama, riyazi dəqiqliyə, gizli qaydaya tabedir. Belə rəqəm dəqiqliyi gündəlik həyatımızda, şəxsi taleyimizdə özünü göstərir. Pifaqora görə, hər bir rəqəm özünəməxsus xarakteristikaya və vibrasiyaya malikdir (bəzilərində güclü, bəzilərində zəif). Belə ki vibrasiya cəhətdən tək rəqəmlər cüt rəqəmlərdən daha güclüdürlər. Onları cüt rəqəmlərlə topladıqda cavab həmişə tək rəqəm olur. Məsələn: 5+4=9 və ya 7+6=13

Sadə misallarla rəqəmlərin insan həyatında oynadığı rola nəzər yetirək: 28 avqust 1828-ci ildə doğulan L.Tolstoy belə hesab edirdi ki, 28 rəqəmi onun taleyində mühüm rol oynayır. Tolstoyun oğlu da bu tarixdə doğulub. Yazıçı məhz ayın 28-də (oktyabrın) Yasnaya Polyanadakı evini tərk edib (ölümü ərəfəsində). Əlbəttə, belə misallar kifayət qədərdir. Böyük alman psixoloqu Yunq deyib: "Hansısa konkret gün və saatda doğulan, ya meydana gələn hər şey özündə bu zamanın möhürünü daşıyır". Bu baxımdan insanın doğum gününü bilməklə onun haqqında proqnoz vermək olar (sadə riyazi əməliyyat aparmaqla).

Məsələn, 12 noyabr 1940-cı ildə doğulan şəxs üçün hesablamanı bu qaydada aparırıq:

1) Hər bir ədədin rəqəmləri cəmini ayrılıqda hesablayırıq: 12.11.1940 (noyabr 11-ci aydır)

1+2=3; 1+1=2; 1+9+4+0=14=1+4=5

2) Alınan nəticələri toplayırıq:

3+2+5=10=1+0=1

Bu alınan rəqəm həmin şəxsin numeroloji və ya həyat yolu rəqəmi hesab olunur. Çalışmaq lazımdır ki, hər bir nəticə ən böyük elementar rəqəmdən böyük olmasın (9-dan). Yuxarıda biz buna görə 14-ün və 10-nun rəqəmlər cəmini toplamalı olduq (1+4=5; 1+0=1).

Psixoloji cəhətdən insanların dörd əsas tipi fərqləndirilir: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Numerologiyada isə elementar rəqəmlərin sayına uyğun olaraq doqquz əsas insan tipindən söhbət açılır. Əlbəttə, nəzərdən qaçırmamalıyıq ki, insan çox mürəkkəb, ziddyyətli, nadir varlıq olub, özündə böyük sirlər daşıyır. Həzrət Əli (ə.) buyurmuşdur: "İnsan! Sən özünü xırda bir nöqtə hesab etmə.

Səndə böyük bir aləm yerləşir". Hər bir insan öz ruhuna uyğun təkrarolunmaz bir fərdiliyə malikdir. Numerologiyanın da vəzifəsi insan şəxsiyyətinin üzündən sirlər pərdəsini tamam götürmək deyil, sadəcə olaraq onu daha yaxşı tanımaqda bir açardır.

İndi isə numeroloji (həyat yolu) rəqəmlərinin insanlarda formalaşdırdığı xarakterik xüsusiyyətləri qeyd edək:

1) iradə, müstəqillik, liderlik, güc, təşkilatçılıq, eqoizmə meyillik;

2) əməkdaşlıq, həyatsevərlik, həssaslıq, takt, səbrlilik, diplomatiklik;

3) nikbinlik, həyatsevərlik, fəallıq, yaradıcılıq, səxavətlilik;

4) sistemlilik, dəqiqlik, məsuliyyət, praktiklik, etibarlılıq;

5) yüksək əqli fəallıq, tələskənlik, ünsiyyətə meyillik, çeviklik, yaradıcılıq;

6) məlahətlilik, diplomatiklik, tarazlıq, artistlik, qayğıkeşlik;

7) intuisiya, ruhi-mənəvi axtarışlara, musiqiyə, tənhalığa meyl, həssaslıq;

8) təşkilatçılıq, praktiklik, maddi məsələlərdə fəallıq, məqsədyönlülük, dözümlülük;

9) orijinallıq, idealizm, insanpərvərlik, emosonallıq, himayəçilik.

Beləliklə, uşaqların həyat yolu rəqəmlərini yuxarıda hesabladığımız qaydada hesablayaraq onların əsas xarakterik cizgilərini müəyyənləşdirə bilərik.

Numeroloji (həyat yolu) rəqəmi **"1"**olan uşaqlar hələ erkən dövrdən müstəqillik nümayiş etdirir, öz yaşıdlarıyla

yox, özlərindən yaşlılarla oynamağa üstünlük verirlər. Öz yaşıdlarıyla ünsiyyətdə olanda isə çalışırlar ki, onları özlərinə tabe etsinlər. Bu isə çox vaxt mübahisələr yaradır. Onları elə tərbiyə etmək lazımdır ki, özlərini təsdiq etmək üçün başqalarının qürurunu tapdalamasınlar. Məktəbdə uğursuzluğa görə onları hədsiz danlamaq olmaz. Onlar öz həyat yollarını özləri axtarır və tapırlar. Peşə seçərkən onların arzusu mütləq nəzərə alınmalıdır.

**"2"**rəqəmlilər təbiətən çox zərif, həssas, qayğıkeş olurlar. Bununla belə, müxtəlif hay-küylü oyunlarla məşğul olan həmyaşıdlarından öz ciddilikləri ilə fərqlənir, bəzən öz dünyalarına qapılırlar. Hər bir ehtiyatsız deyilmiş sözü və ya acıqlı baxışı qəlblərinə  salır, uzun müddət yaddan çıxara bilmirlər. Özləri isə çalışırlar ki, ətrafdakılarda daha çox fayda versinlər, onlar arasında dostluq, mehribanlıq yaratsınlar (gələcəyin diplomatları). Bu tip uşaqlardan oğlanlar analarını, qızlar isə atalarını daha çox sevirlər. Digər valideyn bunu onun üzünə vurmamalı, öz qayğısını ondan əsirgəməməlidir.

**"3"** rəqəmlilər valideyn və yaşıdlarından daim onlara xüsusi qayğı göstərməyi tələb edirlər. Çox hay-küylü, şən, hazırcavab, həm də tez hirslənib özlərindən çıxan olmaqla bərabər, həmişə diqqət mərkəzində olmağa can atırlar. Elə ki, əhvalları pozuldu, tənhalıqda sükut edir, duman ayazıyandan sonra yeni bir zarafat, gülüşlə – "sığınacaq"dan çıxırlar. İstedadlı olsalar da intizama tabe olmağa çətinlik çəkirlər. Onları intizama öyrəşdirmək üçün xüsusi səy tələb olunur. Onlar ata ocağını, adətən, tez tərk etməyə meyilli olduqlarına görə valideynlər bunu nəzərə almalıdırlar.

**“4”** rəqəmlilər hələ erkən yaşlarından özlərinə qarşı inam, ümid doğururlar. Onlar praktiki işlərə həvəslə girişir, böyüklərin tapşırıqlarını səylə yerinə yetirirlər. Onlar yaşıdlarıyla oynayanda oyuna çox ciddi yanaşır, ipə-sapa yatmayanlarla da ciddi davranırlar. Hər şeyi öz əlləri ilə yerinə yetirməyi sevən bu balaca ustalara şərait yaratmaq, onları daha da həvəsləndirmək vacindir. Təhsildə intizama isə özləri əməl edəcək, məcburiyyətə ehtiyac qalmayacaq. Ancaq çalışmaq lazımdır ki, onlarda özünü göstərən inadkarlıq, sərtlik, maddiyatçılıq həddi keçməsin.

**“5”** rəqəmlilər çox hazırcavab, ünsiyyətə meyillidirlər. Onların maraq dairələri çox geniş olduğuna görə ətrafdakılara saysız suallar yağdırırlar. Hər şeyi öyrənməyə çalışırlar. Fəal, hay-küylü, macəraçı olan “5”-lər məktəbdə, evdə onları sıxan intizama, sərt qaydalara çətin uyğunlaşırlar. Həmişə sərbəstliyə can atırlar. Onlara həqiqi sərbəstliyin, azadlığın nə demək olduğunu başa salmaq çox vacibdir. Bu gələcəkdə ətrafdakılarla konfliktdən qaçmağa kömək edər.

**“6”** rəqəmlilər məhəbbətə, qayğıya həddən artıq möhtacdırlar. Bu onlara emosional tarazlıq gətirir. Buna görə də məktəbdə, xüsusən ailədə hökm sürən ab-havanın onların mənəvi dünyasına böyük təsiri vardır. Onlar üçün sərt tərbiyə ölçüləri yox, səbrli, təmkinli izahat işi daha çox yarayır. Xeyirxah, qayğıkeş, hamıya köməyə can atan belə uşaqlara səylə öyrətmək lazımdır ki, uğur, həqiqi səadət öz-özünə gəlməz, bunu gərək zəhmətlə qazanasan.

**“7”** rəqəmlilər başqalarına mərhəmətli olub, yumşaq xarakterli, gözəl davranış ədalarına malikdirlər. Bununla belə özünəməxsus dünyaları olan belə uşaqlar çox vaxt

xəyalpərvərliyə, tənhalığa meyl edirlər. Onlar başqalarının hiss etmədiklərini hiss edir, görmədiklərini görürlər. Ruhi-mənəvi sahələrə, okkultik elmlərə – astrologiyaya, parapsixologiyaya və s. dərin maraq göstərirlər. Onlardan gözəl musiqiçilər yetişir. Bununla bərabər, daxili gərginlik, narahatlıq, qorxu hissləri onları tez-tez bürüyür. Onların tərbiyəsi ilə məşğul olarkən özlərinə inam hissinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

**“8”** rəqəmlilər öz qabiliyyətlərindən asılı olmayaraq məktəbdə özlərini yaxşı hiss edirlər, çünki orada qayda-qanun hökm sürür. İntizama meyl, yüksək dözüm, məsuliyyət onlara xas olan keyfiyyətlərdir. Belə uşaqlar böyüyəndə əsasən maddi məsələlərə meyl edir, maliyyə əməliyyatlarında uğur qazanırlar. Onları elə istiqamətləndirmək lazımdır ki, maddiyyatçılığa güclü meyl gələcəkdə acgözlüyə çevrilməsin. Onlarda tərslik, özündən razılıq kimi keyfiyyətlərin cilalanması istiqamətində də iş aparılmalıdır.

**“9”** rəqəmlilər özlərinə həddən artıq qayğı tələb edir, istədiklərini vermədikdə bunu az qala fəlakət hesab edirlər. Bununla belə, nikbin olub, yaşıdlarına, ümumiyyətlə, insanlara geniş ürəklə yanaşırlar. Onların içərisindən çox vaxt humanistlər, idealist şəxsiyyətlər yetişir. Məktəbdə təhsili qəlblərinə elə yaxın hesab edirlər ki, tədris prosesində onların tez-tez göz yaşı axıtmaları istisna deyil (hər hansı bir uğursuzluqdan). Bu isə onlara xüsusi nəvaziş və qayğıyla yanaşmağı tələb edir.

Uşaqların təbiətini daha dərindən öyrənmək üçün numerologiya ilə yanaşı onların doğum saatını dəqiqəsinədək

nəzərə alan astrologiya elminin də nailiyyətlərindən istifadə etmək vacibdir. Bu isə ayrıca söhbətin mövzusudur.

## MÜTƏFƏKKİRLƏRİN BƏSİRƏTİ

Əgər sovet dövründə desəydilər ki, filankəs özü də bilmədən heç kimin ağlına gəlməyən şeydən yazır, o “psixi xəstə” diaqnozundan çətin ki, canını qurtarardı. S.Semyonovun “Güzgü arxasından göndərişlər” məqaləsində (“Nezrimaya sila”, №5, 2001-ci il) Amerika yazıçısı Morqan Robertson haqqında maraqlı məlumat diqqətimi cəlb etdi. Sən demə, bu yazıçı ömrünün çoxunu dənizçi olub. Kəmsavadlı olduğuna görə yazı-pozuyla məşğul olmurmuş. Və birdən... yazmağa başlayıb. Bəli, bəli! O, trans vəziyyətində düşünmədən bir-birinin ardınca sel kimi gələn fikirləri qələmə alırmış. Ən təəccüblüsü odur ki, Morqan 1898-ci çap etdirdiyi “Titanın məhvi”hekayəsində aysberqlə toqquşan gözəl, nəhəng laynerin üç min sərnişininin faciəsindən yazmışdı. Doğrudan da, “Titanik” gəmisinin, aysberqlə toqquşaraq okean sularına qərq olması tarixi indi hamıya bəllidir: 1912-ci il! Hadisəni 14 il əvvəl görüb yazmaq? Özü də bütün detalları ilə! Bu nədir? İzaholunmaz reallıq, yoxsa qeyri-real görünən reallıq?

Əslində, bizim heç bir şeyin mahiyyətindən xəbərimiz yoxdur, biliyimiz əqlimizin məhdudluğundan qüsurludur, hətta bir çox hallarda səhvdir. Böyük Sokrat nahaq yerə deməmişdi: **“Bir şeyi bilirəm ki, heç nə bilmirəm”**. İndi müasir elmdə trans (ilham) vəziyyətində informasiya alıb yazmaq “psixoqrafiya “adlanır. Artıq qabaqcıl alimlər

tərəfindən etiraf olunan informasiyanın saxlanması qanununa görə, heç bir hadisə onun haqqında əvvəlcədən informasiya olmamış baş verə bilməz. Deməli, Morqan kimilər özləri də bilmədən (əlbəttə, Rəbbimizin icazəsi ilə) məhz informasiya kanalına qoşulur və bu məlumatları qələmə alırlar. Ümumiyyətlə, Rəbbimizin sevimli bəndələrinin – böyük fikir sahiblərinin qəlbləri həqiqəti, sirləri əks etdirən aynadır. Bu mütəffəkirlər öz dövrlərindən çox-çox qabağa – zamanın dumanlı pərdəsinin arxasına boylanmış, həm fərdi, həm də qlobal proqnozlar vermişlər.

## Konfutsi

Eramızdan əvvəl VI əsrdə yaşamış görkəmli Çin filosofunun "Ay çinq" ("Gələcəyi söyləmə") kitabı da yadigar qalıb. Bu kitab qlobal proqnozlara həsr olunub. Konfutsi İsa peyğəmbərin (ə.) dünyaya gələcəyini 500 il əvvəlcədən deyib. Amerikanın kəşf ili də, Niksonun 1972-ci ildə Çinə səfər edəcəyi də bu böyük bəsirət sahibinin nəzərindən qaçmayıb.

## Əbu Reyhan Biruni

Biruninin müxtəlif elm sahələrinə dair parlaq əsərləri heyrət doğurmaya bilməz. Təkcə onu demək kifayətdir ki, onun "Ulduzlar haqqında elm" əsərində 530 sual-cavabdan 184-ü astrologiyanın payına düşür. O, gözəl proqnoz verirmiş. XII əsr tarixçisi Nizami Aruzi Səmərqəndinin yazdığına görə, Sultan Mahmud Qəznəvi ilə Biruni arasında olan bir məsələ xüsusi maraq doğurur. Sultan bir gün sarayın dördqapılı pavilyonunda Birunidən soruşur: "Mən bu qapıların hansından çıxacağam? Öz qərarını vərəqdə yaz və

mənim xalçamın altına qoy”. Biruni astrolyabiyanı (astronomik cihaz) gətirməyi xahiş edir, onunla müşahidə aparır. Sonra qoroskop çəkir və buna əsasən fikrini yazıb xalçanın altına qoyur. Sultan əmr edir ki, ustaları çağırsınlar və şərq istiqamətindəki divarda yeni bir qapı – beşinci qapı açsınlar. Sultan məhz bu qapıdan çıxır. Bəs Biruni nə yazsa yaxşıdır? “Bu dörd qapının heç birindən çıxmayacaq. Şərq tərəfdə yeni bir qapı açdırıb oradan çıxacaq”.

## Ömər Xəyyam

O, təkcə qüdrətli şair deyil, həm də görkəmli riyaziyyatçı, astronom, filosof kimi məşhurlaşmışdı. Xəyyam astrologiyanı da dərindən bilirmiş. Xəyyama görə, Böyük Yaradan dövlətlərin, xalqların, insanların taleyini səma cisimlərinin ritmində gizlədib. Bundan əlavə, o, yüksək intuitiv qabiliyyətə malik imiş. Nizami əs-Səmərqəndi yazır ki, 1112-ci ildə bir yığıncaqda Ömər dedi: “Mənim məzarım elə bir yerdə olacaq ki, hər bahar vaxtı şimal külləkləri mənim üstümə gül-çiçək səpəcəkdir.” Xəyyamın vəfatından dörd il sonra o, Nişapurdakı Xeyrə qəbristanlığına onu ziyarətə gedir. Görür ki, Xəyyamın məzarı divarın dibində qazılıb. Divarın arxasından görünən armud və ərik ağacları çiçəklərini bu məzarın üstünə o qədər səxavətlə tökmüşdü ki, qəbir tamamilə gül-çiçəklə örtülmüşdü” (Ş.Sultanov, K.Sultanov. “Ömər Xəyyam”).

Bu, təkcə Xəyyam bəsirətini göstərmir, həm də böyük fikir sahibinin İlahi yanında yüksək mərtəbəsinə işarədir. Yuxarıda adı çəkilən kitabın sonuncu səhifəsindən öyrənirik ki, Xəyyamın ötəri dünyaya vida cümləsi belə olub: “İlahi, bütün ömrüm boyu səni dərk etməyə çalışdım. Məni

bağışla!”. Xəyyam onsuz da yüksək məqamdadır. Allah həqiqəti təhrif edənləri, bu mütəfəkkiri insanlara “içki düşkünü” kimi tanıtdıranları bağışlasın.

### Şeyx Nizami

“Söz gülşəninin sərv ağacı”, “Aləmlərin sirri bu sinəmdədir” – deyən Şeyx Nizami irsi kamil insan, harmonik cəmiyyət fəlsəfəsidir. Onun astroloji biliyinin dərinliyi ilə poetik qüdrətinin vəhdəti adamda sonsuz heyrət doğurur. O, “İsgəndərnamə”də İsgəndərin dili ilə deyir:

***Dünyada nə varsa – yaman və yaxşı,***
***Göylərin tağına çəkilib naxşı.***
***Münəccim rəmlini atdığı zaman,***
***Taleyin naxşını oxuyur ordan.***

Burada ifadə olunan fikir Xəyyam fikri ilə səsləşir (Talelərin səma cisimlərinin ritmində, hərəkətində gizləndiyi). Nizami “İsgəndərnamə”də gələcəyə boylanaraq, öz qəbrinin acınacaqlı vəziyyətini elə həzin, elə kədərli dillə təsvir edir ki, qəhərlənirsən:

***Üstümdə görərsən göyərmiş otlar,***
***Baş daşı uçulmuş, çökmüşdür məzar.***
***Qəbrimin tozunu sovurmuş yellər,***
***Dostlardan anan yox məni bir nəfər.***

Bəsirət sahibi olan böyük mütəfəkkirə aydın idi ki, onun məzarı bir müddət unudulacaq. Nizaminin bu əsərdə təsvir etdiyi ideal, humanist, ədalətli cəmiyyətin parlaq

cizgiləri gələcəyə aiddir. Məlumdur ki, kommunistlər iddia edirdilər ki, sosializm cəmiyyəti guya Nizaminin arzuladığı cəmiyyətdir. "İlahi, səndən başqa nə varsa, yaddan çıxsa, yaxşıdır" – deyən Nizami Allahsız bir cəmiyyətimi arzulayırdı? Bu cür düşüncə nadanlıqdır! Əslində isə məşhur öncəgörənlərin, o cümlədən Vanqa nənənin, Nostradamusun da dediyi kimi, bəşəriyyətin tarixində "qızıl əsr" hələ qabaqdadır. Belə bir ruhani cəmiyyəti Nizami də əsrlərin çiynindən görmüş və onu təsvir etmişdi. Nizamini bütün bəşərin salama gələcəyi gün hələ qabaqdadır!

**Növrəs İman**

O, hələ də açılmamış bir xəzinədir. Dədə Ələsgərin qardaşı oğlu İman 1903-cü ildə həyata göz açmış, hələ yeniyetməliyindən fikir sahiblərini mat qoymuşdu. Dədə Ələsgər onun şeirlərinə qulaq asanda gözlərindən yaş axıtmış və ona bunun səbəbini belə açıqlamışdı: "Ay bala, sənin halına ağlayıram. Sənin təbin mənim təbim qədər var. Ancaq o bədən (o, zəif imiş) bu təbi götürməyəcək. Bu təb axırda səni puç edəcək" (filologiya elmləri namizədi İslam Ələsgərin tədqiqatından). Sinəsi Haqqın aynası olan, Quranın yandırılmasına, məscidlərin viran olmasına, eləcə də şəxsi həyatındakı sarsıntılara dözə bilməyən İman 27 yaşında vətəni tərk edir. O, "Ağlama" şeirində öz gələcək taleyinə işarə vurur:

***Səni ağladanlar düşsün azara,***
***Ömürdən beş qalıb sanım, ağlama!***

Yəni ömrünün bitməsinə beş il qalıb (şeir yazılan vaxtdan) demişdi.

Növrəs İmanın “Deyərsiz” (“Batin göstərişi”) adlı beş bəndlik şeiri Haqq aşiqinin misilsiz fitri istedadının, parlaq bəsirətinin sübutudur. Bu şeirdə XX əsrin 30-cu illərindən başlayaraq əsrin az qala sonunadək baş verəcək faciələrimiz əks olunub:

***Hələ qəflətdəsiz, yatmısız belə,***
***Sayıb məni bir divana deyərsiz.***
***Cəfanız çox olar, yəqin il ilə,***
***Dərdinizi ruhi-cana deyərsiz.***

İman onu dərk edə bilməyib divanə hesab edənlərə xəbərdarlıq edir ki, siz hələ yuxudasınız. Sizi qarşıda müsibətlər gözləyir.

***Sərsəri fənada qırılar canlar,***
***Tökülər yaxından çox nahaq qanlar,***
***Seçilməz haq-nahaq yolu qananlar,***
***Məhəttəlik bu divana, – deyərsiz.***

Ötən əsrin 30-cu illərindəki faciələrə, müəyyən qədər imkanlı adamlara “qolçomaq” adı ilə divan tutulmasına, xüsusən 37-38-ci illərdəki amansız repressiyalara işarədir. O dövrdə kim idi ki, haqqa-nahaqqa baxan. Cavidlərin, Müşfiqlərin biçim dövrü idi.

***Yanmaz, gecə çox çıraqlar qaralar,***
***Gərdiş eli bir-birindən aralar,***
***Pozular bağçalar, güllər saralar,***
***Səfər edib biyabana deyərsiz.***

Çox çıraqları söndürən müharibə, 1948-53-cü illər deportasiyası, göyçəlilərin, eləcə də digər oğuzların zorla

öz tarixi vətənlərindən köçürülməsi və nəhayət, bugünkü milli faciəmiz – əzəli yurdlarımızın tamamilə yağı düşmən əlinə keçməsi bu bənddə öz əksini tapıb.

Yeri gəlmişkən, qeyd edək ki, böyük sənətkarların taleyi xalqın taleyinin güzgüsüdür. Puşkin, Lermontov kimi sənətkarların əsərlərində də bu tip qlobal xarakterli (öz xalqlarının gələcəyinə dair) misralar az deyil.

## KÖNÜLLƏR ZİYARƏTÇİSİ

Bismilləhir Rahmənir Rahim

Şeyx Nizaminin aşağıdakı misraları necə də boyuna biçilib Etibarın:

***Eşqinlə atəşə dön, nifrətinlə buza dön,***
***El yolunda günə dön, Aya dön, ulduza dön!***

Şeirlərindən birində yazdığı kimi "işıqlı məfkurə diyarında" olan Etibar el yolunda günə, Aya, ulduza dönüb işıq saçırdı. O, arabir şıltaqlıq edən ürəyinə "böyük arzuları verirmmi yelə" – deyə müraciət edərək ondan möhlət istəyirdi. Bu ürək sahibinin həqiqət eşqi nə qədər odlu, hərarətli idisə, həqiqət düşmənlərinə nifrəti də bir o qədər soyuq idi. Gözləri civə kimi qaynayan bu Allah adamı hər vaxt tələsirdi – dərd-səri doğramağa, kədəri qəlblərdən qovmağa tələsirdi.

Etibarın nəsil şəcərəsi ata tərəfdən 7-ci İmam Museyi-Kazıma (ə.), ana tərəfdənsə Gəncə xanı Ziyad xana gedib çıxır (Ziyad xan Cavad xanın nəslindəndir). İki böyük nəslin ruhi enerji daşıyıcısıydı Seyid Etibar. O, milli ruhumuzun parlaq təmsilçilərindən biri, onun bütövlüyünü qoruyan fədai idi.

Etibar hələ 3 yaşında ikən atasını itirib. Atası xeyirxahlıqdan yoğrulubmuş. Sınaqlı seyid kimi onun cəddinə üz tutanlar naümid qalmırmışlar. Kimin nə dərdi var, onun üstünə gedirmiş – kəraməti ilə insanlara kömək etməklə yanaşı, kiminə ərizə yazırmış, kiminə məsləhət verirmiş. El-obanın dayağı, simsarı imiş. Ata qayğısından erkən məhrum olan Etibarın ağır sınaqları hələ qabaqdaydı. Bu sınaqlar onu yüksək ruhi-mənəvi məqama hazırlayacaqdı. Yalnız belə məqama çatan şəxsiyyətlər başqalarını da Həqiqət yoluna səslənməyə, arxalarınca aparmağa qadirdirlər. O, elə uşaqlıqdan müstəqil xarakteri, iradəsi, fiziki gücü ilə seçilib. İdmana sadəcə marağı yox, sevgisi varmış. Qaldırdığı ağır daşlar hamının heyrətinə səbəb olurmuş. Eh, bir yana baxanda daş qaldırmağa nə var ki... Oğul odur, el-obanın qayğı yükünə, mənəvi-psixoloji yükünə öz çiyinlərini verə. Bax bu, təpər, dəyanət istəyir. Etibarın bu sahədə də hünəri göz qabağındadır. “Xalqın gözü tərəzidir” –demişlər. Etibar hərtərəfli istedadlı ilə yaşıdlarından fərqlənirmiş. Fizika, riyaziyyat fənləri üzrə ümumrespublika olimpiadalarından əliboş qayıtmırmış. Bacısı Fərqanə xanımın dediyinə görə, göylərin vurğunuymuş. “O Ay dediyimiz göylərin şamını”, Rəbbimizin dirəksiz göylərdə asdığı çıraqları məftunluqla seyr edir, sirli-soraqlı dünyanın fikrinə dalırmış. Onun yaşına uyuşmayan ciddiliklə şəkil çəkməyi isə bir ayrı aləmmiş. Anasının (Ziyadxanova Həmidə Xanlar qızı), Amerika yazıçısı E.Heminqueyin portretlərini yüksək zövqlə işləyib. Xalq yazıçısı Mirzə İbrahimovun 60 illik yubileyinə Etibar da əliboş gəlməyib – yubilyarın portretini ona təqdim edib.

Etibarın könül qapısını poeziya gəlini də döyüb. Narahat ruhundan axan sözləri kağıza köçürüb qəzetlərə yollayıb: “Qalibiyyət bayrağı”nda (Ağstafa), “Dostluq”da (Göyçə mahalı, Krasnoselo rayonu), “Ədəbiyyat və incəsənət”də dərc olunan şeirləri qələm sahiblərinin diqqətini cəlb edib. “Azərbaycan gəncləri” qəzetində (06.07.1974) Etibarın üç şeiri Xalq şairi Hüseyn Arifin xeyir-duası ilə çap olunub. Mərhim şair Etibar haqqında belə yazıb: “Bu yaxınlarda mənim yanıma Etibar adlı bir gənc gəlib, təzə şeirlərini oxudu. Qeydlərimi bildirdim. Həmin şeirlər yenidən işləyib mənə göstərdi. Etibarın zəhmətsevərliyi xoşuma gəldi. Onun müşahidə qabiliyyəti də nəzərimi cəlb etdi. Etibar Məmmədəliyev qələmə aldığı mövzuya müvafiq yığcam forma seçməyi bacarır. Müəllifin şeirləri öz mövzusu və bədii təsir qüvvəsi cəhətdən maraqlıdır...”. Həmin qəzetdə çıxan “Darıxdım” şeirinin sonuncu misraları Etibarın insana verdiyi qiymətin ifadəsidir:

***Dağ da kövrəkləşər, dağ da kiçilər,***
***Yığıb izlərini gedəndə insan.***

Dağ nə qədər vüqarlı, əzəmətli olsa belə, insan həniri, insan nəfəsi, insan izi kəsiləndə kövrəkləşər, kiçilər. Dağ dağa söykənsə də, onun dayağı insandır.

Etibar təbiət vurğunu olub. Fərqanə xanımın dediyinə görə, həyətlərini gül-çiçəklə bəzəyib, ortada fəvvarə düzəldibmiş. Nəvazişlə onların nazını çəkirmiş. “Dağlar” şeirində aydın görünür ki, o, qəmli-nisgilli vaxtlarında “qoynunda ayaqyalın” qaçdığı təbiətin xəyalı ilə əylənir, təsəlli tapır. Bu şeirdə çəkdiyi bədii lövhələr özünəməxsus deyim tərzindən xəbər verir:

*Gözəlsən: bulaq gözün, meşə donun, çay hörüyün,*
*Şəlalə çətirindir, duman-çəndir şalın, dağlar.*

İnsana, insanlığa məhəbbətlə, xeyirxahlıqla döyünən bir ürək sahibi hələ parta arxasinda ikən öz əqidəsini bəyan edib:

***Əgər yıxılana əl uzatmasan,***
***Sözünlə qəmini sən azaltmasan,***
***İnsanlığa qəlbdə eşq yaratmasan,***
***Dünyada qalmağın mənası varmı!?***

Əgər qəlbdə sevgi yoxsa, insana sevgi, xeyirxahlıq, mərhəmət də olmaz. Sevgisiz ürək ət parçasından başqa bir şey deyil. Yıxılanı qaldırıb, ılıq, mehriban bir sözlə dərdlinin könlünü almırsansa, dünyada qalmağın mənası ola bilərmi!? Eh, aramizda hətta salam verməyə belə xəsislik edənlərə az rast gəlinmir.

## “Keç içəri, düzələr”

Adam var ki, gərək onunla kəlmə kəsib qəlbindən xəbər tutasan, sonra qiymət verəsən. Etibarın kimliyini elə onun parlaq siması, yüzlərlə insanın arasından seçilməsi də aydın göstərirdi. Onun insana ən böyük yaxşılığı – onu özünə tanıtması, onun qəlbində Allah eşqini alovlandırılması idi. Qəlblər bu imam övladının nuru ilə qəramətdən təmizlənirdi. Onun sözləri qəlblərin pəncərəsindən bahar nəsimi tək əsir, batinlərin zülmətini kəsirdi. O, böyük iş görürdü – insanı insanlığa səsləyirdi. O, dünyaya uca həqiqətlər zirvəsindən boylanır, ətrafındakıları da bu zirvəyə səsləyirdi. Onun xeyirxahlığından, qayğıkeşliyindən söhbət açanlar yüzlərlədir. Etik qaydaları nəzərə alıb adını çəkmədiyimiz bir jurnalist qardaşımız bunları söyləyir:

“Məni toya çağırmışdılar. Bu dövr mənim həyatımda dünyanın ehtiyac adlı məngənəsində boğulduğum, üzüm cecəsi kimi sıxıldığım dövr idi. Məclisə getmək üçün nə əməlli-başlı əyin-başım, nə də cibimdə bir şeyim vardı. Ürək qızdırdığım həmkarımla dərdimi bölüşdüm. O, qətiyyətlə dedi ki, sənə Etibar kömək edər. Çox insaflı-mürvətli adamdır, özü də ağır seyiddir. Mən o dediyi ünvana yollandım. Onu soruşanda dedilər ki, namaz qılır. İbadətini başa çatdırandan sonra mənimlə çox səmimi görüşdü. Üz-gözündən yağan nur, mehribanlıq məni o dəqiqə ovsunladı. Ürəklənib dedim: “Sizinlə şəxsi söhbətim var”. O gülümsəyərək: “keç içəri, düzələr” – deyib məni öz iş otağına dəvət etdi. Ayağımın ölçüsünü soruşub küncdəki ayaqqabını mənə uzatdı: “Götür, düz ayağının ölçüsündədir”. Mən görəndə ki, ağa öz ayaqqabısını vermək istəyir, etiraz etdim. O, “narahat olma, mən taksi tutub ayağımdakı başmaqla gedəcəyəm” – dedi. Etibar müəllim o gün mənə lazımi qədər pul və bir dəst kostyum da verdi. Ağanın xeyirxahlığı qəlbimi riqqətə gətirdi, həyata məhəbbətimi, insanlara inamımı artırdı. Verdiyi pul isə nəinki cibimə, ömrümə də bərəkət gətirdi”. Bu deyilənlər Günəşə açılan çiçəklər kimi ürəyi yaxşılıqlara açıq olan Etibar həyatının kiçicik bir səhifəsidir. O, həmişə ziyarətdəydi – könülləri ziyarətdə. Könüllər alandı Etibar. Könüllər alansa, könüllərdə anılar. O, çoxlarının qəlbində, sözündə, söhbətindədir.

## Mənəvi borcumuz və ya Etibar əmanəti

Etibar Elkinin cəddindən gələn övliyalıq kəraməti xüsusi söhbətlərin mövzusudur. Belə şəxsiyyəti gənc nəslə yetərincə tanıtmalıyıq – mənəvi örnək kimi. Yolumuz Haq-

qa doğru, insanlıq zirvəsinə doğrudur. Təzə təlimlərə, ideyalara ehtiyac yox. Sadəcə olaraq yeri dəyişik düşmüş şeylərin yerini dəyişmək lazımdır. Ulularımızın, müqəddəslərimizin yolunu tutub gedək. Onların həyatında hər an gözəl olub. Bu gözəllərlə gözəlləşir dünyamız. Onlar həqiqət gözəlləridir. Etibar fiziki həyatında necə bizimlə bağlı qayğılar yükünü daşıyır, millət, ümmət, insanlıq dərdi çəkirdisə, bugünkü ruhi həyatında da bizimlədir. Bizim kədərimizə şərikdir, sevincimizi bölüşür. Bu gün onun məzarı ziyarətgaha çevrilib. Dərdli könüllər onun cəddini çağırır, cəddinə arxalanır.

Etibar Elkin demişdi: **"Əminəm ki, ölümümdən sonra mənim ruhum tələbələrimi tərk etməyəcək, bütün işlərində yardımçı olacaq. Qoy onlar həmişəlik yadda saxlasınlar ki, bizim işimiz Böyük Vətən, Bütöv Torpaq, Qüdrətli Azərbaycan dövləti uğrunda mübarizəyə həsr olunmalıdır. Qoy bütün güc və qabiliyyətlərini bu yola sərf etsinlər. Millət və milli dövlət uğrunda mübarizəni onlara əmanət edirəm"**.

Bu müraciəti eşidirsənmi, ey torpaqları qıyma-qıyma doğranmış, namusu tapdalanmış Vətən Övladı!

## AVROPADA BİR KABUS DOLAŞIR: HƏMCİNSBAZLIQ KABUSU

### Şəxsiyyət azadlığı nədir?

Müasir dünyamızda azadlıq anlayışı böyük aktuallıq kəsb edir. Amma hər şeyin meyarını, ölçüsünü bildiyimiz kimi, azadlığın da meyarını müəyyənləşdirməliyik. Çünki insan həqiqi azadlığın nə olduğunu bilməyəndə ondan suiistifadə edib, heyvandan da betər vəziyyətə düşə bilər.

Şəxsiyət azadlığına münasibətdə islam məktəbi ilə digər məktəblər arasında aşkar fərqlər vardır. Bugünkü dünyada şəxsiyyət azadlığı dedikdə cəmiyyət üçün zərərli olmayan fərdi bir azadlıq başa düşülür. Azad insan öz zərərinə olan işləri gördükdə kimsə onun qarşısını ala bilməz. İslamda isə azad insan təkcə cəmiyyətə qarşı yox, özünə qarşı da zərərli hərəkətlərə yol verə bilməz. Bu baxımdan islam təkcə cəmiyyətin yox, fərdin də xoşbəxtliyini nəzərdə tutur. "Nə edirəm özümə edirəm" – deyə azadlıq tələb edən birinin istəkləri məntiqsizdir. Haram içkilərdən istifadəni, haram əyləncəyə qurşanmağı, kəbinsiz cinsi əlaqələri insanın şəxsi işi hesab edənlər kimi həmcinsbazlığı da kiminsə şəxsi işi, azadlığın ifadəsi hesab edərək, ona qanun donu geyindirənlər də açıq-aşkar azğınlıq içindədirlər. Bəyəm insanı yaradan onun təbii meyillərinin təmini üçün qanuni yol müəyyən etməyibmi? İslam kimi ailə həyatına təşviq edən din yoxdur. İslamda xristianlıqda olduğu kimi rahibliyə – ailə həyatından imtina etməyə icazə verilmir. Bəs nə baş verməkdədir? Ayrı-ayrı fərdlərin yox, bütöv xalqların mənəvi aşınması göz qabağındadır. Cinsi azadlıq adı altında həmcinsbazlığa qol qoyan dövlətlərin siyahısı genişlənməkdədir. Niderland, İspaniya, Kanada, Norveç, İsveç, Belçika, Argentina, İslandiya, Portuqaliya, Cənubi Afrika Respublikası, Amerikanın bir neçə ştatı, İngiltərə bu eybəcərliyə adi insan haqqı kimi yanaşır. Buna qarşı çıxanları isə şəxsiyyət azadlığını boğmaqda günahlandırırlar. Sual olunur: insan ağlını bu qədər itirib ki, bəşərin əxlaq qazanını təpikləyib ağzıüstə çevirir? Bəşərin müəllimləri – peyğəmbərlər, onların davamçıları, filosoflar, Rəbbani şairlər əxlaq, insanlıq şərəfi uğrunda buna görə dar

ağacına gedirdilər ki, “müasir ziyalılar” onların əməklərini yerə vursunlar və İblislə işbirliyinə girişib cinsi azğınlığa qanundan don biçsinlər? Bu gün dəhşətlisi odur ki, mənəvi azğınlığa, pozğunluğa Avropa Şurası yaşıl işıq yandırır. Biz isə Avropanın mədəniyyət bağçasından gözəl ətirli çiçəklər deyil, qanqal yığırıq. Milli Məclisimizin keçmiş üzvü Sultan müəllim yazır: “Avropa Şurası və onun İnsan Hüquqları İnstitutu 1997-ci ildə Azərbaycan Milli Məclisinin insan haqları komissiyasına altı dəfə məktubla müraciət edərək, Azərbaycan Cinayət Məcəlləsində homoseksualistlərə aid maddənin ləğv edilməsini tələb edirdi. Onların fikrincə, bu maddə insan hüquqlarını pozur... Cinayət Məcəlləsindən həmin maddəni çıxardılar. Nəticə göz qabağındadır. Gecələr Bakının küçələrində müştəri axtaran kişilərin sayı durmadan artır...” (Sultan Məmmədov. “Masonluq: Dünyanı idarə edən qüvvə”. s.198-99). Bəli, Sultan müəllim kimi bizi də qəzəbləndirən odur ki, nüfuzlu beynəlxalq bir təşkilat niyə milyona yaxın qaçqının taleyi ilə yox, bir ovuc pozğunun “hüququ” ilə maraqlanır. Görəsən, dini-mənəvi dəyərləri aradan götürməklə, iman və əxlaq sərhədlərini dağıtmaqla bu təşkilatlar dünyanı hansı qanunlar əsasında idarə etmək istəyirlər?

Yaranış nizama əsaslanır, nizam isə qanundan qaynaqlanır. İlahi qanunları pozmaq yaranış nizamına qarşı çıxmaqdır. Həqiqətin meyarı Allahın kəlamı deyilmi? Qurani-Kərimdə buyrulur: **“Bu (göstərişlər), Mənim doğru yolumdur. Ona tabe olun və başqalarının yolunu getməyin ki, sizi Allah yolundan kənar salmasınlar. Bu, Allahın sizə sifarişidir. Bəlkə, təqva yolunu tutasınız”. (“Ənam”; 153)**. Peyğəmbərimiz (ə.) ayənin izahı üçün

əyani bir misaldan istifadə etmişdir. O, mübarək əli ilə yerdə düz xətt çəkmiş və buyurmuşdur: "Bu, doğru yoldur və o birdir". Həzrət sonra həmin xəttin sağında və solunda əyri xətlər çəkmiş və buyurmuşdur: "Onlar isə Şeytanın dəvət etdiyi yollardır". Bütün İlahi dinlərin əsasında Allah yoluna tabeçilik, Allahdan qeyrilərinin yolundan çəkinmək durmurmu? Bəli, artıq dünyanın bir sıra ölkələri dini-mənəvi dəyərlərdən paltara bulaşmış tozu çırpırmış kimi uzaqlaşmaqdadırlar.

## Həmcinsbazlıq və İlahi əzab

Keçmişin viran qalmış mədəniyyətlərinə ibrət gözü ilə baxmaq və yeni dərslər öyrənmək lazımdır. Nə çoxdur ibrətlər, nə azdır ibrət alanlar! Həmcinsbazlıq kimi cinsi azğınlıq arxasınca böyük fəlakətlər gətirmişdir. Qurani-Kərimdə müxtəlif ayələrdə Həzrət Lut və onun qövmünün əhvalatı bəyan olmaqla həmcinsbazlıq çirkin iş, günah, zülm, xəbislik, israf, cəhalət, azğınlıq kimi dəyərləndirilib (İndi dəhşətlisi budur ki, adiləşib, "insan haqları" anlayışına daxil edilib). Aşağıdakı ayələrə nəzər yetirək: **"Və Lutu da göndərdiyimiz zamanı yada sal ki, o, qövmünə dedi: "Aləmlərdə sizdən başqa heç kəsin görmədiyi o pis işi görürsünüzmü?" ("Əraf"; 79).**

Və ya: **"Siz arvadları buraxıb ehtiras üzündən kişilərə tərəf gəlirsiniz. Bəli! Siz həddi aşan bir qövmsünüz" ("Əraf"; 80)**

**"Siz arvadları buraxıb şəhvət üzündən erkəklərə yaxınlaşırsınız? Bəli! Siz cahil bir camaatsınız" (Nəml; 55).** Digər bir ayə: **"Biz Luta peyğəmbərlik və elm verdik, onu əhli çirkin işlər görən bir şəhərdən qurtar-**

**dıq; həqiqətən, onlar pis və fasiq qövm idilər" ("Ənbiya"; 74)**. Lut qövmünün bu azğınlığının cəzası ləngimədi. Allah buyurur: **"Onların üstünə yaman bir yağış** (daş yağışı – F.R) **yağdırdıq. Bax gör, günahkarların sonu necə oldu" ("Əraf"; 83)**. Bu aqibətdən Avropa da, ona dəstək verənlər də sığortalanmayıb. İlahi qəhr-qəzəbə insan səbəb olmurmu? Bəzən İlahi əzab alovu o qədər əhatəli olur ki, həm qurunu, həm də yaşı yandırır. Yaxşılar da pisliklər qarşısında susub etiraz etmədiklərinə görə cəzalanırlar. Həmcinsbazlıq qadınlar arasında ilk dəfə rəss qövmündə meydana çıxmışdır. Onların da aqibəti dəhşətli vulkanlar, dəhşətli ildırımlar olmuşdur. Əgər Şeytan xalqı Allahın haram buyurduqlarını halal etməyə çağırırsa və bunu həyata keçiririksə, Şeytana pərəstiş etmirikmi? Bəşər ağıldan, tərəqqidən, azadlıqdan dəm vurur və insan haqqı adı altında Şeytanın izi ilə gedir. Həmcinsbazlıq elə bir günahlardandır ki, fitnə-fəsada, insan nəslinin kəsilməsinə, qeyrətin, igidliyin, kişiliyin, insan münasibətlərindəki təbiiliyin, müqəddəsliyin aradan getməsinə gətirib çıxarır. İmam Cəfər Sadiq (ə.) buyurmuşdur: **"Bu əməl küfrdür. Allahın və Onun Rəsulunun gətirdiklərinin inkarıdır"**. Başqa bir hədisdə deyilir ki, zinaya və həmcinsbazlığa yol verənlər dünya və axirətdə 72 dərdə mübtəla olur (QİÇS bir xəbərdarlıq deyilmi?)

## İbrətamiz əhvalat

Aşağıdakı əhvalat bu yaramaz əməl sahiblərinin aqibəti baxımından çox ibrətamizdir. Öz ağasını öldürmüş bir qulu Ömər ibn Xəttab qətl etdirmək istəyirdi. Həzrət Əli (ə.) hadisədən xəbərdar olduqda quldan soruşdu: "Öz möv-

lanı öldürmüsənmi?”

Qul dedi: – Bəli.

Həzrət Əli (ə.) buyurdu: – Nə üçün?

Qul: – Mənimlə yaramaz əməl (livat) etdi. Həzrət Əli (ə.) Ömərə buyurdu: “Qulu həbs et, amma hələlik onu cəzalandırma. Qətlə yetirilənin qəyyumlarına de, üç gündən sonra gəlsinlər”. Üç gündən sonra öldürülmüşün qəbrini açdılar. Qəbirdə meyidin kəfənindən başqa heç nə gör-mədilər. Əmirəlmöminin iki dəfə “təkbir” (Allahu Əkbər – F.R.) dedi, sonra buyurdu: “Allaha and olsun ki, nə mən yalançıyam, nə də mənə xəbər verən şəxs. Peyğəmbəri-Əkrəmin (s.) belə buyurduğunu eşitdim: “Mənim ümmətimdən hər kəs Lut qövmünün əməlinə mürtəkib olsa, öldükdən sonra qəbrində üç gündən artıq qalmaz. Və yer onu aparıb İlahi əzabla həlak olan Lut qövmünə çatdırar. Qiyamətdə də onlarla birlikdə məşhur olar”. (Ayətullah Məhəmmədtəqi Tustəri “Əmirəlmöminin Əliyibni Əbitalib (əleyhissəlamın) qəzavətləri” (s.177-178)).

**P.S. Məqaləni başa çatdırarkən televiziyadan belə bir xəbər eşitdim ki, Fransada bu azğınlığı qanunlaşdırmaq tələbi ilə kütləvi mitinqlər keçirilir. Dəhşətlisi odur ki, ölkə əhalisinin altmış faizi bunu dəstəkləyir. Doğrudan da, belə getsə şeytançılıq, azğınlıq dünyanı öz ağuşuna alacaq.**

14.02.2013

## TARİX İBRƏT GÜZGÜSÜDÜR

Tarix keçmişin aynasıdır. Ağıllı adam ona baxıb ibrət alar; ədalətsizlikdən, zülmdən çəkinər. Arpa əkib,buğda biçmək mümkün olmadığı kimi, zülm toxumu əkib əvəzində xeyir zəmisi biçmək də mümkün deyildir. Zülm toxumundan zülm göyərər, o da onu əkənin özünə yetişər. Gəlin birlikdə tarixə səyahət edək və bir daha onun dərslərinə qulaq asaq. Bu, günümüz və sabahımız üçün çox gərəklidir.

Əziz oxucular! Bəşərin ilk faciəsi oradan başlandı ki, Həzrət Adəm (ə.) övladlarından Qabil qardaşı Habili qətlə yetirdi. Səbəb nə idi? Paxıllıq (həsəd). İblisin pıçıltılarına və öz nəfsinə uyan Qabilin sonrakı taleyi necə oldu? Diyarbadiyar dolaşan Qabil bir yerdə qərar tuta bilmirdi. Vicdan məhkəməsinin əlindən qaçmaqmı olar? Öz-özündən necə qaçacaqsan? Qabilin övladları da İblisin əlində əsir-yesir olmuşdular. Onların heç biri atalarını itirib-axtarmırdı. Bəlalar qarabaqara Qabili izləyirdi. Nəhayət, bir kor oğlunun atdığı daş onun həyatını bitirdi. Bu faciə öz əməlinin labüd nəticəsi idi. Səbəb-nəticə qanunu (səbəbiyyət qanunu) bütün hadisə və proseslərdə özünü göstərir.

Sokratın taleyi də çox ibrətlidir. Qədim dünyanın bu müdrikini tanımayan az tapılar. O, bəşərin faciəsini özünü tanımamaqda, elmsizlikdə görürdü. Doğrudan da, özünütanıma həqiqət axtarışının başlanğıc nöqtəsidir. İslam peyğəmbəri (ə.) də buyurmuşdur: **“Özünü tanıyan Allahını tanıyar”**. Özünü tanımayan, özündə hansı qiymətli gövhəri daşıdığını bilməyən dünyada sadəcə mövcud olur. Sokrat dediyi kimi, yemək üçün yaşayır. Elə belə tip insanlar Sokratı allahları lağa qoymaqda, İblislə əlaqədə,

gənclərin əxlaqını pozmaqda günahlandırdılar. Əslində, o, təkallahlı idi. Öz daxili səsinə (daymona) qulaq asırdı. Bu, onu özü dediyi kimi, həyatda büdrəməkdən qoruyurdu. Nadanlar isə bunu İblislə əlaqə hesab edirdilər. Sokrat gənclərlə ünsiyyətə daha çox can ataraq, onları həqiqətə, xeyirxahlığa doğru istiqamətləndirirdi. O, gəncləri pöhrə ağaclara bənzədirdi, çünki bu pöhrələri çıxarmaq, başqa yerdə əkmək mümkün olduğu kimi, gənclər də günahların pasından qəlbləri korlanmamış həqiqətə daha çox susayır, onu daha çox dinləyirlər. Sokratı ölümə doğru sürükləyən onun həqiqətə sadiqliyi idi. O, sürgünü də seçə bilərdi. Amma azad filosof kimi sürgündə yadların bir tikə çörəyinə möhtac olmağı ölümdən betər hesab edirdi. O, bağışlanmaq xahişi ilə də müraciət edə bilərdi. Özünü günahsız hesab etdiyinə görə aman istəmədi və ölümü seçdi. Sokratın ölümündə heyrətli bir gözəllik var. Həbsxanada ona verilən zəhəri sakitcə başına çəkib şagirdlərinə: **“Öləndə də yaxşı ölmək lazımdır”** – dedi. **S.Vurğunun: “Şərəfli həyatla ölüm də gülür”** – misrası sanki Sokratın haqqında deyilmişdir. Müdrikin ölümündə ən çox canfəşanlıq edən kim idi? Milet. Onun aqibəti necə oldu? Miletin özünü də ölümə məhkum etdilər. Bu, belə də olmalıydı. Sokratın digər saxta ittihamçılarını isə Afinadan qovdular. Hələ Aniti Herakliyə gələn kimi oradan da qovdular. Anitin Sokratı ittihamına baxın: “Sən Günəşə daş, Aya torpaq deyib allahsızlıq etmisən”. Əslində, bu fikir digər yunan filosofu Anaksaqora məxsusdur. Nadanların əhatəsində yaşamaqdansa, Sokratsayağı ölüm daha yaxşı deyilmi? Sokrat parlaq bəsirəti, üzaqgörənliyi ilə onu ittiham edənləri ağır cəza gözlədiyini xəbər vermişdi. Elə də oldu. Sokratın: **“Sözə**

**nifrətdən daha böyük bədbəxtlik yoxdur”** – kəlamı bu gün də qulaqlarımızda sırğa olmalıdır ki, həqiqətin ağzına daş basmayaq.

Fransanın xilaskarı on doqquz yaşlı Janna Darkın taleyi də bəşərə öyüddür. Orlean şəhərinin mühasirəsini yaran bu gənci İblislə əlaqədə, cadugərlikdə təqsirləndirdilər. Onu ingilislərin tərəfində duran hakimlərin və din xadimlərinin fətvası ilə yandırdılar (Düz beş əsrdən sonra kilsə onu müqəddəslər cərgəsinə daxil etdi). Bəs bu qatillərin aqibəti necə oldu? Ölüm hökmü oxuyan hakim yepiskopun beyninə qan sızdı. İttihamçının zibilxanada meyiti tapıldı (zibilin yeri zibilxanadır). Baş inkvizitorun (əqidə müfəttişinin) meyiti harda tapılsa, yaxşıdı? Quş damında!

Allah ədalətlidir! Hər şeyi öz yerinə qoyur. Elə ki söz bəlalardan düşür, İmam Hüseyn (ə.) və silahdaşlarını necə xatırlamamaq olar? Aşuranı eşqi anlamayan anlaya bilməz. Nədir eşq? İmam özü bildirib: “İlahi, sənin məhəbbətin və dinin yolunda yetmiş min dəfə öldürülüb-dirildilməyə hazıram”.

Öz eşqi yolunda doğmalarını da, silahdaşlarını da, özünü də qurban verdi. Bu qan eşqlə yoğrulmuş, İlahi rənglə boyanan qandır ki, kökündən qurumaqda olan islam ağacını suvardı. Bu baxımdan Aşura bəşərə eşq məktəbi, haqq və azadlıq uğrunda mübarizə məktəbi oldu. Hind xalqının böyük oğlu Mahatma Qandi özünün etirafına görə, məhz bu məktəbi ingilis müstəmləkəçiliyinə qarşı mübarizədə örnək kimi qəbul etdi. Aşura faciəsinin səbəbkarlarının taleyi isə çox acınacaqlı oldu. Bir neçə il keçməmiş Kufənin valisi İbn Ziyad məhz Aşura günü Muxtar Səqəfinin qiyamında öldürüldü. Muxtar bu yaramazın başını

İmam Səccada (ə.) göndərdi. Digər Allah düşmənləri – qoşun başçısı Ömər Səd də, İmamın mübarək başını kəsən Şimr də, altıaylıq Əli Əsğərin boğazını oxlayan Hərmələ də cəhənnəmə göndərildilər. Bəs Yəzid? Alçaqların ən qabaqda gedəni Mədinədə, Məkkədə də dəhşətli cinayətlər törətdi. Ölümündən qabaq səfehliyini daha da artırmışdı. Gecələr yata bilmirdi. Ona uşaqlar kimi nağıllar söyləyirdilər ki, yuxulasın. Amma zəhmətləri hədər gedirdi. Bir nəfərin ona hücumu zamanı qaçmağa cəhd etdi, amma ayağı atın üzəngisinə ilişdi. Alçaq yerlə sürünərək öz layiq olduğu aqibətinə yetişdi.

Bəli, atalar demiş: **"Qisas qiyamətə qalmaz!".** Nə çoxdur ibrətlər, nə azdır ibrət alanlar.

## ZAMANIN İBRƏTLİ GEDİŞİ

**Dünyanı qoruyun ağıllılardan**

***Məmməd Araz***

Məşhur ingilis riyaziyyatçısı B.Rassel demişdir: "Kim dünyanı həqiqi işıqda görmək istəyirsə, keçmiş və gələcəyə fərqli münasibəti aradan götürməli, zamanın gedişinə tam baxışla baxmalıdır". Bu isə bizə bəşəriyyətin inkişaf konsepsiyasını düzgün formalaşdırmağa imkan verir. Son vaxtlar bu konsepsiyanın yenidən işlənməsinə ehtiyac olduğu haqda fikirlərin eşidilməsi təbiidir. Ancaq bu fikirlərdən əməli işə keçilməsinə hələ çox var. Səbəbi isə bəşəri düşüncədə uzun illər hakim olmuş ideyaların özünə möhkəm yer eləməsidir. Məsələn, insanın əcdadının meymun olmasını "sübut edən" darvinizm fikirləri elə çaşdırıb ki, hələ də onun təsirindən qurtula bilməmişik. Hərgah bu təlimin tədrisi Darvinin öz vətəni İngiltərədə qadağan olunub.

Bizdə isə ali məktəblərdə islam dininin tədrisi ilə bərabər bu təlimin öyrədilməsi nə dərəcədə düzgündür? Arxeoloji tədqiqatlara əsaslanaraq elmin şüurumuzda formalaşdırdığı ilk insan obrazı ilə səmavi dinlərdəki insan arasında böyük fərq var. Müqəddəs Kitablara, o cümlədən Qurani-Kərimə görə ilk insan Adəm peyğəmbər deyilmi? Böyük Yaradanın əmri ilə mələklərin səcdə etdiyi Adəm. Qurani-Kərimdə deyilir: “Və öyrətdi Adəmə bütün isimləri” (Bəqərə surəsi, 31-ci ayə). “Bütün isimlər” ifadəsi altında sadəcə olaraq yaradılmışların adlarının ona öyrədilməsi nəzərdə tutulmur, ümumiyyətlə, Adəmə verilən elmdən söhbət gedir. Fikrimizi Həzrət Məhəmməd (ə.)-in bu kəlamı da təsdiq edir: **“Kim istəsə ki, Adəmə elminə görə, Nuha hikmətinə görə, İbrahimə hilminə görə nəzər salsın, o şəxs Əli ibn Əbi-Talibə baxsın”**. Burada izahata ehtiyac yoxdur. Həzrət Əli (ə.) dediyinə görə, ilk şeiri yazan da Adəm peyğəmbər olmuşdur. Bizə bəllidir ki, Adəm Həvva ilə birgə cənnətdən qovulub. Onların yüksək məqamdan ibtidai məqama – keçici dünyaya göndərilməsinin səbəbi də məlumdur. Elmdə isə ilk insanın yerdə yaranması (təkamül mərhələlərindən keçərək) fikri qızğınlıqla müdafiə olunur. Nobel mükafatı laureatı Pollak Yer haqqında bütün parametrləri (atmosfer, torpağın tərkibi, radiasiya və s. haqqında) kompüterə daxil edib. Kompüter bu parametrlər daxilində Yerdə ilk həyatın yaranmasının qeyri-mümkünlüyü cavabını verib. Kiyev Kibernetika İnstitutunda da bu nəticə alınmışdır. Beləliklə, ilk insan Yerdə təkamül keçməyibsə, başqa yerdən (cənnətdən) gəlibsə, daha doğrusu, göndərilibsə, deməli, bizim insanın yaranması, təkamülü haqqında hər cür nəzəriyyəmiz əsl həqiqəti göstərmək gücündə de-

yil. Böyük həqiqət mənbəyi, elmin sonsuz qaynağı olan Qurani-Kərimə isə hələ lazımınca qiymət verib, ondan bəhrələnə bilmirik. Necə ola bilər ki, tibb üzrə Nobel mükafatı laureatı, kanadalı embrioloq Key Murun aşağıdakı sözləri bizi silkələməsin: "Kaş Qurani-Kərimlə 20 il bundan əvvəl tanış olaydım, Nobel mükafatını 20 il öncə alardım". Mütəxəssislər bilirlər ki, onun illərlə üzərində baş sındırdığı, nəhayət, embriologiya sahəsində etdiyi kəşf açıq-aydın bu Kitabda göstərilmişdir.

Bu gün köhnə ideyaları, fikirləri yenidən süzgəcdən keçirib gələcək inkişafımız üçün düzgün xətt müəyyən etməliyik. Bəşəriyyətin düzxətli inkişafı – həmişə tərəqqi, yüksəliş yolu ilə getməsi ideyası mənasızdır. Əgər bu fikrin düzgünlüyünü qəbul etsəydik, X əsrdən etibarən Avropanı bürüyən zəlaləti, zülməti nə ilə izah edə bilərdik? Düz beş əsrədək davam edən cəhalət, elm xadimlərinə divan tutulması əvvəlki əsrlərlə müqayisədə dəhşətli idi. Bu gün XX əsrin övladları qədim əsrlərə boylanıb özlərini zəka, əxlaq baxımından (ən azı zəkaya görə) çox yüksəkdə sayırlar. Hərgah keçmiş əsrlərin böyük nümayəndələri, fikir sahibləri dövrümüzün böyük intellekt sahiblərindən heç nə ilə geri qalmırlar, hətta yüksəkdə dururlar. Xalqımızın tarixinə nəzər salaq. Nizami, Füzuli, Nəsimi kimi dahilərin irsini hələ də lazımınca dərk edib qiymət verə bilməmişik. Onlardan sonra gələnlər fəxrlə özlərini onların şagirdləri hesab etmişlər. Onların özlərindən sonra buraxdıqları təsir, bəşəriyyətin mənəvi kamilləşməsinə verdikləri töhfə Qiyamətədək mənəviyyat yanğımızı söndürəcəkdir. Ta qədimdən "elmlər elmi" kimi şöhrət qazanmış fəlsəfənin yetişdirdiyi Sokrat, Aristotel, Platon, Konfutsi, N.Tusi, Ş.Sührə-

vərdi kimi fikir nəhənglərindən son əsrlərin dühaları nə ilə üstündürlər? XX əsrdə fəlsəfə ağacı yaxşı bar vermədi. Təkcə onu demək kifayətdir ki, bəşəriyyətin xeyli hissəsinin ağlını tora salmış, ali əxlaqi dəyərləri (bütün dinləri) puç, əfsanə elan etmiş, siniflərin barışmazlığı ideyasını ortaya atmaqla, qardaşı qardaşa düşmən etmiş, nəhayət, təbii olaraq iflasa uğramış marksizm-leninizm bu əsrə üzağlığı gətirmir. XX əsrin zəkalı şəxsi keçən əsrlərə yuxarıdan aşağı baxanda gərək unutmasın ki, "elm şəhəri" Həzrət Məhəmməd (ə.), "elm şəhərinin qapısı" Həzrət Əli (ə.) VII əsrdə yaşamışlar. Burada irad tutula bilər ki, XX əsr atom, texnika, kompüter əsri deyilmi? Əvvəla, insanın əsl dəyəri onun meydana gətirdiyi şeylərlə yox, mənəvi-ruhi əzəməti ilə ölçülür. Beyni limhəlim informasiya ilə doldurub mənəvi cəhətdən yoxsul qalanlar bu əsrimizdə kifayət qədərdir. Əgər bilik əxlaqı saflaşdırmırsa, gözəl əməllərə səsləmirsə, ondan nə fayda? Gəlin etiraf edək ki, çoxumuzda yüksək biliyə can atma, təhsil artırma heç də ruhumuzun istəyinə görə yox, şöhrət, vəzifə, maddi istəklərə görədir. Əgər bu fikirləri ümumiləşdirərək dövlətlərə tətbiq etsək, acınacaqlı mənzərə alınar. Yüksək sivilizasiyalı dövlətlər öz büdcələrinin yarıdan çoxunu başqa dövlətlərin vətəndaşlarının öldürülməsinə xərcləyir. İki dünya müharibəsinin şahidi olmuş XX əsr hansı üstünlüklərinə görə keçən əsrlərdən yüksəkdə durmalıdır? Atom əsri deyə fəxr etdiyimiz bu dövrdə minlərlə insanı həmin atomla Xirosimada, Naqasakidə məhv etmədikmi? Yay-ox müharibəsindən tanklar müharibəsinin nə kimi üstünlüyü var? Əvvəllər öz həmcinsimizi məhv etməyə atlar üstündə gedirdik, indi motorlar üstündə gedirik. Mahiyyət eyni deyilmi? Əksinə,

indi qırğın daha kütləvi forma almışdır. Xocalı, Kosovo faciələri göstərmədimi ki, Şpenqlerin həmişə tənqid etdiyimiz "insan ən yırtıcı heyvandır" – fikri bu kimi faciələri törədənlərin timsalında çox yumşaq səslənir. Qurani-Kərimdə insan əzəmətinə, böyüklüyünə verilən İlahi qiymət hara, insanların heyvanlardan da aşağı səviyyəyə yuvarlanması hara: **"And olsun insana, insanı kamil yaradana!"** ("Şəms" surəsi, 7-ci ayə).

70 il yaşadığımız rejimdə Bibiheybət kimi müqəddəs ocaqların, Allah evlərinin dağıdılması və ya anbarlara çevrilməsindən o qədər də çox keçmir. Bilənlər bilir ki, əgər Böyük Vətən müharibəsi başlamasaydı, sovetlər ölkəsində 1943-cü ilədək bir dənə də Allah evi qalmamalı idi. Allahın nurunu ağızları ilə söndürməyə cəhd edənlər ölkədə bütpərəstlik ənənələrini dirçəltmişdilər. Əlbəttə, bu illərdə texniki tərəqqi az olmayıb, istehsal xeyli yüksəlib. Bunları görüb qiymətləndirməmək insafsızlıq olardı. Ancaq elə bir şeyi itirmişik ki, qazandıqlarımız onun müqabilində cüzidir. İtirdiyimiz şey imandır. Hələ orta məktəbə ayaq basandan uşağı dolayı, ya birbaşa Böyük Yaradandan ayrı salmaq, körpə dünyaya gələndə onu o dəqiqə anasından zorla ayırmaqdan qat-qat dəhşətlidir. Qəlbində Allah olmayan insan əsl yetimdir, yazıqdır, bədbəxtlərin bədbəxtidir. İmansızlıq olan yerdə böyük fəlakətlər olur. Keçmiş nəsillərin taleyində bunu aydın görürük. Onlar böyük inkişaf yolu keçmişdi. Dünyanın yeddi möcüzəsindən biri Misir piramidaları haqqında çox yazılıb, çox deyilib. Onların sirri isə hələ də tam açılmayıb. Piramidada ərzaq xarab olmur, su kiflənmir, süd uzun müddət turşumur, suda güllər xeyli vaxt solmur. Ehramların müxtəlif parametrləri Yer-

dən Günəşədək olan məsafəni, Yerin, Günəşin, Ayın kütləsini və s. özündə əks etdirir (elmə xeyli sonralar məlum olub bu biliklər). Misirdə tapılan fotoaparat isə şok yaradıb. Məlum olub ki, tapılan balta, bıçaq, qılınc müasir metallurgiyada ən son nailiyyət hesab edilən metodla hazırlanıbmış. Faktları davam etdirək (onlar şıltaq olduqları qədər də həqiqətdir). Perudakı daşlar üzərində ürəkköçürmə əməliyyatı təsvir olunub. Bütün bunlar bizə sübut etmirmi ki, kəşf olunmuşu yenidən kəşf edirik. Yaxşı deyiblər ki, hər cür təzə unudulmuş köhnədir. Səmavi kitablarda bu fikir belə ifadə olunur: “Səma altında heç nə təzə deyil”. Bəşəriyyətin sivilizasiyasından danışarkən Atlantidanı unutmamalıyıq. Çoxlarının şüurunda hələ bu ecazkar mədəniyyət haqqında faktlar gözəl nağıl kimi qavranılır. Hələ Platon onun haqqında söhbət açmışdı. Atlantik okeanının suları altında qərq olunan bu mədəniyyətin izləri sirri üzərində baş sındırdığımız Misir mədəniyyətinə aparıb çıxarır. Misirlilərin atlantlara bağlılığı barədə Platon da fikir söyləmişdir. Britaniya muzeyində bir mayyalının (mayya tayfasından) qeydləri saxlanılır: gecənin içində 64 milyon əhalisi olan 10 dövlətin yerləşdiyi materik suya qərq oldu. Bu haqda yaşı eramızdan iki min il əvvələ gedən xaldey əlyazmasında da məlumat verilib. Rus tədqiqatçısı V.Volodarski qeyd edir ki, atlantların viman adlanan hava kəmisi olub. (“Orakul” qəzeti, 1998-ci il, 4-cü sayı). Onlar nə ilə işləsələr yaxşıdır? Müxtəlif meyvələrdən alınan qarışıqla – meyvə yanacağı ilə! Alimlər hind səlnamələrində bu gəmilərin təsvirinə görə, onların çertyojunu tərtib etməyə müvəffəq olublar və sübut ediblər ki, onlar uçmağa qadir imişlər. Onlar böyük enerjini bizim kimi atom-

dan yox, buğda dənəsindən alırmışlar. Bəli, bəli... Özü də elə miqdarda ki, heç yuxumuza da girməz. Volodarski öz məqaləsində qeyd edir ki, sən demə, onlar tədricən qara magiyanın, ehtirasların quluna çevrilib və hətta meymunlarla cinsi əlaqəyə giriblər. Meymun-antropoidlər belə meydana gəlib. Tədqiqatçının bu fikri xeyli sual doğura bilər. Mütəxəssislər qoy bunun nə dərəcədə doğru olmasına cavab axtarsınlar. Böyük mədəniyyətin sulara qərq olmasının səbəbi aydın olur: İlahi qanunların tapdalanması, mənəvi pozğunluğun ifrata çatması. Böyük mədəniyyətlərin məhvinin səbəbi Qurani-Kərimdə də xatırlanır: **“Nahaq yerə şəhərləri məhv eləməzdi Rəbbin, düz-əməlli deyildi bunların əhalisi” (“Hud” surəsi, 117-ci ayə)**. Aşağıdakı ayə isə Rəbbimizin məhv elədiyi nəsillərin sonradan gələnlərdən daha güclü olması haqqında fikrimizi təsdiq edir: **“Bir gəzələr, dolaşalar yer üzünü, baxalar necə olmuş axırı öncəki nəsllərin. Bu nəsillər onlardan daha güclü idilər, onlardan daha çox qurub yaratmışdılar yer üzərində. Günahlarına görə yaxaladı onları Allah” (“Ğafir” surəsi, 21-ci ayə)**.

Həzrət Əli (ə.) buyurmuşdur: **“Dünyanın keçmişini gələcək üçün ibrət aynası bilməliyik. Çünki keçmişlə gələcək bir-birinə çox bənzəyir. Dünyanın sonu əvvəlinə bağlıdır, keçib getmişdir, qalan zamanın da hamısı keçəcəkdir, olub bitmişdir”**. Keçmişimizdən – “ibrət aynasından” nə dərəcədə ibrət alırıq? Bizi də onların taleyi gözləmir ki? Rəbbimiz bu haqda öz qərarını verməmişdən əvvəl biz öz yolumuza qiymət verməli, əməllərimizi tərəziyə qoymalıyıq.

## FİKİR HAQQINDA FİKİR

Bismillәhir Rahmәnir Rahim

Hörmәtli "Xural"! İstedadlı şair Rüstәm Behrudi ilә könül söhbәtinizi mәn dә oxudum. "Söz Tanrının mәrhәmәti" – deyәn şairin Tanrı haqqında düşüncәlәri isә mәni yaman qayğılandırdı. Belә qәrara gәldim ki, bu fikirlәrlә bağlı fikir söylәmәk zәruridir.

**R.Behrudi:** Hәmişә deyirdim ki, Allahın başı әslindә qiyamәtin işlәrinә qarışdığından yer üzündә bәndәlәri yadından çıxarıb. İndi fikirlәşirәm ki, Allah Allahdırsa gәrәk başı qarışmayaydı.

**F.Rüstәmli:** Çox heyf! Böyük Yaradan – O Ülvi Zat haqqında bu sözlәr Onun әzәmәtinә, qüdrәtinә qәtiyyәn yaraşan deyil. Kainatın Yaradanı haqqında fikirlәrinizin tәsdiqini Onun Kәlamında – "Quran"da axtarmalı deyildinizmi? Müsahibәdәn göründüyü kimi, "Quran"ın Haqq kәlmәsi olduğunu etiraf edirsiniz. Nәyisә yaddan çıxarmaq, başı qarışmaq, yorulmaq insana xas olan keyfiyyәtlәr deyilmi? Bir valideynin başı qarışıb öz övladlarını yaddan çıxarmasını, yәni valideynlik borcunu yerinә yetirmәmәsini biz hiddәtlә qarşılayırıq. Bir zaman yәhudilәr deyirdilәr ki, Allah yeri-göyü yaratdıqdan sonra yorulub istirahәt etdi. Allahımız isә "Quran"ın "Bәqәrә" surәsinin "Ayәtәl-kürsü" kimi әzәmәtli ayәsini nazil etdi: **"O, nә mürgü, nә dә yuxu bilәr"**. Bunun isә mәnası odur ki, Yaradan heç zaman öz mәxluqatından qafil olmur. Allah hәr gün vә hәr an alәmә tәdbir tökmәkdәdir: **"...O, hәr gün, hәr an bir işdәdir..."** ("Әrrәhman" surәsi, ayә 29).

Allahımızı layiqincә tanısaydıq, yuxarıdakı fikirlәri

qəlbimizdən belə keçirməzdik. O, mütləq kamildir!..” **...Ona bənzər heç nə yoxdur...”** (“Şura” surəsi, 11-ci ayə).

Ən böyük səma cisimlərindən tutmuş ən xırda zərrələrədək dəqiq fəaliyyət göstərən (bizə kafir kimi tanıdılan Allahçı Lomonosovun dediyi kimi, riyazi prinsiplərlə) sistemi, nizamı, vəhdəti bəyəm pozulmuş görürük ki, deyək: Allah yorulub, ya başı qarışıb? Bəyəm Günəş, Ay işığına həsrət qalmışıq, ya ruzimiz üçün işıqla bərabər, yağış, qar kəsilib? Hər zaman yer-göy bizim nazımızla oynamırmı? Şeyx Nizami yazmışdır:

***Sən ey göydə fələyi heyrətdə qoyan insan,***
***Yer də, göy də nazıyla daim oynayan insan.***

Yeri gəlmişkən, Nizami Allaha müraciətlə deyir ki, İlahi, bir anlıq da olsa, inayətini sənə inanmayanlardan kəs və onları özbaşına burax ki, bir anlıq da olsun öz varlıqlarını davam etdirə bilməyəcəklərini duysunlar. Bəli, gərəkdir ki, Onu yaxşı tanıyaq!

**R.Behrudi:** Məhəmməd “Quran”ın sirrinə büründü. “İncil”in hər cümləsi “Allahı sevin” kəlməsi ilə başlayır, Məhəmməd isə “Allahdan qorxun” – deyir. Allah qorxuda yaşaya bilməz, mütləq sevgidə yaşamalıdır.

**F.Rüstəmli:** Siz əgər təsdiq edirsinizsə, “Quran” İlahi vəhydir, Həzrət Məhəmməd (ə.) isə Onun elçisidir, onda “Quran”ın sirrinə büründü (özü də bilmədən?)” – demək nə dərəcədə məntiqidir? Peyğəmbərin (ə.) vəzifəsi İlahi vəhyi insanlara necə varsa eləcə də çatdırmaq, onları Haqqa doğru çağırmaq deyilmi? Belə çıxır ki, “Quran”da “Allahdan qorxun” ifadəsi peyğəmbərin (ə.) öz dediyidir.

"Quran" isə təsdiq edir ki, bu İlahi kitabın bir hərfi də dəyişdirilməyib.

Böyük Yaradan bəndələrini öz əzabıyla qorxudursa da, tövbə edib düz yola qayıdanların tövbəsini qəbul edəcəyini, onların bir yaxşı əməlini on dəfə artıq şəkildə qiymətləndirəcəyini də buyurmurmu? Niyə unudursunuz ki, "Quran"ın hər bir surəsi ("Tövbə" istisnadır) "Bismilləhir Rahmənir Rahim" ayəsi ilə başlayır? Yəni, Rəhman və Rəhim Allahın adıyla. Bu, elə onun öz bəndələrinə sevgisi deyilmi?

Həzrət İsa (ə.) bəyəm "Allahı sevin" deyəndə ondan qorxmağı da buyurmurdu? "Allahdan qorxu mənim şüarımdır" – kəlamı da onun deyilmi? Siz "sevgi ilə qorxu bir araya sığmaz" – deyə etiraz edəcəksiniz. Allahdan qorxu heç də Onun ülvi, pak, sevgi ilə dolu zatından qorxu demək deyil. Qorxu onun ədalətindəndir. Ədalətindən qorxmaq isə insanın öz pis əməllərindən qorxmasıdır. Siz sual verə bilərsiniz ki, peyğəmbərlər günah edirdilərmi ki, öz günahlarından qorxsunlar? Əlbəttə, yox. Onların qorxusu buna görə deyildi. Adi insanlar cəhənnəmə düşmək, cənnəti itirmək qorxusu ilə yaşayırlarsa, Allaha yaxın təqva sahibləri Onun zikrindən az da olsa qəflət olmaqdan, Onu müəyyən vaxt da olsa yada salmamaqdan qorxurlar. Yəni təkcə vacibi ibadətlərlə kifayətlənmirlər, bütün varlıqlarıyla Allah eşqinin cazibəsində fırlanırlar. Necə ki, Nizami deyib: **"İlahi, Səndən başqa nə varsa, yaddan çıxsa yaxşıdır"**. Bax belə məqama yüksələnlər onu əldən verməkdən qorxarlar. Ən böyük ixlas sahibləri isə yalnız Allahın hədsiz-hüdudsuz zatını və sonsuz əzəmətini xatırlayıb, onun müqabilində nə qədər kiçik olmalarını hiss edib

Ondan çəkinirlər. Ona dua zamanı o qədər yaxınlaşırlar ki, ruh bədəndən çıxıb Ona qovuşmağa şiddətlə can atır. Həzrət Əlinin (ə.) namazda bədənindəki oxun necə çıxarılmasından xəbəri olmamışdı. Beləliklə, mərifətimiz (mərifət – Allahı tanımaq) nə qədər artsa, Allaha eşqimiz artmaqla bərabər, Ondan qorxumuz da artacaqdır.

**R.Behrudi:** Mən xirqəsiz dərvişəm, mənə əsa lazım deyil. Həm də mən öz sevgim üçün Allahla mübarizə aparacaq qədər güclü adamam.

**F.Rüstəmli:** Dərviş eşq əhlidir, Allaha qovuşmaq həsrətilə yaşayır. Onu cənnət belə maraqlandırmır. Dərviş Yunus İmrə: "Mənə Səni gərək, Səni" – deyə Yaradana müraciət edir. Siz isə özünüzə "xirqəsiz dərviş" – deyə-deyə Onunla mübarizə aparmaq fikrinə belə düşürsünüz. "Çiynimdəki mələyi sevsəm, tutub Allahın əlindən alaram" – deyirsiniz. Sevgi İlahi pay olub, bizim üçün Ona qovuşmaq vasitəsidir. İnsanın qəlbi sevgi odunda bişir, həsrət, iztirab bu qəlb sahibini durulayır. Nəhayət, elə bir an gəlir ki, qəlbində digər insanlara, ümumiyyətlə, dünyaya böyük sevgidən keçərək bütün bunların Yaradanına üz tutur. Əvvəllər öz yarlarının vüsalı üçün fəryad edən sənətkarlar sonralar İlahi eşqə çatmayıblarmı? Füzuli "Ya Rəbb, bəlayi-eşq il qıl aşina məni" – deyəndə məhz İlahi eşq bəlası ilə aşina, dost olmaq istəyini bildirməmişmi? Çünki İlahi eşqə qovuşmaq yolunda nə qədər bəla, müsibət, sınaqla üz-üzə gəlsən, bir o qədər İlahi nemətə çatacaqsan. Bəli, bu bəlaların altında İlahi bir nemət var – Ona yaxınlaşmaq neməti, səadəti! İmam Hüseyn (ə.) görün eşqin hansı mərtəbəsindəymiş: **"İlahi, Sənin məhəbbətin və dinin yolunda yetmiş min dəfə öldürülüb-dirildilməyə**

**hazıram”**. Bəşərə eşq dərsidir bu! Dərvişlik hara, “mən, mən” demək hara? Yunus İmrə deyir:

***“Könlündə “mən”, “mən” olan***
***Dərvişlikdən uzaqdır.***

“Ölkənin ən böyük şairi mənəm” – deyib bu şairlik istedadını bəxş eləmiş Zatla öz sevgisi yolunda mübarizəyə qalxmaq hara, dərvişlik hara? Dərviş “mən” yox – “O” deyir:

***Məndən alginan mənliyi***
***Könlümə doldur sənliyi (Y.İmrə).***

Özü də deyirsiniz ki, indi Allahı hiss etmirsiniz. Onun səbəbləri Sizə aydın olmurmu?

**R.Behrudi:** Allah demokrat olsaydı, bu boyda böyük bir teatr yaratmazdı. Demokrat olsaydı, adamların içinə sevgi qoyardı, daha nifrəti niyə qoyurdu? Allah ən böyük despotdur.

**F.Rüstəmli:** Yenə çox təəssüf! “Dərviş-arif” Allahına “ən böyük despot” – deyir. Daha burada sərt ifadə işlətmək məcburiyyətindəyəm – küfrə yuvarlanır. Nəinki dərviş eşqindən, imandan danışmağa belə yer qalmır. İlahi ədl-ədalət dinimizin təməl prinsiplərindən biridir (üsuliddinə – dinin kökünə daxildir). Sizin etiraf etdiyiniz kimi, “Quran”da müasir elmi araşdırmaların hamısı var. Deməli, “Quran”ı göndərən hər şeyi bilən, hikmət sahibidir, elə deyilmi? Alim, hikmət sahibi, rəhimli, mərhəmətli ədalətsizliyə, zülmə yol verərmi? O, hər nə yaradıbsa bir səbəbə, hikmətə bağlıdır. Əgər biz bu hikməti nəinki qəlbin gözü, heç əqlin gözü ilə də görə bilmiriksə, nə üçün bu hikmət

sahibini qınamalıyıq?

Bu dünyadakı harmoniyanı, əlaqə zəncirini böyük mütəfəkkirlər həmişə etiraf etmişlər. Dünya sınaq meydanıdır, tərbiyə bağçasıdır. İbtidai təhsildən ali səviyyəyə yüksəliş vasitəsidir. Allah istəyir ki, öz bəndəsini sınaqdan keçirib onun əqli, mənəvi qabiliyyətlərini aşkara çıxartsın; onun qəlbinin, ruhunun gözünü öz zəlal və camalına açsın, onu özünə yaxınlaşdırsın, ona həqiqi səadət bəxş eləsin, bu dünyadan aparıb əbədi həyata qovuşdursun, yüksək məqam bağışlasın.

Dünyadakı hər cür "çatışmamazlığın" arxasında belə bir ali məqsəd durursa, bu məqsəd naminə dünyanı yaradana despot, zülmkar demək nə demək? Sizin mahiyyətini axtardığınız İblis kimdir? **İlahi buyurur: "Əslində insanların üstündə bir hökmü yox İblisin. Ancaq biz bununla onları sınağa çəkirik ki, bilək axirətə kim inanır, kim şəkk gətirir" ("Səbə" surəsi, 21-ci ayə)**. İblis o insanlara hakim kəsilə bilir ki, onlar Allahdan uzaq düşüblər. Deyirsiniz ki, niyə qəlblərdə sevgi əvəzinə nifrət qoyub Allah? Bəyəm Siz özünüz sevgidən yazıb, sevgiylə qanadlanmayıbsınızmı? Bəyəm sevgi hissi yoxdur qəlblərdə – valideynə, doğmalara, dostlara, yara?.. Əgər nifrətin də qəlbdə olduğuna görə etiraz edirsinizsə bu da mənasız deyil. "Bu dünyada hər şey öz ziddiylə tanınar" (Qəzali deyib). Əgər simiclik olmasaydı, haradan bilərdik ki, səxavət nədir. Əgər qorxaqlıq olmasaydı igidlik nə olduğunu və s. bilməzdik. Nifrət, kin – sevgi, məhəbbət; qəlbdə ikisi də var. Hansını seçirsənsə seç. Sevgi yolu səni Allaha doğru aparacaq, nifrət tonqalında isə özün də yanacaqsan. Əslində, bu mənfiliklər, şər ağac qabığı kimi şeydir, əbədi deyil.

Gərək bu qabıqdan keçəsən onun mahiyyətinə. Kamillik yoluna qədəm qoyan insan tədricən nifrətini, kinini sevgi odunda bişirir, Allahın gözü ilə görməyə, eşitməyə, duymağa başlayır. İnsanların şər əməllərini başa düşməyə, pisliyi bağışlamağa, hətta yaxşılıqla cavab verməyə çalışır.

Səhabələrdən bəziləri Həzrət Məhəmməddən (ə.) kafirlərə qarğış etməyi xahiş edəndə buyurmuşdu: **"Mən qarğış üçün yox, məhəbbət üçün gəlmişəm"**. Din də elə məhəbbətdir, mərhəmətdir, xeyirxahlıqdır. Əgər Yaradanı həyatdakı haqısızlıqlara, zülm hallarına görə "despot" adlandırırsınızsa, bu da əsassızdır. O, hər cür zülmə, ədalətsizliyə qarşı mübarizə aparmağı əmr etməmişdirmi? Necə ki, yuxarıda dediyimiz kimi, İmam Hüseyn (ə.) Yezid küfrünə, zülmünə qarşı qiyam elədi (otuz minlik qoşunun qabağına yetmiş iki nəfərlə çıxdı). Bu kimi sınaqda zülmkarlarla onlara qarşı duranlar seçilir, şəhidlik məqamına yüksəlirlər. İlahi istəyir ki, qəlblərdə olanlar əməllərdə də aşkar olsun, hər kəs özünün və digərlərinin həqiqi dəyərini bilsin. Ümumiyyətlə, hər dövrün öz Fironu və ona qarşı duran Musası olur. Musalar da bu bəlalardan, mübarizələrdən keçərək təkcə özlərini təsdiq etmir, həm də bəşər üçün bir örnək, nümunə olurlar. Ən yaxşı tərbiyə metodu elə nümunədir.

"Nə əkərsən, onu da biçərsən", "Zülm yerdə qalmaz" kimi atalar sözləri də İlahi ədalətin xalq tərəfindən təsdiqi deyilmi? Özü də İlahinin Qiyamət vədi var axı: **"...Qiyamət barədə öncədən verilən vəd olmasaydı, bu dünyanın özündəcə verilərdi cəzaları" ("Şura" surəsi, ayə 21)**. Hərgah elə bu dünyada da cəza alanlar az deyil.

**R.Behrudi:** Əgər hər şey Allahın əmrindədirsə, Qi-

yamət gününü yaratmağa nə ehtiyac vardı?

**F.Rüstəmli:** Siz elə düşünürsünüz ki, hər şey Allahın əmrindədirsə, insanın sərbəst iradəsi, əməl azadlığı yoxdur. Bu məsələ barəsində aşağıdakı fikirlər vardır:

1) Allahın iradəsi hər cür hərəkəti müəyyən edir, sərbəst iradə, sərbəst seçim yoxdur.

2) İnsan tam azaddır, Allahın iradəsindən kənardır.

3) İnsan nə tam azad, nə də tam müstəqildir, ikisinin arasındadır.

Əqli-məntiqi mühakimələr aydınca sübut edir ki, ilk iki baxış doğru ola bilməz. Əgər birinci baxışa görə, bizim sərbəst iradəmiz, azad seçimimiz yoxdursa, onda peyğəmbərlər, kitablar nə üçündür? Daha onda Cənnət (mükafat), Cəhənnəm (cəza) nəyə görə olmalı idi ki? Qiyamətdə qəbirlərdən qalxıb sorğu-suala tutulmağa nə ehtiyac vardı ki? Belə çıxır ki, insanlar İlahinin istəyi ilə günah iş görürlər və Cəhənnəmə gedirlər. Adil Allaha bu zülmü nişan verənlər haqdan yayınmışlardır.

İkinci baxış da heç cürə qəbul edilə bilməz. Əgər insanı Allah yaradıbsa, deməli, Onun məqsədi də vardır. Allah insanı tam sərbəst buraxsaydı, onu istiqamətləndirməsəydi, insan nə edə bilərdi? O, nəzarətsiz Haqq yoluyla gedə bilərdimi? Ələbəttə, yox. İnsanın nəfsani istəkləri onu tezliklə heyvandan betər vəziyyətə salardı.

Üçüncü baxış isə məntiqidir. İlahi insana müəyyən çərçivədə iradə verib, deməli, sərbəst seçim verib, habelə ona xeyir-şərin də nə olduğunu öz peyğəmbəriylə, kitablarıyla başa salıb. Ona görə də dində məcburiyyət yoxdur. Əgər məcburiyyət olsaydı, kimin qüdrəti çatardı Onun əmrlərini pozmağa, günah eləməyə. Allahın bizə açıq-aş-

kar nişanələri, dəlilləri o qədər çoxdur ki, gərək ibrət alaq, düz yolla gedək. Yoxsa məcburi edilmiş yaxşı əməlimizin nə dəyəri olardı ki? İmam Cəfər Sadiq (ə.) buyurmuşdur: "Bu, nə mütləqlik, nə qaçılmazlıq, nə də özbaşınalıqdır, ikisinin arasındadır". Deməli, Qiyamət də mənasız deyil. N.Tusi kimi mütəfəkkir demişdir ki, Qiyamət yoxdan yaradılma deyil, çürümüşlərin yenidən birləşdirilməsidir. Bu gün hər kəs öz əkdiyini biçəcəkdir, öz əməllərinin nəticəsini görəcəkdir. İlahi məntiq, İlahi ədalət də budur.

**R.Behrudi:** Allahı biz yaratmışıq; vardısa, yoxdusa da onu biz yaratmışıq. Yəni biz demədən O olmazdı ki?... Ola bilsin, bizsiz də var.

**F.Rüstəmli:** Bu fikirlər ateist deyimlərə oxşayır: "Allah bizi yox, biz Allahı yaratmışıq" (L.Feyerbax). Yəni onların fikrincə, yaranışın əsl səbəblərini dərk edə bilməyib, nadanlıqdan, qorxudan hər şeyi bir varlığa bağlamışıq. Həqiqət əhli bəs nə deyir? Alman Rudolf Otto 1920-ci ildə fəlsəfi yolla sübut etdi ki, dini hisslər – ifrat rasional hisslər bizim fitrətimizdədir, realdır. Biz desək də, deməsək də İlahi mövcuddur və özünün nişanələrini, dəlillərini (ayələrini) hər yerdə olduğu kimi, bizim də bədənimizdə, qəlbimizdə qoymuşdur. Ürəklər Allah eşqinə döyünür. Yeri gəlmişkən, türk cərrahına ürəkdə ərəbcə "Allah" sözünü oxumaq qismət olub. Ağıl sahibləri Onun varlığını həm ətraf aləmin vəhdətində, bağlılığında, möhtəşəm tarazlığında, düzümündə, həm özlərində (insan Haqqın sirli kitabıdır), həm də Onun göndərdiyi Kitablarında görmüşlər. Müdrik ərlər Allahı vasitəsiz (yəni yaratdıqları olmadan) də, Onun öz köməyi ilə tanımış, Onu vəsf etmişlər. Allahı tanımağın əsası, başlanğıc nöqtəsi özünü tanımaqdır. Özünü tanıyan

Allahını tanıyır. İnsanın qəlbinə düşən İlahi nur – iman onun varlığında təlatüm yaradır, onun qəlbinin gözünü açır və o, qəlbin gözü ilə Allahını görür.

**R.Behrudi:** "İnsan yer üzünün əşrəfidir" – deyimi cəfəngiyyatdır.

**F.Rüstəmli:** Siz deyirsiniz ki, ola bilsin böcəklər də belə fikirləşir. Rafiq Tağı da hansısa qəzetdə bu kimi fikir söyləmişdi. İlahi insana heç bir məxluquna vermədiyi azadlıq, sərbəstlik verib. Cisimlərdən başlayaq. Hər bir zərrəcik nüvə ətrafında öz orbiti boyunca hərəkət edir, Allahın təyin etdiyi yolun əksinə getmirlər (qanundan kənara çıxmırlar). Bitki dünyası çox zəif şüura malikdir (məsələn, xurma). Bitkilər də onlara müəyyən olunan qanundan kənara çıxa bilməzlər. Heyvanlar da müəyyən şüura malik olub, onlara tapşırılan işi görürlər. Bal arısı bal düzəldir və s. Heyvanlar fitrətlərində qoyulan biliklə iş görürlər: **"Rəbbin bal arısına belə vəhy etdi"** ("Nəhl" surəsi, 68-ci ayə). Bəlkə digər kamil məxluqat – mələklər azaddır, sərbəstdir? Yox, əsla! **Quran buyurur: "...Yox, mələklər möhtərəm bəndələrdir. Allahdan qabaq danışmaz, yalnız Onun əmri ilə iş görərlər" ("Ənbiya" surəsi, 26-27-ci ayələr)**. Bəli, mələklər də onlara tapşırılan vəzifələrini (insanların əməllərini yazmaq, onları qorumaq, ərzaq, yağış və s. ilə əlaqədar işlər) icra edirlər. Bəs insan necə? Yuxarıda dedik ki, insana dini vəzifələr vacib buyrulsa da, onlar bu işdə məcbur edilməyib. Eləcə də gündəlik işlərində sərbəst seçimə malikdirlər. İnsanlar digər məxluqatdan sərbəst iradəsi ilə üstündür. İnsana əql kimi elə bir nemət verilmişdir ki, o, əqlin köməyi ilə bir şeyin varlığından xəbəri olmadıqda belə nəzəri cəhətdən elmi

fikir söyləyir, sonra isə təcrübi dəlillərlə sübuta yetirir. Peronun ucunda səma cisimlərinin yerini təyin edir. Heyvanı kəsmək üçün kökəldirlər. O isə kökəlməkdə davam edir. Ölümün nə olduğunu bilsəydi heç kökələrdimi? İnsan elə bir qüdrətə malikdir ki, ağıl yolu ilə Allah-Təala və Onun sifətləri, isimləri haqqında şüurlu dərkə malik olur, Onun eşqi ilə yaşayır. Allah-təala insana ağıl verməklə kifayətlənməyib, onun ən kamillərinə vəhy də verib. Vəhy – İlahi həqiqətlər barədə elmin ən kamilidir. İndi özünüz deyin – insan hara, yalnız fitrətində qoyulan müəyyən biliyi olan, heç bir azadlığı olmayan heyvan, ya bitki hara! Müasir yazarlarımızın bir çoxunda insana inam, sevginin azaldığı aşkar görünməkdədir. İnsanı böcəklə müqayisə etmək mütəfəkkirlərimizin ağlına belə gəlməyib:

***Bir insanam, məqamım mələkdən də ucadır,***
***Can atdığım o dərgah fələkdən də ucadır.***

**Nizami**

“Məndə sığar iki cahan, mən bu cahana sığmazam” – deyən Nəsiminin əzəmətli insanı hara, böcəklə eyniləşdirdiyiniz insan hara?

Gəlin Yaradana, Onun “Quran”da and içdiyi insana (“And olsun insana, insanı kamil yaradana”) inamı itirməyək! Allah imanımızı kamilləşdirsin!

## ÖZÜNÜ TANIMAMAQ FACİƏLƏRİN KÖKÜDÜR
(Səbuhi Rəhimlinin müsahibəsi)

**– Son zamanlar dünya çalxalanmaqdadır. Sizcə, nə baş verir?**

–Rəhmətlik Sabir bunun hikmətini gözəl açıb: **“Çalxalandıqca, bulandıqca zaman nehrə kimi; Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur”**. Zaman çalxalandıqca hər şeyi öz yerinə qoyur, həqiqəti gün kimi aşkar edir, inkişafa əngəl olanlar aradan qalxır, yenisi ilə əvəz olunur. Bu, ilk baxışdan xaos (qarmaqarışıqlıq) kimi görünsə də, təbiətin entropiya qanunudur. Nizam-nizamsızlıq, tərəqqi-tənəzzül bir-birini əvəz edir. Müdriklər “xaos ən böyük qaydadır” – demişlər. Əslində, hər şey səbəb-nəticə qanunu əsasında baş verir. Xaos haqqında sistemli tədqiqat Nobel mükafatçısı İ.Priqojinə məxsusdur. O, elmi şəkildə sübut etdi ki, hər bir sistem xaos mərhələsinə çatdıqda, ya öz-özünə dağılır, ya da daha çox təkmilləşməyə qədəm qoyur. İnanıram ki, indiki təlatümlər də yeni inkişaf mərhələsinə təkan verəcək. Ayrı-ayrı dövlətlərin tarixini izlədikdə qarışıq zamanlardan sonra yüksəlişin başlandığını görürük. Zil qaranlıq sabaha yaxın olmurmu? Yeni Sutökən erasında – yeni kosmik enerji burulğanında özümüzü nə qədər narahat hiss etsək də, uyğunlaşmalı, köhnənin həsrəti ilə qovrulmamalıyıq. Bu, dəyişiklik xatirinə dəyişiklik deyil, labüd kosmik prosesdir. Sınaq dünyasında, tərbiyə məktəbində rahatlıq axtaranlar olmayan şeyi axtarırlar. Müxtəlif sınaqlarla İlahinin dərslərini mənimsəyir, hər qa-

nun pozuntusuna görə yetişən bəladan ibrət alır, ruhən təkmilləşirik.

**–Bəs bu mərhələdə konkret olaraq bizlərdən nə tələb olunur?**

– İnsan nə elektron deyil ki, azadlığı öz nüvəsi ətrafında fırlanmaqla məhdudlaşa; nə ot deyil ki, bitdiyi yerdə boy atmağa məcbur ola; nə də heyvan deyil ki, instinklərlə yaşaya. O, əqlə, iradəyə malik azad varlıqdır. Onun təfəkkürü, dünyagörüşü necədirsə, həyat tərzi də elədir. Bu baxımdan, özünü dərk etmədən, "biz kimik?", "haradayıq?", "hara gedəcəyik?" suallarına düzgün cavab tapmadan, həyatın mənasını, məqsədini bilmədən yaşasaq, səadətə, sülhə, azadlıq və ədalətə yetişməyəcəyik. İnsan – kainat-tərəqqi ideyalarına münasibət kökündən dəyişməlidir. Bu gün dünyada bir sıra ölkələr, doğrudan da, yüksək elmi-texniki səviyyəyə çatmışlar. Ancaq təəssüflər olsun ki, səylər, əsasən, insanların fiziki-bioloji tələbatını ödəməyə yönəlib. Zəkanın inkişafına fikir verilsə də, mənəviyyat yaddan çıxıb. Çünki həm özümüz, həm də dünya haqqında həqiqətlərə materialist elm, ona əsaslanan sivilizasiya pərdə çəkib. İnsanın daxili səsi – vicdanın səsi susdurulub. Yüksək İlahi dəyərlər texnogen cəmiyyətin fəsadları içində aşınır, tapdalanır. Kosmik – ruhi varlıq maddi maraqlar çərçivəsində yaşanmağa məhkum edilir. Daha çox güclüləri yaşamağa haqlı hesab edirlər.İnsanı təkcə çörək doyurarmı? Onun ruhu acdır. İndiki əsrimizdə beyni limhəlim informasiyalarla doldurb qəlbi ac yaşamağın nə dəyəri var? Bu gün Qərb demokratiyası ümid yerinə dönüb, hamı xilası ondan gözləyir. V.Qavel dediyi kimi, **yüksək mənəvi prinsiplərdən uzaq Qərb demokratiyası əzab**

**çəkən dünyamız üçün ümid yeri ola bilməz**. Tanınmış psixoloq S.Qrof deyir: **“Qərb texnologiyası hara aparılırsa, ənənəvi dəyərləri, ritual və mənəvi həyatı, sənəti və yaradıcılıq nailiyyətlərini məhv etməyə çalışır”**. Halbuki, biz onların beyinlərinin məhsulunu mənimsəyib, öz ruhumuzu əldən verə bilmərik. Böyük güclər təcavüzə məruz qalıb, torpaqları işğal olan ölkəmizdən təslimçilik, güzəşt tələb edirlər. Haqq-ədalət maraqlara qurban verilirsə, zor haqlı bilinirsə, hansı demokratiyadan danışa bilərik? Qərbin azadlıq ideyasının həqiqi azadlıqla nə əlaqəsi? Eqoizm, “mən azadam”, “mənim marağım hər şeydən üstündür” ideyası – Qərb şüurunda qələbə çalıb. Əslində, qanunların insana verdiyi azadlıq əsas məqsəd deyil, məqsədə çatmaq üçün vasitədir. Ondan düzgün istifadə edib kamilləşə də bilərsən, əksinə sui-istifadə edib, heyvandan betər vəziyyətə düşə də bilərsən. Necə ki, alkoqolizm, narkomaniya, QİÇS bütövlükdə mənəvi düşgünlüyün, azadlıqdan sui-istifadənin nəticəsidir. Bircə faktı deyək ki, bu il İngiltərədə alkoqolizm keçən ilə nisbətən düz iki dəfə artıb. Qabaqcıl ölkələrdə zahiri cəhətdən yaxşı təsir bağışlayan ictimai münasibətlər (bir-birinin haqqına hörmət) mənəvi iflasın qarşısını ala bilmir, hətta mənəvi sədləri vurub dağıdan iyrənc əməllərə qanuni don geyindirirlər. Eyni cinslərin “nikahı” mənəvi aşınmanın qırmızı həddi deyilmi? Azadlıq meyarını bilmirlər, çünki nə özlərini, nə də Yaradıcını tanımayıblar. Bu isə sərbəstlikdən sərməstliyə keçid deməkdir. Sualınıza gəlincə, indiki mərhələ bizdən şüurda  inqilab – şüurun materialist izahından əl çəkməyi, həqiqi dəyərlərə üz tutmağı tələb edir. Şüuru, idrakı, həyatı Yaradana yox, materiyaya bağlayanlar İlahi

qanunlarla yox, şəxsi mənafe prinsipləri ilə yaşayırlar. Bu isə fəlakətlərə yol açmaq deməkdir. Şüurda inqilab – yeni münasibətlər sistemi, yeni siyasət, yeni iqtisadiyyat, yeni mədəniyyət deməkdir.

**Elm bizə dünyanı tanıdırsa, din özümüzü tanıdır.**

**–Belə başa düşdük ki, siz bu yolun din yolu olduğunu demək istəyirsiniz.**

–Daha dəqiq desək, dinlə elmin, fəlsəfənin qovuşması yolunu nəzərdə tuturam. Təkcə elm bəşərin gəmisini batmaqdan xilas edə bilməz. İndi elm maddiyatçıların, öz hərbi qüdrətlərini artırmaq istəyənlərin əlində əsirə çevrilib. Elm bizə dünyanı tanıdırsa, din bizə özümüzü tanıdır. Bizə ali həqiqətləri çatdıran, insanlığımızı qoruyub saxlayan əsrlər boyu din olmayıbmı? Vaxtilə elmlə dini vəhdətdə götürüblər. Nyuton: **“Mən təbiət qanunlarını Allah qanunlarından çıxarıram”** – demişdi. XIX əsrdə dinə qarşı Avropada yaramaz qiyam başladı. Onun kökündə həm də orta əsrlərdə kilsənin elmə, alimlərə qarşı cahil, mürtəce münasibəti dururdu. Qalileyin, Brunonun, Kopernikin başına gələnləri xatırlamaq kifayətdir. Bunu görən Avropa alimləri və onların təsirinə düşən Şərqin qabaqcılları, ümumiyyətlə, dinə qarşı müxalif oldular. Halbuki, **“həqiqi elm Allahın yaratdıqlarını başa düşmək üçün bir açardır” (Nobel mükafatçısı Əbdüssalam)**. Həqiqi elm dinə zidd ola bilməz. Dinsiz elm mənəviyyatsızlığa, Allah hədlərini vurub keçməyə, nəhayət, mənhvə; elmsiz din xurafata, şübhəyə, tərəddüdə, sonda inamsızlığa aparır. İkisinin vəhdəti isə həqiqətin cilvələnməsi deməkdir.

K.Sialkovski, V.Y.Vernadski kimi alimlər XX əsrdə təsdiq ediblər ki, insanlar qarşısında əsrin sonunadək elmin

və dinin elmi əsasda sintezini həyata keçirmək kimi mürəkkəb bir vəzifə durur. Əgər bəşər onu həyata keçirsə, yaşayacaq; əksinə olarsa, özünün şər psixi enerjisindən məhv olacaq. Onlardan çox-çox qabaq bəşəriyyətin müəllimi **Həzrət Məhəmməd (s.a.s.) xəbərdarlıq etmişdi: "Din və elm əkiz qardaşlardır. Onlar bir-birindən ayrılsalar, cəmiyyət yanıb kül olar"**. Dinə keçid zahiri əməllərdən batini nurlanmağa, İlahi təbiətimizi dərk etməyə, nəhayət, İlahi məhəbbətə yetişmək deməkdir. Elmi dərk, ruhi yüksəliş olmasa, digərləri ilə konfliktə gətirir. Halbuki, ruhi yaşantı kinə-nifrətə, fanatizmə, terrora yox, əməkdaşlığa, məhəbbətə gətirər. Biz çox görmüşük ki, dini inkar edən öz ağlını, qabiliyyətini mütləqləşdirir, özünə pərəstiş edir: **"Nəfsini özünə tanrı edəni gördünmü?" (Casiə; 29).**

**İdarəçilik işıqlı insanların əlində olsa, zəmanə də işıqlı olar.**

**– Sizcə, qlobal problemlər, müharibələr elə bundan qaynaqlanarmı?**

– Problemlər içimizdədir. Əgər içimizdə sülh yoxdursa, xaricimizdə necə sülh ola bilər? Əgər insanı kobud materializm, eqoist istəklər idarə edilsə, daxili harmoniya – qəlbin və idrakın harmoniyası yoxdursa, xaricdə harmoniya necə ola bilər? Özünü tanımamaq faciəsi digər faciələrə yol açır. S.Vurğunun "qalib gələcəkmi cahanda kamal?" – sualı hər şeydən əvvəl dövlət rəhbərlərinə verilməlidir. İdarəçilik işıqlı insanların əlində olsa, zəmanə də işıqlı olar. Sokrat siyasət öyrətdiyi gənclərə ilk növbədə nəfsinə hakim olmağı öyrədirdi. Hissi ləzzətlərə, şöhrətpərəstliyə aludə olanlar özlərini də bədbəxt edər, xalqlarını da. Əgər

dünyada silahlanmaya çəkilən xərclər digər qlobal problemlərin həllinə yönəldisə, çox şeyə nail olmaq olar. Bu gün təbiət insan əlindən inləyir. Şüurumuzda təbiətə qarşı üç element var ki, onlar təbiəti də, özümüzü də məhv etməkdədir: təbiətə mexaniki baxış, zorakılıq, acgözlük.

F.Bekon "təbiətdən mərhəmət gözləməyək" – deyirdi. Nəticə nə oldu? Təbiətin dəhşətli istismarı fəlakətlərə yol acdı.Əcdadlarımız Yeri canlı hesab edir; dörd ünsürü – odu, suyu, havanı və torpağı müqəddəs bilib, onu murdarlamağı böyük günah hesab edirdilər. Görün, o təfəkkür tərzindən nə qədər uzaqlamışıq!? Tədqiqatlar sübut etdi ki, Yer, həqiqətən, canlı, mürəkkəb bir orqanizmdir.  O, energetik bir sistem kimi özündəki mənfi enerjini müxtəlif üsullarla kənara atmaq qabiliyyətinə malikdir.  Bir çox hallarda fəlakət və qəzalar bizim hərəkətlərə cavab reaksiya kimi meydana çıxır. Bu da "Quran" həqiqətinin təsdiqidir: **"İnsanların öz əməlləri üzündən quruda və suda fəsad aşkara çıxdı ki, Allah onlara etdikləri əməllərin bir qisminin cəzasını dadızdırsın. Ola bilsin ki, qayıdalar" (Rum; 41)**. Tədqiqatçılar onu da müəyyən etdilər ki, Yerin dalğa tezliyi uzun illərdə sabit olan 7,8 hs.-dən 11,8 hs-ə çatıb. Yerin nəbzinin bu cür artması zorakılığa etiraz deyilmi? O da müəyyən olunub ki, sosial gərginliklər də onun nəbzini artırır. Deməli, düşüncələrimiz, emosiyalarımız, əməllərimiz bilavasitə Yerə təsir edir. Rəsuli-Əkrəmin (ə.) ifadə etdiyi **"Sələmçilik artanda zəlzələr artır"** – həqiqətini unutmamalıyıq. 2001-ci ildə bir qrup alimin belə bir müraciəti yayılmışdı: **"Bəşəriyyətin qlobal böhran vəziyyətinin əsasında ətraf aləm haqqında təhrif təsəvvür durur. Son illərin elmi nailiyyətləri kainatın o modelini**

**işləyib hazırlamağa kömək edir ki, bu obyekt Allah tərəfindən yaradılmış ruhi (mənəvi), maddi obyektdir; insan da burada Allahabənzər mərkəz fiqurdur”**. Deməli, Allah tərəfindən yaradılan canlı kainat ideyası təfəkkürümüzün, təbiətə münasibətimizin buzunu sındırmalı, şüurumuz kosmik səviyyəyə qalxmalıdır. Ümumiyyətlə, təhsil sisteminin məzmununda köklü dəyişikliklər tələbi elmin son nailiyyətlərinin diqtə etdiyi zərurətdir.

Bu gün sayı getdikcə artan psixi xəstəliklərin kökünü ruhun onu Yaradandan uzaq düşməsində axtarmaq lazımdır. Məşhur psixoloq Karl Yunq əvvəl insan davranışlarının əsas səbəbi kimi cinsi istəkləri götürsə də, sonra müəllimi Freyddən uzaqlaşdı və öz tədqiqatı ilə belə bir nəticəyə gəldi ki, insanın psixi sağlamlığı üçün zəruri şərt Yaradana inamdır. Qəlbin rahatlığı Ona bağlılıqdadır: **“Allahı yad etməklə ürəklər aram olur”** (“Rad”; 28).

**Cəmiyyətin mənəviyyatı onun iqtisadi vəziyyətini müəyyənləşdirir**

**– Güman ki, maliyyə böhranı da bundan doğur.**

– İqtisadçılar, təbii ki, iqtisadi amilləri, iqtisadi qanunların pozulmasını əsl səbəb kimi göstərirlər. Kvant fizikası sübut etdi ki, hər bir proses əvvəl sahə səviyyəsində baş verir, sonra fiziki planda reallaşır. Hər cür iqtisadi, sosial hadisə bu cəmiyyətin mənəvi sahə strukturu ilə təyin olunur. Yəni, cəmiyyətin mənəviyyatı onun iqtisadi vəziyyətini müəyyənləşdirir. Cəmiyyət mənən saflaşarsa, ondan asılı olaraq, iqtisadi-sosial vəziyyət də yaxşılaşar. Deməli, maliyyə böhranı bir siqnaldır ki, bəşər həqiqi məqsədlərindən uzaqlaşmasın. Bəşər dedikləri bir bədəndir: ürəklər birləşsə, bütün dərdlərin birgə çarəsini tapmaq mümkün-

dür. Qarşılıqlı ittihamlar, münasibətlərdəki qeyri-səmimilik zülmət doğurur. Bu zülməti isə məhəbbətin işığı ilə qovmaq olar. **Konfutsi demişkən: "qaranlığı lənətləməkdənsə, şam yandırmaq lazımdır"**. Özü də bu şamı hər kəs öz içində yandırmalıdır. Oradan nifrəti, qəzəbi, eqoizmi, hər cür yaramazlığı qovmalıdır. Qəlbi təmizləməsək, ora məhəbbət nuru necə daxil ola bilər? Məhəbbət kainatda ən böyük qüvvə, enerji mənbəyidir. Odur insanın yaradıcılıq potensialını açan, onu dərketmənin yüksək dərəcəsinə çatdıran. Qəlbimizdə eşq nə qədər güclü olarsa, öz İlahi "Mən"imizi bir o qədər real şəkildə hiss edər, ətraf aləmi daha dərindən dərk edər, bir-birimizə daha yaxın olarıq. Məhəbbət xeyirxahlıq gətirər. Xeyirxahlıq isə gözəllikdir.

**"Dünyanın sonu Qərb şüurunun məhsuludur"**

**– Siz dünyanın xilasından bəhs edirsiniz. Amma son vaxtlar dünya 2012-ci illə bağlı bərk təşviş içindədir.**

–Bu təşvişin bir neçə səbəbi var. Əvvəla, 2012-ci ildə mayya təqviminin 5125 illik tsiklinin başa çatmasını kimlərsə dünyanın sonunun çatması kimi qiymətləndirirlər. Əslində, bu təqvimə görə, həmin ildən VI era başlayır. Mayyalıların 8 min illik digər tsikli isə 4846-cı ildə başa çatır. Hər xalqın öz təqvimi, hesabat sistemi var. Buna görə narahatlığa heç bir əsas yoxdur. Həyəcana digər səbəb həmin ilin 22 sentyabrında Günəşdə güclü alışmanın gözlənilməsidir. Bu alışmanın Yerdə elektron avandanlıqlarını sıradan çıxararaq insan tələfatlarına gətirəcəyi ehtimal edilir. Yer birinci dəfə deyil ki, belə alışmanın təsirinə məruz qalır. Həyəcan yaradan bir səbəb də Nibiru planetidir. Bu planet ta qədimdən şumerlərə məlum idi. Onlar hesab edir-

dilər ki, Nibiru (Marduk) Yupiter və Mars arasında yerləşir və onun sakinləri var. Şumerlər onları "nefilimlər" adlandırırdılar. Şumer daş kitabəsində belə yazı qalıb: "Bizim müəllimlərimiz Nibirudan gələnlər olub". Yeri gəlmişkən, Vanqa da 1978-ci ildən Vanfim planetindən gələnlərlə əlaqə saxladığını demişdi. Şumerlərin gil löhvələrində Neptun, Pluton təsvir olunub. Onlar əvvəlcədən deyiblər ki, 3600 illik fırlanma perioduna malik Nibiru Yerin yaxınlığından 2010-2038-ci illər arasında keçəcək. Astronomlara görə, 21 dekabr 2012-ci ildə Nibiru Yerin ekliptikasından, 14 fevral 2013-cü ildə isə Yer Günəş və Nibiru arasından keçəcək. Bu zaman Yerdə qütblərin sürüşməsi, mailliyin dəyişməsi nəticəsində təbii fəlakətlərin meydana çıxması gözlənilir. Ancaq bu da son deyil; inşallah, ondan da keçəcəyik.

**–Fərzalı müəllim, sizcə, niyə vaxtaşırı "dünyanın sonu" təbili çalınır?**

–Dünyanın sonu haqqında tez-tez vaxt təyin etmək Qərb şüurunun məhsuludur. Xüsusən, hər minilliyin sonunda bu sindrom baş qaldırır. 1000-ci ildə Avropada çoxları tabutda uzanıb son anı gözləyirdilər. Ürəkləri döz-məyib, elə tabutdaca canlarını tapşıranlar da az olmadı. Burada bir ibrətamiz əhvalatı yada salaq. Makedoniyalı İsgəndər Hindistana yürüş zamanı eşidir ki, mağarada meditasiya ilə məşğul olan bir yoq gələcəkdən xəbər verə bilir. O, yoqun görüşünə gəlib öz gələcəyi haqqında soruşur. Yoq onun sualına astadan: "son anda sənə altı dirsək torpaq qalacaq" – deyir. Budur müdrik öncəgörmə! Hamıya aiddir. İnsan dünyanın sonu barədə bir şey bilməsə də, öz həyatının sonu haqqında yəqini var. Elə buna görə də axirət azu-

qəsi hayına qalmalıdır. Bir şeyi aydın bilməliyik ki, dünyada hadisə, proseslər xətti-məntiqi sxemlər üzrə baş vermir, müxtəlif inkişaf variantları mümkündür. Bu variantlar insanların, bütövlükdə cəmiyyətin əməllərinin nəticəsi olaraq dəyişə bilər. Bu da təbiidir, axı insanın əqli, seçim qabiliyyəti və buna görə məsuliyyəti var. Keçmiş, bu gün və gələcək bir-birinə bağlıdır. Bu gün özümüzü layiqincə islah edə bilsək, gələcək həyatımızı da yaxşılaşdırılmış olarıq. Həqiqətin meyarı Allah Kəlamıdır – Qurani-Kərimdir. Bu kitabın məntiqindən çıxış edərək qəti deyə bilərik ki, Allahın vədi gerçəkləşmədən dünyanın sonu ola bilməz.

**–Hansı vəd?**

–Yer üzünə saleh bəndələrin varis olacaqları barədə vədi: **“Biz Tövratdan əlavə, Zəburda da yazmışıq ki, həqiqətən, yer üzünə saleh bəndələr varis olacaqlar” (“Ənbiya”; 105)**. Bu haqda digər ayələr də var. Dünyada bir xilaskarın zühur edəcəyi bütün dinlərdə qəbul edilən məsələdir. İxtilaf o xilaskarın məhz kim olacağı barəsindədir. Peyğəmbər (ə.) nəslindən bir nəfərin yer üzündə islam hökümətinin bərpası məqsədilə zühur edəcəyi dinimizin əqi-də prinsiplərindən biridir. Bu haqda mötəbər hədislərin sayı 657-dir. Rəsuli-Əkrəm (ə.) buyurub: **“Dünyanın sona çatmasına bircə gün qalsa belə, Allah həmin günü o qədər uzadar ki, mənim övladlarımdan (nəslimdən) bir nəfər qiyam edib Yer üzünü ədalətlə doldursun”.**

Məsum İmam (ə.) yer üzündə tövhid bayrağını ucaldaraq ədaləti bərpa etmək kimi çox ülvi bir amalı gerçəkləşdirmək üçün intizardadır. Bu amalın həyata keçməsi üçün müəyyən zaman keçməsinə, insanların əql və biliyinin inkişafına, psixoloji-mənəvi hazırlığına ehtiyacları var

ki, ədalət və azadlıq imamını layiqincə qarşılasınlar. Zülmətə düşmüş bəşər o zaman ədalətə, İlahi hökümətə elə təşnə olacaq ki, Ağanın (ə.) gəlişinə susuzluqdan ciyəri yananın su tapanda sevindiyi kimi sevinəcək. Məhz onda Məhəbbət və Kamal qalib gələcək. O mübarək gəlişin ili gizli, günü isə bəllidir: cümə.

**–Zühur əsrində yəqin ki, Azərbaycanın da üzərinə xüsusi missiya düşəcək.**

–Allaha şükürlər olsun ki, yurdumuz Əhli-beytsevərlər yurdudur. Bu səbəbdən, təbii ki, zühur əsrində öz sözünü deyəcək. İmam Cəfər Sadiq (ə.) buyurur: **"Azərbaycan bizim üçün hökmən lazımdır. Heç bir şey onun qarşısında müqavimət göstərə bilməyəcək. Bizim inqilabçımız qiyam edən zaman hətta qarın üzərində sürünə-sürünə getmək lazım olsa belə, ona doğru tələsin" (Əli Kurani, "Zühur əsri")**. Əmirəlmöminin (ə.) isə xilaskarın zühurunun türklərin coşub hərəkətə gəlmələri ilə eyni vaxtda olacağını xəbər verir: **"Oğlum, türklər coşub hərəkətə gəlsələr, İmam Mehdinin (ə.) vilayətini gözlə. O, qiyam edib, ədaləti bərpa edəcək"** (Həzrət Əli (ə.), "Divan", səh.117).

2009

## ETİBAR ELKİN İLK CIĞIRAÇANIMIZ OLUB

(X.Xaçayqızı ilə söhbət)

**– Fərzalı müəllim, sizin üçün Etibar Elkin kimdir?**

– Bu gün çoxları özünü ekstrasens, maq və s. adlandırır. Buğdanı onun qabığından ayırmağı, seçməyi bacarmaq lazımdır. O, Yuxarıdan seçilmişlərdəndir. Özü haqqında sərrast dediyi kimi **"Özgələrin dərdinə durmadan çarə axtaran, Allahı mümkün qədər dərk etməyə çalışan mürid"** idi. Şəxsiyyətə qiyməti onun yaşadığı dövrə görə verirlər. Bu dövr böyük təlatümlər dövrüdür. Yer özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. İlahi çağırış səslənir ki, maddi istəklər ağuşunda çabalamaqla kamillik yoluna çıxmaq olmaz. Bu çağırışa keçmiş İttifaqda birinci cavab verənlər – "pionerlər" arasında Etibar Elkinin öz rolu vardır. Ezoterik (gizli) elmlərin (astrologiya, parapsixologiya, numerologiya və s.) qadağan edildiyi bir vaxtda onun təbliğinə başlamaq təqiblərlə, maneələrlə üz-üzə gəlmək demək idi. Etibar kimilər ağır sınaqlarla üz-üzə gələn insanları mənəvi-ruhi cəhətdən baş verən dəyişikliklərə hazırlayırdı. Onlara inam, ümid verir, Böyük Yaradana doğru istiqamətləndirirdilər. Bu cür adamlar haqqında belə deyilib: **"Onlar ya olduqca qədim dövrün, ya da olduqca uzaq gələcəyin insanlarıdır".** Əslində isə onlar Allahın hökmü ilə içərilərindəki nurdan ehtiyacı olanlara pay verənlər min illər öncə də vardı, indi də var, gələcəkdə daha çox olacaq. Belə insanlar hərtərəfli qabiliyyətə malik müdriklərdir.

Etibar Seyid kimi (O, Museyi-Kazım nəslindəndir – F.R.) böyük bir nəslin ruhi enerji daşıyıcılarındandır. Tale elə gətirib ki, milli ruhumuzun (hər bir millətin, xalqın öz ruhu var) bayraqdarlarından birinə çevrilib. Akademik A.Spirkin heç də nahaq yerə onu Cunadan, Kaşpirovskidən yüksək hesab edərək, "böyük və işıqlı insan" adlandırmayıb. O, doğrudan da, işıq saçırdı.

**– Bəs o, Azərbaycana nə verdi?**

– O, sağlığında Azərbaycandan daha çox digər respublikalarda, o cümlədən Rusiyada yaxşı tanınırdı. Burada sadə bir hikmət gizlənir. Böyüklük həmişə təmasda olduğun adamlar üçün adidir. Bu böyüklük kənardan daha yaxşı görünür. Etibar Elkin ilk cığıraçan kimi yaddaşımızı silkələdi. O, klassik təbabətin ölkəmizdə dirçəlməsinə təkan verdi. Göstərdi ki, müalicə üçün heç də həmişə dərmana, bıçağa əl atmaq lazım deyil. Şərq ənənəvi təbabətində olduğu kimi, ayrı-ayrı orqanların xəstəliyini yox, xəstənin ruhunu müalicə etmək lazımdır. O, sözlə, dua ilə, bioenerji ilə, o cümlədən, otlarla müalicənin praktik yollarını göstərdi. Bu sahədə qabiliyyəti olan şagirdlər yetişdirdi. Fərdi fəaliyyətlə məşğul olanlardan fərqli olaraq bir məktəb yaratdı – Etibar Məktəbi. O, əzəmətli şəxsiyyəti və nüfuzu ilə bu Məktəbin davamçılarını bədxahların hücumlarından qorudu. O, tələbələrinə, eləcə də müraciət edənlərə öyrədirdi ki, insan bədən və ruhun vəhdətidir; mürəkkəb, energetik, çoxölçülü varlıqdır. Faciələrimizin də səbəbi ruhi-mənəvi boşluğumuzda, özümüzü tanımamağımızdadır. O, ölkəmizdə uzun illər boyu yaranmış inam boşluğunu, ateizm əhval-ruhiyyəsini aradan qaldırmaq üçün mübarizə aparırdı. Yaramaz məqsədli dini missionerlərə, özlərini

“peyğəmbər” adlandıranlara qarşı çox amansız idi. Bəzən bədxahların yersiz hücumundan daxili narahatlığı yüksək həddə çatanda o, dərvişanə bir görkəm alır və deyirdi: **“Baş götürüb gedəsən çöllərə, səhralara, fikrin-zikrin də yalnız bu ola: La ilahə illəllah!”**. Elə ona güc verən də bu kəlmənin onun qəlbində, ruhunda hər an səslənməsiydi. Etibarda daxili kədər, dünya kədəri nə qədər güclü olsa belə, ətrafındakılar onun yalnız işıqlı təbəssümünü, nurlu çöhrəsini görürdülər. O, öz fəaliyyətilə bilavasitə sübut edirdi ki, elmi həqiqətlər təbiət elmləri, fəlsəfə, ilahiyyat və ezoterik (gizli) elmlərin qovşağında açıla bilər. Bu, predmetin mahiyyətinə pəncərə açmaq deməkdir, hərtərəfli baxış deməkdir. Akademik Spirkinin təsdiq etdiyi kimi, onun fəlsəfə, psixologiya, eləcə də astronomiya, astrologiya, incəsənət, poeziya və s. dair bilikləri heyrət doğururdu. Bu gün qabaqcıl alimlər təkcə dünyəvi elmləri deyil, ezoterik, mistik elmləri də öyrənir, Etibarın dediklərini bir daha təsdiq edirlər.

**– Mümkünsə, onu ekstrasens kimi xarakterizə edərdiniz. Məsələn, əllə müalicənin elmi izahı necədir?**

– “Ekstra” – ifrat, “sensus” – hissiyyat deməkdir. Ekstrasens dedikdə yüksək hissiyyatlı, yüksək duyumlu insan nəzərdə tutulur. Ancaq hər ekstrasens də müalicə edə bilməz. Yüksək duyumu olmaqla yanaşı Etibar güclü, işıqlı enerji ehtiyatına malik şəfakar idi. Əllə müalicənin mahiyyətini bilmək üçün insanı bir varlıq kimi düzgün dərk etməliyik. İnsan sadəcə bioloji varlıq deyil. Kvant Təbabəti İnstitutunun Tibb Mərkəzinin rəhbəri Yuri Xeyfeçin dedikləri də bunu təsdiq edir. O, Kvant fizikasının nailiyyətlərinə istinadən deyir: **“Bizim maddi bədənimizin dalğa əksi**

**var** (Yəni fiziki bədəndən əlavə energetik bədənimiz də var – F.R.). **Genetik informasiya dalğa əksimizdədir. Orqanizmin işində bütün dəyişikliklər (müsbət və mənfi) əvvəlcə bu dalğa əksində başlayır. Sonra isə in-formasiya maddi bədənə verilir. Bədən zəifləyir, ya da güclənir".** Ekstrasens insanı əhatə edən aurada – enerji-informasiya sahəsində hər cürə kənara çıxmaları (enerji zəifliyini və ya artıqlığını) öz enerjisi ilə nizamlayır, bio-enerjinin normal paylanmasını təmin edir. Bu isə öz təsirini bədəndə göstərir. Məlumdur ki, əllə və ya fikri təlqinlə bəşəriyyətin böyük müəllimləri, peyğəmbərlər və digər müqəddəslər də müalicə edərmişlər (Konfutsi, Musa (ə.), İsa (ə.) və s.). Qədim şumerlərdə, ink, mayya və s. tayfalarda da, bu cür müalicə üsulundan istifadə olunub (Midiyada isə yüksək inkişaf mərhələsinə çatıbmış). Hələ keçən əsrimizdə Seyid Mir Möhsün Ağanın şəfaverici gücə malik olması hamıya bəllidir. E.Elkin də uzaq məsafədən müalicə edə bilirdi. Hələ Homerin "Odisseya" əsərində sözlə, uzaq məsafədən, fikrən təsirlə müalicədən söhbət açılır. Fizikanın son nailiyyətlərindən olan torsion sahənin aşkara çıxarılması bunun mahiyyətinə işıq salır. Məlum olmuşdur ki, torsion dalğalar elektromaqnit dalğalardan fərqli olaraq istənilən maneəni aşıb uzaq məsafələrə ötürülmək xüsusiyyətinə malikdirlər. Ekstrasens öz psixi enerjisini – torsion dalğaları uzaq məsafəyə göndərməklə xəstənin biosahəsində energetik tarazlığı bərpa edir. Yuxarıda dediyimiz kimi, bu, orqanizmin güclənməsi deməkdir. Belə metodla həqiqi ekstrasens xəstəni Yer kürəsinin istənilən nöqtəsində müalicə edə bilər (Etibar müəllim kimi).

**– Bəs öncəgörən kimi onun üstünlüyü nədə idi?**

Onun yüksək görücülük qabiliyyəti haqqında çox deyilib və çox yazılıb. Ancaq o, aydın dərk edirdi ki, çiyninə götürdüyü yük heç də insanların keçmişini, gələcəyini söyləməkdən ibarət deyil. O çalışırdı ki, ona müraciət edənlər həyata baxışlarını, həyat tərzlərini dəyişsinlər, mənəvi qanunları tapdamasınlar. Yoxsa müalicənin faydası olmayacaq, həyat problemləri də çözülməyəcəkdir. Problemlərimizin kökü özümüzdədir, daxili dünyamızdadır. **Etibar Elkin böyük iş görürdü – insanı insanlığa səsləyirdi.**

**– Görünür, mərhumla bağlı qəlbiniz doludur...**

– Təbii... Ancaq xatirələr kələfini çözmək bu müsahibədə imkansızdır. İndi bizim ruhlarımız yuxularda görüşür. Onunla bağlı xatirələrimi eyni məslək adamı kimi fəxrlə danışıram. Bir gün onun şəkli olan otaqda tələbələri ilə söhbət edirdik. Söhbətimizin mövzusu yenə O idi. Onlar qəflətən söhbəti kəsib qeyri-adi, mənalı-mənalı baxışdılar. O, yenə gəlmişdi. Ruhu başımızın üstündəydi (Dünyadan cismən getmiş hər bir adam haqqında danışanda onunla ruhi-energetik əlaqə yaranır – F.R.). O, şagirdlərinə nə desə yaxşıdır: "Çox tərifləyir məni..."

**– Heyif ki, üzərinə götürdüyü missiya yarımçıq qaldı.**

– Əslində o, nə lazımdırsa elədi. Buzu sındırdı, yol açdı, bu yolun ilk yolçularını yetişdirdi. Qəti əminəm ki, onlar da ölkəmizdə ruhi-mənəvi yüksəlişə təkan verəcək, ruhi elmlərin təbliğində öz sözlərini deyəcəklər.

**İstəkli oxucular, həqiqət və xeyirxahlıq naminə mübarizədə gəlin biz də öz qüvvələrimizi birləşdirək!**

## RƏBBİMİZ BİZİM DİLDƏ DANIŞIR

Bismilləhir Rahmənir Rahim

Hər şey İlahi nişanədir.

Baş Rəssam kainat adlı sərgisini gözlər üçün açıq qoyub: bax, zövq al, düşün, dərk elə, ibrət al, əməllərini düzəlt, qəlbini nurlandır! Hə görürsənsə (görmədiyimiz, daha doğrusu, görə bilmədiyimiz əqlin çərçivəsinə sığışan deyil – F.R.) təsadüfi yaratmamışam, onlar sənin üçündür, sənin xidmətindədir, sən bu aşkar dəlillərin yanından saymazyana keçməli deyilsən, onların mənasına varmalısan. Doğrudan da, Rəbbimizin bizim üçün tərbiyə bağçası, sınaq məktəbi qərar verdiyi dünyamız nə gözəldir, nə ibrətamizdir! Gözəl Allah hər şeyi gözəl yaratdı. Dünyada möhtəşəm bir nizam, qanunauyğunluq vardır. Ən xırda həşəratdan ən böyük varlıqlara qədər bir-biri ilə vəhdətdədir, bağlıdır. Dünya canlı bir ürək kimi döyünür. Ondakı bu vahidliyi, əlaqəni və mütəşəkkilliyi görəndə Yaradıcını görmürüksə, bəs nəyi görürük? Eyni güldən ilan zəhər çəkir, arı bal. İlan zəhərindən isə dərmanlar hazırlanır (zəhərdə şəfa qərar verənin qüdrətinə alqışlar olsun!). Demək olar ki, eyni yumurtalardan çıxan cücələrdəki rəngarənglik bizə çox şey demirmi? Rənglərin heyrətamiz şəkildə qovuşuğu məgər təkcə cücədədirmi? Böyük Hizami nə gözəl deyib:

***Bircə qarışqanın qanadında sən,***
***Tanrı qüdrətini görə bilərsən.***

A.Eynşteyn kimi fikir sahibi **“Mütləq ağıllı, qadir bir qüvvə vardır ki, bu aləm özü onun varlığına açıq və möhkəm dəlil, nişanədir”** – demişdir. İbn Sina isə kainatdakı harmoniyaya, əzəmətə heyrətini belə ifadə etmişdir:

**“Əgər mənə bir aləm yaratmaq təklif edilsəydi, mən də bu cür yaradardım”**. Bir sıra bəsirət gözü, qəlb gözü bağlı olanlar isə bütün bu açıq-aşkar dəlil-sübutları, nişanələri, hikməti təbiətin, ondakı qanunauyğunluqların adına yazmış, Yaradanı tanımamışlar. Məgər xörək aşbazın, paltar isə dərzinin varlığına sübut deyilmi?

Biz bütün İlahi dəlilləri aydınca görürük. Dünyada hökm sürən qanunların mahiyyətini isə dərk edə bilmirik. Məşhur fizik Maks Plank demişdir: **“...Fizik bu fikri əsas götürməlidir ki, real dünya bizim üçün anlaşılmaz olan qanunlara tabedir”**. Biz bu dünyanın yalnız zahirini bilirik, axirətdən – ruhi aləmdən isə büsbütün xəbərsizik. Rəhman Qurani-Kərimdə bizə öyrənmək üçün üç kitab tövsiyə edir: kainat kitabı, vəyh kitabı (“Quran”) və insanın özü. İndi şüurumuzun elə bir inkişaf mərhələsinə çatmışıq ki, yalnız mərkəzi kitabxanalara üzv yazılmaqla, həqiqi bilik sahibləri, dərk edənlər cərgəsinə daxil ola bilmərik. Biz Kainatın Baş Kitabxanasına üzv yazılmalıyıq. Dərk etməliyik ki, biz kosmik, ruhi varlığıq. Düşüncəmiz, yaşayış tərzimiz kosmik səviyyəyə qalxmalıdır. Bu yol isə İlahi nişanələrə ibrətli baxışdan, qəlbin paklığından keçib gedir. Qurani-Kərimdə buyrulur: **“Quranın haqq olduğu müşriklərə bəlli olsun deyə, biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə, həm də onların öz daxilində mütləq göstərəcəyik” (“Fussılət” surəsi, 53-cü ayə)** və yaxud **“Bir baxıb görələr dəvə necə yaranmış; Görələr göy necə ucaldılmış; Görələr dağlar necə yerə tikilmiş; Görələr yer necə döşənmiş; Andırsana bunları insanlara, inandırmaqdır sənin borcun onlara”** (“Ğaşiyə” surəsi, 17-21-ci ayələr).

Peyğəmbər Əleyhissəlama müraciətlə deyilən bu ayələrdə Yaradan öz qüdrətini kafirlərə bildirmək üçün dəvənin, asimanın, Yerin və dağların yaranışını onlara misal çəkir, hikməti anlamağa çağırır. Xoş o adamın halına ki, təkcə əqlinin gözü ilə yox, həm də qəlbinin gözü ilə baxır bu nişanələrə, dəlillərə. Çünki əqlin gözü birdirsə, qəlbin gözü minbirdir. İman qəlbin gözlərini açır, insan imanla – Allah nuruyla əqlin dərk etmədiyini görür, bilir. Axirəti yalnız iman gözü ilə görmək olar. İman isə dərindən dərk edilmiş biliklə qovuşanda həqiqət qarşımızda cilvələnir. Böyük Yaradan "Quran"da bizə aşağıdakı ifadələrlə müraciət edir: "fikirləşmirsinizmi...", "bilirsinizmi...", "düşünürsünüzmü...", "bəlkə düşünəsiniz...". Düşüncə, əqli mühakimə, dəlil yolu ilə Allahı tanımağa dəvət "Quran"da əsas xətt kimi keçir. Bu elə fəlsəfi düşüncədir, hikmətdir.

## İlahinin qüdrət nişanələri həm də bizim daxilimizdədir

Kainatın sirri əslində insanın içində gizlənməyibmi? İnsan özünü dərk etsə, kainatı dərk edər, Allahını dərk edər (Allahı dərk etmək Onun vahidliyini tanımaq deməkdir, Zatını dərk isə bizim üçün əlçatmazdır). Elm irəlilədikcə, insanın öz içinə də boylanmaq imkanı genişlənir. Eh, insan idrakının şəfəqləri çox qaranlıqlara işıq salsa da, özünün daxilini öyrənmək üçün bu şəfəqdən çox az pay düşüb. "Çıraq öz dibini işıqlandırmaz" – deyib babalar. Bununla belə bu sahədə son uğurlar böyük ümid yaradır. Türk cərrahı Xaliq Nur Baki ürəkdə apardığı əməliyyat zamanı aydınca oxuyub O Ülvi Zatın adını: "Allah". Ürəklər "Allah" deyib döyünər, bizimsə özümüzdən xəbərimiz

yox. Hələ bu harasıdır? Beyində, dəridə aparılan təcrübələr də daxilimizdəki İlahi möhürləri aşkara çıxarmaqdadır. Ən sanballı elmi kəşf isə Rusiya Kvant Genetikası İnstitutunun əməkdaşları tərəfindən edilmişdir. Alimlər DHT molekulunun daxilinə nüfuz edərək orada kodlaşdırılmış informasiya tapdılar. İnstitutun rəhbəri Pyotr Qaryayevə görə, xromosomlar çoxlu mətnlər doğurur. Bu mətnlər məlum olmayan dildədir. Bunu isə tam qətiyyətlə demək olar ki, DNT-də yazılan proqram Darvinin dediyi təkamül nəticəsində yarana bilməzdi. Belə nəhəng informasiya yazmaq üçün o qədər zaman tələb olunur ki, bu, kainatın mövcudluğu zamanından çox-çox yüksəkdir. Alim özü etiraf etdiyi kimi, madam ki, belə bir informasiya təkamülün məhsulu deyil, bəs onun müəllifi kimdir?

Əlbəttə... Rəbbimiz!

Burada qeyri-ixtiyari qəlbimdən dilimə bir bayatı süzüldü:

***Dünyanın cəhrəsini,***
***Əzizim, fırladan var.***
***Hər şey sapa düzülüb,***
***Bunu bir yaradan var.***

İlahi, hökmün aşkar, hikmətin gizlidir.

İlahi, kimi Səni kitablarda, kimi Səni yaratdıqlarında, kimi isə Səni özündə axtarır. Əgər biz batini nurlanma yolu ilə getsək, öz həqiqi “mən”imizi – Sənin qüdrət nişanəni tanımaqla Səni vasitəsiz – özünlə tanımış olarıq.

İlahi, axtarmaq bizdən, hidayət etmək Səndəndir.

Könlümüzü qaradan təmizlə və bizi doğru yola yönəlt, ey qəlbimizin Yol Göstərəni, Bələdçisi!

# “QURAN”IN RUHU BATİNİNDƏDİR
## Və ya namazı hansı dildə qılaq?

Bismilləhir Rahmənir Rahim

İslamın – “kainat günəşi”nin Ərəbistan üfüqlərindən yenicə parladığı bir dövrdə “Quran” ayəsinə qulaq asan bir ərəb şairi yerə səcdə edir. Ondan soruşurlar: “Sən də müsəlman oldun?”. O deyir: “Xeyr, mən bu ayənin gözəlliyi qarşısında baş əydim”. Əlbəttə, Allah Sözünün gözəlliyi, əzəmətliliyi hətta Allah düşmənlərinin belə heyrətinə səbəb olmuş, zaman-zaman bunu etiraf etmişlər.

“Quran”ın misilsiz poeziyası Puşkin kimi qüdrətli bir şairi də ovsunlamış, o, “Quran”a nəzirələr” adlı şeirlər silsiləsini qələmə almışdır.

Bütün aləmlərə öyüd olan Qurani-Kərim onlar haqqında sirlərin daşıyıcısıdır, gizli, qapalı dünyanın dilidir. Onun hər bir ayəsi İlahi nişanədir, dəlildir. İnsan öz daxilində mürgüləməkdə olan gizli imkanları, qabiliyyətləri açmaqla bu sirlərə müəyyən qədər yiyələnə bilər. Necə ki, böyük filosofumuz Şihabəddin Yəhya Sührəvərdi demişdir: **“İnsan batini gözünü (qəlb gözünü – F.R.) aça bilsə, hər şeyi görə bilər”**. Əgər biz öz Yaradıcımızı etiraf ediriksə, onu da qəbul etməliyik ki, o, bizi məqsədsiz yaratmamışdır. Bəs məqsədə uyğun hər birimizdə İlahi proqram – həyat proqramı olmalı deyilmi? İlahi öz Kəlamında buyurduğu kimi, bizim təbiətimiz, fitrətimiz islamca yoğrulduğuna görə həyat proqramımızın tam reallaşması üçün islami hökmlərə, qaydalara əməl etməli, onu pozmamalıyıq. “Quran” ayələrinin insana fiziki, mənəvi-ruhi təsiri danılmazdır. Bu ayələri dinlədikdə daxili məmnunluq, ruhi sakitlik bizi bürüyür. Deməli, belə çıxır ki, bizdəki həyat

proqramı ərəbcədir? Yaxud da elə bir universal dildədir ki, "Quran" dilindən o qədər də fərqlənmir? Biz nisbi biliyimiz çərçivəsində dualapın, ayələrin bizə təsir mexanizmi haqqında müəyyən fikirlər yürüdə bilərik (Düzünü Yaradan bilir). Görünür ki, beynimizin sistemli "faylları" arasında həyatımızın bütün sahələrinə aid müxtəlif proqramlar var. Ayrı-ayrı dualar, ayələr də bu proqramları işə salır. Görəsən necə? Dua sözlərdən, sözlər hərflərdən (səslərdən) ibarət deyilmi? Hər söz, səs özünəməxsus informasiya-enerji yükünə malikdir. Yəni onların həm informasiya (məlumat), həm də enerji təsiri vardır. "Quran" ayələrinin də zahiri var, batini var. Onların ruhu batinindədir (batinində gizli mənalar daşıyır). Belə deyək ki, təkcə zahirində deyil, batinində çoxlu informasiyalar şifrələnmiş ayələr yuxarıda qeyd etdiyimiz kimi, beyində müxtəlif proqramları işə salır.

Özü də, göründüyü kimi, bir ayə bir yox, bir neçə proqramı işə sala bilər. Peyğəmbərimiz Həzrət Məhəmməd (s.) buyurmuşdur: " "Fatihə" hər cür dərdə dərmandır". "Quran"ın, rəmzi dildə desək, qapısı "Fatihə" surəsidir. "Fatihə"ni oxumaq – həm sağlamlığa, həm ruziyə, həm uğura, həm qara qüvvələrdən (bədnəzər, cadu, İblis vəsvəsələri və s.) qorunmağa və s. şəfadır. Onu nə qədər çox oxusaq, özü də təkcə dilimizlə yox, ruhumuz, qəlbimizlə oxusaq, saf niyyət, səmimilik dualarımızın canına hopsa, onun təsiri də bir o qədər güclü olacaqdır. Fikrimizcə, "Fatihə"də şifrələnmiş məlumatlar o qədər çoxdur ki, o, beynin "faylları" arasında müxtəlif proqramları (ruzi, sağlamlıq və s.) işə salır. Həzrət Əli (ə.) nahaq deməmişdir: "Mən "Fatihə"nin izahını 70 dəvə yükü edərəm".

“Fatihə”, bütövlükdə “Quran” İlahi tərəfindən bizə göndərilmiş universal bir açardır ki, biz bununla bütün dərdlərimizə dərman tapırıq, kainatın sirlərini öyrənməyə cəhd edirik, düzgün yaşama tərzimizi müəyyənləşdiririk.

Məlumdur ki, “Quran”ın elə ayələri var ki, bir və ya bir neçə hərfdən ibarətdir. Məsələn, “Rad” surəsinin I ayəsi belədir: Əlif, lam, mim, ra”. Hərflərdən ibarət bu ayədə görəsən hansı ideya, məna yatır? Bilirik ki, kainat vahiddir, onda olan hər şey qarşılıqlı əlaqədədir. Gizli elmlərə görə, hər bir hərf ideya və rəqəm mənası daşıyır. İdeya və rəqəmlər də bir-birindən ayrı deyil. Beləliklə, ideya, rəqəm və hərflər vəhdətdədirlər. İslamda istifadə olunan əbcəd hesabı da bu prinsipdən qaynaqlanmışdır. Beləliklə, yuxarıdakı hərflərdən ibarət ayə də özündə gizli məna daşıyır (Bu mənanın biliciləri Allah hüccətləri – imamlardır).

Duaların bizə təsirini daha dərindən öyrənmək üçün təbabətin də nailiyyətlərinə arxalanmaq vacibdir. Həkimlər tədqiqatlarla sübut etdilər ki, bədənimizin hər bir orqanı müəyyən dalğa tezliyi diapozonunda fəaliyyət göstərir və insan xəstələnəndə bu xarakteristika dəyişir. Onlar təsdiq edirlər ki, uzun-uzadı “U” səsini səsləndirəndə ağ ciyərin fəaliyyətinə yaxşı təsir edir, bəlğəmdən təmizləyir. Sən demə, qədim Çin traktatında (ən yaxşı təzə – unudulmuş köhnədir?) da deyildiyi kimi, “U” səsi ağ ciyərlərin tezliyində vibrasiya edir. Yüksək qan təzyiqində çoxlu “OM” demək faydalıdır və s.

Beləliklə, səs dalğaları bu dalğa tezliyinə uyğun tezlikli orqana gedib çatır və həmin orqanın işini yaxşılaşdırır. Bu metod səs terapiyası adlanır. Doğrudan da, Böyük Yaradanın qüdrət dəlilidir ki, səslərlə insan orqanlarının

fəaliyyəti arasında belə bir heyrətamiz uyğunluq vardır. Elə bu uyğunluğun nəticəsidir ki, dualarımız da, xüsusən "Quran" ayələri də bizlərə misilsiz təsirə malikdir.

Ayələrin təkcə fiziki yox, ruhi-mənəvi təsiri maddi dünya haqqındakı təsəvvürlərdən, idrakın çərçivəsindən kənara çıxır. Bircə onu deməklə kifayətlənək ki, ruhumuzun təravəti, könüllərimizin baharı "Quran"dadır.

Etiraf etməliyik ki, heç bir mükəmməl tərcümə "Quran" ayələrinin özü ola bilməz. Bu tərcümə yalnız ayələrin zahirini ifadə edə bilər. "Quran"ın ruhu batinində olduğuna görə, zahir batini əvəz edə bilməz.

Beləliklə, bizi narahat edən bir məsələnin mahiyyətinə toxunmaq məqamı yetişdi. Son vaxtlar belə bir təklif səslənir ki, namazı öz dilimizdə qılaq. "ABA" televiziyasının "Kontra" verilişində şərqşünas Nəriman Qasımoğlu da bu fikri vurğuladı. Fikrinin düzgünlüyünü isə doğma dildə qılınan namazın daha aydın başa düşülməsi ilə izah etdi.

Yuxarıda qeyd etdiyimiz kimi, "Fatihə"ni ərəbcə oxumaqdan alınan fayda (fiziki, ruhi) tərcümədən alınan fayda ilə heç cürə müqayisə oluna bilməz. Onda biz batini (daxili) faydalardan məhrum oluruq, ayənin ruhunu təhrif edirik. Tələffüzdəki müəyyən xətalara görə "Quran" dilindən imtina nə dərəcədə düzgündür? Onun mənasını öyrənmək isə heç kim üçün çətinlik törətməz. İndi isə belə təsəvvür edək ki, hər kəs öz doğma dilində namaz qılır. Müxtəlif millət nümayəndələrinin bu halda eyni vaxtda ibadət əməlini yerinə yetirmələri necə mümkün ola bilər? Müsəlmanların gücü onların vəhdətində, birliyindədir. Dinin sütunu olan namaz, xüsusilə camaat namazı bu

vəhdəti təmin edən qüdrətli bir silahdır. Bu könülləri bir-birinə bağlayır, məhəbbəti artırır. Beləliklə, camaat namazı əldən getdisə, islamın qüdrətindən nə qaldı? Həcc mərasimində vəhdəti təmin edən hamının eyni dildə namaz qılması deyilmi? Vahid din, vahid dil, vahid əməl. Biz belə ölçülüb-biçilməmiş təklifimizlə islam ağacının kökünə balta vurmuruqmu?

Azanda belə bir çağırış var: "XEYİR İŞLƏR GÖRMƏYƏ TƏLƏSİN!"

Gəlin tələsək, istəkli oxucular!

## "NOBEL"DƏN BÖYÜK LÜTFİ ZADƏ

Lütfi Zadənin Bakıda dəfn olunmaq istəyi qeyri-adidir. Çünki heç on yaşı tamam olmamış ailəsi ilə İrana köçüb; Tehran Univerisitetini bitirib, ABŞ-da parlayıb. Qeyri-adiliyi odur ki, 96 illik ömrünün böyük hissəsini keçirdiyi, elmi şöhrətə çatdığı ABŞ-ı yox, məhz öz vətənini son mənzil seçmişdir. Lütfi Zadə əslən Ərdəbildəndir və orada da dəfn olunmaq istəyərdi (iranlılar onu öz həmvətənləri hesab edərək haqlı olaraq fəxr edirlər), amma o məhz Bakını seçdi. Bəs bəzilərimizin ikrah doğuran etirazları nə üçündür? Guya vətənə xeyri dəyməyib?

Şair Aqşin Yenisey iddia edir ki, güya Lütfi Zadə azərbaycanlı olduğunu dilinə belə gətirməyib, bəlkə də heç bundan xoşnudluq duymayıb. Bəlkə bu ağ yalanı, qara böhtanı heç dilə gətirməyək? Lütfi Zadənin laboratoriyasında işləmiş, indi də Berklidə yaşayan və Lütfi Zadə ilə vaxtaşırı görüşən prof. Şahnaz Şahbazova Az.Vision.az-a müsahibəsində demişdir: "Lütfi Zadə Azərbaycanı həddin-

dən artıq çox istəyir və fəxr edir ki, azərbaycanlıdır. Bütün çıxışlarında Bakıda anadan olduğunu xatırladıb".

Təsadüfi deyil ki, Lütfi Zadə Şahnaz xanımı öz varəsəsi elan edib və özünün bütün mükafatlarını ona təqdim edib (Bu isə Lütfi Zadənin ev muzeyinin yaradılması üçün vəsait ola bilər).

Bu isə prof. Hamlet İsaxanlının fikirləridir: "Lütfi Zadə Azərbaycana xüsusi bağlılığı olmayan adamdır. Onda millətçilik və dərin azərbaycançılıq olmadığı üçün həmin vəsiyyəti uydurma hesab edirəm". Millətçiliyin və azərbaycançılığın meyarları nədir ki, Lütfi Zadə bu meyarlara cavab verə bilmir? Bəlkə alimin azərbaycanca danışa bilməməsi? Kiçik yaşlarından vətəni tərk edən, başqa dil mühitlərində yaşayan Lütfi Zadəni buna görə qınamaq nə dərəcədə düzgündür? Bəlkə elmi konfranslarda Qarabağ məsələsini dilə gətirmədiyi üçün qınanılmalıdır? Q.Paşayevanın müsahibəsindən Lütfi Zadənin bu məsələyə biganə olmadığı aydın olur. Hamlet müəllim özü də etiraf edir ki, burada doktorluq işini müdafiə edənlər onun yanına gedib-gəlirdilər və o da onlara əlindən gələn köməkliyi əsirgəmirdi. Şahnaz xanıma xüsusi atalıq qayğısı, hörmətli professorumuz Rafiq Əliyevlə səmimi dostluğu, birgə elmi fəaliyyətləri və.s bu siyahıya daxildir. O, ABŞ-dakı Azərbaycan diasporlarının fəxri sədri olub. Hamlet müəllim deyir ki, Lütfi Zadədən on dəfə böyük alimlər, Nobel mükafatı alanlar var. Əcaba, bu dəyərləndirmədə hansı meyardan istifadə etmisiniz? Bəşəriyyətə altı fundamental elmi nəzəriyyə verən bir alimə belə münasibət aşağılayıcıdır. Nobel mükafatı laueratı Əziz Sancar (türk) Bakıda Lütfi Zadə ilə bağlı suala belə cavab verdi: "Lütfi Zadə "No-

bel"dən üstündür". Bu isə prof. Hamlet İsaxanlıya ən yaxşı cavabdır. Lütfi Zadə bu gün bizim üçün bir çox məsələlərdə örnəkdir:

1) Elmə təmənnasız münasibəti, elm yolunda sonsuz əzmkarlıq və qətiyyəti;

2) Yüksək şöhrətə çatsa belə heç bir təkəbbürə qapılmaması və gözəl insani xüsusiyyətləri saxlaması;

3) Elmi kəşflərindən milyardlar qazana biləcəyi halda sadə həyat sürməsi;

4) Qeyri-səlis məntiq nəzəriyyəsilə bəşəriyyətə yeni düşüncə tərzini aşılaması.

Lütfi Zadə qeyri-səlis məntiq nəzəriyyəsini irəli sürməklə bəşəriyyətə öyrətdi ki, təfəkkür tərzi də, insanlar arasında münasibət də məhz bu prinsipə əsaslanmalıdır. Yəni "bizdən olmayan bizim düşmənimizdir" təfəkkür tərzini kənara qoymalı və insanlara tolerant (dözümlü) yanaşmalıyıq. Bəşəriyyət bu yolla getsə qarşıdurma və müharibələrdən yayına bilər. Əslində, bu məntiqlə düşünə bilməməyimizin nəticəsidir ki, Lütfi Zadə kimi dahi alimi birtərəfli qaydada "siyasi senzura"dan keçirib asanlıqla qınayanlar tapılır. Halbuki, Lütfi Zadənin öz vətənində uyuması elm arxasınca düşən gənclərə böyük təkan verəcək və onlarda özünə güvənc hissini daha da artıracaqdır.

Lütfi Zadə Vətənə qayıdır – qoynunda uyumağa:

***Bəlkə də borcundan çıxmadım, Vətən!***
***Ömür bahar deyil, bir də qayıtsın.***
***Ölsəm də qoynunda qoy ölüm ki mən,***
***Çürüyüm, bir ovuc torpağın artsın*** (M.Yaqub).

## “...ALTI MİN ALTI YÜZ AYƏ MƏNDƏDİ...”

Böyuk el sənətkarı Dədə Ələsgərin parlaq yaradıcılığına həsr olunmuş qiymətli tədqiqat əsərləri yazılsa da, onun zəngin irsi bu günədək birtərəfli öyrənilmişdir. Belə ki, ustadın bəhrələnmiş olduğu mühüm qaynaqlardan biri olan müqəddəs dinimiz islamla bağlı şeirlərinin üstündən sükutla keçilmiş, hətta ayrı-ayrı misralar təhriflərə məruz qalmışdır. Əlbəttə, Ələsgər sənətinə sovet ideologiyası prizmasından həqiqi qiymət verilə bilməzdi. Məhz ona görə də heç bir yazı-pozu bilməyən dahi sənətkarın sinəsində çağlayan elm ümmanının mənbəyinin sirri düyünü açılmayan kələfə dönmüşdü. Hərçənd, bu kələfin çözülməsi üçün heç də uzağa getmək lazım deyil. Ustad özü bu “müəmmanı” bizim üçün açmışdır:

***Oxuram “İnna fətəhna”, mətləb allam yuxuda,***
***Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir.***

Ustad aydın şəkildə bildirir ki, dərsini yuxuda “Mərdlərin şahı”ndan – Həzrət Əlidən (ə.) alır. Aşağıdakı misralarda da bu fikir ifadə olunmuşdur:

***Əlidən dərs aldım, eylədim əzbər,***
***Ərşin sütunudu, yerlərələngər.***

O, söz bazarına, fikir meydanına Pirinin icazəsiylə çıxdığını bildirir:

***Pirim mana nüsrət verib, bu gün çıxdım bazara;***
***Sərrafsansa, az aç xırd elə, bax gör, nə maldı yüküm!***

Ustad “Dəli Alı” şeirində də pirinin Həzrət Əli (ə.) olduğuna işarə edir:

*Pirim Şahi-Mərdan verib muradı,*
*Artırıb şövkəti, şanı Dəli Alı.*

Həzrət Əli (ə.) kimi pirin – mürşidin sayəsində elm ümmanına çevrilib:

*Şahi-Mərdan sayəsində elm içində ümmanam,*
*Dəryaların qaydasıdı: ümmana baş endirir.*

Pirindən aldığı dərslərə görə Quran bilicisidir:

*Dərsi azlar Ələsgərdən dərs alsın,*
*Altı min altı yüz ayə məndədi.*

Və yaxud:

*Pirim dərsim verib, min aya billəm.*

Yalnız "elm şəhərinin qapısı"ndan dərs alanın belə söyləməyə hünəri çatar:

***Şahi-Mərdan sayəsində kimsədən yoxdu bakım*** (qorxum – F.R.).

Dədə Ələsgər aşkar vurğulayır ki, hələ Ələstdə (ruhlar aləmində) "Şahi-Mərdan"ın imam məqamına "bəli" – deyib, onun nökəru olmuş, ayaq torpağına üzümü sürtüb elmdə ucalmışam:

*Ələstü birəbbikum qalu bəladan,*
*Mərdin mövlasına nökər olmuşam.*
*Sürtmüşəm üzümü xaki-payına,*
*Elm tapıb, sinədəftər olmuşam.*

Aşağıdakı misralar isə ustadın Mövla ilə görüşünə bir işarədir:

***Ələsgərə nişan verən almanı,***
***İslam edən Qənbər ilə Salmanı.***
***Musaya öyrədən Turda kəlməni,***
***Cəbrayıla ustad olan, ya Əli!***

"Qabaqda" şeirində ustad yuxuda ruhi aləmə – bərzəx cənnətinə səyahət etdiyinə, orada öz Pirinin yüksək məqamını gördüyünə (gördüyü kimi, alma məsələsi bu hadisə ilə bağlıdır) işarə edir:

***Pir mana göstərdi şah məqamını,***
***Gördüm cəmdi çox cəlalı qabaqda.***

Ustad Allah yanında belə yüksək məqamda olan pirinə arxalandığına görə Sirat körpüsündən keçməkdən qorxmur:

***Ələsgər, xof etmə puli-Siratdan,***
***İrəhbərdi cənab Əli qabaqda.***

Nəhayət, Dədənin bizlərə öyüdü:

***Dünyada əl çəkmə sövmü səlatdan,***
***Təmiz ver, qalmasın xümsü zəkatdan.***

Dünyada namazdan, orucdan ayrılma, xümsünü, zəkatını da təmiz ver, boynunda qalmasın. Beləliklə, bu gün iman uğrunda, özünəqayıdış uğrunda gedən mübarizədə böyük sənətkarın parlaq yaradıcılığı bizə bir örnəkdir. Hələ düz Qiyamətədək neçə-neçə nəsillər Ələsgər işığına üz tutacaq, onun elm-sənət ümmanından öz mənəviyyat yanğılarını söndürəcəklər.

1996

## AŞIQ ƏLƏSGƏRİN ƏXLAQİ GÖRÜŞLƏRİNƏ DAİR

Dahi sənətkarımız Dədə Ələsgər yaradıcılığı ilə Azərbaycan ədəbiyyat tarixində yeni ədəbi məktəbin əsasını qoymuşdur. Aşıq sənəti Qurbani, Xəstə Qasım, A.Tufarqanlı, Ağ Aşıq, Aşıq Alı kimi böyük sənətkarların ənənələri əsasında yüksəlsə də, öz bədii zirvəsində Ələsgər yaradıcılıında çatmışdır. Onun sənətindən söhbət açdıqda bu günədək diqqət mərkəzindən kənarda qalan müqəddəs dinimiz islam kimi qüdrətli qaynağa istinad etməmək böyük səhv olardı. Əks təqdirdə Ələsgər ruhunun əzəmətini, böyüklüyünü dərk etmək olmaz. Əgər biz onun yaradıcılığını gözəl bir gülə bənzətsək, bu gülə ətir verən islami təfəkkürdür, islam həqiqəti, islam fəlsəfəsidir. Ələsgər inam, etiqad, mənəviyyat məbədgahı kimi qarşımızda ucalır, əxlaqi saflığa, ruhi təmizliyə çağırışı ilə qəlblərimizi silkələyir. O, insan ləyaqətini hər şeydən uca tutur; göstərir ki, yaradılmışların ən şərəflisi olan insan layiqli bir həyat yaşamalı, heç kəsin qarşısında alçalmamalıdır. Böyük ustad mənəvi təkmilləşmə məsələlərinə baş vurur, insanı hər şeydən əvvəl öz nəfsi üzərində qələbə çalmağa səsləyir. Çünki nəfs insanı şərə doğru aparır, azğınlığa atır, fəlakət burulğanına salır. Həfsin cilovunu çəkməli, onu şeytana tapşırmamalıyıq. **(“Hər kəsin şeytanı onun öz nəfsidir” (Həzrət Əli (ə.)**. Ustad bu baxımdan nəfsi yandırmağı, tamahı cilovlamağı əsl mənəvi qəhrəmanlıq hesab edir. Heç də təsadüfi deyil ki, dinimizdə də nəfs üzərindəki qələbə böyük cihad hesab olunur. Əks təqdirdə nəfsin istəklərinə ram olan insan öz ruhi ucalıqlarını, fəzilətlərini əl-

dən vermiş olar. **Həzrət Əli (ə.) buyurmuşdur: "Allah səni azad yaradıb, tamah səni qul etməsin"**. Ələsgər nəfsi tərbiyələndirmək yollarını göstərmək üçün "Eyləməynən" şeirində nəfslə mərifəti qarşı-qarşıya qoyur. Mərifət nəfsi bəd əməllərdən çəkindirməyə çalışır. Nəfs isə "xeyrin gələn yerdə ar eyləməynən" – deyir, onu məzəmmət edir. Göründüyü kimi, nəfs "xeyir gələn yerə", bəd əməllərə – şərə doğru çəkir. Burada Peyğəmbərimizin (s.) bir kəlamı yada düşür: **"İnsanın daxilində iki qüvvə vardır ki, biri onu düz yola və yaxşılıqlara aparar; digəri onu mərdimazarlığa və pisliyə sarı çəkər. Lakin mərdimazarlığa üstün gəlmək üçün Allahdan kömək diləyən şəxs faydalanar"**. Ələsgər göstərir ki, pislikdən, günahlardan qurtulmaq, nəfsi ram etmək üçün Allahdan kömək diləməli, onun bizlərə buyurduqlarını yerinə yetirməliyik:

***Haqq bizə göndərib dəlili-ayət;***
***Oruc tut, namaz qıl, eylə ibadət.***

İnsan namazda ən uca yerini – alnını könül mütiliyi ilə torpağa qoymaqla –Allaha səcdə ilə Onun qarşısında özünü qul kimi aparır. Səmimi qəlbdən namaz qılan şəxs nəfsin istəklərindən, hər cür təkəbbürdən qurtulmuş şəxsdir. Oruc da nəfsin arzularını, insan təbiətindəki şəhvətləri öldürür. Oruc təkcə bədənin orucu deyil, həm də qəlbin orucudur. Qəlb orucu, yəni qəlbi səni Allahdan uzaqlaşdıran şeylərdən ayırmaq bədən orucundan da üstündür. Ümumiyyətlə, namazın, orucun insan üçün nə kimi əhəmiyyət kəsb etdiyini gözəl bilən ustad şeirlərində dönə-dönə onları yerinə yetirməyə səsləyir. Burada, yeri gəlmişkən, qeyd edək ki, bu gün hələ də çoxları belə iddia edir ki, namaz

qılmadan da, oruc tutmadan da paklığa qovuşmaq olar, təki yaxşı əməllər edəsən. Mübahisə yersizdir ki, Yaradan öz yaratdıqlarının halını nəzərə alıb ona ibadət yolunu göstərmişdir. İblisin Allahdan uzaq düşənin və ya Onu az-az ananın üzərində qələbə çalması heç də çətin deyildir. İblis vəsvəsi ilə insanı düz yoldan döndərir, onun günahını bəzəyib ona gözəl əməl kimi göstərir. Elə Allahdan uzaq düşməyin nəticəsidir ki, İblis bu gün çox çoxlarını fəlakət uçurumuna sürüməkdədir.

Böyük əxlaq alimi olan Ələsgər yaradıcılığı boyu kamil insan probleminə dönə-dönə qayıdır, insanın mərifət elminə yiyələnməklə ali məqama yüksələcəyini bildirir. “Gərəkdi” qoşmasında aşıqlara müraciətlə dediyi misralarda göstərir ki, bu elmə yiyələnmədən həqiqi ozan səviyyəsinə yüksəlmək olmaz:

***Oturub-durmaqda ədəbin bilə;***
***Mərifət elmində dolu gərəkdi.***

Arif, Ələsgər tərif etdiyi kimi, “el içində pak oturub, pak duran”, “dalısınca xoş sədalar deyilən”, “kəlməsindən ləlü-gövhər süzülən”, “eyhamnan söz qanan”, “naməhrəmdən şərm eyləyib utanan” Allah bəndəsidir. “Saat kimi meyli haqqa dolanan”, “doğru qəlbli, doğru yollu”, “həqiqətdən xalqa mətləb qandıran” belə şəxs yerdə Allahın çırağıdır. Böyük sənətkar onu da çatdırır ki, mərifət elminə hər kəs sahib ola bilməz. Ona yiyələnməyin mühüm şərtləri vardır:

***Loxmadan kəc olan, nütfədən əyri,***
***Yüz dərs alsa, pür kamala yetişməz.***

Əxlaqsızlıq, zinakarlıq yoluna düşmüş ata-anadan dünyaya gəlmiş, haram loxma, haram qazancla böyüyən uşaq bu elmə – Allahı tanımaq elminə necə yiyələnə bilər: “O, yüz dərs alsa, pür kamala yetişməz”.

Ələsgər halallığı, paklığı, ismət-namusu qoruyub saxlamağı, kəsilən çörəyi tapdalamamağı dönə-dönə tapşırır:

***Namus qədri bilib nanı gözləyən,***
***İnşallah, heç yerdə xəcalət olmaz.***

“İstər” qəzəlində incə mətləblərdən agah olmağa, İlahi hikməti dərk etməyə çağırır. Bildirir ki, hər kəsin öz ruzusu var, Haqq çatdıracaqdır, harama meyl etməyin:

***Ona dağdan verir ruzi, buna ol qəri-dəryadan,***
***Bu mətləbi qanan kimsə haram gəlməz, halal istər.***

Axı bütün bu dəbdəbə nə üçündür? Bunun üstündə leş üstündə didişən itlər kimi didişmə, vuruşma nə üçündür? Dünya bizi təkcə şirnikləndirmir, həm də bizdən əvvəlkiləri ölüm oxları ilə oxlamasıyla ibrət vermirmi?

***Bilirsən dünyada, qafil, qalır bu dünyanın malı,***
***Beş arşın ağ geyən kimsə utanmaz, yaşıl, al istər.***

Ələsgər sənəti fəlsəfi dərinliklə sadəliyin vəhdətindən yoğrulmuşdur. “Arasında” qoşmasında aşağıdakı misralar nə qədər sadə olsa da öz batinində böyük məna yatırır:

***Haqq ilə nahaqqı axtaran hakim,***
***Tapar qulaq ilə göz arasında.***

Əmirəlmöminin (Əli (ə.) buyurub: “Agah olun ki, haqq ilə batilin arasında dörd barmaqdan artıq fasilə yoxdur”. Bunun mənasını soruşduqda o, dörd barmağını bir-

ləşdirərək gözü ilə qulağı arasına qoyub dedi: “Batil odur ki, “eşitdim” – deyəsən, haqq odur ki, “gördüm” – deyəsən”.

Ədaləti axtaran hakim hər deyilənə, qulağı ilə eşitdiyinə yox, çuğulçu, qeybətçi sözünə yox, gözü ilə gördüyünə inanmalıdır. Əlbəttə, hər hadisəni öz gözü ilə görməsi hakimin imkanı xaricindədir. Ancaq o, bunu unutmamalıdır ki, hər deyilən söz haqq ola bilməz. Qərəz sahibinin sözü ilə haqqı batil etmək olmaz. İmam Cəfər Sadiq (ə.) demişdir: “Qulaq həqiqətin arxa, yalanın isə ön qapısıdır. Kim, ya nəsə təriflənəndə, xüsusilə mühakimə ediləndə ayıq ol”. Hər eşitdiyini söyləyən yalançı hesab olunduğu kimi, hər eşitdiyinə inanan anlaqsız şəxs hesab olunar. Və ya: “Ələsgər, axtarma qüdrətin  sirrin; Zülmətə işıq var, acıya – şirin”

Bu misralar ulu Yaradanın qüdrətinin, əzəmətinin parlaq təcəssümü, İlahi hikmət formuludur. Qadir Allah öz iradəsiylə təbiətən zidd şeyləri vəhdətdə yaratmışdır. Biri o birindən ayrı ola bilməz. Gecə-gündüz kimi. Gecənin (zülmətin) bağrından işıq (gündüz) çıxır və ya acı dünya həyatından – xəstəliklərlə, müsibətlərlə, ölüm-itimlə müşayət olunan bir həyatdan sonra şirin bir həyat – bu müsibətlərin heç biri olmayan əbədiyyat məkanı – cənnət vardır. Əslində, bu fani dünyanın özündə də hər bir acılıqda qısa müddətli olsa da bir şirinlik var. Səbr özü çətindir, məşəqqətlidir, hətta acıdır (hər cür məhrumiyyətlərə dözmək ağırlığı var burada), ancaq səbrin meyvəsi şirindir, yəni məqsədlərinə gec də olsa çatanda, rahatlıq, ruhi ləzzət səni bürüyür. Bu dünyada öz aləmində şirin həyat keçirən – hər cür pozğunluq edib kef çəkənləri isə axirət acılığı – cəhənnəm

əzabı gözləyir. Burada, yeri gəlmişkən, onu da qeyd edək ki, bu gün çoxlu müzakirə və hətta mübahisələrə meydan açan axirət mövzüsunda söhbət düşəndə bəziləri "ordan gələn yoxdur"- deyir, əslində, onu inkar edirlər. Onlar başa düşmürlər ki, axirəti inkar etməklə əslində dindən çıxmış, küfrə yuvarlanmış olurlar. "Qabaqda" qoşmasında göstərildiyi kimi, az-az mövlalara qismət olan – hələ sağlığında ikən yüksək ruhi məkana səyahət etmək xoşbəxtliyi Ələsgərə qismət olmuşdur:

***Ələsgər, xof etmə puli-Siratdan,***
***İrəhbərdi cənab Əli qabaqda.***

Ümumiyyətlə, Ələsgər axirət mənzillərinin birincisi olan qəbirdən başlayaraq tez-tez Cəhənnəmi, Qiyaməti, Mizanı, Siratı yada salır, bizi qəflət yuxusundan oyanmağa səsləyir. Bəsirət gözü ilə gördüyü, yuxarıda deyildiyi kimi, ruhən səyahət etdiyi pərdəli məkana, sorğu-sual gününə, haqq-hesab gününə, "ürəkləri titrədən günə" (Qiyamət gününə) hazır olmağa, çiynimizdəki mələklərin hər xırda əməllərimizi qeydə aldıqları əməl dəftərimizi günahlarla qaraltmamağa çağırır:

***Yığılar məxluqat, qurular məşhər,***
***Boyunlarda kəfən, əllərdə dəftər.***

Əxlaqi saflıq müccəssiməsi kimi ucalan böyük ustadın gözləri qabağından pərdə götürülür, gizli mətləbləri duyur, yerin, göyün sirlərindən söhbət açır, böyük müəmmaları aşkarlayır:

***Hər yanı istəsə, baxanda görə,***
***Təriqətdə bu sevdalı gərəkdi.***

Ulu ozanımız təkcə haqqa çağırışla kifayətlənmir, zahirdə özünü tərkidünya göstərib, xəlvətdə əxlaqsız əməllərlə məşğul olan üzdəniraq din xadimlərini ifşa edir:

***Oxuduğun "Quran" hardadı, hanı?***
***Hansı yola dəvət edir insanı?***

O, "Mollalar" şeirində hətta "Həmd"ini dürüst bilməyən, "qıy çəkib iştah ilə xeyrət aşına yığılan", "şeytana tabe olub cadu yazan", "irvəni (sələmi) halal bilən", "fağırın malın yeyən", "bayquş" mollaları amansızlıqla ifşa edir. Belələrinin islama vurduğu zərbə heç nə ilə ölçülə bilməz. Bu tip adamları Həzrət Əli (ə.) nahaq yerə "din adıyla dünyanın döşündən süd sağanlar" adlandırmamışdı.

Ustadın islamın müqəddəs şəxsiyyətlərinə həsr etdiyi şeirlər başdan-ayağadək sevgidən, səmimiyyətdən yoğrulub. "İbtida ustaddan dərsim almışam" şeiri bu baxımdan qəlbimizi riqqətə gətirir, iman işığına bürüyür:

***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Məhəmməd, birisi Əli.***

Həqiqət gözəlləri! Nə gözəl, nə sərrast ifadə! Ölçülübiçili Ələsgər tapıntısı! Apaydın yolu həqiqət olan islamın digər əzəmətli şəxsiyyəti haqqında necə də yerində deyilmişdir:

***Fatimeyi-Zəhra, şafeyi-məhşər,***
***Onu seçdim gözəllərin gözəli.***

Məhşər günü ümmətə şəfaətçilərdən biri olacaq cənnət xanımlarının başçısı, dünya üzünə bu ağılda, ismətdə tayı-bərabəri gəlməyən gözəllər gözəli Fatimeyi-Zəhra!

Rəhmət sənə, böyük ustad! Bizlərə gözəlliyin nə demək olduğu barədə ibrət dərsi verirsən.

"Bu gündə" şeirini oxuduqca qəlbi qanla dolmayan, ciyəri kabab olmayan çətin tapıla. Ustad əqidə uğrunda, din uğrunda şəhid olan İmam Hüseyn (ə.) və onun yaxınlarının Kərbəla müsibətini yanıqlı dillə təsvir edir. "Uzun qolları qələm olan Həzrət Abbasın", boğazından oxlanan körpə Əsğərin, Zeynəbin, Əkbərin və başqalarının bu faciəsinə yerin, göyün, bütün kainatın yas tutduğunu bildirir, özü də qanlı göz yaşları axıdır:

***Bu gündə, bilin, ərşü-səmavat qan ağlar,***
***Gav ilə səmək, külli-kainat qan ağlar.***
***Dostlari – Əli daimül-ovqat qan ağlar,***
***Bir ləhzə baxan Zeynəbi-nalana bu gündə.***

Bu gün "kainatın günəşi islam" həqiqətlərinə tapındığımız bir vaxtda Ələsgər yaradıcılığı hər birimiz üçün örnəkdir, əxlaq dərsliyidir. Ələsgərin qoyub getdiyi sənət gülzarı hər zaman öz ətrini saxlayacaq, həmişə təzə-tər olacaqdır.

1998

## DƏDƏ ƏLƏSGƏRİN HALALLIQ DƏRSİ

Hikmət çeşməsindən süzülüb gələn öyüd-nəsihət eşidib düşünən qəlblərə Dədə Ələsgər misraları həqiqətin sədası kimi səslənir:

***Nütfədən pak olan, loxmadan halal,***
***Mərifət elminə nabələd olmaz.***

Nədir mərifət? Mərifət Allahı bütün sifətləri ilə tanımaq, Ondan qeyri bütün məxluqa "əlvida" – deyib, yalnız Ona arxalanmaq, onun zikri ilə məşğul olmaq, Ona qovuşmaq deməkdir. Mərifətə yol halallıqdan keçir – nütfədən də, loxmadan da. Nütfədən pak olmayan, yəni zinadan (qeyri-qanuni münasibətlərdən) doğulan uşaqlar bəşərə həmişə başağrısı gətirmiş, dəhşətli cinayətlərin səbəbkarları olmuşlar. Tarixi araşdırmalar sübut edir ki, İmam Hüseynin (ə.) qatilləri də, şəhidlərin cəsədləri üzərində at çapan on nəfər də zinadan doğulanlar olmuşlar. Hədislərdə də deyildiyi kimi, zinadan doğulanlar dinə yüngül münasibət bəsləyər, yüngül həyat tərzinə meyl edər, Əhli-beytə düşmən kəsilər. İnkarolunmaz faktdır ki, irsiyyət qanununa görə, övlad valideynlərin psixoloji, mənəvi xüsusiyyətlərini daşıyır. Qeyri-qanuni doğulmuş uşaqların günaha daha çox meyilli olması burdan qaynaqlanır. Ancaq onların heç vaxt haqq yolu tutmayacağı iddiasında deyilik. Əgər ciddi tərbiyə alsalar, irsiyyətdən gələn günah çağırışlarını boğa bilsələr, başqaları kimi əxlaq, fəzilət yoluna çıxa bilərlər. Dədə Ələsgərin digər bir misrası başqa bir düşündürücü, hər kəsin qəbul edə bilməyəcəyi həqiqəti aşkar edir:

***Nütfədən qarışan şeyitbaz olar,***
***Mərd də sığışdırmaz, nahaq qan eylər.***

Şeyitbaz o kəsə deyilir ki, şorgözdür, həyasızdır, namus-qeyrət hissi ona yaddır. Allahdan uzaq düşənlərin həyatlarının hər sahəsinə, hətta ailə həyatına da şeytan nüfuz edə bilir və həmin insanların gələcək övladlarının nütfəsində şərik olur. Beləliklə, nütfədən qarışanlar şeytani xüsusiyyətlərdən yan qaça bilmir, həm də şeyitbaz olurlar. Nüt-

fəsində şeytana şərik olanların qəddarlığı, qaniçənliyi şeytanın özünü belə təəccübləndirir. “Quran” məntiqinə görə, şeytanlar iki cürdür: cinlərdən və insanlardan olanlar. İnsanlardan olan şeytanlardan biri Həccac İbn Yusifdir ki, bu alçaq tarixə üzqarasıdır. O, Həzrət Əli (ə.) övladlarının və ona məhəbbət bəsləyənlərin qətlindən xüsusi həzz alırmış. Düz yüz iyirmi minədək Əli-beyt aşiqi onun əliylə xüsusi amansızlıqla öldürülmüşdür. Həccac lənətlik deyib: “Mənim aldığım ləzzətlərdən biri də Əli tərəfdarının qan içində çabalamasını görməyimdir”. Nahar zamanı əmr edirmiş ki, növbəti qurbanın başını onun gözü önündə kəssinlər. Bundan ləzzət alıb iştaha gəlirmiş. İnsana qarşı bu nifrətin, vəhşiliyin səbəbi nə idi? İmam Sadiq (ə.) buyurmuşdur: “Həccacın qəsavəti və bədbəxtliyi şeytanın onun nütfəsində şərik olmasına görədir” (Ayətullah Hüseyn Məzahiri “Ailə səadətinə necə nail olaq?” əsərində belə məsələlərə aydınlıq gətirmişdir). O da məlumdur ki, Həccacın anası namussuz qadın olmuşdur.

Zaman-zaman əxlaq ustadları, Rəbbani şairlər bu həqiqəti car çəkmişlər ki, nəslinin şirin barını yemək istəyirsənsə, onların əxlaqi-mənəvi cəhətdən ali məqamlara yetişməsini arzulayırsansa, erkən gəncliyindən pak olmalı, pak həyat yaşamalısan. Subaylıqdakı əxlaqsız həyat tərzi evləndikdən sonra da səni qarabaqara izləyir. Moskvadakı Patris Lumumba adına Xalqlar Dostluğu Universitetinin bəzi tələbə qızları ərə gedəndən sonra zənci övladları doğulurdu. Əlbəttə, bu, çoxlarını təəccübləndirirdi. Həyat yoldaşları zənci olmadığı halda zənci övladların dünyaya gəlməsi elmdə teleqoniya adlanan prosesi təsdiqləyir. Belə ki, zəncilərlə münasibətlərindən neçə ay keçsə belə, tələbə

qızların orqanizmi həmin zəncilərin genetik, psixoloji, irsi əlamətlərini daşıyır. Məşhur embrioloq Rob Gillam deyib: "İslamda ərindən boşanan qadınlar başqa kişilərə toxunmamalıdırlar. Qadın orqanizminə kişinin xromosom izindən təmizlənməsi üçün dörd ay vaxt lazımdır". Alim müəyyən edib ki, ərindən boşanmış müsəlman qadınlardan fərqli olaraq başqa dinə məxsus qadınlarda eyni vaxtda bir neçə kişi xromosomuna rast gəlinir. Nikah bitdiyi andan yeni nikahadək müəyyən müddətin təyin olunması isə qadınları yuxarıdakı hallardan qoruyur. Allah həkimdir, hikmət sahibidir. Onun əmrləri də hikmət nəzərindən, məsləhət üzündədir. Bəşər gərək bu əmrlərə itaət etsin ki, nicat tapa bilsin.

Loxmadan halallıq da şəxsiyyət tərbiyəsində mühüm yer tutur. Çox təəssüf bu kimi amillər müasir pedaqogikada diqqətdən kənarda qalmışdır. Gələcək körpənin tərbiyəsi ana bətnində başlamalıdır. İnsanın mənəvi dünyasının, kamal dünyasının əsası ana bətnində qoyulduğuna görə ana halal, pak qidalardan istifadə etməlidir. Haram qida və içki (donuz əti, spirtli içkilər və s.) ana bətnini zülmətə döndərir, qəlbini, ruhunu iflic edir. Haram yolla qazanılan qidalar da gələcək fəsadların əsasını qoyur. Rüşvətdən, sələmdən, oğurluqdan, haram malların satışından, tərəzidə aldatmadan və s. gələn qazancların təsirindən formalaşan ət, qan, dəri, nəhayət, ruhu da şikəst edir. Bu gün acınacaqlı odur ki, rüşvət pay-püş, hədiyyə adı altında alınır, verilir. İnsan özünü, bax, beləcə aldadır.

Təhsildə islahatlarla bərabər, valideynlər özlərində islahat aparmalıdır ki, məktəbdə təlim-tərbiyənin bir nəti-

cəsi olsun. Ağac nədirsə, onun barı da elə deyilmi? Yenə Dədə Ələsgərdən:

***Hər ağac kökündə bitər, hər meyvə gözlər zatın.***

Cavanlar İlahi qanunları pozmasalar, ailədə halallıq qorunsa, övladların şəxsiyyət kimi formalaşmasına məktəb təminat verə bilər (Əlbəttə, paklığın qorunmasında, nəfsin islahında məktəbin də üzərinə ciddi vəzifələr düşür).

Yuxarıda adı çəkilən kitabda Şeyx Fəzlullah Nuriylə bağlı ibrətamiz bir əhvalat da verilib. Şeyxin oğlu kommunist əqidəli, həm də çox mənəviyyatsız imiş. Öz atasının əleyhinə təbliğat aparırmış. Atasını edam edəndə əl çalıb gülən oğulun bu rəzilliyinin səbəbini Şeyx belə izah etmişdir: "Bu uşaq dünyaya gələndə anasının südü olmayıb. Başqa bir qadın tutublar, süd verib. Sonra bilinib ki, süd verən qadın həm əxlaqsız, həm də Həzrət Əliyə (ə.) nifrət edənlərdən imiş". Bəli, süd anasının ruhiyyəsinin, şəxsiyyətinin körpəyə bilavasitə təsiri var. Əlbəttə, atanın da halal qidalanmasının gələcək övlada təsiri böyükdür. Onun haram yeməsi od yemək kimi bir şeydir. Oddan bağlanan nütfənin fəsadı da od kimi cəmiyyəti yandırar. **Budur Quran həqiqəti: "Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar qiyamətdə alovlu cəhənnəmə girəcəklər" ("Nisa", 10)**. Ariflər elə bu dünyada qəlb gözləri ilə haramın od olduğunu görürlər. Zahirdə yemək, batində od yeyənlər kaş biləydilər bunu! Böyük ariflərdən olan Şeyx Rəcəbəli Xəyyatın şagirdlərindən biri yemək yeyəndən sonra öz mənəvi halını itirir. Şeyxdən kömək istədikdə o buyurur: "Yediyin kababın pulunu filan tacir vermişdir ki, o pul qoca bir qarıdan qəsb olunmuşdur". Beləliklə, insa-

nın yediyi pak, halaldırsa, onun qəlbində yumşaqlıq, səfa aşkarlanar, onun bədən üzvlərindən xeyirdən-bərəkətdən, yaxşılıqdan başqa bir şey görünməz. Əgər haramla qidalansa, qəsavət və zülmət nəticəsində öyüd-nəsihət belə ona heç bir təsir göstərməz. İmam Hüseynin (ə.) Kərbəlada Ömər Sədin qoşununa müraciəti bəşərə ibrət dərsidir: “Qarınlarınız haram mal yeməklə dolmuş, qəlblərinizə möhür vurulmuşdur. Artıq haqq sözü qəbul etmirsiz. Vay olsun sizə! İnsafınız yoxdur ki, mənim sözlərimə qulaq asasınız?” Bəli, haram yemək qəlbi zülmətə döndərər, möhürləyər. Beləsi isə nəinki İmamı dinləyər, onun qətlindən belə çəkinməz.

Allah insanın halal ruzisinə zəmanət vermişdir. Əgər tələsməsək, səbr edib, qənaətlə dolansaq, bizim üçün təyin olunan ruzi hökmən çatacaqdır. Kim ki, öz qazancını haram yolla təmin edir, onun üçün təqdir olunmuş halal ruzidən özünü məhrum edir. Hədisdə deyilir: **“İbadət yetmiş qismdir ki, onların ən yaxşısı halal ruzi qazanmaqdır”**. Elə ibadətlərin də (Allaha xatir edilən hər yaxşı əməl ibadət hesab olunur) qəbul şərti xalis niyyət (ixlas) və halallıqdır. O halallıq ki, bərəkət səbəbimiz, öyünc yerimiz olub!

2014

# MÜQƏDDƏS POEZİYA DƏRSLƏRİ*

## Bismilləhir Rahmənir Rahim

Dədə Ələsgər poeziyasının mənasına varanda bu poeziyanın mayasında İlahi eşqin durduğunu, insan həyatının əzəli və əbədi həqiqətlərinin ecazkar sənət qüdrəti ilə tərənnümünü görürük. Bu poeziyada həqiqətə, insaniyyətə, məhəbbətə, gözəlliyə sönməz məhəbbət alovlanır, insanı təpədən-dırnağa bürüyür, onda işıqlı, müqəddəs duyğular yaradır. Bəli, bu, müqəddəs poeziyadır! Bu müqəddəsliyi ta ulu ozanımız Dədə Qorquddan üzü bəri Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Ağ Aşıq**, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn kimi azman sənətkarlarımız, klassik şairlərimiz yaşatmış, nəhayət, Dədə Ələsgər ülvi ideyalarla yüklü **"şeirin ən gözəl incilərini yaratmış"** (Xalq şairi O.Sarıvəlli), müqəddəs **"sözün qüdrətini ən uca nöqtəyə qaldırıb, oradan əsrinə baxmış; dağ küləyi kimi zamanın təbiətini darayıb keçmiş, dağ çayı kimi onu doğram-doğram eləmiş; bahar buludu kimi onun yamaclarına söz yağışı ələmişdir"** (Xalq şairi M.Araz). Dünyanın böyük sənətkarları içərisində həm də əzəmətli şəxsiyyəti ilə seçilən, övliyalıq ruhu daşıyan, "Meyli saat kimi Haqqa dolanan", "pürkamal", "Mərifət elmində dolu" olan Dədə Ələsgərin həqiqət dərsləri təkcə bizə deyil, bu gün mənəvi böhran işində vurnuxan insanlığa hava və su kimi gərəkdir.

---

* Bu məqalə nəşri planlaşdırılan "Dədə Ələsgər" kitabına "Ön söz" kimi daxil ediləcəkdir.

** Ağ Aşıq (Allahverdi) Göyçənin Kərkibaş kəndində yaşamışdır. O, Aşıq Alının ustadıdır. Aşıq Ələsgər isə Aşıq Alının sənət varisidir. Bu sənətkarların yurdu – Göyçə mahalı İrəvan xanlığının 15 mahalından biri olmuşdur.

Belə dərslər verməyə, əlbəttə, eşq camı içənin, “Şahi-Mərdan (Həzrət Əli – F.R.) sayəsində elm içində ümmanam” – deyənin haqqı çatır. Dədə Ələsgər mürşidi, piri Həzrət Əlidən (ə.) qeybi dərs aldığını dəfələrlə bildirib:

***Oxuram “İnna fətəhna”, mətləb allam yuxuda,***
***Şahi-Mərdan nökəriyəm, dərsimi pünhan verir.***

Qurani-Kərimin “Fəth” surəsi “İnna fətəhna” ilə başlayır (“Həqiqətən, Biz sənə zəfər – aşkar bir zəfər bəxş etdik”). Ariflər onu mənəvi fəthlərə (zəfərlərə), mənəvi kamilliyə yetişmək üçün oxuyurlar. Göründüyü kimi, “Quran”ı əzbər bilən ustadın hər elmdən halı olmasının və həqiqət dərsinə yiyələnməyinin sirrini elə burada axtarmaq lazımdır. Əlbəttə, el arasında müqəddəs ocaq kimi tanınan Talıbxan nəslinin (bu nəslin kökü Şah Əbdüləzimə gedib çıxır) halallığı, paklığı olmasaydı, Ələsgər kimi övliya da yetişib həqiqət yolçusu ola bilməzdi. Ustadın anası Pərzad Abbas qızının mənsub olduğu şahzadəlilər (şahzədələr) tayfası da Göyçə mahalının Qamışlı bulaq (sonralar Zərzibil – Zərkənd) kəndində seçilən tayfalardan olub. Pərzad xanımın altı qardaşından biri Molla Əhməd tanınmış din xadimi imiş. Beləliklə, iki tanınmış nəslin varisiydi Ələsgər.

“Həqiqətdən mətləb qandırmaq” missiyası ilə müqəddəs bir yola çıxan Dədə Ələsgər təkcə xalqını deyil, bütün bəşəriyyəti haqqa, ədalətə, insanlığa səsləyir. Çağdaş dünyamızda Dədə öyüdlərinə, Dədə dərslərinə daha çox tamarzıyıq.

**Mərifət dərsi** – Ustad bəzi tədqiqatçıların yazdığı kimi, sufi deyil, heç bir təriqətə, o cümlədən əhli-həqq təri-

qətinə mənsub deyil. O da Füzuli, Hafiz kimi irfan, eşq, mərifət əhlidir.

Biz gərək islam irfanı ilə sufizmin sərhədlərini dəqiq müəyyən edək. İrfan – "Quran", Peyğəmbər (ə.) və Əhli-beytinin (ə.) buyruqları və həyat tərzini izləməkdən ibarətdir. Bu yolu izləyənlər ariflərdir. Sufizm isə çoxşaxəli bir cərəyandır. Elə sufi təriqətləri var ki, islam şəriətinə əməl etmirlər, yaxud müəyyən məqama çatdıqdan sonra ona biganə yanaşırlar. Hər sufi arif, hər arif sufi deyil. Həqiqi irfan (Allahı tanımaq, Ona qovuşmaq) yolçusu, irfan mərhələlərini – şəriəti, təriqəti, mərifəti, həqiqəti bir-birindən ayırmır. O, şəriət hökmlərinə əməl edərək qəlbini elə arındırır ki, onun aynasında Haqqın sifətlərini müşahidə məqamına – mərifətə yüksəlir. Nəhayət, elə bir ucalığa yetişir ki, öz vücudunu Haqqın vücudunda yox sanır. Bu isə Haqqa qovuşma, həqiqətə çatmaq məqamıdır (fəna). Dədə Ələsgər eşq şərbətini hələ Ələst (ruhlar) aləmində içənlərdəndir:

***İbtida "Əlif"dən dərsim almışam,***
***Ələst aləmində demişəm "bəli".***

Qurani-Kərimin "Əraf" surəsinin 172-ci ayəsində deyilir: "Mən sizin Rəbbiniz deyiləmmi? Dedilər – "bəli". Şəhadət veririk". Bu ayə Rəbbimizin Ələst aləmində ruhlardan aldığı əhdə işarə edir. Bu aləmdə əhdinə sadiq arif daim Haqqa qovuşma həsrəti ilə yaşayır. Dünyanın maddi reallığı arifin hicran – ayrılıq əzabına səbəb olur:

***Qəddim əyib qəm xirqəsin geyirəm,***
***Məhəbbət odundan təam yeyirəm.***

***Leyli-nəhar “ya Hu!”, “ya Hu!” – deyirəm,***
***Çıxıbdı qəlbimdən ibadət eylə.***

Aşiqin qəlbinə elə bir eşq odu düşüb ki, səhər-axşam “ya Hu!” deyir. “Hu”, yaxud “Huvə” ərəbcə “O” deməkdir. “İxlas” surəsində buyrulur: “De ki, O, təkdir”. “Ha” hərfi Allahın müqəddəs vücuduna, “vav” isə bu vücudun əzəmətinə, gizli olmasına dəlalət edir. Aşiq başa düşür ki, bu dünyada eşq atəşinə çarə yoxdur: “Eşq atəşinə heç olmaz çara”, “Mən fağırı qəm ataşı yandırır”, “Ayaq oda yanmır, başı yandırır”. Sonuncu misrada məna belədir: ayaq (qədim dilimizdə qədəh mənasındadır) odda – eşq şərabında yanmır; bu şərab başı isə yandırıb-yaxır.

Fəlsəfi-irfani məzmunlu “İstər” qəzəlində də aşiqin nalələrini görürük:

***Ələsgər zari-dil, xəstə deyər: sərvi-xuramanım,***
***Mənim bu natəvan könlüm səni aşüftəhal istər.***

“Zari-dil” – İlahiyə qovuşmaq həsrəti ilə nalələr çəkən dil (qəlb), “xəstə” – İlahi ilə özü arasında olan pərdələri götürmüş aşiq, “sərvi-xuraman” isə aşiqi qərarsız edən canandır (İlahidir). “Aşüftəhal”ın həm pərişan, həm də məftuncasına mənaları vardır. Təbii ki, aşiqin könlü ayrılıq həsrətindən pərişan olsa da öz yarının məftunudur. Aşiqin ayrılıq dərdinə dərman nazlı yarın dəridir (qapısıdır):

***Qul olasan, qalasan,***
***Nazlı yarın dərində.***

“Üzhaüz” təcnisində aydın görünür ki, bu misralar məhz irfani məzmun daşıyır. Ustadın “Mərifət bəhrində

qəvvasam – deyən”, “Dərviş olan gedər gəzər dərində” misraları bu deyilənləri təsdiq edir. Ariflər Haqqın camalının qəlbdə müşahidə məqamına “yar” deyiblər. Deməli, aşiqin dərdinin dərmanı Haqqın qapısında qul olmaqdır, canını ona təslim etməkdir.

Dədə Ələsgər poeziyasında dərviş, eşq, arif, həqiqət, dəli, pir, mey, badə, sağər, tərsa, kuy, dər kimi deyimlər irfani məzmun daşıyır. “Ələsgərəm, mən də içdim bada hey”, “Ələsgər Kövsərdən badə içəndə” misralarının irfani mənası anlaşılsa da, aşağıdakı misralar düzgün mənalandırılmamışdır:

***Haqq meyi islama haram buyurub,***
***Dərd tüğyan eyləsə, mey içmək olar.***

Məlumdur ki, ustad digər bir şeirində şərab içənlərin aqibətinin od olacağını bildirib:

***Şeyitbazlıq edib şərab içənlər***
***Canını odlara saldı da getdi.***

Yuxarıdakı misraların mənası belədir: islam ağlı aparan meyi haram, amma insanı Haqqa bağlayan, özünü də unutduran meyi (eşq meyini) halal buyurub. Eşq meyindən qəlbə İlahi nur axır. Bu, hər cür dərdin dərmanıdır.

Çağdaş dönəmimizdə insan ağlı texniki tərəqqiyə təkan versə də, mənfəətpərəstliyə, əyləncəyə, zorakılığa, düşmənçiliyə yönəldi; eşq və mərifət yolundan uzaqlaşdı. Mənəviyyatsız, ruhsuz elm Yer kürəsini uçurum qarşısında qoymuşdur. Bəşərin xilası yenidən insan, varlıq və Allah haqqında mənəvi-ruhi təlimlərə qayıdışındadır. Ağlın vəzifəsi özünü, kainatı dərk edib Yaradıcını tanımaqdır. Bütün elmlər mərifətullaha – Allahı tanımağa gedən yol olmalı-

dır. Bu yol insana, varlığa sevgidən keçir. Varlığa sevgisi olmayanlar Allahı da sevməz. "Həm aşığam, həm dərvişəm, həm dəli" – deyən Dədə Ələsgər insanları könlünün eşq çeşməsindən sirab olmağa dəvət edir:

***Sinəmdədi eşqin şirin çeşməsi,***
***Ləzzəti meyl edib, ay əməndədi.***

Ustad deyir: – Könlümdəki eşq çeşməsindən iç ki, sən də eşqdən sərxoş olasan. Bütün nəfsi istəklərə "yox" deyəsən. Bütün dərdlərimizin yeganə dərmanı İlahi eşqə tapınmaqdır! Əgər bu gün sivilizasiyamızı xilas etmək istəyiriksə, ağıl-qəlb (eşq), ağıl-vicdan qarşıdurmasından əl çəkməli, Dədə Ələsgər kimi övliyaların sənət və mərifət dünyasından bəhrələnib onların vəhdətinə gəlməliyik.

**Həyat fəlsəfəsi dərsi** – Ustad həyat həqiqətlərini sadə, dərin mənalı misralarda elə incələyir ki, heyrət doğurur:

***Ələsgər, axtarma qüdrətin sirrin,***
***Zülmətə işıq var, acıya – şirin.***

Bu misralar İlahi hikməti açıqlayır: dünya ikili əsasda, təbiətən zidd şeylərin vəhdətində yaradılıb. Hər şey öz ziddiylə tanınır. Şirinin nə olduğunu acıyla bilirik (eləcə də əksinə). Zülmətin bağrından işıq çıxır, işıq çəkiləndə zülmət olur. Təbiətdə zil qaranlıq sübhə yaxın olduğu kimi, insan həyatında da acılı günləri şirin günlər əvəz edir (Sınaqlar ruhun kamilləşməsinə xidmət edir). Sınaqlara dözüm tələb edən səbr özü də acıdır, ancaq meyvəsi şirindir – məqsədə çatdırır. Məqsədimiz isə Dosta qovuşmaqdır.

Mütəfəkkir bütün zəka sahiblərini düşündürən məsələdən – varlığın yaranış fəlsəfəsindən yan keçə bilməzdi:

***Yerin, göyün, ərşin, kürsün, insanın,***
***Künhü, bünövrəsi ay nədən oldu?***
***Yeri göydən, göyü yerdən kim seçdi?***
***Hikmətin dəryası ay nədən oldu?***

Ustad "Danışaq" bağlamasının "Nuri-Əhməd yaranandan danışaq" misrasında varlığın həqiqətinə işarə edir. Əzəli varlıq Uca Allahın zatının təcəllisindən ilk dəfə "Nuri-Əhməd" (Həzrət Məhəmmədin nuru və ya həqiqəti) yaranıb və bu nur bütün yaradılışın (ərşin, kürsün və s.) əsası, bünövrəsi olub. Rəsuli-Əkrəm (ə.) buyurmuşdur: "Allahın yaratdığı ilk məxluq mənim nurum olmuşdur". Varlığın yaranmasında bu nurun səbəb olması aşağıdakı qüdsi hədisdə də əksini tapmışdır: "Sən olmasaydın, Biz fələkləri yaratmazdıq". Üçüncü misranın izahı "Ənbiya" surəsinin 30-cu ayəsinə əsaslanır: "...göylər və yer bir-birinə bitişik idilər və biz onları parçalayaraq bir-birindən ayırdıq". Bu, müasir kosmologiya elmində də təsdiq olunur. Sonuncu sualın cavabını da Allah Kəlamında tapırıq: "Məgər biz sənin sinəni genişləndirmədikmi?" ("Şərh" surəsinin 1-ci ayəsi).

Məlumdur ki, Allah Peyğəmbərin qəlbini genişləndirmiş, onun tutumunu artırmışdır. Çünki vəhy almaq, onu bəşəriyyətə çatdırmaq, elm və hikməti bilmək, insanlara rəhbərlik etmək böyük qəlb tutumu, böyük səbr və dözüm tələb edir. Hədisdə də deyildiyi kimi, Peyğəmbər (ə.) elm və hikmət şəhəridir. Deməli, elm və hikmət dəryasıdır.

Dədə Ələsgər sənətinə Xalq şairi B.Vahabzadənin verdiyi dəyər lap yerindədir: **"Uşaqlıqda onun şeirlərindəki doğmalığa, təmizliyə, nəğməyə vurulmuşdumsa, indi onun hikmətinə, dərinliyinə səcdə edirəm"**.

**Əxlaq dərsi** – Sənətkarın ustadnamələrindən tutmuş təcnislərinə qədər əxlaq fəlsəfəsi qırmızı xətt kimi keçir. Əxlaqın saflaşmasında birinci yerə nəfsin islahını qoyan ustad, qafil olmamağa, aqibəti düşünməyə səsləyir. “Eyləməynən” qoşmasında nəfs-mərifət qarşıdurması çox ibrətamizdir. İçimizdəki nəfs adlı əjdaha ram olmasa, nəfsin şəhvət (tamah), qəzəb qüvvələri ağıla tabe olmasa necə insan ola bilərik? Mövlamız Həzrət Əli (ə.) buyurduğu kimi, “insan nəfsini islah etmədikcə ağıldan bəhrə götürə bilməz”. Nəfsin qoşunu şeytan qoşunu ilə əl-ələ verib ağıl nurunu söndürməyə qadirdir. Buna görə də dinimizdə nəfslə mübarizə böyük cihad hesab olunur:

***Nəfs ilə mərifət durub cahada,***
***Mərfət deyir: – Belə kar eyləməynən!***
***Nəfs deyir: – Baxma naqqal sözünə,***
***Xeyrin gələn yerdə ar eyləməynən!***

Ustad nəfsi yenmək yolunu açıqlayır:

***Oruc tut, namaz qıl, eylə ibadət,***
***Mehdi divanında olma xəcalət.***

Nəfsi cilovlamaq üçün imandan güc al, Haqqa sığın!

İnsanın eşq yolu əvəzinə nəfs yolunu tutmasının səbəbi özündən xəbərsizliyi, həyatının mənasını, hədəfini bilməməsidir:

***Aldanıbsan nəfsə, tapıbsan həva,***
***Dərk eləyib, qanmayıbsan hesabı.***

İslam əxlaq fəlsəfəsində nəfs qüvvələrinin ağıla tabe olması, hər qüvvənin öz yerini bilməsi ədalət adlanır. İçimizdə ədalət, tarazlıq olsa, dışımızda da, dünyada da ola-

caqdır. Bütün yaramazlıqlar nəfsdən qaynaqlanmırmı?

Ustadın ustadnamələri yüksək əxlaqi-mənəvi tutuma malikdir. Burada əxlaqi anlayışların əksliklər müqayisəsində mahiyyəti açılır:

***Bir mərd ilə ağı yesən, şirindi,***
***Yüz namərdlə şəkər yesən, dad olmaz.***

Ustadın əxlaq fəlsəfəsində mərdlik, igidlik, fədakarlıq, vəfa, ilqar, qeyrət, düzgünlük, təvazökarlıq, canıyananlıq, səxavət və s. kimi əxlaqi dəyərlər yüksək poetik dillə ifadə olunmuşdur. Bu isə geniş tədqiqat mövzusudur. Dədə Ələsgər şəxsiyyətin yetişməsində çox mühüm amilləri göstərir ki, bu gün onların nəzərə alınmaması böyük fəsadlar törədir:

***Loxmadan kəc olan, nütfədən əyri,***
***Yüz dərs alsa, pürkamala yetişməz.***

Zinadan törəyənlər, haram yeyənlər, bir sözlə, mayaları haramdan tutulanlar bəşəriyyətə həmişə bəlalar gətirmiş, haqqa qənim kəsilmişlər.

Mərifətə, kamala yol halallıqdan keçir – budur Dədə Ələsgər öyüdü!

**Kəramət dərsi** – Dədə Ələsgərin kəramətləri bizə öyrədir ki, bəndə Haqqa itaət etməklə hansı ruhi-mənəvi ucalıqlara yüksələ bilər (Əlbəttə, son məqsəd Haqqa qovuşmaqdır):

***Hər yanı istəsə baxanda görə,***
***Təriqətdə bu sevdalı gərəkdi.***

Dədə Ələsgərin diləyi tutulur: xəstəni bir dua ilə sağaldır, övlad həsrətli insanlar haqqında duaları qəbul

olunur, fikirdən keçənləri oxuyur, kənardakı hadisələrdən xəbər verir, öz vəfat gününü əvvəlcədən söyləyir, işi çətinə düşənlərin yuxusuna girib, onlara çıxış yolu göstərir, yola düşən ağır bir daşı namaz qılıb qeybi kömək almaqla kənara atır və s. Bu kimi kəramətlər şahidlərin təsdiq etdikləridir.

İbn Sina "İşarət və tənbihat" kitabında arifləri nəzərdə tutaraq yazır: "Nail olduqları bu mənəvi məqamlar səbəbiylə onların iki cür işləri olar; biri onların batinlərində qərar tapan gizli və sirli, digəri isə onlardan zahir olan aşkar işlərdir". Filosof "zahir olan aşkar işlər" – dedikdə kəramətləri nəzərdə tutur. Arif ruhunu saflaşdırdıqda bu ruhda İlahi sifətlər qərar tapmağa başlayır və ondan qeyri-adi işlər aşkar olur. O, dalğıc kimi mərifət dənizinə baş vurub Haqqa qovuşma yolunda mənəvi həqiqətlər – gövhərlər ələ gətirməyə başlayır. Aşağıdakı misraların batini mənası buna işarədir:

***Gövhər olar dəryalarda – dərində,***
***Onu qəvvas çəkər ay üzə tək-tək.***

Övliyanın ruhu bu dünyanın çərçivəsindən çıxır, "ordan gələn olmayıb" düşüncəsini sındırır, axirətə – digər bir real aləmə baş vurur və bizlərə ruhsal dərs verir:

***Neçə sirri gördüm, sir qaldım aşkar,***
***Səxavət əhlini yandırmadı nar.***
***Salavatnan işlər hər dükan-bazar,***
***Zay oldu dünyanın malı qabaqda.***

**Məhəbbət dərsi** – Məhəbbət lirikasının şah əsərlərini yaradan ustad saf məhəbbəti, aşiqin iztirablarını, həyəcan-

larını təsvir etməklə kifayətlənmir, öz canını da bu məhəbbət yolunda qurban verməyə hazır olduğunu bəyan edir:

***Öldürsələr, qorxum yoxdu qanımdan,***
***Yolunda keçmişəm başu canımdan.***

Öz əhdinə vəfalılıq, əhdi yolunda fədakarlıq dərsi verir sevənlərə Dədə Ələsgər.

**Gözəllik dərsi** – "Ay qabaqlı", "qələm qaşlı" gözəlləri vəsf edən sənətkar onlarda mərifət, qanacaq, həyanı önə çəkir:

***Eşit bu sözləri, saxla yadigar:***
***Gözəllərdə həya, iyidlərdə ar.***

Həyasız gözəl duzsuz xörək kimidir, – demişlər. Həzrət Əlinin (ə.) bu kəlamı yada düşür: **"Gözəl insanlar həmişə yaxşı olmur, amma yaxşı insanlar həmişə gözəl olur"**. Yəni qəlbi gözəl həmişə gözəldir. Ələsgər gözəllərinin başında həqiqət gözəlləri gəlir:

***Həqiqətdən iki gözəl sevmişəm,***
***Birisi Məhəmməd, birisi Əli.***

Və yaxud:

***Fatimeyi-Zəhra – şafeyi-məhşər,***
***Onu seçdim gözəllərin gözəli.***

Sənətkar "Canım gözəllərin yol qurbanıdı" dedikdə məhz hidayət nurlarının, hidayət çıraqlarının – on dörd məsumun yolunda canını fəda etməyə hazır olduğunu bildirir. "Beş gözəlin aşiqiyəm; vəsfi-camaldı yüküm" kimi misralarda Əhli-beytin mənəvi gözəlliklərini sonsuz məhəbbətlə tərənnüm edir.

Gözəlin vəsfində qeyri-adi bənzətmələrdən birinə nəzər yetirək:

***Həcər xanım, qaşın, gözün təhrində***
***Xətt yazsam, Quranda ayə düşərmi?!***
***Götürsən niqabı mah camalından,***
***Hüsnün nuri-təcəllaya düşərmi?!***

Yeri gəlmişkən, 2-ci misra 1937-ci il nəşrində "Xətt yazsam, kağızda ayə düşərmi?!" şəklinə salınaraq dərin məna təhrif olunmuşdur. Mətləb isə budur: "Həcər xanım, qaşın, gözün təhrində (oxşarında, bənzərində) xətt yazsam, Qurandakı ayə alınarmı? Ulu Nəqqaş insanı elə naxışlarla, cizgilərlə bəzəmişdir ki, oxuyan gərəkdir. Klassik ədəbiyyatda bu cizgilər ərəb əlifbasının hərflərinə bənzədilmişdir. Məlumdur ki, qaş "nun" hərfinə (ن), göz "sad" hərfinə (ص) oxşayır. Qurani-Kərimin "Sad" surəsi "sad" hərfi ilə, "Nun" surəsi "nun" hərfi ilə başlayır. Bu hərflərin hər biri ayrılıqda bir Quran ayəsi (dəlil, nişanə deməkdir) hesab olunur. Deməli, qaş, göz təhrində xətlər çəkilsə, Qurandakı "Sad", "Nun" ayələrini almış oluruq. Əgər gözəlin qaş-göz cizgilərini ayrı-ayrı deyil, bütövlükdə götürsək, "qaf" hərfinin tərsinə yazılışına bənzəmirmi? Qaf – (ق). "Quran"ın "Qaf" surəsinin də birinci ayəsi "qaf"dır. Digər misraların mənası isə vəhdəti-vücud təlimindən qaynaqlanır. İrfan əhlinə (ariflərə) görə, varlıqda hər şey Mütləq Gözəlin ad və sifətlərinin təcəllisidir (təzahürüdür). Dədə Ələsgər də Həcər xanımın ay camalını Mütləq Gözəlin camal sifətinin təcəlla nuru hesab edir.

**Haqqpərəstlik dərsi** – Dədə Ələsgər yaradıcılığı ictimai-siyasi həyatın, zamanın aynasıdır. O, həyatın hər

üzünü nəzmə çəkib; xalqının da, dünya insanlarının da halı nəzərindən yayınmayıb. Haqqı çəkinmədən söyləyib:

***Sözlərimin bir parasın saxlamışam, xəlvətdədi;***
***Zamana müxənnət olub, sur indi müxənnətdədi;***
***Bir az namus gözləyənin axır boynu kəmənddədi;***
***Dünyada "iyidəm" deyən, ölüb, ya qəzəmətdədi;***
***Bu dünyanın ləzzətini, bilin, biqıryat aparar.***

Xalqın müdrik ağsaqqalı el dərdini öz dərdi bilir, könlü odlanır bundan:

***Ələsgərəm, öz dərdimdən düşməmişəm bu bəhsə;***
***Yoxsulların günün gördüm, ah çəkib batdım yasa.***

**Psixologiya dərsi** – Böyük kəramətlər sahibi, qəlblərdən keçəni oxuyan ustad könül yaşantılarını elə zərifliklə, incəliklə verir ki, duyğulanmaya bilmirsən. Könüllərdəki sızıltıların duruşlarda təzahürü onu pərişan edir:

***Sən də yardan yaralısan,***
***Duruşundan qanıram mən.***

Məşhur "Düşdü" qoşmasındakı psixoloji mənzərə aşiqin ümid və məyusluğu, duyğu zərifliyi haqqında deyilən yüksək sənətkarlıq nümunəsidir. "Dağladın sinəmi güləndə, yazıq!" misrasında bir qəmli könlün qəmli gülüşündən sinəsi dağlanan şairin dərin psixoloji sarsıntısını görürük.

İnsanlar arasında münasibətlərin incə düsturunu verir Dədə Ələsgər: "Can" deməklə candan can əysik olmaz". Bəli, mehribanlıq, dilişirinlik kimi əfsun tapılmaz, bu əfsun məhəbbət yaradar.

**Təbiətşünaslıq dərsi** – Bu poeziyada çayın şırıltısını,

çeşmənin şır-şırını, çəmənin, dağın ətrini duyuruq. Ustad təbiətin ruhunu duyur, təbiətlə onun dilində danışır, onu şəxsləndirir, canlı obrazını yaradır: “Ağ xələt bürünər, zər-nişan geyməz”, “Ölsün Ələsgər tək qulların, dağlar”, “Niyə pərişandı halların, dağlar?!”, “Küsüb qonağın, Şah dağı” və s. “Əşyaların da ruhu var” – deyən Markesdən qabaq Dədə Ələsgər qozqara kötüyünü belə danışdırmışdır. Bu gün təbiət bizdən imdad diləmirmi? Ustadın təbiət dərsini dönə-dönə öyrənməli deyilikmi?

**Etnoqrafiya dərsi** – Ustadın irsi xalq adət-ənənələrinin, geyim tərzinin, məişətinin zəngin təsviriylə doludur. “Güləbatın qıyı tər sinən üstə”, “Heratı kəlağay şala yaraşır”, “Vəsməni yaxıb qaşına”, “Alaçıq qurulcaq kəsər qurbanı” və s. təsvirlər o zamankı xalq həyatının real güzgüsüdür.

**Rəssamlıq dərsi** – Dədə Ələsgərin tərənnüm etdiyi nə varsa, elə bil ki, rəssam fırçasından çıxıb. Onun hər bir nəqşi yerli-yerindədir:

***Ləb qönçə, diş inci, yanağın lala,***
***Çəkilib qaşların yay, Sarıköynək.***

Sənətkarın böyük qüdrətlə yaratdığı “insan portretləri, təbiət mənzərələri sözlə rəsm olunmuş elə lövhələrdir ki, hünər istəyir ki, rənglə belə isti, alovlu, lakonik verə biləsən”. Xalq rəssamı Mikayıl Abdullayevi heyrətləndirən təkcə sözlə nəqş çəkmək qüdrəti deyil, həm də sözün rəngini, hətta rəng çalarlarını görmək hünəridir: **“Aşıq Ələsəgər rəssam olub; o, bir sözün yüz rəng çalarını tapıb”**. Rəngi görə bilməyən rəssam S.Bəhlulzadə ola bilmədiyi kimi, sözü görüb duymayan, sözü eşitməyən də

böyük söz sərrafı ola bilməz. “Can” desin” şeirində “can” kəlməsini doqquz, “Kəsildi” şeirində “kəsildi” ifadəsini yeddi məna çalarında işlətmək, əlbəttə, söz sərrafının işidir.

**Bəstəkarlıq dərsi** – Ustadın şeirləri gözəl musiqi əsərləri kimi səslənir. Lirik şeirlərinin bir çoxuna musiqi bəstələnmişdir. Bunun sirri ondadır ki, şeirlərin məzmunu, mənası sözlərin ahəngi, musiqisi ilə səsləşir. “Can” deməklə candan can əysik olmaz” misrasında “c” səsinin, “Çal çəngəlin, çək ciyərin çataçat” misrasında “ç” səsinin, “Narın çalxan, narın silkin, narın üz” misrasında “n” səsinin təkrarı ilə xüsusi bir cingilti, musiqi səslənir.

Ustadın şeirlərində insan ruhunun müəyyən halları sözlərin musiqisi, ahəngində elə əks olunur ki, bu, şeirin gözəlliyini qat-qat artırır:

***Dəli könül dərya təki çalxanır,***
***Qeyzə gəlir xoş ahəngi qıjhaqıj.***

Burada könül təlatümü, coşğunluğu oxucunu da sarır. Xalq artisti Tofiq Quliyev demişdir: **“Aşıq Ələsgər təkcə ədəbiyyatımızın yox, incəsənətimizin də xəzinəsində qiymətli incidir. O, həm də ən gözəl ifaçı olub. O, hələ çox şairin, çox bəstəkarın ustadı olacaqdır”**.

**Tarix dərsi** – Ustadın şeirləri həm də tariximizə güzgü tutur. O, çarizmə qarşı qaçaqçılıq hərəkatını alqışlayır və hətta şəyirdlərinə Dəli Alı və silahdaşlarına qoşduğu şeirləri hər yana yaymağı tapşırır. Bu şeirlərdə Dəli Alı silahdaşlarının adları, şəxsi keyfiyyətləri haqqında kifayət qədər məlumatlar var. Ümumiyyətlə, bu poeziya dövrü əks etdirən təsvirlərlə zəngindir.

**Dil dərsi** – Dədə Ələsgər sözümüzün bədii biçiminə ecazkar gözəllik gətirmişdir: **“Hələ bədii sözlə onun kimi məharətlə, böyük zövqlə və incəliklə naxış vuran olmayıb”** *(Xalq yazıçısı Mirzə İbrahimov)*.

Sözün dərin laylarına, qatlarına enməkdə, bir sözün neçə-neçə mənasını üzə çıxarmaqda, yeni deyimlər, yeni məcazlar, yeni aforizmlər yaratmaqda misilsizdir. Bu poeziya səs düzümünün yaratdığı ahəngdarlıq, musiqililik baxımından da bənzərsizdir. Bir sözlə, Dədə Ələsgər poeziyası dilimizini qüdrətini, əzəmətini göstərən bir aynadır. Aşağıdakı misralar artıq aforizm kimi səslənir: “Hər könül özünə bir padişahdı”, “İman durar düz ilqarın içində”, “Yadın oğlu yağlı aşa mehmandı”, “Görürsən ki, baxtın yatdı, sən də yat”, “Torbakeşlər tənə qılır peşəngə”. Axırıncı deyimin mənasına varaq: əvvəllər çobanlar qocalıb əldən düşmüş heyvanların boğazından çörək torbaları asırdılar ki, ac qalmasınlar. Belə heyvanlar torbakeşlər (torbadaşıyanlar) adlanırdı. Məlumdur ki, sürünü çəkən təkəyə peşəng deyirdilər (yəni qabaqda gedən). Əgər həyatımıza tətbiq etsək, “özü yedəkdə gedən aciz insan yol göstərənə tənə edir” mənasını almış olarıq.

Dədə Ələsgər irsinin tədqiqi, nəşri ciddi məsuliyyət tələb edir. Ustadın şeirləri yaddaşlarda yaşayaraq bu günə çatdığına görə, onların əksəriyyətinin müxtəlif variantları meydana çıxmışdır. Eyni zamanda, bu irsə aid olmayan bəzi şeirlər də Ələsgər yaradıcılığı kimi təqdim olunmuşdur. Sənətkarın qardaşı Şair (Çoban) Məhəmmədin şeirləri bu qəbildəndir. Həyatını babasının yaradıcılığına həsr etmiş folklorşünas-alim İslam Ələsgər 2009-cu ildə nəşr etdirdiyi “Çoban Məhəmməd” kitabında bu xətanı aradan qaldırmış

və “Bu dağlar mənim”, “Gördüm”, “Sinəmdə var”, “Yeddidi” qoşmalarını, “Yara yetirər”, “Ay “sin”ə, “sin”ə”, “Ayağa, ayağa” təcnislərini, “Artıqdı”, “Birə”, “Betər” müxəmməslərini bu kitaba daxil etmişdir (“Yara yetirər”, “Sinəmdə var” şeirləri şairin dastanlarının içində getmişdir). Bu nəşri hazırlayanda “Çoban Məhəmməd” kitabını da nəzərə almışıq.

Yeri gəlmişkən, “Ürəyimdə” şeiri “Qurbani” kitabında (1990-cı il nəşri) Aşıq Qurbaninin adına verilmişdir. Halbuki, bu, Aşıq Talıbın da təsdiq etdiyi kimi, ustadın Kəlbəcərin Qamışlı kəndində bir toy məclisində dediyi dörd şeirdən biridir (Bax: “Aşığın şəyirdləri ilə söhbət” (Aşıq Ələsgər, 1999).

Bu nəşrdə əvvəlki buraxılışlarda rast gəlinən bəzi şeirləri və ələsgərsevərlərdən yeni əldə etdiklərimizi **“Ustada aid olunan şeirlər”** bölməsində yerləşdirməyi münasib bildik. Aşağıdakı şeirlər ilk dəfədir ki, bu kitabda işıq üzü görür: “Dəyməyib”, “Çəksən”, “Qaçaqaç”, “Məni” “Gəldi”, “Sarı qız”, “Sənəm, gəl”, “Nə içindədi”, “Üç mindi”, “Qaşları cəlladdı”, “Deməsin”, “Qərəz”, “Verməmə səni”, “Ruhan məclisində, ər meydanında”, “Ya Əli”, “Yan gedir”, “Yek-yek”.

İslam Ələsgərin arxivindən tapılmış natamam şeiləri **“Yaddaşda qalanlar”** başlığı altında verməyi məsləhət bildik.

**“Xatirələr”** bölməsinə də üç yeni xatirə əlavə etdik (biri Aşıq Şəmşirin dilindəndir).

Ustadın şeirlərinin ayrı-ayrı misralarının müxtəlif variantlarını saf-çürük edərək daha düzgün variantları müəyyənləşdirməyə çalışdıq. Onlardan bəzilərini istəkli

oxucularımızın müzakirəsinə veririk. Digər düzəlişləri **“Qeydlər”** bölməsində yerləşdirdik.

“Ola bilməz” şeirinin son nəşrlərdə ilk misraları belədir:

***Sərraf yüz bəzəsə səngi-siyahı,***
***Əsli mütəlladı, ləl ola bilməz.***

İkinci misranın “Üzdən mütəlladı, ləl ola bilməz” variantı daha düzgündür. Qara daşın üzü mütəlladı (parlaqdır), zatında, əslində ləllik yoxdur. Onu sərraf yüz bəzəsə də ləl olmaz.

“Düşdü” qoşmasında bir misranın müxtəlif nəşr variantları vardır:

**“Gözəl, sən dərdlisən, mən yaralıyam”** (1937, 1963, 1988)

**“Dedim: – Sən təbibsən, mən yaralıyam”** (1972, 1999 və sonrakı nəşrlərdə**)**

“Sən dərdlisən” ifadəsi şən əhvallı, “gözündən gülən” (göz dərdi gizlətməz), əhli-dil (qəlb əhli) gözələ qətiyyən uyuşmur. Əslində dərdli sənətkar özüdür: “İşarət eylədim, dərdimi bildi”. Əvvəl dərdi özünə, sonra gözələ aid edərək “dərd” sözünü təkrarlamaq şeirə qüsur deyilmi? “Gözəl, sən dərdlisən, mən yaralıyam” misrasıyla sonrakı “Dedi: – Nişanlıyam, özgə malıyam” misrası məntiqi cəhətdən səsləşmir. Ancaq “Dedim: – Sən təbibsən, mən yaralıyam” eyhamı, işarəsi eşqini bildirməsini ifadə edir: mənim yaramın təbibi sənsən. Gözəl isə: “nişanlıyam” – deyib, qol-qanadını qırır. Kimsə deyə bilər ki, şair hər elmdən halı olduğuna görə, onun məcburən nişanlanmasını, “özgə malı” olduğunu əvvəlcədən duyub və onu “dərdli” adlandırıb.

Əgər bu belədirsə, niyə “nişanlıyam” cavabından qol-qanadı yanına düşməliydi? Yaxud gözəlin nişanlı olduğunu bilə-bilə ona niyə eşq elan etməliydi? Beləliklə, bu misranın son nəşr variantını saxladıq:

***Dedim: – Sən təbibsən, mən yaralıyam.***

“Güləndam” qoşmasının aşağıdakı misraları son nəşrlərdə belədir:

***Mənim gözüm sənin kimi yardadı,***
***Hər cəfası mana xoşdu, Güləndam.***

Əslində belə olmalıdır:

***Mənim gözüm qoynundakı nardadı,***
***Aşığa lütf etsən, xoşdu, Güləndam.***

“Ürəyimdə” şeirində I bəndin 3-cü misrası əksər nəşrlərdə “Həsrət çəkdin, ortalığa qan əkdin”, 1963-cü il nəşrində isə “Həsrət çəkdim, ortalığa gül əkdim” şəklindədir. Bizcə, “ortalığa həsrət çəkdin, ortalığa qəm əkdin” mənasında olan “Həsrət çəkdin, ortalığa qəm əkdin” variantı düzgündür.

“Töküldü” qoşmasında aşağıdakı misrada “qabar” sözü “qubar”la əvəz edilməlidir:

***Köhnə yaralarım eylədi qabar***

Misrada söhbət qəlb yaralarından gedir; bu yaralar isə qubar edər, qövr edər, yenidən yada düşər, sızladar, göynədər qəlbi.

“Döndü, nə döndü” şeirində bir misranın variantları:

***İqbalım idbara döndü, nə döndü!***
***İqbalım şikara döndü, nə döndü!***

I variant məqbuldur, çünki iqbal tale, idbar talesizlik, tale dönüklüyüdür. Beləliklə, məna belə olur: taleyim tərsinə döndü, dönük çıxdı. M.P.Vaqif də bu mənada işlədib: “Gecəki iqbalı gör, gündüzdəki idbarə bax”.

“Eyləmişəm” qoşmasında aşağıdakı misra 1988-ci il nəşri istisna olmaqla, həmişə bu şəkildə verilmişdir:

***Hicranın qəmiylə kef eyləmişəm.***

Əslində, “Hicranın dəmiylə kef eyləmişəm” kimi olmalıdır. Əgər ustad bəndin sonunda “Qəm satıb, dərd alıb nəf eyləmişəm” – deyirsə, qəmlə yox (onu satıb), qəmdən daha ağır olan dərdlə – hicran dərdinin dəmiylə kef eyləmişəm” fikrini çatdırır. Yəni hicranın (ayrılığın) nəfəsiylə, nəşəsiylə kef eyləmişəm.

Burada irfani məna gizlənir: yarından ayrı düşüb qəmlənsə də, İlahinin eşqi, ona qovuşmaq dərdinin nəşəsiylə kef eyləyir.

“Ha lala çıxar” təcmisinin son misrası “Beygirin dümbündən hal ala çıxar” yox, “Beygirin dümbündən halala çıxar” variantında olmalıdır. Yəni beygirin (yük atının) quyruğundan yara çıxar.

“Sini-sin” şeirində I bəndin 1-ci misrası “Hicran düşgünüyəm, gözəl müştağı” kimi yox, “Hicran tüccarıyam, qəm şikəstəsi” kimi olmalıdır. Hicran tüccarı (düşkünü) ilə qəm şikəstəsi (qəmdən solmuş, üzülmüş) ifadələri bir-birini tamamlayır.

“A yəməndədi” təcnisinin II bəndi belə gedib:

***Yox sazımın nə pərdəsi, nə simi,***
***Onu çalıb kim tərpədər nə simi?***

***Firdovsi, Füzuli, Hafiz, Nəsimi,***
***Onlar da yazdığı, ayə, məndədi.***

İkinci misrada cinasın pozulmaması üçün "nə simi" yox, "nəsimi" olmalıdır. Məna belədir: "Pərdəsiz, simsiz könül sazımı kim çalıb, könlümdə nəsim (meh) tərpədə bilər? Onda cinas qafiyələr gözlənilir. Birinci misrada sim, ikinci misrada səhər yeli, meh, üçüncüdə isə şair mənasında işlədilib. Onu da qeyd edək ki, çox vaxt məqalələrdə səhvən "ayə" ifadəsini xitab kimi yox, ayə kimi mənalandırırlar. Təcnisin yalnız son bəndində "ayə" ifadəsi Quran ayəsi mənasındadır:

***Altı min altı yüz ayə məndədi.***

"Nədi adı" şeirində I bəndin ilk misrasının müxtəlif variantları içində aşağıdakını məqbul hesab etdik:

***Təriqətlə həqiqəti seçənlər,***
***Həqiqətlə təriqətin nədadı? (nədir fərqi?)***

"Yarat, ərməni" təcnisində ilk misraların bu şəkildə olduğunu deyən aşıqlar da vardır (Aşıq Avdı və b.):

***Xudam onu, məni yoxdan yaradıb,***
***Ayırmaz, o yara yar edər məni.***

Bu variant sonrakı misralarla da səsləşir:

***Bir qönçə bitəydim dostun bağında,***
***Dilimlə deyəydim yara: dər məni!***

Təəssüf ki, şeirin hansı şəraitdə, nə münasibətlə deyildiyi məlum olmadığına görə, geniş yayılmış aşağıdakı

variantı (Aşıq Talıbın da səs yazısında olanı) saxladıq:

***Xudam onu, səni yoxdan yaradıb,***
***Sən də bircə milçək yarat, ərməni.***

II bəndin ilk misraları belə gedib:

***Tutmuşam dəstimdə gözəl nizamı,***
***Firdovsi, Füzuli, gözəl Nizamı.***

Bizcə, 1-ci misra "Tutubdu dəstində gözəl nizamı" şəklində olmalıdır. Beytin mənası onda belə olur: adları çəkilən şairlər gözəl nizamı (söz nizamını) əldə tutublar.

III bəndin 1-ci misrasının da müxtəlif variantları vardır; gah "Hilal qaşın bənzədərəm dər yaya", gah "Hilal qaşın bənzətmərəm dər yaya" şəklində verilmişdir. Hilal qaşı yaya niyə də bənzətmək olmasın?! Ustad digər şeirlərində də ("Sarıköynək" və s.) bu cür bənzədib. Bu bəndin 2-ci misrası həmişə "Yazıq Ələsgər, dastan elə dər yaya" şəklində verilmiş, cinas pozulmuşdur. Belə ki, dər yay 1-ci misradakı kimi yenə "yay" mənasında işlədilmişdir. Bizcə, "dər yaya" yox, "Dəryaya" olmalıdır (yəni dastan elə Dəryaya (gözələ)).

"Sə qalı tez-tez" şeirində sonuncu bəndin ikinci misrası da müxtəlif şəkildədir:

***Ağan təkdi, dəngi deyil səd ağa,***
***Ağan təki dəngi deyin sad ağa.***

I variant, göründüyü kimi, bir məna kəsb edir: ağan təkdir, yeganədir, ona yüz ağa tay deyil.

Ərsəyə yetirdiyimiz bu nəşrin daha mükəmməl variantını hazırlamaq üçün ələsgərsevərlərin dəyərli tövsiyə-

lərini, məmnuniyyətlə, nəzərə almağa çalışacağıq. Dədə Ələsgərin bütün Qafqazboyu səpilmiş söz incilərini arayaq, axtaraq və ən başlıcası, ondan mənəvi-ruhi yaralarımıza məlhəm qoyaq.

# KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz**
Nəsiminin həyatı: yanlışlıqlar və gerçəkliklər...........3
Nəsimi "Ənəl-Həqq"inin həqiqəti.............................9
Novruz fəlsəfəsi.....................................................14
Novruz dəyərləri və islam.......................................22
Y.A.Komenskinin dini-əxlaqi görüşlərinə dair........25
Həsən bəy Zərdabinin dini-fəlsəfi görüşləri.............38
Lomonosov elm və dinin vəhdəti haqqında.............48
Elmlə dinimizin vəhdətinə dair...............................51
Ruh fəlsəfəsi..........................................................53
Yuxugörmə ruhun varlığına dəlildir.........................59
Ölümün fəlsəfəsi....................................................64
Bizim neçə ruhumuz var?........................................72
Beyin proqramı ruhdan alır.....................................76
Adımız insan, mahiyyətimiz insanlıqdır..................81
Qoca Şərqin Nərimanı.............................................86
Çingiz Aytmatov – əbədi həqiqətin səsi...................95
Məmməd Arazın dünya fəlsəfəsi...........................101
"Qüdrətdən doğan nur": fəlsəfi təhlil.....................107
Qida fəlsəfəsi........................................................116
Kosmoloji düşüncələr............................................119
Zaman haqqında düşüncələr..................................123
İmam Hüseynin (ə.) bəşərə eşq dərsi.....................126
Məktəb və məscid..................................................131
Allahın və ağlın hökmü, fitrətin tələbiylə.............139
Vicdan həqiqəti.....................................................147
Orucun hikməti.....................................................150
Qəzəb hissinin tərbiyəsi........................................154
"Dostun evi könüllərdir"........................................158

Xolodinamika və mənəviyyat..............................164
Orta hədd qızıl həddir və ya hisslərin tərbiyəsi......169
Yer canlıdır.........................................................171
Genetik kodu dəyişən söyüş.................................175
Helm....................................................................178
Ən yaxşı libas – həya libasıdır..............................181
Həya – üzün suyu................................................184
Pis vərdişlərin təsiri.............................................188
“Ədəb ağlın surətidir”..........................................190
Dinimizin buyruqları elmin gözü ilə.....................193
İnancımız, əxlaqımız............................................197
İnancımız – mənəvi çırağımız...............................200
Ana bətnində tərbiyəyə dair..................................208
Pedaqogika və numerologiya................................212
Mütəfəkkirlərin bəsirəti........................................218
Könüllər ziyarətçisi...............................................224
Avropada bir kabus dolaşır:
həmcinsbazlıq kabusu..........................................229
Tarix ibrət güzgüsüdür..........................................235
Zamanın ibrətli gedişi...........................................238
Fikir haqqında fikir...............................................245
Özünü tanımamaq faciələrin köküdür..................256
Etibar Elkin ilk cığıraçanımız olub.......................267
Rəbbimiz bizim dildə danışır...............................272
“Quran”ın ruhu batinindədir və ya namazı hansı dildə qılaq?.........................................................................276
“Nobel”dən böyük Lütfi Zadə..............................280
“Altı min altı yüz ayə məndədi”...........................283
Aşıq Ələsgərin əxlaqi görüşlərinə dair..................286
Dədə Ələsgərin halallıq dərsi...............................293

Müqəddəs poeziya dərsləri....................................299
**Kitabın içindəkilər**..............................................322